AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ
STATE TOURISM AGENCY OF THE REPUBLIC OF AZERBAIJAN

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ
AZERBAIJAN TOURISM AND MANAGEMENT UNIVERSITY

"İDARƏETMƏDƏ MULTİKULTURAL DƏYƏRLƏR"

mövzusunda

Beynəlxalq elmi konfransın

MATERİALLARI

PROCEEDINGS

of the International Scientific Conference on

"MULTICULTURAL VALUES IN MANAGEMENT"

26 May 2023 Bakı / May 26, 2023 Baku

“İdarəetmədə multikultural dəyərlər” mövzusunda beynəlxalq elmi konfransın materialları / Proceedings of the International Scientific Conference on "**Multicultural Values in Management".** – Bakı: Mütərcim, 2023. – 228 səh.

ISBN: 978-9952-28-687-8

© ATMU, 2023

TƏŞKİLAT KOMİTƏSİ

Sədr:
1. İlham Mədətov – Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

Sədr müavinləri:
1. İranə Əliyeva, p.ü.e.d., prof. – ATMU-nun Elm və inkişaf məsələləri üzrə prorektoru;
2. Zaur Bağırov, f.ü.e.d.,prof. – ATMU-nun Tədris işləri üzrə prorektoru

Üzvlər:
1. Nəsirulla Nəsirli, f-r.e.n., dos. – Elm və innovasiya şöbəsinin müdiri;
2. Bahadur Bilalov, t.e.n., dos. – Turizm və qonaqpərvərlik fakültəsinin dekanı;
3. Kənan Allahverdiyev, f.e.n., dos. – Sosial menecment fakültəsinin dekanı;
4. Vüqar Nəzərov i.ü.f.d.,dos. – Biznes idarəçiliyi fakültəsinin dekanı

Redaksiya heyəti:
1. Novruz Quliyev, p.e.d., dos. – Mehmanxana və restoran biznesi kaderasının müdiri;
2. Hafiz Hüseynov, f.e.n., dos. – Turizm biznesi kafedrasının müdiri;
3. Günay Qafarova, s.ü.f.d., dos. – İctimai fənlər kafedrasının müdiri səlahiyyətlərini icra edən;
4. Cənnətxan Eyvazov, s.e.ü.f.d.,dos.– Beynəlxalq münasibətlər kafedraının müdiri;
5. Camal Hacıyev, i.ü.f.d., dos. – Menecment kafedrasının müdiri səlahiyyətlərini icra edən;
6. Səkinə Hacıueva, i.ü.f.d., dos. –İqtisadiyyat kafedrasının müdiri
7. Azad Məmmədov, fil.ü.e.d., prof. – İngilis dili kafedrasının professoru;
8. Minaxanım Əsədova, t.ü.e.d.,dos. – İctimai fənlər kafedrasının professoru;
9. Rəna Sultanova, i.ü.e.d., prof. – İqtisadiyyat kafedrasının professoru;
10. Məhərrəm Zülfüqarlı, t.ü.e.d., prof. – İctimai fənlər kafedrasının professoru;
11. Alberto Romero–Ania (İspaniya) – i.ü.e.d., prof-İMC Krems Tətbiqi Elmlər Universitetinin müəllimi;
12. Vladimir Şalayev (Rusiya) – prof**., –** Povoljsk Dövlət Texnologiya Universitetinin "Sosial texnologiyalar" fakültəsinin dekanı;
13. Elmira Faizova (Qazağıstan) – i.ü.f.d., – M.X.Dulati adına Taraz Dövlət Universitetinin dosenti.

ORGANIZING COMMITTEE

Chairman:

1. Ilham Madatov, Ph.D., Assoc.Prof. – Rector of the Azerbaijan Tourism and Management University.

Vice-Chairmen:

1. Irana Aliyeva, Sc.D., Prof. – Vice-Rector for Science and Development, ATMU;
2. Zaur Bagirov, Sc.D., Prof. – Vice-Rector for Academic Affairs, ATMU.

Members:

1. Nasirulla Nasirli, Ph.D., Assoc.Prof. – Head of the Science and Innovation Department, ATMU;
2. Bahadur Bilalov, Ph.D., Assoc.Prof. – Dean of the Faculty of Tourism and Hospitality ;
3. Kanan Allahverdiyev, Ph.D., Assoc.Prof. – Dean of the Faculty of Social Management;
4. Vugar Nazarov, Ph.D., Assoc.Prof. – Dean of the Faculty of Business Administration.

Editorial commitee:

1. Novruz Guliyev, Ph.D., Assoc.Prof. – Head of Hotel and Restaurant Business Department;
2. Hafiz Huseynov, Ph.D., Assoc.Prof. – Head of the Department of Tourism Business;
3. Gunay Gafarova, Ph.D., Assoc.Prof. – Acting Head of the Department of Social Sciences;
4. Jannatkhan Eyvazov, Ph.D., Assoc.Prof. – Head of the Department of İnternational Relations;
5. Jamal Hajiyev, Ph.D., Assoc.Prof. – Acting Head of the Department of Management;
6. Sakina Hajiyeva, Ph.D., Assoc.Prof. – Head of the Department of Economics
7. Azad Mammadov, Sc.D., Prof. at the English Language Department;
8. Minakhanim Asadova, Sc.D., Assoc.Prof. at the Department of Social Sciences;
9. Rena Sultanova, Sc.D., Prof. at the Department of Economics;
10. Maharram Zulfugarli, Sc.D., Assoc.Prof. at the Department of Social Sciences;
11. Alberto Romero – Ania , Prof. Dr., IMC Krems University of Applied Sciences, Spain;
12. Vladimir Shalayev , Sc.D., Prof., **Volga State University of Technology, Russian Federation;**
13. Elmira Faizova , Prof. Dr., M. Kh. Dulaty Taraz State University, Kazakhstan.

MÜNDƏRİCAT/CONTENTS

PLENAR İCLAS/PLENARY SESSION

İlham MƏDƏTOV
AÇILIŞ NİTQİ /WELCOME SPEECH…….....9

Nəsirulla NƏSİRLİ
AZƏRBAYCANDA MÜASİR ALİ TƏHSİLİN PROBLEMLƏRİ.....10

BÖLMƏ 1/SECTION 1
HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İDARƏÇİLİK İRSİ/
HAYDER ALIYEV AND ADMINISTRATIVE LEGACY IN AZERBAIJAN

Minaxanım ƏSƏDOVA
TƏHSİLİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU.....14

Aytən ƏLİZADƏ
HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İNTİBAH DÖVRÜNÜ YAŞAYAN MULTİKULTURAL DƏYƏRLƏR.....18

Razim MƏMMƏDOV
HEYDƏR ƏLİYEV VƏ DÜNYA AZƏRBAYCANLILARI.....22

Fatma QƏNİYEVA
HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK SİYASƏTİ VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI.....27

Vüsalə MƏMMƏDZADƏ
HEYDƏR ƏLİYEVİN MƏDƏNİYYƏT SİYASƏTİ.....30

İmmi HÜSEYNOVA
AZƏRBAYCAN TƏHSİL STRATEGİYASININ HAZIRLANMASINDA
HEYDƏR ƏLİYEVİN ROLU.....34

Zümrüd İMANOVA
ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINA DƏSTƏYİ.....40

Mehriban ALLAHQULUYEVA
ANA DİLİMİZİN İNKİŞAFINDA TARİXİ ŞƏXSİYYƏTLƏRİN ROLU.....44

İlkin MƏMMƏDLİ
DÖVLƏT SİYASƏTİNDƏ İDARƏETMƏNİN YERİ VƏ ROLU.....49

Qüdrət UMUDOV
HEYDƏR ƏLİYEV ÖLMƏZ SÖZ SƏNƏTKARLARI – NİZAMİ, NƏSİMİ
VƏ FÜZULİ HAQQINDA.....55

Yeganə QASIMOVA
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ XALQ YAZIÇISI
İLYAS ƏFƏNDİYEV YARADICILIĞI.....60

Çingiz ƏLİYEV, Cavid MƏMMƏDOV
ELM – TƏCRÜBƏLƏRİN NƏZƏRİ İNKİŞAFININ HƏRƏKƏTVERİCİ QÜVVƏSİ KİMİ.....64

Ülkər SADIQOVA, Günay İLDIRIMLI
AZƏRBAYCANDA REGİONLARIN İNKİŞAFINDA TURİZM TƏŞKİLATLARININ ROLU.....67

BÖLMƏ 2/SECTION 2
BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN İDARƏ EDİLMƏSİNDƏ MİLLİ DƏYƏRLƏRİN ROLU/
THE ROLE OF NATIONAL VALUES IN THE MANAGEMENT
OF INTERNATIONAL RELATIONS

Məhərrəm ZÜLFÜQARLI
SOVET RƏHBƏRLİYİNİN QƏRƏZLİ SİYASƏTİNƏ QARŞI HEYDƏR ƏLİYEVİN MÜBARİZƏSİ (1985-1991-ci İLLƏR) 74

Murad NİFTALİZADƏ
TURİZMİN MƏDƏNİYYƏTLƏRARASI KOMMUNİKASİYADA ROLU VƏ ƏHƏMİYYƏTİNİN İQTİSADİ TƏSİRLƏRİ.....78

Orxan MUSA
AZƏRBAYCAN VƏ İTALİYA RESPUBLİKALARI ARASINDA İQTİSADİ ƏLAQƏLƏR: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR.....82

Nilgün NƏCƏFOVA
BORU KƏMƏR VƏ NƏQLİYYAT DƏHLİZLƏRİNİN AZƏRBAYCANIN DAYANIQLI İQTİSADİ İNKİŞAFINDA ROLU.....84

Səbinə BABAYEVA
MUZEY SƏRGİLƏRİNİN İDARƏ EDİLMƏSİNƏ YENİ YANAŞMALAR.....89

Rəqsanə HACIYEVA
ERMƏNİ İŞĞALI DÖVRÜNDƏ AZIX ABİDƏSİNİN VƏZİYYƏTİ.....94

Ramilə EL-OĞLU
AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ MƏDƏNİ TURİZM POTENSİALI.....98

Ləman NAĞIYEVA
AZƏRBAYCAN RESPUBLİKASINDA GƏLMƏ TURİZM İNKİŞAFINDA ANTROPOGEN REKREASİYA TURİZM EHTİYYATLARI.....102

Rövşən ABBASZADƏ
LAÇININ QAFQAZ ALBANİYASI DÖVRÜNƏ AİD MEMARLIQ ABİDƏLƏRİ.....107

BÖLMƏ 3/SECTION 3
SOSİAL VƏ XİDMƏT SAHƏLƏRİNİN İDARƏ EDİLMƏSİ.
TURİZM SƏNAYESİNİN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ /
MANAGEMENT OF SOCIAL AND SERVICE AREAS. CURRENT SITUATION
AND DEVELOPMENT PERSPECTIVES OF THE TOURISM INDUSTRY

Hafiz HÜSEYNOV
İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI DÖVRÜNDƏ GƏNCLƏRİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASI.....112

Vilayət İSMAYILOV, Teymur KƏRİMOV
İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZM RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.....118

Hikmət HƏSƏNOV
TƏDBİR TURİZMİNİN AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN TURİZM OBYEKTLƏRİNƏ TƏSİRİ.....123

Cavid ƏLİYEV
REGİONAL İQTİSADİ RAYONLARDA TURİZM SAHİBKARLIĞININ
İNKİŞAF PERSPEKTİVLƏRİ.....127

Tərlan NÖVRƏSLİ, Vəfa CAVADOVA
REKREASİYA ƏRAZİLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ TURANİMASİYA
FƏALİYYƏTİNİN ZƏRURİLİYİ.....134

Hacı QASIMLI
TURİZM SAHƏSİ ÜZRƏ SƏNƏD İNFORMASİYA RESURSLARININ TİPOLOGİYASI.....139

Ühəyna VALEHZADƏ, Səbinə CUMAZADƏ
YENİ İNFORMASİYA TEXNOLOGİYALARININ VƏ İNNOVASİYALARIN TURİZM İŞİNİN
TƏŞKİLİNDƏ ROLU.....144

Gülnar SƏMƏDOVA
AZƏRBAYCAN RESPUBLİKASINDA GÜNƏŞLİ GÜNLƏRİN SAĞLAMLIQ TURİZMİNİN
İNKİŞAFINA TƏSİRİ.....151

Həbib MAHMUDOV
SOSİAL MARKETİNQ PROBLEMLƏRİ.....156

Həmid CAHEDİ KORABBASLU
AZƏRBAYCANIN TURİZM MÜƏSSİSƏLƏRİNDƏ İNNOVATİV MARKETİNQ METODLARI....162

Nigar BABAYEVA
ŞAHDAĞ MİLLİ PARKININ İDARƏ OLUNMASI PROBLEMLƏRİ
VƏ ONLARIN HƏLLİ YOLLARI.....169

Zəminə ƏKBƏROVA
AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM SEKTORUNDA KİÇİK SAHİBKARLIĞIN
FƏALİYYƏTİNDƏ YARANAN PROBLEMLƏRİN TƏHLİLİ.....177

Viktoriya QƏRİBOVA BAĞIRLI
AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL XİDMƏTLƏR SAHƏSİNDƏ ÇATIŞMAZLIQLAR
VƏ ONLARIN HƏLLİ YOLLARI.....183

Mehrəngiz MURADPUR
HAVA NƏQLİYYATININ ƏTRAF MÜHİTƏ TƏSİRİ.....187

Cavid HÜSEYNOV
MÜASİR DÖVRDƏ İNVESTİSİYA LAYİHƏLƏRİNİN İDARƏ EDİLMƏSİNƏ
ELMİ-KONSEPTUAL YANAŞMA.....191

Əmanət ABBASLI
QARABAĞ İQTİSADİ RAYONUNUN REKREASİYA FƏALİYYƏTİNDƏ
DÖVLƏT STRATEGİYASI – 2020-2022.....196

Fazil SEYİDLİ
TƏDRİS PROSESİNDƏ MÜASİR ELEKTRON TƏHSİL
TEXNOLOGİYALARINDAN İSTİFADƏ.....201

Şahnaz BAXIŞOVA
AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAF MEYLLƏRİNİN
QIYMƏTLƏNDİRİLMƏSİ.....206

Tural RZAYEV
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİN FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNDƏ 12-13 YAŞLI ŞAGİRDLƏRİNİN FİZİKİ İNKİŞAF DİNAMİKASININ GÖSTƏRİCİLƏRİ.....211

Ülviyə CÜMŞÜDLÜ
DÜNYADA SOSİAL İNKİŞAFA MANE OLAN QLOBAL ÇƏTİNLİKLƏR……..……..214

Seyidəli AĞAYEV
İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZM SEKTORUNUN İNKİŞAF MEYLLƏRİNİN TƏHLİLİ.....220

Aynur BAĞIRLI
SÜNİ İNTELLEKTİN KEYS MENECMENTƏ TƏTBİQİ.....224

PLENAR İCLAS/ PLENARY SESSION

AÇILIŞ NİTQİ /WELCOME SPEECH

Hörmətli konfrans iştirakçıları!

"İdarəetmədə multikultural dəyərlər" mövzusunda keçirilən doktorant, dissertant və müstəqil tədqiqatçıların VI Beynəlxalq Elmi-Praktik Konfransında səmimi qəlbdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkədir. Ölkəmizdə ayrı-ayrı etiqad və inanclara malik etnosların min illərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanmasında Azərbaycan xalqına xas olan humanizm və çoxmillətlilik dəyərlərin müstəsna rolu vardır. Özünəməxsus milli və yüksək humanist ənənələrə malik olan Azərbaycan həm də multikulturalizm prinsiplərini dünyada yayan nadir ölkələrdəndir. Ölkəmizdə bu sahədə bərqərar olan münasibətlər təsdiq edir ki, multikulturalizm xalqımızın tarix boyu formalaşan milli keyfiyyətidir və bütün dövrlərdə cəmiyyətin yaşam tərzi olub. Bu gün isə reallıq odur ki, artıq multikulturalizmin Azərbaycan modeli formalaşıb və bu, mükəmməl örnək kimi ölkəmizdəki çoxsaylı fərqli etnik qrupların sülh şəraitində yaşamasına, bərabərhüquqlu fəaliyyətinə tam zəmin yaradır.

Azərbaycan artıq dünyada idarəetmə, multikulturalizm, sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilir. Xalqımızın sahib olduğu multikultural dəyərlərin dünyaya təqdim edilməsində Heydər Əliyev Fondunun böyük əməyini də xüsusi qeyd etməliyik. Multikulturalizm və tolerantlıq məsələləri Heydər Əliyev Fondunun fəaliyyətində başlıca yer tutmaqla yanaşı, həm də artıq Azərbaycan hüdudlarını aşır və Vatikandan Asiyaya, Şərqdən Afrikayadək böyük bir coğrafi arealı əhatə edir. Heydər Əliyev Fondu fəaliyyəti ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına, ölkəmizdə formalaşmış mükəmməl ənənəyə töhfələrini verməkdədir.

Prezident İlham Əliyevin "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında" 11 yanvar 2016-cı il tarixli sərəncamı da göstərir ki, multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Bu məqsədlə il ərzində çoxsaylı beynəlxalq və yerli əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Konfransın keçirilməsində əsas məqsəd multikultural dəyərlər istiqamətində aparılan tədqiqat işləri çərçivəsində idarəetmənin mükəmməl modelinə nail olmaq, elmi tədqiqatların tətbiqi mexanizmini hazırlamaq, müxtəlif sahələrin idarə edilməsinin əsas mexanizmlərinin dövlətçiliyin inkişafına xidmət üsullarını müəyyənləşdirməkdir.

Konfrans "Heydər Əliyev və Azərbaycanda idarəçilik irsi", "Dövlət siyasətində idarəetmənin yeri və rolu", "Beynəlxalq münasibətlərin idarə edilməsində milli dəyərlərin rolu", "Sosial və xidmət sahələrinin idarə edilməsində mövcud problemlər və onların həlli yolları","Korporativ idarəetmə və biznesin idarə edilməsi", "İdarəetmədə hüquq problemləri" adlı bölmələr üzrə dinləmələr həyata keçirərək, işini davam etdirəcəkdir.

Əminəm ki, bugünkü konfrans "İdarəetmədə multikultural dəyərlər" istiqamətində qarşıya qoyulan bir sıra məsələlərin uğurlu həllinə müsbət təsir göstərəcək.

Diqqətinizə görə təşəkkür edirəm!

İlham MƏDƏTOV
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

Nəsirulla NƏSİRLİ
Azərbaycan Turizm və Menecment Universiteti
fizika-riyaziyyat elmləri namizədi, dosent
n.nasirli@atmu.edu.az

AZƏRBAYCANDA MÜASİR ALİ TƏHSİLİN PROBLEMLƏRİ

PROBLEMS OF MODERN HIGHER EDUCATION IN AZERBAIJAN

ПРОБЛЕМЫ СОВРЕМЕННОГО ВЫСШЕГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

Xülasə. Təhsil, hər bir dövlətin strateji əhəmiyyətli fəaliyyət sahəsi olmaqla həmin dövlətin siyasi, iqtisadi, sosial və mədəni inkişafını müəyyən edir, yeni qurulmuş cəmiyyətin mənəvi dəyərlərini formalaşdırır. Ona görə də, hər bir suveren dövlət təhsilin inkişafına xüsusi diqqət yetirir. Təkzibolunmaz həqiqətdir ki, günümüzdə ən zəruri faktor olan müasir təhsil yeni formalaşan cəmiyyətin ayrılmaz bir sahəsidir. Müstəqillik qazandıqdan sonra yeni cəmiyyət quruculuğunun sivilizasiyalı, demokratik modellərin axtarışı prosesində, təhsil sisteminin yeniləşməsində dünya təcrübəsinə inteqrasiya geniş miqyas almışdır. Müstəqillik qazandıqdan sonra qısa bir müddət ərzində müstəqil ölkəmizin yüksək nailiyyətlər əldə etməsi, beynəlxalq miqyasda əhəmiyyətli təşəbbüslərlə çıxış edən demokratik dövlət kimi tanınması, gündən-günə əhalinin maddi rifahının yüksəlməsi və sair qarşıya qoyulan zəruri məsələlər Azərbaycan Respublikasının tərəqqi indikatorları qismində çıxış edir. Əlbəttə ki, ümumi inkişaf prosesi ölkənin ali və ümumtəhsil sistemində də özünü göstərir. Bu sahədə həyata keçirilən zəruri tədbirlər, atılan uğurlu addımlar, ölkə Prezidentləri tərəfindən imzalanan Sərəncam və fərmanlar müasir təhsilin də keyfiyyətinin yüksəlməsinə istiqamətlənmişdir. Təbii ki, təhsil sahəsi çoxpilləli və çoxşaxəli olduğundan biz mövcud, həlli mümkün olan və diqqətdən kənarda qalan təhsil problemləri və onların aradan qaldırlması yollarını maraqlı tərəflərin diqqətinə çatdıracağıq.

Açar sözlər: təhsil, ali təhsil, ali təhsil müəssisəsi, ixtisas, müasir təhsil, təhsil sahəsi, tədqiqat.

Abstract: Education, being a strategically important field of activity of every state, determines the political, economic, social and cultural development of that state and forms the moral values of the newly established society. Therefore, every sovereign state pays special attention to the development of education. It is an undeniable fact that modern education, which is the most necessary factor today, is an integral part of the emerging society. After gaining independence, in the process of searching for civilized, democratic models of building a new society, the integration of the world experience in the renewal of the education system has gained a large scale. After gaining independence, our independent country's high achievements in a short period of time, its recognition as a democratic state that takes important initiatives on the international scale, the improvement of the material well-being of the population day by day, and other necessary issues are the indicators of the progress of the Republic of Azerbaijan. Of course, the general development process also manifests itself in the higher and general education system of the country. Necessary measures implemented in this field, successful steps taken, orders and decrees signed by the Presidents of the country are aimed at improving the quality of modern education. Of course, since the field of education is multi-level and multi-faceted, we will bring to the attention of interested parties the existing, solvable and neglected educational problems and ways of their elimination.

Keywords: Education, higher education, higher education institution, specialty, modern education, field of study, research.

Абстракт: Образование, являясь стратегически важной сферой деятельности каждого государства, определяет его политическое, экономическое, социальное и культурное развитие, а также формирует нравственные ценности вновь созданного общества. Поэтому каждое суверенное государство уделяет особое внимание развитию образования. Неоспоримым фактом является то, что современное образование является неотъемлемой частью развивающегося общества. После обретения независимости, в процессе поиска цивилизованных, демократических моделей построения нового общества, интеграция мирового

опыта обновления системы образования приобрела большой масштаб. Высокие достижения нашей независимой страны за короткий период времени, признание ее как демократического государства, выступающего с важными инициативами в международном масштабе, улучшение материального благосостояния населения день ото дня являются показателями прогресса Азербайджанской Республики. Конечно, общий процесс развития проявляется и в системе высшего и общего образования страны. Реализуемые в этой сфере необходимые меры, предпринятые успешные шаги, подписанные Президентом страны указы направлены на повышение качества современного образования. Поскольку сфера образования многоуровневая и многогранная, мы будем доводить до сведения заинтересованных сторон существующие проблемы в сфере высшего образования, а также пути их устранения.

Ключевые слова: образование, высшее образование, высшее учебное заведение, специальность, современное образование, область обучения, научные исследования.

Müqstəqill Azərbaycan dövləti fəaliyyətinin hər dönəmində təhsillə bağlı qəbul etdiyi qanun və sərəncamların çoxluğu bu sahənin üstün istiqamət daşıdığından xəbər verir. Müasirləşdirmə ilk növbədə qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkə həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət respublikada insan kapitalının inkişafı, şəxsin yeni bilik və bacarıqlara yiyələnməsinin təminatıdır.

Müasir dövrdə təhsil :

- cəmiyyətin inkişafının hərəkətverici qüvvəsidir;
- məntiqi, tənqidi və yaradıcı düşünmək bacarıqlarını, yüksək intellektual səviyyə və praktiki iş qabiliyyətini formalaşdırır;
- cəmiyyətin yüksək səviyyəli və rəqabət qabiliyyətli kadr potensialına tələbatının ödənilməsi üçün real zəmin yaradır;
- yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarıqlarını formalaşdırır;
- dövlət qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirir;
- insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirir;
- milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, Azərbaycançılıq təşəbbüsləri və yeniliklərini qiymətləndirməyi bacaran, kadrlar yetişdirir;
- müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlayır;
- xalqın ümidli gələcək sferasını yaradır;
- yoxsulluğu aradan qaldırır və xalqın rifah halını yaxşılaşdırır;
- hüquqi cəmiyyətin qurulmasında əvəzsiz rol oynayır;
- vətəndaşı cəmiyyətdə ən məhsuldar təfəkkürlü qüvvəyə çevirir;
- fərdin və ya kollektivin ümumi inkişafını təmin edir;
- insan kapitalını formalaşdırır və s. [1].

"Əvvəllər həm təhsil proqramlarını, həm də dövlət standartlarını Nazirlər Kabineti təsdiq edirdi. 3 iyun 2010-cu ildə Nazirlər Kabinetinin 103 saylı qərarı ilə ümumtəhsil haqqında dövlət standartları və təhsil proqramları təsdiq olundu. 2020-ci ilin 29 sentyabrda Nazirlər Kabinetini 361 saylı qərarı ilə ümumtəhsil dövlət standartları təsdiq olundu. Hər bir təhsil pilləsi üzrə təhsil proqramları qəbul olunduqdan sonra, 2017-ci ildə məktəbəqədər, 2018-ci ildə peşə təhsili, 2019-cu ildə ümumtəhsil haqqında proqramlar təsdiq olunduqdan sonra artıq proqramları Təhsil Nazirliyi, dövlət standartlarını isə Nazirlər Kabineti qəbul edir. 2020-ci ildə ümumtəhsil üzrə dövlət standartları qəbul edildikdən sonra təhsil proqramları qəbul edilməyib. Amma yeni dövlət standartları qəbul edilirsə, ona uyğun olaraq hökmən yeni təhsil proqramları da qəbul edilməlidir. Yəni hazırda təhsil yeni proqramlar olmadan, köhnəsi ilə həyata keçirilir ki, bu da doğru deyil" [3]. Proqramların məzmununa gəlincə, tələbənin materialı mənimsəmə yükünün öhdəsindən uğurla gəlməsi üçün fənlərin ümumi sayına daha yaxından nəzər salmağa dəyər.

Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında ali təhsilin rolu heç vaxt indiki qədər aktual olmayıb. Bütün ölkələrdə olduğu kimi Azərbaycanda da insan kapitalının formalaşmasında ali təhsilin rolu danılmazdır. Hazırda 56 (13-ü qeyri-dövlət) ali təhsili müəssisələri mövcuddur.

Ümumiyətlə Azərbaycanın ali təhsil məkanında olan problemlər aşağıdakı kimi şərh etmək olar:

İnfrastruktur problemləri. Bir neçə ali təhsil müəssisəsini çıxmaqla, qalan ali təhsil müəssisələrinin infrastrukturu müasir tələblərə cavab vermir.

Bolonya prosesi. Ölkəmizdə ali təhsilin dünya təhsil sisteminə, xüsusən ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiya prosesini və Boloniya Bəyannaməsinin tələblərinin yerinə yetirilməsi sahəsində işləri sürətləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" 31 yanvar 2008-ci il tarixli Sərəncam imzalanıb. Həmin sərəncamın birinci bəndinə əsasən "2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" hazırlanıb və Nazirlər Kabineti tərəfindən təsdiq edilib. Dövlət Proqramının icrasını təmin etmək məqsədilə Təhsil Nazirliyi tərəfindən fəaliyyət planı hazırlanıb.

Yaxın tarixin təfərrüatlarına varmadan (doxsanıncı illər) yəqin ki, bir məsələdə razılaşa bilərik – köhnə ali təhsil sistemi artıq işləmir, yenisi isə hələ də öz doğulmasının ağrılı mərhələsini yaşayır. Bunlar isə həyatın tamamilə bütün sahələrinin: sosial, iqtisadi, siyasi sahələrin sürətli qloballaşması prosesində baş verir. Ölkədə bir vaxtlar sahəvi adlandırılan ali təhsilin həmin elementləri hazırda transformasiya prosesini keçir, sürətlə dəyişən ali təhsil aləmində öz yerini reallaşdırmağa çalışır. Azərbaycanda müasir ali təhsil sisteminin inkişaf vektorunu müəyyən edən əsas amillərdən biri, şübhəsiz ki, bizim Boloniya prosesində iştirakımızdır. Bununla belə, Azərbaycan uzun müddət ərzində Boloniya prosesinin prinsiplərinin tam miqyasda həyata keçirilməsi istiqamətində fəal addımlar atmadı, bunlar ilk növbədə: aydın diplomlara əlavələrin verilməsi ilə, şəffaf və müqayisə edilə bilən dərəcələr sistemindən istifadə; ali təhsilin üçpilləli sisteminin (bakalavr, magistratura, doktorantura) tətbiqi; tələbələrin mobilliyinin artırılması vasitəsi kimi kreditlərin (təhsil kreditlərinin) toplanması və köçürülməsi sisteminin tətbiqi; tələbələrin və müəllimlərin sərbəst hərəkəti üçün hərəkətliliyin stimullaşdırılması; müqayisə edilə bilən meyarların və metodologiyaların işlənib hazırlanması məqsədilə təhsildə keyfiyyətin təminatı sahəsində Avropa əməkdaşlığının inkişafı. Bütün bu fikirləri mənfi və dağıdıcı hesab etmək olduqca çətindir. Nəticədə prosesin ləngiməsi Azərbaycanın bütün sahələrdə ali təhsil sahəsində beynəlxalq mövqelərinin ciddi şəkildə zəifləməsinə, ali təhsil sisteminə inamın azalmasına və nəticədə xeyli sayda ali təhsilinin itirilməsinə səbəb oldu.

Təhsillə bağlı əsas problemlərdən biri indiki **proqramların effektiv olmamasıdır**. Ekspertlər iddia edirlər ki, təhsilin inkişaf etməməsində də əsas səbəb məhz hazırda istifadə olunan təhsil proqramının müasir dövrlə ayaqlaşmamasıdır [2]. Prezident İlham Əliyev də təhsil nazirini qəbul edərkən təhsildə islahatların dərinləşməsini xüsusi olaraq vurğulamışdı: "Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir".

Bununla belə, hazırkı məktəb məzunlarının imkanlarını vicdanla qiymətləndirsək (məktəb təhsilini nəzərə almaya bilmərik), onda əsas fənlər naminə fənlərin ümumi sayını azaltmaq, həm də onlara imkan yaratmaq ideyası var. Bəzi fənlərin seçimində çevik olmaq, o qədər də faciəli görünməyəcək. Boloniya prosesi, yəni kreditlər sistemi, dövlət və universitet tərəfindən müəyyən edilmiş zəruri minimum istisna olmaqla, tələbələrə öz yüklərini formalaşdırmağa imkan verir. Bu baxımdan, tələbənin konkret təlim nəticələrinin formalaşmasına yönəlmiş fənlər qruplarını ardıcıl şəkildə mənimsədiyi modul sisteminə tam keçid də bu gün prioritet məsələdir. Bu, peşəkar səriştələrin mənimsənilməsi kontekstində xüsusilə vacibdir.

Universitetlərin aradşırma-texnoloji inkişaf innovasiyası missiyaları aspektindən yanaşıldıqda görünür ki, inkişaf etməkdə olan ölkələrdə prioritet daha çox yaxşı təhsil verən universitetlər olduğu halda qlobal texnologiya-innovasiya yarışına qoşulan ölkələrdə daha çox universitetlərin araşdırma və innova-

siya nəticələrinə əhəmiyyət verilir. ABŞ və Birləşmiş Krallıq Universitetləri bu istiqamətdə lider mövqeləri olduqları halda avropa qitəsı ölkələrinin bu yarışda mövqelərini gücləndirmək üçün daha çox resurslar ayırdığını və yeni universitet modelləri yaratdıqlarını, başda Çin olmaqla Cənub-Şərqi Asiya Universitetlərinin isə son on ildə bu istiqamətdə əhəmiyyətli məsafə qət etdiklərini görmək mümkündür.

Müasir ali təhsili uzunmüddətli investisiya ilə müqayisə etmək olar. Təhsil müəssisəsinin düzgün seçilməsi və tələbənin bacarıqları karyeranın necə qurulacağından, maliyyə baxımından nə qədər uğurlu olacağından asılıdır. Valideynlər artıq ovladları orta məktəbdə təhsil alarkən belə bu məsələni düşünürlər.

Məşhur reytinq agentliyi hər il universitetlərin dünya reytinqini yaradır, burada 2018-ci ildən bu günədək lider Massaçusets Universitetidir. TOP-10-un demək olar ki, hamısı ABŞ universitetləridir. Amerika ali təhsili, onun tələbəyə verdiyi perspektivlər hər il on minlərlə xarici abituriyenti cəlb edir. Onların arasında xarici ölkələrin məzunları da az deyil. ABŞ təhsil sistemi nəinki prestijlidir, həm də məzuna sonda yaxşı işə düzəlmək üçün real imkanlar yaradır. Amerikada və Azərbaycanda təhsil abituriyentin daxil olduğu andan başlayaraq kökündən fərqli ssenarilər üzrə qurulur. Gələcək azərbaycan tələbəsi əvvəlcə fakültə və ixtisas seçir. 17 yaşlı yeniyetmə əslində heç bir həyat təcrübəsi olmadan öz peşə seçimini etməli olur. Çox vaxt abiturient yox valideynlər qərar verirlər. Nəticədə 3-4-cü kursa kimi tələbələrin əhəmiyyətli hissəsi başa düşür ki, onlar heç vaxt bu ixtisas üzrə işləməyəcəklər. ABŞ-da abituriyent təhsil müəssisəsini seçir. Məzun olduqdan sonra onun reytinqi və iş perspektivləri əhəmiyyətli olur. İlk 3 kurs tələbələrinə universitetin strukturu, fakültələri, istiqamətləri ilə tanış olmağa imkan verən ümumi fənlər tədris edilir. Sonra tələbələr əsas və əlavə ixtisas seçimi edirlər. Onlar müxtəlif bilik sahələrinə aid olan əsas və əlavə ixtisas seçə bilərlər. Nəticədə tələbə özünü daha yaxşı reallaşdıracağı sahələrdə bilik əldə edir [4].

ABŞ və Azərbaycanda tədris prosesinin qurulması da əsaslı şəkildə biri-birindən fərqlidir. Amerikalı tələbələr böyük həcmdə ev tapşırığı alırlar. Onlar semestr boyu oxuyur, praktiki və nəzəri işləri yerinə yetirirlər. Təlim blokunun sonunda sertifikatlaşdırma aparılır, lakin bunun üçün qiymətlər əsas deyil. Yekun qiymət təhsil zamanı bütün göstəricilərin məcmusundan formalaşır. Beləliklə, tələbə tam şəkildə təlim prosesində iştirak edir. Azərbaycanda tələbələrin hər semestrin sonunda imtahan və testlərdən keçrilməsi daha vacib hesab edilir.

Bu çatışmamazlıqları aradan qaldırmaq üçün ali təhsil müəssisələrinin muxtariyyat hüququnun tanınması başlıca şərtlərdən biridir. Kadr hazırlığı həyata keçirilən istiqamət və ixtisaslar üçün standartlar və təhsil proqramları dövlət sifarişinin və tələblərinin nəzərə alınması şərti ilə ali təhsil müəssisəsinin özü tərəfintən hazırlanmalıdır. Belə olduqda həm ali təhsil müəssisəsinin məsuliyyəti artır həm də eyni ixtisas üzrə kadr hazırlayan ali təhsil müəssisələri arasında müəyyən rəqabət formalaşır. İnkişafın mənbəyi isə rəqabətdir. Proses həm də ali təhsil müəssisəsini bu ixtisas və istiqamət üzrə mütəxəssis hazırlayan qabaqcıl xarici təhsil müəssisələri ilə ciddi əlaqələr qurmağa zərurət yaradar ki, bu da birgə elmi-tədqiqat işlərinin aparılmasına və tədris prosesinin müasirləşdirilməsinə öz təsirini göstərər.

Nəticədə, ali təhsil sisteminin rolunu qiymətləndirmək üçün bu təhlilin ilkin tezisi belə bir fikiri ifadə edir ki, heç bir ölkə yaxşı fəaliyyət göstərən ali təhsil sistemi və elmi təhsilin və tədqiqatın təşkili olmadan öz tərəqqisinin və mövcudluğunun sivil səviyyəsini, siyasi və iqtisadi müstəqilliyini təmin edə bilməz. Ali təhsil sahəsində qloballaşma və inteqrasiya proseslərinin aləti elmi biliyin milli xarakteridir. Elmi icmalar arasında ünsiyyətin səviyyəsi elədir ki, ayrı-ayrı ölkələrdə əldə edilən yeni biliklər, bu biliklər əsasında hazırlanmış yeni texnologiyalar bütün bəşəriyyətin mülkiyyətinə çevrilir və milli, dini və digər xüsusiyyətlərindən asılı olmayaraq dövlətlərin inkişaf prosesini surətləndirir.

Ədəbiyyat

1. https://e-qanun.az/framework/18343
2. https://www.dia.az/5/337765-azerbaycanin-budreyen-tehsl-sstem.html
3. https://www.dia.az/5/337765-azerbaycanin-budreyen-tehsl-sstem.html
4. https://study-america.org/bazaznaniy/vysshee-obrazovanie-perspektivy

BÖLMƏ 1/SECTION 1
HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İDARƏÇİLİK İRSİ/
HAYDER ALIYEV AND ADMINISTRATIVE LEGACY IN AZERBAIJAN

Minaxanım ƏSƏDOVA
Azərbaycan Turizm və Menecment Universiteti
tarix üzrə elmlər doktoru
minaxanim.asadli@mail.ru

TƏHSİLİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

THE ROLE OF HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF EDUCATION

РОЛЬ ГАЙДЕРА АЛИЕВА В РАЗВИТИИ ОБРАЗОВАНИЯ

Xülasə: Məqalə ümummilli lider Heydər Əliyevin təhsilin müxtəlif pillələrində olan inkişafındakı rolundan bəhs edir. Heydər Əliyevin təhsil sahəsində milli kadr hazırlığı siyasəti haqqında təhlillər aparılır. Ümummilli liderin xaricdə təhsil ənənəsinin müsbət nəticələri qeyd olunur. Heydər Əliyevin təhsil islahatları haqqında fəaliyyəti qeyd olunur, təhsildə milli ideologiyanın, vətənpərvərliyin daha da yüksəlişi məsələlərinə toxunulur.
Açar sözləri: Heydər Əliyev, təhsil islahatları, elm, mədəniyyət, Azərbaycan

Abstract: This paper deals with the role of National Leader Heydar Aliyev in the development of various stages of education. Analyses are conducted on Heydar Aliyev's policy of national personnel training in the field of education. Positive results of the tradition of studying abroad are mentioned. This paper also notes the activity of Heydar Aliyev regarding education reforms and touches upon issues of the further rise of national ideology and patriotism in education.
Keywords: Heydar Aliyev, education reforms, science, culture, Azerbaijan.

Абстракт: В статье говорится о роли общенационального лидера Гейдара Алиева в развитии образования на разных уровнях. Проводится анализ государственной политики Гейдара Алиева в области подготовки кадров в сфере образования. Отмечены положительные результаты традиции общенационального лидера обучения за рубежом. Отмечается деятельность Гейдара Алиева по реформированию образования, затрагиваются вопросы дальнейшего подъема национальной идеологии и патриотизма в образовании.
Ключевые слова: Гейдар Алиев, образовательные реформы, наука, культура, Азербайджан

Azərbaycanın müasir tarixində istər ilk xalq cümhuriyyət illərində, istərsə də dövlət müstəqilliyinin bərpasından sonra təhsilin inkişafı mədəniyyət siyasətinin prioritet sahələrindən olmuşdur. Ulu Öndər Heydər Əliyev təhsilin cəmiyyətin inkişafındakı rolundan danışarkən demişdir: "Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır."[6]

2002-ci il 4 oktyabr tarixində ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi dəyərləndirilir. Bu sərəncam ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin daha da yaxşılaşmasına, maddi-texniki bazasının möhkəmləndirilməsinə şərait yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəb-

lərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətə malik olmuşdur.

Müstəqillik illərində milli-mənəvi dəyərləri nəzərə alaraq müxtəlif fənlərə aid dərslik hazırlığı əsas götürülmüş, bu sahədə yeni üsullar tətbiq edilmişdir. I-XI siniflərdə istifadə edilən bir çox dərsliyin məzmun yenilənmişdir. Ümumi təhsil sahəsinin yeni modelə keçməsini ən vacib addımlardan biri kimi dəyərləndirmək lazımdır.

2016-cı ildə Prezidentin fərmanı ilə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyin yaradılması uğurlu addımlardandır. "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafı üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmiş və icrasına başlanmışdır.

Müstəqillik illərində Ümummilli Lider tərəfindən ali təhsilin inkişafı ilə əlaqədar vacib qərarlar qəbul edildi. 2000-ci ildə ali təhsil müəssisələri şəbəkələrinə universitet statusu verildi. 1993-1994-cü tədris ilindən ödənişli təhsil tətbiq edildi. Həmin dövrdə ödənişli təhsilin tətbiqi ali təhsil müəssisələrinin maliyyə imkanlarını xeyli yaxşılaşdırdı. 1997-ci ildə bakalavriat təhsilini başa vuran məzunlar ilk dəfə olaraq magistratura səviyyəsində təhsilə başladılar.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə ali təhsilin inkişafı əsas prioritetə çevrilmiş, insan kapitalının inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. Bu dövrdə ali təhsil müəssisələrinin şəbəkəsi daha da inkişaf etmişdir

Azərbaycanda ən müasir tələblərə cavab verən və milli brendə çevrilmiş ADA Universiteti, Bakı Ali Neft Məktəbi yaradılmışdır. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialları yaradılmışdır. Azərbaycan Respublikası vətəndaşlarına xaricə getmədən aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə Azərbaycan-Fransız Universiteti (UFAZ) fəaliyyətə başlamışdır. 2006-cı ildə Avstriyanın Krems Universiteti ilə tərəfdaş olan Azərbaycan Turizm Universiteti(İndi Azərbaycan Turizm və Menecment Universiteti yaradılmışdır. Son illərdə bir sıra ali təhsil müəssisələri üçün ən müasir kampuslar yaradılmış, bütün ali təhsil müəssisələrinin maddi-texniki və tədris bazası əhəmiyyətli şəkildə yenilənmişdir.

Ölkə Prezidentinin sərəncamlarına əsasən məcburi köçkün statusu olan, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, şəhid ailəsi statusu almış ailənin üzvləri, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, I və II dərəcə əlilliyi olan, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin təhsil haqqı xərcləri büdcə vəsaitləri hesabına ödənilir. Peşə təhsili müəssisələrində təhsil alan I, II və III qrup əlillər, şəhid ailəsinin üzvləri, 20 yaşına çatmamış və I qrup əlil valideyni olan, aylıq gəliri yaşayış minimumundan az olan şəxslər də təhsil haqqından azad edilmişdir.

Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı əsas xidmətlərindən biri də 1970-80-ci illərdə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın iqtisadiyyatı, elm, təhsil və mədəniyyətinin 80-dən çox sahəsini əhatə edən və ölkə üçün ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmasına şərait yaratmasıdır. 1969-1970-ci dərs ilində respublikadan kənara cəmi 47 nəfər təhsil almağa göndərilmişdisə, 1978-ci ildən etibarən respublikadan kənara hər il 800-900 tələbə göndərilməsinə nail olunmuş, 1980-ci illərin əvvəllərindən isə bu göstərici ildə 1000-1400 nəfərə çatmışdı. [3]

Heydər Əliyevin respublikfdan kənarda milli kadr hazırlığı sahəsində apardığı siyasətin mühüm istiqamətlərindən biri də milli hərbi kadrların hazırlanmasıdır. Ən əhəmiyyətli hadisələrindən biri kimi keçmiş SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin sistemli şəkildə göndəril-

məsidir. Heydər Əliyevin rəhbərliyi ilə 1972-ci ildən etibarən hər il yüzlərlə gənc keçmiş SSRİ-nin böyük təcrübəyə malik ali hərbi məktəblərinə göndərilirdi. Bununla yanaşı, Azərbaycanda orta və ali hərbi təhsil sisteminin yaradılması xüsusi əhəmiyyət kəsb edirdi. 1970-ci illərdə ümummilli liderin tələbi ilə Bakıda C.Naxçıvanski adına Hərbi Məktəb yaradıldı və hərbi məktəblər şəbəkəsinin sonrakı inkişafında vacib əhəmiyyət daşıdı. Bu gün müstəqil Azərbaycanın Milli Ordusuna rəhbərlik edən zabitlərin çoxu Heydər Əliyevin dəstəyi ilə o illərdə təhsil almağa göndərilən və ölkəmizin hərbi məktəblərini bitirən gənclərdir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş xaricdə təhsil ənənəsi uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. İnsan kapitalının inkişafına yönəlmiş həmin proqram çərçivəsində ümumilikdə 3558 nəfər Azərbaycan dünyanın 32 ölkəsinin 379 aparıcı universitetində təhsil almaq hüququ qazanmışdır. Həmin universitetlər dünyanın 500 ən güclü universiteti sırasındadır. [3]

Proqram çərçivəsində təhsil almış tələbələrin böyük əksəriyyəti məzun olmuş və ölkəmizə qayıtmışdır. Hazırda məzunların 60 faizi özəl, 40 faizi dövlət sektorlarında fəaliyyət göstərir. Proqram təqaüdçüləri ölkə iqtisadiyyatının müxtəlif sahələrində, ayrı-ayrı dövlət qurumlarında (nazir müavini, millət vəkili), beynəlxalq təşkilatlarda (BMT), transmilli şirkətlərdə ("Microsoft", "Google", "Bloomberg", "Samsung", "LG", "BP" və s.) və özəl sektorda töhfələrini verməkdədirlər.

Bu siyasətin davamı kimi "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Proqram ölkəmizdə ali təhsil sisteminin inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. Proqrфmda ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları və xarici mütəxəssislərin cəlb olunması yolu ilə təkmilləşdirilməsini və xaricdə doktorantura təhsili vasitəsilə universitetlərimizin akademik potensialının gücləndirilməsi nəzərdə tutulmuşdur.

Heydər Əliyevin 1982-1987-ci illərdə keçmiş SSRİ kimi böyük dövlətin təhsil siyasətinə, təhsil islahatlarına rəhbərlik etməsi bütün sovetlər birliyində, o cümlədən Azərbaycanda ümumilikdə təhsilin inkişafına, keyfiyyət dəyişikliklərinə gətirib çıxarmışdır. 1984-cü ildə keçmiş SSRİ-də ümumi təhsil və peşə təhsili üzrə islahatların əsas istiqamətlərinin təyin edilməsi və icrası mexanizminin hazırlanması, internat tipli müəssisələrin işinin yaxşılaşdırılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Həmin illərdə ümumi təhsilə 6 yaşdan başlanılması və müddətinin 11 illik olması təklifləri də Heydər Əliyevin təşəbbüsü idi. Heydər Əliyevin "İnsan təhsilin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır" – konseptual göstərişini əsas tutaraq ümumi orta təhsil sistemində də bu müddət ərzində ciddi irəliləyişlər əldə olunub.

Ümummilli liderin təklifi ilə 1998-ci ildə təhsil sahəsində islahat proqramının hazırlanması məqsədi ilə Dövlət Komissiyası yaradıldı, "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda təhsilin gələcək inkişaf yolu müəyyən olundu, mərhələlər üzrə təhsil sisteminin idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadi məsələlərində, kadr hazırlığı və təminatında əsaslı dəyişikliklərin aparılması nəzərdə tutulurdu. Proqramın həyata keçirilməsi prosesinə Dünya Bankı cəlb edildi, beynəlxalq təcrübə əsasında əsas istiqamətlər üzrə bir sıra islahatlar həyata keçirildi.

Prezident İlham Əliyev tərəfindən təhsil sahəsində islahatların davamlılığı təmin edildi. Onun təklifi ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" 2013-cü il oktyabrın 24-də təsdiq edildi. Strategiyanın əsas məqsədi ölkədə keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sisteminin yaradılması, təhsilin məzmununun, kadr hazırlığının, idarəetmə sisteminin, infrastrukturun və maliyyələşmənin qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulması və ölkənin davamlı inkişafının təmin edilməsidir.

Bu strategiyanın həyata keçirilməsi nəticəsində bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəriciləri yüksəlmiş, uşaq və gənclərin təhsilalma imkanlarının genişləndirilməsi, müasir idarəetmə

modellərinin tətbiqi, kadr potensialının sərişdə və kompetensiya baxımından gücləndirilməsi, ümumi təhsil müəssisələrinin kadrlarla təminatı, müəllim fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması, dərslik və dərs vəsaitlərinin hazırlanması, maddi-texniki və tədris bazasının müasirləşdirilməsi, təhsil qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilmişdir.

Azərbaycançılıq ideologiyasının və milli ruhun yüksəlişi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ən əhəmiyyətli nəticələrindən biri də xalqın tarixi yaddaşının özünə qaytarılması, vətənpərvərlik hisslərinin güclənməsi olmuşdur. Öz vətənini və xalqını son dərəcə böyük məhəbbətlə sevən, Azərbaycan dövləti və milləti üçün sonsuz qürur hissi keçirən Heydər Əliyev "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" söyləməklə, əslində, ölkəmizdə milli tərbiyə konsepsiyasını bəyan etmişdir. "Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir, biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməliyik" deməklə Heydər Əliyev "azərbaycançılığı" milli ideologiyanın əsası kimi müəyyənləşdirmişdir. Azərbaycanda müstəqilliyin ilk illərindən latın qrafikalı əlifbaya keçilməsi qərara alınsa da, bu proses Heydər Əliyevin səyləri nəticəsində 2001-ci il avqustun 1-də tam başa çatmış, təhsil sistemində latın qrafikalı əlifbaya tam keçid təmin edilmişdir. 2002-ci ildən hər il avqustun 1-i "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" bayram kimi qeyd edilir. Bu gün qüdrətli dövlət xadimi Heydər Əliyevin zəngin irsi, şərəfli həyat və fəaliyyəti gənc nəslin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması üçün ən dəyərli mənbədir.

Dövlət başçısı İlham Əliyevin fəaliyyətində də bu ana xətt uğurla inkişaf etdirilmişdir. 2013-cü ildə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" təsdiq edilmiş, 2018-ci ildə "Azərbaycan Dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman imzalanmışdır. Cənab Prezident vurğulamışdır: "...həm müəllimlər, həm valideynlər uşaqları vətənpərvərlik ruhunda tərbiyə etməlidirlər ki, onlar Vətənə bağlı olsunlar, milli ruhda böyüsünlər, milli dəyərlərimizi hər şeydən üstün tutsunlar. Ona görə mən həmişə deyirəm ki, milli dəyərlərimiz, mənəvi dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Biz onları qorumalıyıq, milli ruhumuzu saxlamalıyıq. Çünki bu, bizim gələcəyimiz üçün əsasdır".[7] Bununla da Prezident təhsil sistemi qarşısında duran əsas vəzifələri müəyyənləşdirərək azərbaycançılıq ideologiyasının təbliği, Azərbaycan dilinə, ədəbiyyatına, tarixinə, mədəniyyətinə məhəbbət hissinin, milli-mənəvi dəyərlərə hörmət hissinin aşılanması, vətənə sədaqət, vətəndaşlıq mövqeyinin formalaşdırılması, vətənpərvərlik tərbiyəsi məsələlərini önə çəkmişdir.

Ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Eyni zamanda, araşdırmalardan aydın olur ki, bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə - ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər. Bu Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addımladandaır

İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Prezident Heydər Əliyevin ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşüb, onlara "Prezident təqaüdü"nün verilməsi barədə qərarı dahi şəxsiyyətin təhsilə diqqətinin daha bir nümunəsidir.

Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında misilsiz xidmətləri unudulmazdır. İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, lakin Azərbaycan xalqının iftixarı olan Heydər Əliyevin uzaqgörən strategiyası uğurlu gələcəyə gedən yollarımızı əbədi məşəl kimi daim işıqlandırmaqda davam edəcək.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının mədəniyyət siyasəti. Bakı- 2000.
2. Azərbaycanda mədəniyyət siyasəti. Bakı-2003.
3. Qəndilov S. Heydər Əliyevin idarəçilik irsi dövlətin kadr hazırlığının əsas qayəsini təşkil edir Azərbaycan.- 2010.- 22 aprel.- S. 3.
4. Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı: "Bakı", 2001, 440 s.
5. Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. Bakı: "Bakı", 2001, 547s.
6. Ulu öndər Heydər Əliyev təhsil haqqında Azərbaycan müəllimi.- 2010.- 10 dekabr.- S.4.
7. https://president.az/az/articles/view/30563
8. https://525.az/news/181938-azerbaycan-tehsilinin-tereqqisini-temin-etmis-boyuk-lider

Aytən ƏLİZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti
müəllim
a.alizada@atmu.edu.az

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İNTİBAH DÖVRÜNÜ YAŞAYAN MULTİKULTURAL DƏYƏRLƏR

ГЕЙДАР АЛИЕВ И «МУЛЬТИКУЛЬТУРНЫЕ ЦЕННОСТИ», ПЕРЕЖИВАЮЩИЕ ПЕРИОД ВОЗРОЖДЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

HEYDAR ALIYEV AND "MULTICULTURAL VALUES" EXPERIENCING A RENAISSANCE PERIOD IN AZERBAIJAN

Xülasə: Müasir dövrdə dünya dövlətlərinin əksəriyyətində etnik, irqi, dini və mədəni müxtəlifliklər mövcuddur. Bu müxtəliflikər tarixi prosesin inkişafının nəticəsi kimi reallaşır. Müxtəliflikər xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə etməklə, onların dünyagörüşü və fəaliyyətlərinin əsasını təşkil edir və həyatında müsbət rol oynayır. Biz müxtəlif etnik, irqi, dini və mədəni qrupların nümayəndələrinin birgə yaşadıqları cəmiyyəti multikultural adlandırırıq. Buna görə də sözün əsl mənasında müasir dövrdə əksər dövlətlər multikulturaldır. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Birmənalı şəkildə qeyd etmək olar ki, Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Ümummilli liderin Azərbaycanda milli azlıqlarla bağlı siyasəti beynəlxalq qurumlar tərəfindən də hər zaman müsbət qarşılanıb.

Açar sözlər: Ulu öndər, multikultural dəyərlər, çoxmədəniyyətlilik ənənəsi, milli azlıqlar siyasəti.

Abstract: Nowadays, ethnic, racial, religious and cultural diversity exists in most countries of the world. These differences are realized as a result of the development of the historical process. Diversity characterizes the ethno-cultural values and cultures of nations, forms the basis of their worldview and activities, and plays a positive role in their lives. A multicultural society is a society in which representatives of different ethnic, racial, religious and cultural groups live together. Therefore, unambiguously, most of the states nowadays are multicultural. As a result of the political will of the national leader of our people Heydar Aliyev, Azerbaijan has restored its historical traditions of tolerance and multiculturalism at the legal and political level. Heydar Aliyev chose a clear ideological goal for the future successful development of

Azerbaijan and, with his far-sighted and wise policy, developed the tradition of multiculturalism that had been formed over the centuries and raised it to a qualitatively new level. It can be unambiguously noted that the Great Leader is the political founder of Azerbaijani multiculturalism. On the initiative and instruction of Heydar Aliyev, a legal basis was created for the preservation and development of literature, culture, language, history and traditions of national minorities. The policy of the national leader towards national minorities in Azerbaijan has always been positively perceived by international organizations.

Keywords: Great leader, multicultural values, tradition of multiculturalism, policy of national minorities.

Абстракт: В наше время этническое, расовое, религиозное и культурное разнообразие существует в большинстве стран мира. Эти различия реализуются в результате развития исторического процесса. Многообразия характеризуют этнокультурные ценности и культуры народов, составляют основу их мировоззрения и деятельности, играют положительную роль в их жизни. Поликультурным мы называем общество, в котором вместе проживают представители разных этнических, расовых, религиозных и культурных групп. Поэтому в самом широком смысле слова большинство государств Нового времени являются поликультурными. В результате политической воли общенационального лидера нашего народа Гейдара Алиева Азербайджан на правовом и политическом уровне восстановил свои исторические традиции толерантности и мультикультурализма. Гейдар Алиев избрал четкую идеологическую цель будущего успешного развития Азербайджана и своей дальновидной и мудрой политикой развил формировавшуюся веками традицию мультикультурализма и поднял ее на качественно новую ступень. Можно однозначно отметить, что Великий Вождь является политическим основоположником азербайджанского мультикультурализма. По инициативе и указанию Гейдара Алиева была создана правовая основа для сохранения и развития литературы, культуры, языка, истории и традиций национальных меньшинств. Политика общенационального лидера в отношении национальных меньшинств в Азербайджане всегда положительно воспринималась международными организациями.

Ключевые слова: Великий лидер, мультикультурные ценности, традиция мультикультурализма, политика национальных меньшинств.

Ümumbəşəri dəyərlər bütün dünyanın rifahı üçün sülh, əmin-amanlıq, qarşılıqlı hörmət şəraitində yaşaya bilən bir cəmiyyəti formalaşdırmaq uğrunda meydana gələn və daima dəyişən tarixi proseslərin sınağından keçərək varlığını qoruyan dəyərlərdir. Biz bu dəyərləri bəşəriyyət üçün yüksək əhəmiyyət kəsb edən ənənəvi mədəni dəyərlər hesab edə bilərik. Multikultural dəyərlər də onun bir hissəsi olub sivil cəmiyyət üçün əsas ünsürlərdən sayılır. Bugün "Multikulturalizm" ən çox rast gəlinən diskussiya mövzularından biridir. Bəs bu termin nə deməkdir və Azərbaycan üçün nə ifadə edir?

Multikulturalizm çoxmədəniyyətli cəmiyyətin təşkilinin elə bir mədəni və siyasi prinsipidir ki, burada müxtəlif mədəniyyətlərə, dinlərə, irqlərə mənsub insanlar mədəni özünəməxsusluqlarını qoruyub saxlaya və dinc yanaşı yaşaya bilərlər. Bəşəriyyətin çoxlu sayda ixtiraları kimi multikulturalizm də tarixi zərurətdən yaranmışdır. Məlum olduğu kimi "multikulturalizm" termini ilk dəfə olaraq XX əsrin 60-cı illərində Kanadada meydana gəlmişdir. Bu terminin meydana gəlməsi o dövrdə bikultural (ingilis-fransız) Kanada cəmiyyətini tənzimləmək və effektli şəkildə idarə etmək üçün yolların axtarılması gedişində yaranmış bir situasiya ilə bağlı idi. O dövrdə bu axtarışlar "Kvebek separatizmi" təhlükəsi altında diktə olunurdu. Kanada hökuməti bununla əlaqədar multikultural quruluşu idarəçilik siyasətinin əsas məqsədi kimi elan etmişdi. Bu fenomen 1971-ci ildə siyasi cəhətdən rəsmən tanınmışdı. Avstraliyada isə bu anlayış XX əsrin 70-ci illərinin əvvəllərindən daha geniş yayılmağa başlamışdı.

Qeyd etmək lazımdır ki, hətta inkişaf etmiş ən güclü dövlətlərin belə multikulturalizm siyasətini uğurlu şəkildə davam etdirmək iqtidarında olmadığı halların şahidi olmuşuq. Məsələn, XXI əsrin birinci onilliyinin sonunda Almaniya, Böyük Britaniya və Fransa rəhbərləri multikulturalizm siyasətinin iflasa uğradığını bəyan etdilər.

Öncə də ifadə edildiyi kimi multikulturalizm hər hansı təsadüfi və neqativ elementlərdən uzaq olan, tamamilə mütərəqqi, qanunauyğun, bir qayda olaraq, ümumbəşəri dəyərlərə söykənən təlimdir. Əgər biz nəzəri cəhətdən baxsaq onun əsas məqsədi bir tarixi məkanda yanaşı yaşayan bütün xalqların

ləyaqətli həyatını – hüquq və azadlıqlarını təmin etmək üçün elmi-praktiki baza yaratmaqdır. Yalnız təbii ki, multikulturalizm təkcə nəzəri deyil daha çox praktik təlim hesab edilə bilər. Daha geniş olaraq onu etnik azlıqların, dini icmaların fəaliyyəti və inkişafı üçün real sosial-iqtisadi şəraitin, tolerant və mədəni mühitin yaradılması praktikası kimi ifadə edə bilərik. Multikultural dəyərlər mərhəmət ilə alicənablığın ahəngindən yaranmış dəyərlər sistemi, bəşəriyyətin təhlükəsiz gələcəyini təmin etməyi üstlənən ən mütərəqqi fəaliyyət növüdür. Bu prinsiplərin kökündə əlbəttə insanpərvərlik dayanır.

Multikultural dəyərlərin tarixinə getsək Azərbaycan üçün nə qədər qədim dəyərlər olduğunu anlayarıq. Belə ki, qədim dünyanın ən fenomenal dini-idraki nailiyyətlərindən biri də zərdüştlük dinifəlsəfi təlimi hesab olunur. Akif Hacıyevin "Multikultural dəyərlər" dərsliyində belə deyilir: "Zərdüştlüyün yarandığı qədim dövrü (e.ə. IX-VII əsrlər), yarandığı yeri (Azərbaycan, İran, Mərkəzi Asiya), yazılı mənbələri ("Avesta"), dili (zəndi), ilkin olaraq 21 kitabdan (naska – kitab, bölmə) ibarət olması, bu gün yazılı şəkildə yalnız 5 kitabın (Yasna, Vispered, Videvdat, Yaşt, Kiçik Avesta) mövcud olması, kitabın ən qədim variantının "Qatlar" (nəğmələr – Zərdüştün dilindən tanrı Hörmüzdə ünvanlanmış 17 poetik himn) adlanması və onun Zərdüşt tərəfindən yazılması, "Avesta"nın orijinalının e.ə. 330-cu ildə Makedoniyalı İskəndər tərəfindən qədim Persepolda yandırılması haqqında mənbələrdə kifayət qədər məlumat var. Bugün bu təlimin insanları birliyə çağırması, onun parlaq şəkildə ifadə olunan əsl multikulturallığı, başqa ideyalara münasibətdə tolerantlığı, təriqətçiliyə və mədəni plüralizmə münasibətdə çox yüksək liberalizm ifadə etməsi müzakirə obyektidir. Hələ zərdüştlük ideyalarının təşəkkülünə qədər arilərin Hindistandan İrana köçməsi ilə əlaqədar iki qrup tanrılara (xeyir və şər) sitayiş meydana gəlmişdi. Arilərin oturaq həyata keçmələri ilə "İşıqlı tanrılara" (şərti olaraq onlar mələklər kimi xarakterizə olunurdu) yeni sitayiş dövrü başlanmışdı. Məsələn, Mazda müdriklik və həqiqət təcəssümü, Mitra isə dostluq, razılıq və müqavilə təcəssümü idi. Belə kultlar "yazatlar" (rəğbətə layiq olanlar) adlanırdı və yeni insani münasibətlərin formalaşdırılmasında həlledici rol oynayırdı. Göründüyü kimi, yeni tip - oturaq həyat tərzi və birgəyaşayış normaları insanlardan dözümlü, tolerant olmağı, razılıq və ilahi müqavilə şərtləri ilə birgə yaşamağı tələb edirdi. Odur ki, ilkin variantda dualist sistem (Xeyir – Hörmüzd, Şər – Əhriman) kimi təzahür edən klassik zərdüştlük, sonrakı dövrlərdə çoxlu sayda kultlarla təmsil olunurdu. Əslində, zərdüştlük özündə çoxlu sayda mütərəqqi ideyaları sintez etmiş ilk monoteist çağırışlardan biri idi. Təsadüfi deyildir ki, "Avesta" sözünün hərfi mənası da "ilk xəbər", "ilk çağırış" demək idi. Zərdüştlük mövcud olan multikultural dəyərləri, plüralist ideyaları və müxtəlifliklərı, hətta şərin varlığını belə vahid bir ideya altında birləşdirirdi. Burada isə multikultural dəyərlərin və tolerantlığın son dərəcə mütərəqqi versiyası ortaya çıxırdı. Zərdüştlükdə çoxlu sayda kultlar içərisində "Dadodaheş və Aşudad" kimi kultlar xüsusi əhəmiyyət kəsb edirdi. Bu kultlar insanlar arasında vacib qarşılıqlı köməyi, ehtiyacı olanlara yardımı, insanların bir-birilərini qarşılıqlı şəkildə dəstəkləməsini tərənnüm edirdi. Qeyd etmək lazımdır ki, növbəti tarixi mərhələlərdə yaranmış dini-fəlsəfi təlimlər və ideyalar – yunan və Roma fəlsəfəsi, xristianlıq, maniçilik və başqaları məhz zərdüştlüyün pozitiv ideyalarından bəhrələnmişdilər." [2. s.43]

Göründüyü kimi tarixə kiçik bir nəzər salmaqla Azərbaycanda insanpərvərliyə köklənən humanizm meyllərinin nə qədər dərin olduğunu, bugün mövcud olan bu insani dəyərlərin ta qədim zamanlardan gəldiyinə şahid oluruq.

Müasir Azərbaycan tarixində isə tolerantlıq və multikulturalizm ideyalarını siyasi müstəviyə və dövlət siyasəti səviyyəsinə ümummilli lider Heydər Əliyev çıxarmışdır. Heydər Əliyevin Azərbaycana I rəhbərliyi (1969-1982) zamanı etnik-milli və mədəni məsələlərə xüsusi diqqət yetirilmiş, dövrün multimədəni dəyərlərinin inkişafında ciddi sıçrayış baş vermişdi. Məhz sözügedən dövrdə Azərbaycan Respublikasının da təmsil olunduğu sovet ittifaqında sosialist beynəlmiləlçiliyinə əsaslanan yeni münasibətlər sistemi formalaşdırılmışdı. Lakin bu, süni şəkildə yaradılmış və ən zorakı üsullarla tənzimlənən bir sosium idi. Onun məhz belə olmasını SSRİ-nin tənəzzülü və iflası dövründə ittifaqın tərkibində təmsil olunan xalqlar arasında etnik-mədəni və dini münasibətlər zəminində başlanmış silahlı münaqişələr bir daha sübut etdi. Lakin Azərbaycana gəldikdə, SSRİ-nin dağılması ilə əlaqədar respublikanın tərkibində

təmsil olunan çoxsaylı xalqlar və etnik qruplar arasında milli və dini zəmində heç bir münaqişə (erməni separatizmini nəzərə almasaq) baş verməmişdir. Bu isə təsadüfi hadisə deyil.

Heydər Əliyevin həyata keçirdiyi etnik-milli siyasət "üçlü kimlik" prinsipinə əsaslanırdı:

1. Sovet kimliyi (Sovet ittifaqının tərkibində bu vacib və məcburi faktor idi).
2. "Azərbaycan" milli-siyasi kimliyi.
3. Etnik-mədəni kimlik.

Məhz bu siyasətin nəticəsi idi ki, sovet dövründə, XX əsrin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəllərində Azərbaycanda yaşayan heç bir milli azlıq, etnik qrup və sosial birlik assimilyasiyaya məruz qalmamış və öz adekvat kimliyini qoruyub saxlamışdı. Azərbaycan Sovet ittifaqının tərkibində olarkən yeganə respublika idi ki, burada yəhudi millətindən olan heç bir kəsə qarşı diskriminasiya hadisəsi baş verməmişdi. Bu da Heydər Əliyevin möhtəşəm dühasının və siyasi bacarığının məhsulu və nəticəsi idi. [2. s.33]

1993-cü ildə ümummilli lider Heydər Əliyev siyasi hakimiyyətə qayıdanda, həyata keçirdiyi ilk tədbirlərdən birincisi ölkənin etnik-siyasi birliyini təmin etmək üçün davamlı və təsirli tədbirlərin görülməsi oldu. O, "azərbaycançılıq" ideyasını ən ali milli dəyər elan etdi. Fenomenal düha olan Heydər Əliyev bütün sahələr kimi tarixi və etnik siyasət məsələlərini də gözəl bilirdi. O, tolerantlığı və multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldırmaqla, son dərəcə gərgin olan etnik-siyasi və geosiyasi şəraitdə, nəinki multikultural təhlükəsizliyi təmin etdi, hətta etnik siyasətdə yeni bir etalon - "Azərbaycan multikulturalizmi" etalonu formalaşdırdı.

Ekspertlər vurğulayır ki, ölkəmizdə multikulturalizm ənənələrinin formalaşması və bu modelin yaradılmasında Heydər Əliyevin xidmətləri çoxşaxəlidir. Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayev çıxışlarından birində qeyd edirdi ki, Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçib. O vurğulayıb ki, Heydər Əliyev öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış Azərbaycan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirib onu keyfiyyətcə yeni mərhələyə qaldırıb: "Ulu öndər hələ 1994-cü ildə İstanbulda keçirilən "Sülh və səbr" adlı beynəlxalq dini konfransdakı çıxışında bu məqamı dəqiq ifadə edib. [1. s.67]

Milli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqaməti yeni mərhələdə Prezident İlham Əliyev uğurla inkişaf etdirir. Bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verilir. Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı Heydər Əliyev Fondu əhəmiyyətli layihələr həyata keçirir. Fondun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri olmuş Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan-tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar".

Ümummilli lider Heydər Əliyevin ölkəmizdə multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirdiyi siyasi fəaliyyəti layiqincə davam etdirən Prezident İlham Əliyev ənənəvi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır, milli və dini bayramları münasibətilə təbrik edir. Prezidentin sərəncamı ilə 2014-cü il fevral ayının 28-də Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyinin təsis edilməsi də həyata keçirilən uğurlu multikulturalizm siyasətinin göstəricisidir. Eyni zamanda, multikulturalizmi dövlət siyasətinin əsas komponentlərindən biri kimi dəyərləndirilməsinin nəticəsidir ki, 2014-cü ilin may ayında Prezident İlham Əliyevin fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı.

"Azərbaycan bu illər ərzində dünyada multikulturalizmin inkişafına çox böyük töhfələr vermişdir" – deyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edirdi. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" fikrini əsas tutan ümummilli lider azərbaycançılıq konsepsiyası fonunda multikultu-

ral dəyərlərin ən yüksək inkişaf, intibah dövrünü yaşamasına rəvac vermiş, gələcək nəsillərə bütün sahələrdə olduğu kimi bu istiqamətdə də böyük bir irs qoymuşdur.

Bugün milliyətindən asılı olmayaraq hər bir vətəndaşımız Ümumilli lider Heydər Əliyevin "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" fikrinin mahiyyətini dərk etməli, Azərbaycan hüdudları daxilində multikultural və tolerant cəmiyyətin qorunub saxlanmasına çalışmalıdır. Çünki bu dəyərlər gələcək nəsillərimizin təhlükəsiz, sivil cəmiyyətdə yetişməsinə zəmin yaradacaqdır.

Ədəbiyyat

1. Abdullayev. K, Azərbaycan multikulturalizmi. Bakı, 2016, 272 s.
2. Hacıyev A.N, Cəfərova E.H., Məmmədov İ.M. Multikulturalizmə giriş: Ali məktəblər üçün dərs vəsaiti. – Bakı: Mütərcim, 2018. – 372 s.
3. Həşim C, İmanova.K. Azərbaycanda multikulturalizm: biblioqrafiya /layih. rəhb. Ə.Qarayev; - Bakı, 2016.- 504 s.
4. Mehdiyev R. Azərbaycançılıq-milli ideologiyanın kamil nümunəsi.- Azərbaycan qəz., -2007. – 356 s.
5. Məmmədli N. MULTİKULTURALİZM. Panaseya yoxsa alternative: Nəşriyyat XXI MMC, -2016.-189 s.
6. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015, 408 s.

Razim MƏMMƏDOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
r_mamedli@mail.ru

HEYDƏR ƏLİYEV VƏ DÜNYA AZƏRBAYCANLILARI

ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНЦЫ

HEYDAR ALİYEV AND WORLD AZERBAIJANIS

Xülasə: Məqalədə ulu öndər Heydər Əliyevin keçən əsrin 90-cı illərindən başlayaraq xarici ölkələrdə yaşayan azərbaycanlıların birliyi, həmrəyliyi sahəsində gördüyü işlərdən, 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etməsindən bəhs edilir. Dünya ölkələrində yaşayan həmvətənlərimizin diaspora şəklində formalaşması üçün çətin bir missiyanın öhdəsindən gəldiyindən söhbət açılır. Eləcə də Ulu öndərin müstəqil Azərbaycanımızın daha da güclənməsi naminə dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın öz aralarında milli birliyə nail olmasının əhəmiyyəti və zəruriliyi barədə söylədiyi proqram xarakterli mülahizələrindən bəhs olunur.

Açar sözlər: Heydər Əliyev, Vətən, Azərbaycan diasporu, dünya azərbaycanlıları

Abstract: В статье идет речь о деятельности общенационального лидера Г.Алиева в направлении консолидации азербайджанцев живущих в зарубежных странах, об объявлении 31 декабря Днем Солидарности азербайджанцев всего мира начиная с 90-х годов прошлого века. Повествуется о трудной миссии в области формирования диаспоры наших соотечественников. Также выражается необходимость достижения программы по сплочению вокруг независимого Азербайджана, обсуждаются соображения великого лидера важности укрепления связей среди наших соотечественников разбросанных по разным странам мира,

Ключевые слова: Гейдар Алиев, родина, Азербайджанская диаспора, азербайджанцы мира

Abstract: The article talks about the works done by the great leader Heydar Aliyev in the field of unity and solidarity Azerbaijanis living abroad since the 90^{s} of the last century, and the declaration of December 31 as the Solidarity day of world Azerbaijanis. It is said that our citizens living in the countries of the world have overcome a difficult mission to form a diaspora. Additionally, the great leader's proqrammatic considerations about the

significance and importance of our compretriots scattered in different countries of the world achieving national unity among themselves for the further strengthenning of our motependent Azerbaijan are discussed.

Key words: Heydar Aliyev, motherland, diaspora of Azerbaijan, world Azerbaijanis.

Azərbaycan Respublikası keçən əsrin 90-cı illərinin əvvəllərində öz müstəqilliyini elan etdikdən sonra bütün sahələrdə olduğu kimi xarici siyasətində də ölkənin milli maraqlarını uğurla həyata keçirmək üçün yeni mərhələnin təməlini qoymuş və inamla irəliləməyə başlamışdır. Ulu öndər Heydər Əliyev dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bütün həmvətənlərimizin dövlətin xarici siyasətinə böyük fayda verəcəyinə inandığını bildirərək demişdi: "Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı vardır. Müstəqil Azərbaycan Pesrublikası dünyanın ölkələrinə səpələnmiş soydaşlarımıza doğma atalıq duyğuları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirmək üçün onlara lazımı imkanların yaradılmasına səy göstərir" [2, 21].

Müstəqilliyimizin ilk illərindən hansı ölkədə yaşamasından asılı olmayaraq dünya azərbaycanlılarının birlik və həmrəylik əlaqələrinin daha da genişlənməyə və yeni məna kəsb etməyə başladığını düzgün qiymətləndirən Heydər Əliyev bu böyük qüvvəni vahid mərkəzdə birləşdirməyin vaxtı gəldiyini dövrün ən mühüm amili hesab etmişdir. Odur ki, Heydər Əliyev hələ 1991-ci ildə Naxçıvan Muxtar Respublikasında rəhbər vəzifəsində çalışarkən 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişdi. 1991-ci il dekabrın 16-da Naxçıvan Ali Məclisinin çıxardığı bu qərara az sonra Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası da qoşularaq özünün 1991-ci il dekabrın 25-də keçirdiyi iclasında dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü olması haqqında qərar qəbul etmişdir. Onu da xatırladaq ki, hər iki qərarda dekabrın 31-i Həmrəylik bayramı və istirahət günü elan olunmuşdur. 1993-cü ilin 31 dekabrında bu gün Azərbaycanın bütün ərazisində çox geniş şəkildə qeyd edilmiş, eləcə də bütün dünyada yaşayan azərbaycanlıların bayramına çevrilmişdir.

Yeri düşmüşkən onu da qeyd edək ki, hələ 1990-cı ilin noyabr ayının 3-də ilk dəfə Türkiyədə keçirilən dünya azərbaycanlılarının qurultayında bir sıra zəruri məsələlər müzakirə edilmiş, maraqlı təklişlər irəli sürülmüşdür. Belə təkliflərdən biri də məhz həmrəylik gününün qeyd olunması ilə bağlı idi. Həmin təkliflə əlaqədar qurultay qərar da qəbul etmişdi. Lakin deyildiyi kimi həmrəylik gününün qeyd olunması bir il sonra həyata keçirilmişdir.

31 dekabrın təntənə ilə qeyd olunmasında ümummilli lider Heydər Əliyev cənablarının böyük səyi və xidmətləri olmuşdur. O, xarici ölkələrə etdiyi səfərlər zamanı bu dövlətlərdə yaşayan soydaşlarımızla, onların yaratdıqları cəmiyyət, təşkilat və mədəniyyət mərkəzlərində, yaxud da öz iqamətgahında keçirdiyi çoxsaylı görüşlər, söhbətlər öz bəhrəsini vermiş, dünya azərbaycanlılarının həmrəyliyinin daha da möhkəmləndirilməsi üçün böyük zəmin yaratmışdır.

1994-cü il 10 fevral tarixində Türkiyədə səfərdə olarkən ümummilli lider Heydər Əliyev bu ölkədə yaşayan azərbaycanlılarla görüşdə həmrəyliklə bağlı demişdi: "Biz dünya azərbaycanlılarının həmrəylik, birlik gününü elan etmişik. Biz istərdik ki, dünya azərbaycanlıları həmrəy olsunlar, daha da bir olsunlar. Mən bu duyğularla, bu hisslərlə yaşayıram. Öz prezidentlik vəzifəmi bundan sonra həyata keçirəcəyim dövrdə də bu hissləri əsas tutacağam" [4].

Ümummilli lider keçirdiyi bütün görüşlərdə Azərbaycan dövlətinin qarşısında duran mühüm amillərdən biri də diaspora məsələsi olduğunu dəfələrlə qeyd etmişdi. Heydər Əliyev belə hesab edirdi ki, Azərbaycan dövlətinin vacib vəzifələrindən biri xaricdə yaşayan soydaşlarımızla əlaqələrin qurulması, dünya dövlətlərində fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin möhkəmləndirilməsi, onların müstəqil dövlətimizlə sıx əlaqələrin təmin edilməsidir. 1994-cü il yanvarın 9-da Almaniyadan gəlmiş həmvətənlərimizi qəbul edən Heydər Əliyev cənabları Azərbaycanda baş verən ictimai-siyasi, sosial-mədəni həyat haqqında qonaqlara məlumat verərək demişdir ki, bütün çətinliklərə baxmayaraq Azərbaycan indi müstəqil, suveren dövlətdir və öz amalı, parlaq gələcəyi uğrunda inamla addımlayır. Hörmətli prezident onu da qeyd etmişdir ki, indi hər bir azərbaycanlı Azərbaycana doğma ana vətən kimi baxmalıdır. Mən çalışıram ki, bütün çıxış və müraciətlərimdə dünyanın

bütün guşələrində – Avropada, Asiyada, Amerikada, eləcə də digər bölgələrdə yaşayan azərbaycanlılarda Azərbaycan dövləti haqqında rəy formalaşdırıram. İstəyirəm ki, onlar Azərbaycana öz doğma vətənləri kimi baxsınlar və onu ürəkdən sevsinlər.

Ümummilli lider görüşdə onu da qeyd etmişdir ki, "gərək bütün dünyada yaşayan azərbaycanlıların təşkilatlanma prosesi sürətlənsin, erməni diasporu kimi öz vətənləri üçün də faydalı işlər görsünlər. Təəssüf ki, bu sahədə işlər hələ də tam qaydasında deyil. Prezident qonaqlara 1994-cü ilin əvvəllərində Fransaya rəsmi səfəri haqqında məlumat verərək bildirmişdir ki, biz orada öyrəndik ki, bu ölkədə xeyli azərbaycanlı yaşayır və Fransanın ticarət obyektlərinin bir hissəsi onların əlindədir. Mən onlarla görüş təyin etdim. Ancaq mənimlə görüşə çox az azərbaycanlı gəlmişdir. Bu fakt da bir daha təsdiq edir ki, azərbaycanlılar Fransanın müxtəlif guşələrində yaşayırlar və aralarında o qədər də sıx əlaqə yoxdur.

Onu da xatırladaq ki, Fransa torpağında Heydər Əliyevin ilk görüşü məhz bu ölkədə yaşayan Azərbaycan icmasının nümayəndələri ilə olmuşdur. O, soydaşlarımıza müraciətlə demişdir: "Sizi Müstəqil Azərbaycan adından salamlayıram. Qazandığımız istiqlaliyyəti dünyada yaşayan azərbaycanlılarla əlaqələrimizi sıxlaşdırmağa imkan yaradır. Mən əvvəllər də haradan azərbaycanlı səsi gəlibsə, maraqlanmışam. İmkanım daxilində əl tutub kömək etmişəm. Azərbaycanın çağdaş durumunda təbliğata daha çox ehtiyac vardır. İlk əvvəl bu sahədə siz azərbaycanlılar köməklik göstərməlisiniz. Bu istiqamətdə atılan hər addımı qiymətləndirəcəyik."

Böyük siyasi xadim 23 fevral 1994-cü ildə Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə isə demişdir: "Vətəndən kənarda yaşayan soydaşlarımızın ürəkləri gərək daim Azərbaycanın nəbzi ilə bir vursun. Harada yaşamasından, vəziyyətinin ağır və çətinliyindən asılı olmayaraq gərək hər kəs öz ana vətəni haqqında düşünsün. Azərbaycanlılar artıq bilirlər ki, indi bizim, nəhayət, müstəqil dövlətimiz – Azərbaycan Respublikası var. Bu müstəqil Azərbaycan torpağıdır. Deməli harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən" [4]

Xarici ölkələrdə yaşayan soydaşlarımızın bir sıra xüsusiyyətlərinə toxunan Heydər Əliyev bəzən onların təsir altına düşmənlərini də nəzərlərinə çatdırmışdır: "Xalqımızın çox gözəl xüsusiyyətləri var. Amma qüsurlu cəhətləri də var. Düşdüyünüz mühitdə bəziləri əriyib başqalarına qarışıb, öz milli mənliyini saxlaya bilməmişdir. Hesab etmək olar ki, indi Azərbaycan müstəqil dövlət olandan sonra digər ölkələrdə yaşayan azərbaycanlılar özlərinin Azərbaycan kimi Ana vətəni olduğunu dərk edəndən sonra bəlkə onda bu nöqsan aradan götürülə bilər..." [3, 128].

1995-ci ilin yanvar ayında Azərbaycan prezidenti Heydər Əliyevin İsveçrəyə işgüzar səfəri zamanı bu ölkədə yaşayan soydaşlarımızla görüşdə diqqət mərkəzində oldu. Yanvar ayının 29-da prezident Heydər Əliyev Davosda onun üçün ayrılmış iqamətgahda İsveçrədə yaşayan azərbaycanlıları qəbul etmiş, onların vəziyyəti, sosial-mədəni həyatı ilə maraqlanmışdır. Bu ölkədə yaşayan soydaşlarımız haqqında İsveçrə-Azərbaycan cəmiyyətinin sədri Əkbər Gəncəyi məlumat verərək bildirmişdir ki, burada hazırda 2800-dən artıq azərbaycanlı yaşayır. Onların əksəriyyəti 1941-1945-ci illər Böyük Vətən Müharibəsindən sonra burada məskunlaşmışdır.

Ümummilli lider Heydər Əliyevin 1995-ci il aprelin 17-də Belçika səfəri, burada keçirdiyi həm rəsmi, həm də soydaşlarımızla görüşlər olduqca faydalı olmuşdur. Prezidentlə görüşə çoxlu soydaşlarımız gəlmişdir. Maraqlıdır ki, onların arasında Belçikada yaşayan azərbaycanlılarla yanaşı Almaniyanın müxtəlif şəhərlərindən, eləcə də İsveçrədən və Hollandiyadan gəlmiş həmvətənlərimiz də var idi. Bütün dünyada böyük nüfuz sahibi olan Azərbaycan prezidenti Heydər Əliyev görüş iştirakçıları tərəfindən böyük hərarətlə, mehribançılıqla və gül-çiçək dəstələri ilə qarşılanmışdı. Görüşdə Heydər Əliyevin xüsusilə vurğuladığı məsələlərdən biri də erməni lobbisinin Azərbaycanla bağlı apardığı çirkin təbliğatın qarşısının alınmasında xaricdə yaşayan soydaşlarımızın üzərinə düşən vəzifədən ibarət idi. Bu ciddi amildən söhbət açar prezident bildirmişdir ki, bu gün bizim hamımız Azərbaycanın müstəqilliyi və gələcəyi üçün çalışmalıyıq. Qarşılaşdığımız çətinlikləri müvəffəqiyyətlə aradan qaldırmaq üçün müstəqil Azərbaycanın Avropada, Asiyada, Amerikada geniş təbliğ olunmasına böyük ehtiyac var. Belə bir zəruri işdə isə xarici ölkələrdə yaşayan azərbaycanlıların respublikamıza böyük köməyi dəyə bilər.

Xaricdə yaşayan soydaşlarımıza Heydər Əliyevin ən çox tövsiyyə etdiyi məsələlərdən biri onların öz aralarında əlaqələrin genişləndirilməsi, vahid qüvvə şəklində birləşmələri, bir-birinə dayaq olmaları idi.

Heydər Əliyev dünyanın ən böyük və inkişaf etmiş ölkələrindən olan Amerika Birləşmiş Ştatlarında səfəri zamanı 4 avqust 1997-ci ildə orada yaşayan azərbaycanlılarla görüşdə bütün dünya azərbaycanlılarının bir vətəni-müstəqil Azərbaycan Respublikasının olmasını xüsusi ilə qeyd etmiş və hər bir soydaşımızı imkan daxilində Vətənə xidmət etməyə çağırmışdır: "Bir daha deyirəm, bütün azərbaycanlıların indi dünyada bir vətəni var. O da Azərbaycan Respublikasıdır. Bir dövləti var. Bu, müstəqil Azərbaycan Respublikasıdır, onun dövlətidir. Gəlin, hamımız bu dövlətin, bu vətənin ətrafında sıx birləşək. Kim harada yaşayır-yaşasın. Biz hamıya sərbəstlik veririk. Keçmiş vaxt deyil, biz heç kimin qarşısını almırıq. Amma harada yaşayırsan-yaşa, öz vətənini həmişə qəlbində saxla, fikirləş, sən Azərbaycan üçün nə etmisən? Bu barədə hər gün fikirləş" [5].

Onu da xatırladaq ki, prezident Heydər Əliyev ABŞ-a rəsmi səfərindən sonra burada yaşayan azərbaycanlıların fəaliyyətini qənaət bəxş hesab etmiş, 1998-ci ilin may ayında Vaşinqton şəhərində keçirilən Dünya Azərbaycanlıların II konqresinin iştirakçılarına təbrik məktubu göndərmiş, işlərində uğurlar arzulamış, onları möhkəm əqidə birliyi mümayiş etdirməyə, müstəqil, qüdrətli Azərbaycan dövləti naminə səfərbər olmağa və milli həmrəyliyə çağırmışdı. Təbrik məktubunda deyilir: "Əziz soydaşlarım! Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi Vətəni doğma ata-baba yurdudur. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, qürbətdə yaşayan, lakin qəlbi doğma Azərbaycan eşqi ilə döyünən soydaşlarımızın da xalqımızın milli azadlıq mübarizəsində, tərəqqisi və inkişafı yolunda diqqətəlayiq xidmətləri, zəhmətləri vardır.

Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı müqəddəs Vətən amalı və Azərbaycan dövlətçiliyi ətrafında amal və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirməli, ayulduzlu üçrəngli bayrağımız bütün soydaşlarımızın müqəddəs and yerinə çevrilməlidir. Bu, bizim hamımızın ümumtale işimiz, Vətənə övladlıq borcumuzdur. Əmin olduğumu bildirmək istəyirəm ki, xeyirxah və nəcib niyyətlərlə bir araya gəldiyimiz toplantı günlərində ümummilli problemlərimiz müzakirə ediləcək, xaricdəki çox milyonlu Azərbaycan diaspounun təşkilatlanması, tarixi Vətənlə daimi və davamlı əlaqələrin zəruriliyi barədə geniş, ciddi fikir mübadiləsi aparılacaqdır...." [7].

Azərbaycan prezidenti Heydər Əliyevin 1999-cu ilin noyabr ayının axırlarında Ukraynaya işgüzar səfəri zamanı işinin çox olmasına baxmayaraq burada fəaliyyət göstərən Ukrayna Azərbaycanlıları Konqresinin keçmiş başçısı Tələt Əliyev ilə görüşmüşdür. Ukrayna Azərbaycanlıları Konqresinin başçısı hörmətli qonağı səmimiyyətlə salamlayaraq rəhbərlik etdiyi təşkilatın yaranma tarixi və fəaliyyəti haqqında məlumat verərək demişdir: "Cənab prezident, bizim konqres Ukraynanın 15 vilayətində fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri nümayəndələrinin iştirakı ilə bu ilin mart ayında keçirilmiş konfransda yaranmışdı. Konqresin yaranmasında Azərbaycanın Ukraynadakı səfirliyinin də xüsusi əməyi var və biz bunu yüksək qiymətləndiririk. Konqresimizin gənc olmasına baxmayaraq Ukraynanın 18 vilayətində ilk təşkilatlarımız fəaliyyətə başlayıblar. Allah qoysa, gələn ilin mart ayına, yəni konqresimizin yubileyinə qədər Ukraynanın 27 vilayətinin hər birində öz təşkilatımızı yaradacağıq. Bizim əsas məqsədimiz Ukraynada yaşayan 500 minə qədər azərbaycanlını konqresimizin ətrafında birləşdirməkdən ibarətdir."

Prezident Heydər Əliyev konqresin fəaliyyətindən məmnun qaldığını bildirərək bir sıra qiymətli tövsiyyələr etmişdir. Azərbaycan xalqının adət-ənənələrini, mədəniyyətini, dilini qoruyub saxlamağın vacibliyini onların nəzərinə çatdırmışdır: "Sizin bir-birinizə kömək etməyiniz, bir-birinizə dayaq olmağınız və Azərbaycanla daim əlaqə saxlamağınız nəticəsində, yenə də deyirəm, dilimizi, mədəniyyətimizi, musiqimizi, adət-ənənələrimizi unutmayacaqsınız. Bu böyük məsələdir – gərək xalq, millət yaşasın" [6].

Azərbaycan prezident Heydər Əliyev Rusiyada yaşayan soydaşlarımızın fəaliyyətinə, onların təşkilatlanma məsələsinə də biganə qalmır, bu vacib məsələni diqqət mərkəzində saxlayır. Onun 2000-ci ilin iyun ayının axırlarında keçirilən Azərbaycanlıların Ümumrusiya konqresinin təsis yığıncağında işti-

rak etməsi və bu iclasda nitq söyləməsi dediklərimizi bir daha təsdiq edir. Rusiya Federasiyasının 50 regionundan həmvətənlərimizi təmsil edən konqresinin işindən söhbət açan Ümumrusiya Peşəkar Notariuslar İttifaqı Mərkəzi Şurasının sədri, birinci dərəcəli ədliyyə müşaviri Natiq Ağamirov prezident Heydər Əliyevin çıxışını yüksək qiymətləndirmişdir. O, prezidentin nitqi haqqında demişdi: "Cənab prezident Heydər Əliyev bu mötəbər məclisin xitabət kürsüsündən Rusiyada və başqa yerlərdə yaşayan azərbaycanlıları möhkəm birliyə, amal və əqidə birliyinə çağırması, başqa dilləri öyrənməklə yanaşı, ana dilini, adət və ənənələrimizi sevməyi, yaşatmağı dönə-dönə tövsiyə etməsi bütün yığıncaq iştirakçıları tərəfindən xüsusi məhəbbətlə, alqışlarla qarşılandı, yaddaşlara həkk olundu".

Xatırladaq ki, Heydər Əliyev cənabları xarici ölkələrdə səfərdə olarkən oradakı soydaşlarımızla görüşür, onların nümayəndələri Azərbaycana gələndə də qəbul edir, fikir mübadiləsi aparmışdı. Azərbaycan prezidenti Heydər Əliyev təkcə 1998-ci ilin may ayında Riqada yaşayan soydaşlarımızı, Ulyanovskdakı "Nizami" cəmiyyətinin üzvlərini qəbul etmişdir. Bu cür görüşlərin sayını xeyli artırmaq da olur.

Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti kimi 23 may 2001-ci il tarixində "Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında" imzaladığı sərəncamda oxuyuruq: "Müstəqil Azərbaycan Respublikası isə bütün dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün öz üzərinə düşən tarixi missiyanı yerinə yetirməyə çalışır. Həmin yolla bu vaxta kimi atılmış addımların nəticələrinin təhlili göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, müstəqil Azərbaycan Respublikasının həyatının müxtəlif sahələrində meydana çıxan problemlərinin həllində onun fəal iştirakının təmin edilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına xidmət edən mütəşəkkil, sanballı qüvvəyə çevrilməsi yolunda hələ çox iş görülməlidir. Belə bir işin məqsədyönlü və uğurlu yerinə yetirilməsi isə ilk növbədə həmin sahədə toplanmış təcrübənin hərtərəfli müzakirə və təhlil edib müvafiq strateji proqramın hazırlanmasını tələb edir" [1, s.96].

Dünya azərbaycanlılarının birinci qurultayı 2001-ci il noyabrın 9- 10-da Bakı şəhərində keçirilmişdir. Bununla da dünya azərbaycanlılarının təşkilatlanması kimi böyük bir prosesin əsası qoyulmuşdur. Qurultayda 26 xarici dövlətdə yaşayan soydaşlarımızın cəmləşdiyi 200- dən artıq müxtəlif təşkilat və cəmiyyəti təmsil etməklə 406 nümayəndə, həmçinin 63 qonaq iştirak etmişdir. Qurultayın ilk iş günündə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev geniş nitq ilə çıxış edərək Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi yolunda həyata keçirilən tədbirlər, qarşıda duran vəzifələrdən bəhs etmiş, eləcə də dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi haqqında demişdi: "Bizim vəzifəmiz, Azərbaycan vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı- ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək indi müstəqil Azərbaycan ilə daha sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir.

Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qüruru hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.... Əmin ola bilərsiniz ki, müstəqil bir dövlət kimi Azərbaycan on ildir ayaq üstə möhkəm durubdur. Ötən dövrdə biz Azərbaycanın müstəqilliyini inkişaf etdirmişik və bu gün bəyan edirəm ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və daimidir" [1, s.98].

2002-ci il dekabr ayının 26-da Dünya azərbaycanlılarının Həmrəylik Günü münasibətilə soydaşlarımızı təbrik edən Ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının "həmvətənlərimizi birləşdirən milli məfkurəyə çevrildiyini", "milli şüurunun güclənməsinin başlıca mənbəyi ol-

duğunu, dövlətimizin dünyanın müxtəlif bölgələrində məskunlaşan azərbaycanlıların insan və vətəndaş hüquqlarının müdafiəçisi və qrantı rolunda çıxış etdiyini" bildirərək demişdi: "Müstəqil Azərbaycan Respublikası dünya azərbaycanlılarının həmrəyliyinin əsası və güclü dayağıdır. Bu həmrəyliyin qayəsini təşkil edən azərbaycançılıq və Azərbaycan dövlətçiliyi ideyaları məhz müstəqil dövlətimizin yaranması ilə inkişaf etmiş, şüurlarda özünə möhkəm yer tutmuş, soydaşlarımızı birləşdirən milli məfkurəyə çevrilmişdir. Azərbaycan Respublikası indi dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyalarının əsas daşıyıcısıdır, müxtəlif vaxtlarda tarixi vətənimizdən uzaq düşmüş soydaşlarımızın milli şüurunun güclənməsinin başlıca mənbəyidir. Dövlətimiz bu gün xaricdə yaşayan azərbaycanlıların insan və vətəndaş hüquqlarının müdafiəçisi və qrantı rolunda çıxış edir" [1, s.121].

Ulu öndər Heydər Əliyevin uğurlu diasporu siyasəti bu gün onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Belə ki, xaricdə yaşayan soydaşlarımız bu gün də mütərəqqi milli ənənələrimizin, dilimizin, mədəniyyətimizin daşıyıcıları olaraq Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, tarixi Vətənlə yaşadıqları ölkələr arasında əlaqələrin möhkəmləndirilməsində, ümummilli məsələlərdə vahid mövqedən çıxış edərək əsl vətənpərvərlik və həmrəylik nümayiş etdirirlər.

Ədəbiyyat

1. Azərbaycan diasporu (Ensiklopedik məlumatlar toplusu), Bakı, 2012
2. Arzumanlı Vaqif. Azərbaycan diasporu (Reallıqlar, qayğılar, problemlər), Bakı, 2001
3. Razim Məmmədli. Heydər Əliyev və dünya azərbaycanlıları, məqalə, AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, "Sosial- siyasi problemlər" elmi məqalələr toplusu, Bakı, 2003, № 8
4. "Azərbaycan" qəzeti, 24 fevral 1994
5. "Azərbaycan" qəzeti, 4 avqust 1997
6. "Xalq qəzeti", 22 noyabr 1999
7. "Xalq qəzeti", 24 may 1998

Fatma QƏNİYEVA
Milli Azərbaycan Tarixi Muzeyi
fatime.qeniyeva@gmail.com

HEYDƏR ƏLİYEVİN **DÖVLƏTÇİLİK SİYASƏTİ VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI**

THE POLICY OF STATEHOOD AND THE IDEOLOGY OF AZERBAIJANISM OF HEYDAR ALIYEV

ПОЛИТИКА ГОСУДАРСТВЕННОСТИ И ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА ГЕЙДАРА АЛИЕВА

Xülasə: Məqalədə xalqın milli sərvəti olaraq dil identiklik kontekstində tədqiq edilir. Bütün dövrlərdə baş verən proseslərdən də məlumdur ki, kimlik simvolu olan dil unikal tarixi və mədəni təcrübənin daşıyıcısıdır. Təqdim edilən məqalədə Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi dil siyasəti və bu sahədəki misilsiz xidmətlərindən bəhs olunur. Azərbaycan dilinin inkişaf tarixi mərhələlərə bölünərək araşdırılır. Bu sahədə istər Sovet, istərsə də müstəqillik dövründə Azərbaycan dilinin dövlət dili statusu almasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Həmçinin ümummilli liderin azərbaycançılıq ideologiyası və onun əsasında duran milli dil fenomeni milli şüur, milli özünüdərk, milli dövlət kimi amillərlə bərabər xalqın formalaşmasını təşkil edir. Azərbaycan dili dövlətçilik rəmzi ilə yanaşı, həm də milli dövlət quruculuğunun mühüm komponentidir.

Açar sözlər: identiklik, dil, siyasət, lider, dövlət

Abstract: The article explores language in the context of identity as a a people's national wealth. It is also known from the processes occurring in all periods that the language, which is a symbol of identity, is the bearer of a unique historical and cultural experience. The presented article talks about the language policy implemented by the Great Leader Heydar Aliyev and his unparalleled services in this field. The history of the development of the Azerbaijani language is divided into stages. In this field, Heydar Aliyev had exceptional services in getting the status of the state language of the Azerbaijani language, both during the Soviet and independence periods. The ideology of the national leaders Azerbaijanism and the phenomenon of the national language underlying it, along with factors such as national fame, national consciousness, national identity and the national state, organize the formation of the people. Apart from the symbol of statehood, the Azerbaijani language is also an important component of national state building.
Keywords: identity, language, politics, leader, state

Абстракт: В статье исследуется язык в контексте идентичности как национального богатство народа. Из процессов, происходящих во все периоды, также известно, что язык, являющийся символом идентичности, является носителем уникального исторического и культурного опыта. В статье рассказывается о языковой политике, проводимой Великим лидером Гейдаром Алиевым, и его беспрецедентных заслугах в этой сфере. История развития азербайджанского языка делится на этапы. В этой области Гейдар Алиев имел исключительные заслуги в получении статуса государственного языка азербайджанского как в советский период, так и в период независимости. Идеология азербайджанства общенационального лидера и в ее основе феномена национального языка, наряду с такими факторами, как национальная слава, национальное самосознание и национальное государство, организуют формирование народа. Помимо символа государственности, азербайджанский язык также является важной составляющей национального государственного строительства.
Ключевые слова: идентичность, язык, политика, лидер, государство

Hər bir dövlətin və xalqın uğurlarında siyasi liderlərin böyük rolu vardır. Məhz belə liderlərdən biri, XX əsrin dövlət qurucusu, Ulu Öndər Heydər Əliyevdir. Ulu Öndərin siyasi fəaliyyətində və dövlət quruculuğu təlimində azərbaycançılıq, ana dili, milli ideologiya əsas amillərdən olmuşdur. Dövlətçilik ənənələrinin yaranması nə deməkdir və hansı göstəricilərlə şərtlənir? Bu, ilk növbədə əhalinin xalqa, xalqı millətə, sakinlərin vətəndaşlara çevrilməsi istiqamətində gedən prosesdir. Dövlətçilik insanlarda vətənpərvərlik duyğusunu, vətən anlamının milli mənə daxil edilməsini nəzərda tutur. Əgər hər hansı bir ölkədə hər kəs ancaq öz mənafeyini, ailəsinin mənafeyini düşünürsə və bütövlûkdə xalqının taleyinə, ümummilli siyasi, iqtisadi mənafeyinə biganədirsə, – deməli, burada dövlətçilik ənənələri yoxdur. "Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düsünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin". ..." [5,s.20].

Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də azərbaycançılıq məfkurəsidir. Görkəmli siyasi xadim Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olub, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, ideoloji, iqtisadi əsaslarını yaradıb, xalqı müstəqil, güclü dövlətə sahib olmaq arzusuna qovuşdurub və çağdaş tariximizdə əbədiyaşarlıq qazanaraq sağlığında canlı əfsanəyə çevrilmiş dahi şəxsiyyətdir.

Azərbaycançılıq müstəqil Azərbaycan dövlətinin və xalqının milli ideologiyasıdır. Azərbaycançılıq xalqın milli-mənəvi varlığının ilkin əlamətlərini, onun kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir: "Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycançılığın əsasında Azərbaycanı özünə Vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır. Milli dövlətə mənsubluq əsrlər boyu hər bir xalqın nəyə qadir olduğunu, şərəfli mübarizə yolunu, dünya dövlətləri sırasında layiqli yer tutmaq əzmini nümayiş etdirmişdir. Bu mənada, xalqların qarşıya qoyduğu konkret hədəflərə doğru irəliləməsi prosesində milli dövlətin mövcudluğu vacib şərtlərdən biridir. Yalnız özünü milli etnos kimi dərk edən xalqlar milli dövlət quraraq onun mövcudluğunu qoruyub saxlaya bilmişlər. Müasir, müstəqil Azərbaycan Respublika-

sının qurucusu Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını əhatə edərək, onların milli istinad mənbəyinə çevrilib.

Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq, – deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur.

Azərbaycançılıq ideologiyası millətə, xalqa, dövlətə qəlbən sevgini, onların naminə yorulmadan çalışmağı təşviq edir. Təsadüfi deyil ki, 1997-ci ildə Ulu Öndər Heydər Əliyev ABŞ-a rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxış edərkən bu ideologiyanın əsas prinsiplərini belə müəyyən etmişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. O zaman Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən biri də məhz ana dilinə həssas münasibət olmuşdur. Xalqın milli-mənəvi dəyərlərinin yaşadılması və inkişaf etdirilməsində ana dilinin müstəsna rolu məsələsinə münasibəti birmənalı olmuşdur. Heydər Əliyev sovet Azərbaycanında hakimiyyətə gəlişindən dərhal sonra Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsinə qərar vermiş, 1969-cu il noyabr ayının 1-də bu təntənəli tədbirdə Azərbaycan dilində çıxış etmişdir. Bununla da Heydər Əliyev dühası cəmiyyətə milliləşmə zəruriliyini milli dilə, dinə, dəyərlərə bağlı olmağı, tarixi irsi yaşatmağı çatdırmışdır, 70-ci illərin ortalarında Azərbaycan dilinin tədqiqi və öyrənilməsi istiqamətində dövlət səviyyəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. 1974-cü ildə Azərbaycan dilinin tədqiqinə görə bir qrup dilçi alimin dövlət mükafatlarına layiq görülməsi, o cümlədən 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinin nəşri də siyasi xadimin ana dilinə böyük ehtiramla yanaşdığını göstərir. Həmin illərdə Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutunun yaradılması da ana dilinin ictimai-siyasi nüfuzunun möhkəmləndirilməsi, onun tarixinə, dialektologiyasına dair bir çox tədqiqatların meydana çıxmasını şərtləndirmişdir.

Bu gün müstəqil Azərbaycan Respublikasında dünya azərbaycanlılarının milli birlik və həmrəylik problemi dövlət siyasəti səviyyəsinə qaldırılmış, Azərbaycan diasporunun formalaşdırılması dünya azərbaycanlılarının bir-biri ilə və tarixi Vətənlə əlaqələrinin yaradılması, möhkəmləndirilməsi məsələləri bilavasitə gündəliyə gətirilmişdir. Dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümummilli ideya – azərbaycançılıq, müstəqil dövlətçilik, milli-mənəvi dəyərlər ətrafında birləşməsi prosesi başlanmışdır ..." [4,s.141]. Dünya azərbaycanlılarının 2001-ci ilin 9-10 noyabr tarixində keçirilmiş I Qurultayında Ümummilli Lider Heydər Əliyev demişdir: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

9 iyun 2002-ci il tarixində Sankt-Peterburq şəhərində ümummilli liderin Azərbaycan diasporunda təşkil edilən azərbaycanlı soydaşlar ilə görüşlərdən bizə məlum olan maraqlı söhbətlər, tövsiyələr bir daha sübut edir ki, sağlam əhval-ruhiyyə ilə yaşayan soydaşlarımız bir-biri ilə ümumiyyətlə, yaxşı əlaqədədirlər və təbii ki, bu əlaqələr buradakı hər bir azərbaycanlının normal yaşaması, işləməsi, öz ailəsini təmin etməsi üçün imkanlar yaradır. Bu xüsusda ulu öndər yazır: "İndi ölkəmizdən kənarda yaşayan azərbaycanlılar az deyildir. Bilirsiniz ki, biz dünya azərbaycanlılarının I qurultayını keçirdik və çox böyük məlumatlar aldıq. Qurultay çox böyük iş gördü. İlk dəfə olaraq dünya azərbaycanlılarının nümayəndələri dünyanın hər yerindən olmasa da bir çox ölkələrdən Azərbaycana, doğma torpağa toplaşdılar, bir-biri ilə görüşdülər, tanış oldular, əlaqələr qurdular və vətənin bu gününü gördülər. Hesab edirəm ki, mənəvi cəhətdən daha da zənginləşərək, öz yaşadıqları yerlərə döndülər. Bu bizim ilk addımımızdır" ..." [3,s.58]. Ulu öndər Heydər Ə1iyev uzaqgörənliklə demiş-

dir ki, "Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb, heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Bu zəruri axın dövlətlərin sabit inkişafının, bütovlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrıseçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir". Beləliklə, ümummilli liderin Azərbaycan dövlətçiliyinin təməlinə yerləşdirdiyi azərbaycançılıq ideologiyasının birləşdirici və ehtivaedici xarakterinin aktuallığı bu gün daha artıq önəm və əhəmiyyət qazanır. ..." [6,s.237].

Azərbaycan dövlətinin tarixi şəxsiyyəti, müstəqil respublikanın böyük qurucusu ulu öndər Heydər Ə1iyevin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır"; "Fikir müxtəlifliyi təbii hadisədir"; "Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz" [2] – kimi hər kəsin dillər əzbəri olan fikirləri, o cümlədən "Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur. Təkamül yolu ilə tədricən gedir" [2] – düşüncəsi, əslində siyasi mövqeyi ölkədə vətəndaş cəmiyyətinə onun milli lider münasibətini dolğun əks etdirir [2].

Heydər Əliyevin ideyaları, fikirləri, proqnozları əsasında məqsədyönlü təşkilatçılığı, rəhbərliyi və tələbkarlığı nəticəsində qısa zaman ərzində keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanda sosial-iqtisadi, mədəni və ictimai-siyasi sahələrdə dinamik inkişaf, görünməmiş artım templəri əldə olundu, elmi-texniki dəyişikliklərin səviyyəsi tarixi əhəmiyyət kəsb etdi. Çox sonralar Azərbaycan Prezidenti Heydər Ə1iyev müstəqillik illərində ötən əsrin 70-ci illərində gördüyü işləri xatırlayaraq deyirdi: "1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur..." [1,s.145]. Dahi lider milli kimliyi üstün tutmuş və bu mövqedən çıxış edərək Azərbaycan Respublikasının prezidenti seçildiyi dövrdən etibarən dövlətin xarici siyasətində çoxistiqamətli və hərtərəfli amillərlə əhatələnmiş, xalqın beynəlxalq mövqeyinin möhkəmlənməsini təmin etmişdir.

Ədəbiyyat

1. Ə1iyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz birinci kitab (noyabr, 2010 - yanvar 2001). Bakı, Azərnəşr, 2010, 512 s.
2. Heydər Ə1iyev Azərbaycan xalqına Müraciət http7/_- files.preslib.az/prqjects/toplu/v2/D_l 3.pdf.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 39-cu kitab, Azərnəşr, 2012,479 s.
4. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı. Azərbaycan Universiteti nəşriyyatı. 2002. 232 s.
5. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997.
6. Novruzov S. Heydər Ə1iyev və Azərbaycan dövlətçiliyi Bakı, "Elm və təhsil", 2019, 272 s.

Vüsalə MƏMMƏDZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllimi
vusala.mammedzade@mail.ru

HEYDƏR ƏLİYEVİN MƏDƏNİYYƏT SİYASƏTİ

CULTURAL POLİCY OF HEYDAR ALİYEV

КУЛЬТУРНАЯ ПОЛИТИКА ГЕЙДАРА АЛИЕВА

Xülasə: Milli dəyərlərimizə, adət-ənənələrimizə biganə münasibət gələcəyimiz üçün yaxşı heç nə vəd etmir. Tarixdən məlumdur ki, öz soykökünə, tarixinə, milli dəyərlərinə, inanclarına dönük çıxan millətlər və

dövlətlər müəyyən zaman kəsiyində "əriyib" yox olmuş və tarix səhnəsindən birdəfəlik silinmişlər. Hər hansı bir xalqı, dövləti məhv etmək üçün onu milli dəyərlərindən ayırmaq kifayətdir.

Müasir Azərbaycan tarixinin müəyyən bir dövrünü əhatə edən mərhələ, bu dövrdəki ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrindəki dirçəliş xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev elmi-ictimai fikir tariximizə elmi düşüncənin müxtəlif sahələrinə aid orijinal ideyalar müəllifi kimi də daxil olmuşdur. Onun elmin, mədəniyyətin, iqtisadiyyatın, təhsilin inkişafı, təhsilin məzmununun zənginləşdirilməsi, praktik təsir gücünün artırılması ilə bağlı əvəzsiz ideyaları ölkəmizə rəhbərliyinin hər iki dövründə öz bəhrələrini vermişdir.

Açar sözlər: Müasir Azərbaycan, tarix, mədəniyyət siyasəti, milli-dəyərimiz, təhsil, memarlıq

Abstract: Memory of the people always acts as criterion of the importance of the political leader, the people not as the arithmetic sum of human units, and the whole forming the concrete society filled with the vital contents in a certain national form after time takes out the objective assessment. Last ten years which our country lived without Heydar Aliyev, with all evidence show the main assessment – the leader who became during lifetime nationwide after the physical leaving became a national ideal not only heads of state, but also personified a national ideal of the personality. Heydar Aliyev was convinced that "it is necessary to win the moral right to direct people, to teach them and to bring up". Last decade confirmed not only competency of moral prerogatives, generosity of human soul of Heydar Aliyev, but also recognized it as an ideal of all people verifying the course with the ways traced by our national leader.

Keywords: Modern Azerbaijan, history, Cultural policy,national values, education,architecture

Абстракт: Память народа всегда выступает критерием значимости политического лидера, именно народ не как арифметическая сумма человеческих единиц, а единое целое, образующее конкретное общество, наполненное жизненным содержанием в определенной национальной форме, по истечении времени выносит свою объективную оценку. Прошедшие десять лет, которые наша страна прожила без Гейдара Алиева, со всей очевидностью демонстрируют главную оценку — лидер, ставший при жизни общенациональным, после своего физического ухода стал народным идеалом не только главы государства, но и воплотил в себе национальный идеал самой личности. Гейдар Алиев был убежден в том, что «надо завоевывать моральное право, чтобы руководить людьми, учить их и воспитывать». Прошедшее десятилетие подтвердило не только правомочность моральных прерогатив, щедрость человеческой души Гейдара Алиева, но и признало его идеалом всего народа, сверяющего свой курс с путями, начертанными нашим общенациональным лидером.

Ключевые слова: Современный Азербайджан, история, культурная политика, национальные ценности,образование,архитектура.

Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Dünya miqyaslı Heydər Əliyev çoxəsirlik tarixi və böyük ənənələri olan Azərbaycanın ölkəmizə və xalqımıza, bütövlükdə bəşəriyyətə bəxş etdiyi nadir tarixi şəxsiyyətdir. Ümummilli lider Heydər Əliyevin dövlətçilik təlimində azərbaycançılıq əsas, aparıcı yer tutur.O, azərbaycançılığı mənsub olduğu xalqın ali keyfiyyətlərini özündə birləşdirən siyasi-ideoloji və ümummilli dəyər olmaqla bərabər, həm də bəşəri düşüncəsini zənginləşdirən, yüksək mənada insanlığa xidmət edən özünəməxsusluq kimi qəbul etmişdir.

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Ulu öndər xalqda milli heysiyyəti gücləndirmək, onu öz şanlı keçmişinə, soy-kökünə qaytar-

maq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra aşkar-gizli tədbirlər həyata keçirmişdir. [4, səh. 7]

Heydər Əliyev xalqı dünyada tanıtmaq, milli varlığımızı geniş təbliğ etmək baxımından kinonun imkanlarını teatrdan yüksək qiymətləndirirdi. O, istər ədəbiyyatda, istərsə də kino sənətində tarixi mövzulara üstünlük verirdi. Lakin o, bu fikirdə idi ki, tariximizin taleyini hər yazıçıya, hər rejissora tapşırmaq olmaz. Tarixdən yazan yazıçı həm də tədqiqatçı olmalı, tarixi dərindən bilməli, tarixdən yazmaq səlahiyyəti qazanmalıdır. Bu baxımdan o, "Nəsimi", "Babək", "Dədə Qorqud" filmlərini tarixə konseptual yanaşmalara görə yüksək dəyərləndirirdi.

Müstəqilliyimizin ilk illərində çoxsaylı daxili və xarici problemlərin məngənəsinə düşən respublika son dərəcə çətin və mürəkkəb dövlət quruculuğu yolundan keçməli idi. Həmin illərdə mədəniyyətdə də qatma-qarışıqlıq və qeyri-müəyyənlik, müxtəlif mənfi meyillər baş alıb gedirdi. Bir tərəfdən, anarxiya kimi başa düşülən azadlıq, digər tərəfdən iqtidarda olan qeyri-peşəkar şəxslərin mədəniyyətə çox qəribə, hətta, son, dərəcə bəsit və sadəlövh yanaşması, məsələn, onlar tərəfindən Qərb mədəniyyəti, incəsənəti, dəyərləri və təhsilinin bizə, guya, tamamilə yad olması və lazımsızlığının bəyan edilməsi bu sahənin normal inkişafının qarşısını alır, çağdaş Azərbaycan mədəniyyətini ümumsivil məcradan təcrid edərək ona böyük zərbələr vurur, beləliklə də sağlam rəqabətə meylini azaldırdı. Ümumiyyətlə, demək olar ki, bu mərhələdə düşünülmüş mədəniyyət siyasəti yox dərəcəsində idi.

1993-2003-cü illər ərzində yeni mədəniyyət siyasətinə uyğun olaraq dövlət tərəfindən çoxsaylı və mühüm əhəmiyyətli işlər görülmüşdür. İlk növbədə, mədəniyyət siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri olan hüquqi cəhətdən mükəmməl, dünya standartlarını və milli özəllikləri nəzərə alan qanunların hazırlanmasına ciddi diqqət yetirilmişdir. Bir sıra qanunlar, o cümlədən "Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Turizm haqqında", "Nəşriyyat işi haqqında", "Muzeylər haqqında", "Arxiv fondu haqqında", "Memarlıq fəaliyyəti haqqında" qanunlar, bir sözlə, 2003-cü il daxil olmaqla 21 qanun Milli Məclisdə qəbul edilmiş və ölkə Prezidenti tərəfindən təsdiqlənmişdir. Təhsil və səhiyyə sistemlərində islahatlara başlanılmış, elm, ədəbiyyat və mətbuatda ideoloji senzura ləğv olunmuş, idmanda böyük uğurlar əldə edilmişdir.[5,səh.3]

"Mədəniyyət konsepsiyası" əsasında "Qafqaz Albaniyası irsinin tətbiqi, mühafizəsi və təbliğinə dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inkişafı üzrə Dövlət Proqramı (2014-2018-ci illər)". "Dövlət rəsm qalereyalarının perspektiv inkişafı üzrə Dövlət Proqramı (2015-2025-ci illər)", "2014-2020-ci illərdə Azərbaycan qeyri mədəni irsinin qorunmasına dair döjvlət Proqramı", "Azərbaycan Respublikasında nəşriyyat-poliqrafiya işinin və kitab sənətinin 2015-2020-ci illərdə inkişafına dair Dövlət Proqramı" və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2015-2020-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nın layihələri hazırlanmışdır.

2014-cü il tarixi-mədəni irsin qorunması sahəsində mühüm hadisələrlə yadda qalıb. Azərbaycanda ilk dəfə olaraq Avropa İrs Günləri keçirilmişdir.[3]

Humanist, ədalətli, müdrik, sadə, qayğıkeş, xeyirxah, eyni zamanda iradəli, prinsipial, cəsarətli və qətiyyətli bir insan olan Heydər Əliyev milli-mənəvi dəyərlərimizə dərindən bağlı idi. Ümummilli Liderin ən çox diqqət yetirdiyi məqamlardan biri də azərbaycançılıq ideyasının gücləndirilməsi, dünya azərbaycanlılarının bu amal ətrafında birləşdirilməsi olmuşdur. Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək qürbətdə yaşamaq məcburiyyətində qalmış soydaşlarımızın taleyi Heydər Əliyevi daim narahat edirdi. Onun hələ Naxçıvan Ali Məclisinin Sədri olarkən 1991-ci ildə 31 Dekabrı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etməsi dünyanın 70 ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlının ürəyində Vətən sevgisinin güclənməsinə təkan vermişdir.[1, səh.3]

Bu birliyin siyasi əsaslarının yaradılmasına, təşkilatlanma prosesinin sürətlənməsinə xidmət edən, 2001-ci ildən başlayaraq dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi millətimiz üçün tarixi hadisəyə çevrilmişdir. Böyük qürur hissi ilə ən mötəbər kürsülərdən "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" deyən Heydər Əliyev sözün gerçək mənasında ən böyük Azərbaycanlı idi. [2,səh.3]

Dünya Azərbaycanlılarının I Qurultayında ulu öndər Heydər Əliyev Azərbaycançılığı belə səciyyələndirmişdir: "Azərbaycançılıq öz mili mənsubiyyətini qoruyub-saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub-saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər insanın inkişafının təmin olunması deməkdir". Heydər Əliyev eyni zamanda Azərbaycan dilinin, mədəniyyətinin, milli dəyərlərin, adət-ənənələrinin qorunması və yaşaması üçün siyasi, iqtisadi və hüquqi baza yaradılmasını daim diqqət mərkəzində saxlamışdır. Milli düşüncənin inkişafında dilin əvəzolunmaz vasitə olduğunu yaxşı bilən Heydər Əliyev Azərbaycan dilinin dövlət dili statusu almasına daim səy göstərmişdir. Elə bu səbəbdən də hələ Sovet dövründə respublikamıza rəhbərlik edərkən müxtəlif maneələri dəf etməli olan Ulu Öndər Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit olunmasında israrlı idi. 1978-ci ildə Ulu Öndərin qətiyyət və fədakarlığı sayəsində Azərbaycan dili dövlət dili kimi Konstitusiyaya salınmışdı.

Adət-ənənələrimiz və onların formalaşdırdığı milli dəyərlər sistemi ilə güclü dövlətçilik quruculuğu arasında sıx vəhdət var. Belə ki, hər bir dövlətin gücü, ilk növbədə, adət və ənənələrin cəmiyyəti əxlaqi, milli vətənpərvərlik baxımından düzgün istiqamətə yönəltməsindən, onları saf təməllər üzərində tərbiyə etməsindən asılıdır. Bu baxımdan bütün dövrlərdə adət və ənənələr hər bir dövlətin qüdrətli və uzunömürlü olmasında on minlərlə əsgərin görə bilmədiyi əvəzsiz bir iş görür. Bir sözlə, adət və ənənələr insan münasibətlərinin tənzimləyici və istiqamətvericisi funksiyasını yerinə yetirərək, öz lideri ətrafında möhkəm birləşən güclü və qüdrətli dövlətin meydana çıxmasında önəmli oynayır.

Müstəqil Azərbaycan və onun əldə etdiyi uğurlar ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin şah əsərləridir. Ulu öndərimiz qeyd edirdi:"Yaratdığım hər bir şey mənim üçün əzizdir. Zavod da, fabrik də, yol da, körpü də , bina da, saray da – hər bir şey. Amma mənim üçün hər bir şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır". Bu müqəddəs amala bütün həyatı boyu sadiq qalan Heydər Əliyev elə böyük vətənpərvər, müdrik dövlət xadimi idi ki, xalqının və dövlətinin müqəddəratını yalnız öz fəaliyyəti dövrü üçün düşünmürdü. Bütün parametrlərə görə haqlı olaraq dünyanın ən böyük Azərbaycanlısı adını daşımağa layiq olan Heydər Əliyev Azərbaycanın nailiyyətlərinin, zəfərlərinin sonrakı onilliklərdə də davam etməsi, müəllifi olduğu milli inkişaf strategiyasının bəhrələrinin gələcək nəsillər üçün də daha əlamətdar olması naminə fədakarlıqla çalışmışdır.Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafının uzunömürlüyünü təmin edən təkmil irs, dövlətçilik xətti, siyasi məktəb yaratmışdır. Bu irsin ən layiqli davamçısı, Heydər Əliyev siyasi məktəbinin layiqli təmsilçisi cənab İlham Əliyevdir. Prezident İlham Əliyev ölkəmizi Heydər Əliyev siyasətinin yolu ilə daha işıqlı sabahlara əzmlə aparır!

Ədəbiyyat

1. İbrahimov E. "Həmrəyliyə aparan yol" "Azərbaycan" qəzeti 01 Yanvar 2012.
2. Kazımov M. "Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" , "Xalq qəzeti" 15 dekabr 2012
3. Mədəniyyət və turizm sahəsinin inkişafına dövlət dəstəyi http://www.goranboy-ih.gov.az/page/16.html
5. Milli mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu /tərt. ed. N.Alışova; ixtisas red. və bur. məs. K.Tahirov; red. A.Abdullayeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2011.- 85 s
6. Ələkbərova N. "Heydər Əliyev və müstəqil Azərbaycanın mədəniyyət siyasəti", "Xalq qəzeti" 12 may 2014

İmmi HÜSEYNOVA
Məzahir Rüstəmov adına 32 saylı tam orta məktəb
müəllim
immi.huseynova@atmu.edu.az

AZƏRBAYCAN TƏHSİL STRATEGİYASININ HAZIRLANMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

THE ROLE OF HEYDAR ALIYEV IN THE PREPARATION OF THE EDUCATIONAL STRATEGY OF AZERBAIJAN

РОЛЬ ГАЙДЕРА АЛИЕВА В ПОДГОТОВКЕ ОБРАЗОВАТЕЛЬНОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА

Xülasə: Əsası Ümumilli Lider Heyder Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycan Respublikasında təhsil strategiyası ildən-ilə güclənir və inkişaf edir. Bu inkişafın təməli çox möhkəm, etibarlı və uzunömürlüdür. Məqalədə təhsilin inkişafında Heyder Əliyevin təhsil strategiyasının yeri ve rolu elmi cəhətdən araşdırılır, nəzəri və praktik əhəmiyyət kəsb edən tövsiyələr irəli sürülür.

Açar sözlər*:* dövlət, təhsil, inkişaf, strategiya, elm.

Abstract: The education strategy in the independent Republic of Azerbaijan, which was founded by the National Leader Heyder Aliyev, is strengthening and developing year by year. The foundation of this development is very solid, reliable and durable. In the article, the place and role of Heyder Aliyev's educational strategy in the development of education is scientifically researched, recommendations of theoretical and practical importance are put forward.

Key words*:* state, education, development, strategy, science

Абстракт: Стратегия образования в независимой Азербайджанской Республике, заложенная общенациональным лидером Гейдером Алиевым, с каждым годом укрепляется и развивается. Фундамент этой разработки очень прочный, надежный и долговечный. В статье научно исследуются место и роль образовательной стратегии Гейдера Алиева в развитии образования, выдвигаются рекомендации, имеющие теоретическое и практическое значение.

Ключевые слова: государство, образование, развитие, стратегия, наука.

Ümummilli lider Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində elm və təhsilə yüksək qayğı ilə yanaşmışdır. Ümummilli Liderin təhsilə konseptual baxışının əsasında dayanan əsas milli ideya "təhsili millətin gələcəyi, müstəqil dövlətin təməli" kimi təqdim edən prinsipal yanaşma üzərində qurulur. Bu ideyaya görə hər bir xalqın inkişaf yolu məhz malik olduğu elmi-intellektual potensialla müəyyənləşir və dünya miqyasında özünə layiqli yer tutmaq imkanı qazanır. Bəşər tarixində silinməz iz qoymuş böyük şəxsiyyətlərin elmə və təhsilə münasibəti, bu sahələrin inkişafına verdikləri töhfələr onların əbədiyaşarlığını təmin edən başlıca amillərdən biridir. Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyev də idarəçiliyinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə, xalqımızın intellektual gələcəyini düşünmüşdür. Elmi-intellektual sahədə qazanılan nailiyyətləri dövlət quruculuğu prosesinin vacib şərti və etibarlı təminatı hesab edən ulu öndərimiz milli təhsilimizin mütərəqqi prinsiplər əsasında inkişafı naminə bütün zəruri tədbirləri həyata keçirmişdir.

Ulu Öndər Heydər Əliyev zaman-zaman qəbul etdiyi tarixi qərarları ilə, sözün əsl mənasında, yeniləşməkdə olan müstəqil Azərbaycan dövlətinin qurucusu kimi müqəddəs bir missiyanı həyata keçirmiş oldu. 1994-cü il sentyabrın 20-də ölkənin tarixində son dərəcə taleyüklü bir hadisə baş ver-

di. Azərbaycan dövlətinin və xalqının firavan və xoşbəxt həyatının zəmanətinə çevrilmiş, sürətli inkişafa və tərəqqiyə, müstəqilliyin dönməzliyinə və təhlükəsizliyinə təminat verən, neft müqaviləsi — "Əsrin muqaviləsi" imzalandı.

Məhz Ulu Öndərin qətiyyəti, iradəsi və cəsarəti sayəsində Azərbaycanın müasir tarixinə "qara qızılla" bu millətin ağ günlərinin yeni səhifələri yazılmağa başladı. Ulu öndərin baxışlarına görə "Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün, eləcə də gələcəkdə xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir". Bu sözlərin müəllifi ölkəsinin karbohidrogen ehtiyatlarını strateji xammaldan böyük siyasətin, dünyada gedən inteqrasiya proseslərinin, milli təhlükəsizlik konsepsiyasının faktoruna çevirməyi bacardı. Tarixən ayrı-ayrı dövlətlər, eləcə də bütövlükdə bəşəriyyətə bir çox müsibətlər yaşatmış "qara qızıl" məhz ulu öndərin düşünülmüş, ağıllı taktiki addımları sayəsində dünyanın transmilli neft korporasiyaları qarşılıqlı əməkdaşlıq və milli maraqlarımızın qorunması əsaında Bakıda toplaşdı. Əsrin müqaviləsi Xəzəri sülh və qarşılıqlı əməkdaşlıq çəraitinin təmin olduöu iqtisadi məkana çevirdi. Bir müddət sonra isə Ümummilli Liderin minbir zəhməti sayəsində Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri reallığa qovuşdu ki, bunun da sayəsində bir vaxtlar çoxlarına xəyal kimi görünən "üç dəniz əfsanəsi" gerçəkləşdi. Beləliklə də, Azərbaycan dövləti regionda sülhün dayağına, qədim tarixə malik Bakı şəhəri isə əməkdaşlıq "paytaxt"ına çevrildi və ümummilli lider Heydər Əliyev Azərbaycan neftini Azərbaycan xalqının və dövlətçiliyinin prinsipial maraqlarına uyğun işlətmək kimi çətin bir missiyanın öhdəsindən bacarıqla gəldi.

Məhz bu dövrdən etibarən Azərbaycan Respublikası bütün sosial-iqtisadi istiqamətlərdə sürətlə inkişaf etməyə başladı. Tezliklə ölkədə siyasi-iqtisadi sabitliyi təmin edən ulu öndər ölkəyə rəhbərlik etdiyi əvvəlki dövrlərdə olduğu kimi, müstəqil Azərbaycanda da elmin, təhsilin hamisinə çevrildi. Dövlət rəhbəri və siyasətçi kimi bütün müsbət xüsusiyyətləri özündə cəmləşdirən Heydər Əliyev çox düzgün olaraq elm-təhsil sahəsinə xüsusi diqqət göstərirdi.

Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda, Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyinin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən "Ümummilli Lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu öndərin baxışlarına görə "təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".

Müşahidələr göstərir ki, həqiqətən də belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil etmişdir. Son dövrlər həyata keçirilən islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə, Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır.

Məlumdur ki, milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi bu nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə birlikdə götürülür. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq isə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruri sayılır. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir. Bu mənada Ulu Öndər Heydər Əliyevin təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün onun respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci dönəmində reallaşdırılan bu strateji əhəmiyyətli sahənin dünəninə və bugününə diqqət yetirmək lazımdır.

Bir faktı qeyd etmək kifayətdir ki, "Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. Belə ki, Ulu Öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Ümummilli Lider öz çıxış-

larında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd edirdi ki, "təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

Tarixi reallıqlardan aydındır ki, Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, eləcə də xalqımızın unudulmaz oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi.

Bir məsələni də qeyd etmək lazımdır ki, Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Qeyd olunduğu kimi, Ulu Öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissəsi olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

Bu da danılmaz faktdır ki, Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Eyni zamanda, araşdırmalardan aydın olur ki, 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə – ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər. Nəzərə alsaq ki, istənilən sahədə, o cümlədən elmdə sürətli inkişafın

başlıca amillərindən biri də çevik inteqrasiya və beynəlxalq əməkdaşlıqdır, onda yuxarıda qeyd edilənlər də Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul edilə bilər.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində Ümummilli Lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təbii ki, yuxarıda qeyd edildiyi kimi, keyfiyyətli orta təhsili olmayan, yəni baza təhsilinə malik olmayan insanların ciddi elmi araşdırmalar aparması qeyri-mümkündür. Bu baxımdan da, elmin və elmi tədqiqatların inkişafından söhbət gedirsə, ilk növbədə orta ümumtəhsil sisteminə diqqət yetirilməsi zəruridir. Təbii olaraq, elm və təhsilə göstərilən diqqətin nəticəsidir ki, Ümummilli Lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir. Ulu öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əməkhaqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir.

Məlumdur ki, Heydər Əliyev ideyalarının, irsinin əzəmətini, böyüklüyünü başa düşməyin bünövrəsi, əsası ibtidai siniflərdə qoyulur. Müəllimlər bu işdə mümkün qədər daha sistemli və ardıcıl çalışmalıdırlar. Bilmək lazımdır ki, şagirdlərin Ulu Öndər Heydər Əliyevin nümunəsində tərbiyəsinin ibtidai təhsil illəri üçün perspektiv planlaşdırma təcrübəsi gündəlik iş kimi adi hala çevrilməlidir. Məhz ibtidai siniflərdən başlayaraq, yorulmaz, zəhmətkeş, valehedici dərəcədə çalışmaq qabiliyyəti olan bir insan kimi Heydər Əliyevin obrazını açıb göstərmək lazımdır. Onun Azərbaycan məmləkəti adlanan doğma vətən, yurd təəssübkeşliyi, xalqa, vətənə vurğunluğu, sədaqəti haqqında uşaqlara bu yaşlardan başlayaraq ardıcıl əsaslı bilik və məlumatlar vermək lazımdır. Bu böyük şəxsiyyətin azərbaycançılıq, dövlətçilik uğrunda apardığı mübarizənin çətin, keşməkeşli yolunu kiçik yaşlı məktəblilərin başa düşəcəyi bir dildə öyrətmək lazımdır. Ümummilli Liderin humanizm, sülh, insanlar və xalqlar arasında münasibətlərin düzgün qurulması, dostluq və əməkdaşlıq nümunələri ibtidai sinif şagirdlərinin yaş və bilik səviyyəsinə uyğunluğu nəzərə alınmaqla öyrədilməlidir. Bütünlükdə Heydər Əliyevin həyat nümunəsi, siyasi-ictimai fəaliyyəti, yaradıcılıq irsi pedaqoji və metodiki əsasları müəyyənləşdirilməklə müntəzəm, davamlı şəkildə, lazım olduğu səviyyədə kiçik yaşlı məktəblilərə çatdırılmalıdır.

Azərbaycan Respublikasının müasir təhsil sistemi Heydər Əliyevin təhsil strategiyasının töhfəsidir. Bu strategiya milli məfkurə üzərində qurulmuş və təhsildə keyfiyyətin davamlı şəkildə artımına şərait yaradan vasitələrin təmin edilməsini nəzərdə tutur. Buraya cəmiyyətdəki ictimai-siyasi sabitlik, iqtisadi artım, əhalinin rifahının yüksəldilməsi kimi önəmli məsələlər daxildir. Cəmiyyətdəki bu faktorların vəziyyəti təhsil mühitini formalaşdırır. Ümummilli Lider əlverişli təhsil mühtinin yaradılmasını təhsil konsepsiyasının əsası kimi götürüb. Təhsilin müasir dünyanın mütərəqqi təcrübəsi ilə sıx inteqrasiyası, təhsilin elmlə əlaqəsi, təhsilin keyfiyyətinin artırılması kimi məsələlər Ulu Öndərin çıxışlarında, nitqlərində xalqa, təhsil prosesinin iştirakçılarına birbaşa çatdırılıb.Təhsil və millətin gələcəyi, gənc nəslin sağlam və bilikli yetişməsi, müəllimə münasibət məsələlərinin hər biri Ulu Öndərin təhsil strategiyasının dərinliyini özndə ehtiva edir. Heydər Əliyevin təhsil konsepsiyası onun çıxışlarında öz parlaq əksini tapır. Bizim müasir təhsil konsepsiyamızın mənbəyi Heydər Əliyevin təhsil haqqındakı fikir və mülahizələridir. Bu konsepsiya üzərində təhsil strategiyamız hazırlanmışdır. İnanırıq ki, Heydər Əliyevin konseptual baxışları üzərində qurulmuş, intellektual potensialımızı reallaşdırmağa xidmət edən təhsil strategiyamız millətimizi daha gözəl, daha firavan gələcəyə aparacaqdır.

Ümummilli liderin bu ənənələrini davam etdirən Prezident İlham Əliyevin 2007-ci ilin aprelində imzaladığı sərəncamla "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair Dövlət Proqramı"nı təsdiq etməsi ölkəmizin təhsil sahəsində beynəlxalq əlaqələrinin daha da genişlənməsinə hərtərəfli imkanlar açmışdır. Proqram çərçivəsində təhsil almaq hüququ qazanmış tələbələrin sayı 3558 nəfərə çatmış, bu günədək dövlət proqramı çərçivəsində 1470 nəfər məzun olmuşdur. Həmin məzunlar dünyanın ən aparıcı universitetlərində ölkəmiz üçün zəruri olan tibb, mühəndislik, İKT, kənd təsərrüfatı, turizm və digər sahələr üzrə təhsil almışlar. Proqram mə-

zunlarının 95 faizi öz ixtisas istiqaməti üzrə, 5 faizi başqa sahədə fəaliyyətini davam etdirir. Məzunların 60 faizi özəl sektorda, 40 faizi isə dövlət sektorunda çalışır.

Ulu öndərin 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayında "Çox uzun bir müddət ərzində məktəbin işinə yalnız bir göstəriciyə, əsas hesab edilən göstəriciyə görə qiymət verilirdi: məktəbin nə qədər məzunu tələbə olmuş, ali məktəb diplomu almışdır. Bu nöqteyi-nəzəri dəyişdirmək vaxtı gəlib çatmışdır. Bilikli, bacarıqlı, əməksevər adamlar yetişdirmək məktəbin ən birinci borcudur. Məzun əməyə hazırdırmı – bu gün məktəbin işinin, bütün xalq maarifi sisteminin səmərəliliyi, bax, bu meyarla müəyyən edilir", 1999-cu ildə respublika təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə "İnsan təhsilinin əsasını orta məktəbdə alır... Əgər 11 il müddətində uşaq I sinifdən başlayaraq sona qədər köklü təhsil almasa, yaxşı hazırlaşmasa, o gedib universitetə imtahan verə bilməz. Heç lazım da deyil ki, hər bir orta təhsil alan getsin universitetə imtahan versin. Bu, mümkün də deyildir. Bu, keçmişdə də mümkün olmayıbdır, bu gün də mümkün deyildir – ancaq ola bilər, ondan sonra gedib universitetdə ali təhsil almasa da, həyatda yaşayacaqdır, həyatda fəaliyyət göstərəcəkdir, cəmiyyətdə olacaqdır. Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, özünü, ailəsini yaşadacaqdır. Amma ən vacibi də odur ki, cəmiyyətimizin qürurlu üzvü olacaqdır" fikirləri bu gün də ümumi təhsilin məqsəd və vəzifələrini müəyyənləşdirən əsas amillərdir. Bu fikirlərdən çıxış edərək Heydər Əliyev peşə təhsilinin inkişafına böyük diqqət göstərirdi. Respublikada texniki-peşə təhsili şəbəkəsinin inkişaf dinamikasının təhlili göstərir ki, ötən əsrin 80-ci illərində 184 məktəbdə 230 peşə üzrə 110 min şagird təhsil alırdı.

Müstəqillik illərində də ilk peşə-ixtisas təhsilinin inkişafı əsas prioritetlərdən biri kimi müəyyənləşdirilmişdir. İlk peşə-ixtisas təhsili sahəsində peşə hazırlığının səmərəliliyini artırmaq və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2016-ci il tarixli fərmanı ilə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılmış və fəaliyyətə başlamışdır. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı il tarixli fərmanına uyğun olaraq peşə təhsili və təliminin inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyən edilmiş, "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" hazırlanmış və təsdiq edilmişdir. Hazırda əmək bazarının tələbləri nəzərə alınmaqla müasir peşə-tədris mərkəzlərinin yaradılması sahəsində yerli və beynəlxalq təşkilatlarla birgə layihələr həyata keçirilməkdədir.

Azərbaycanın müstəqilliyinin ilk illərində Heydər Əliyev tərəfindən irəli sürülən bu konseptual ideyalar məqsədyönlü şəkildə reallaşdırılmaqdadır. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli fərmanı ilə 12 istiqamət üzrə strateji yol xəritələri təsdiq edilmişdir. Strateji yol xəritələrində dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə sektorlar üzrə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli tədbirlərin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması qarşıda duran əsas prioritet vəzifələr kimi müəyyənləşdirilmişdir.

Ümummilli lider öz çıxışlarında ümumtəhsil məktəblərində ayrı-ayrı fənlərin tədrisini, şəxsiyyətin formalaşdırılmasını təmin edən və onlara zəruri həyati bacarıqlar aşılayan mühüm amil kimi dəyərləndirirdi. Onun 1975-ci ildə tələbələrlə görüşdə "Yeniliyi dərindən mənimsəmək, yaradıcılıqla düşünməyi bacarmaq, özünə çalışqanlıq, axtarış bacarığı, tədqiqat məharəti aşılamaq lazımdır" kimi gənclərə ünvanladığı dəyərli tövsiyələr hazırda ümumi təhsilin başlıca məqsədlərindən birinə çevrilmişdir. Ulu öndərin 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayında irəli sürdüyü "Məktəbdə ana dilinin və ədəbiyyatın tədrisi formalarını və metodlarını daim təkmilləşdirmək, uşaqlarda sözə, obrazlı təfəkkürə məhəbbət hissi aşılamaq, onları mədəniyyət nailiyyətləri ilə, dünya və Azərbaycan poeziyası və nəsri klassiklərinin yaradıcılığı ilə, ədəbiyyatın qızıl fonduna daxil

olmuş görkəmli əsərlərlə tanış etmək lazımdır. Ana dilini, doğma xalqın ədəbiyyatını, mədəniyyətini dərindən bilmək elmli adam üçün zəruri keyfiyyətdir, vətəndaşın şəxsiyyətinin hərtərəfli inkişafı üçün şərtdir", "Bizim məktəblər şagirdlərin riyaziyyat, fizika, kimya, biologiya və başqa fundamental fənlər sahəsində möhkəm biliklərə yiyələnməsini təmin etməlidir. Gənclər elmi işçilərin sırasına daha fəal qoşulmalı, elmi-texniki tərəqqinin tətbiq edilməsinin önündə getməlidirlər. Fundamental və texniki fənləri dərindən mənimsəmək, bu fənlərin tədrisi səviyyəsinə daim diqqət yetirmək lüzumu bundan irəli gəlir", "İctimai fənlərin təlimi keyfiyyətinin böyük əhəmiyyəti vardır. Gənc şəxsiyyətin təşəkkülündə, gənclərin dünyagörüşünün formalaşdırılmasında ictimai fənlərin rolu xüsusilə böyükdür. İctimai fənləri yaxşı bilmək hər bir məktəblidə vətənə məhəbbət hissinin, xalqın rifahı naminə fədakarlıqla çalışmaq əzminin tərbiyə olunmasına və inkişaf etdirilməsinə kömək edir", 1994-cü ildə Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə dediyi "Azərbaycan dili öz söz ehtiyatına görə, fikri ifadə etmək imkanlarına görə çox zəngindir. Ancaq lazımdır ki, Azərbaycan dilinin bu zənginliyi, bu böyük imkanları orta məktəbdə ilk təhsilə başlayan hər bir gənc tərəfindən mənimsənilə bilsin və gənclərimiz artıq orta məktəbdə öz dilini, ədəbi dilini, mədəni dilini yaxşı mənimsəsin, öz dilində yaxşı danışa bilsin, öz dilində fikrini ifadə edə bilsin", "Azərbaycan tarixi gərək orta məktəblərimizdə gənclərimizə yaxşı aşılansın. Gənclərimiz öz tarixini, öz tarixi köklərini və öz keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bu günü və gələcək mənəviyyatı bununla bağlıdır" sözləri indi də həmin fənlərin məqsəd və vəzifələrini aydın ifadə edir. Eyni zamanda ümummilli liderin bu mülahizələri hazırda aparılan məzmun islahatları çərçivəsində ümumi təhsilin standartları və proqramlarının (kurikulumlarının) işlənməsində aparıcı istiqamət kimi nəzərə alınır.

Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" 1999-cu il iyunun 15-də təsdiq edilmişdir. Proqramda təhsilin gələcək inkişaf konsepsiyası və strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu. İslahat proqramının əsas konseptual ideyasını və təməl prinsiplərini Heydər Əliyevin irəli sürdüyü müddəalar - təhsil sistemində hər bir yeniləşmənin təkamül yolu ilə aparılması, dünyanın inkişaf etmiş ölkələrinin islahat təcrübəsinin nəzərə alınması və islahatların xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanılması təşkil etmişdir.

Dahi Heydər Əliyevin təhsil sahəsində islahatları üzrə konseptual ideyalarının davamı kimi hazırda "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" həyata keçirilməkdədir. Sənədə əsasən beş strateji istiqamətdə islahatlar aparılır:

1. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması.
2. Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması.
3. Nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan təhsildə yeni idarəetmə sisteminin formalaşdırılması.
4. Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması.
5. Təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması.

Azərbaycan Boloniya Bəyannaməsinə 2005-ci ilin mayında qoşulmuşdur. Lakin çox əlamətdardır ki, ulu öndər bu bəyannamədə təsbit olunmuş əsas məqsədlərin mahiyyətini hələ 1999-cu ildə təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasında bəyan etmiş, "Azərbaycanın təhsil sistemində təhsil alan insanların və xüsusən ali məktəbləri bitirənlərin bilik səviyyəsi və onların biliklərini təsdiq edən sənədlər gərək dünyanın inkişaf etmiş ölkələrinin ali məktəblərinin bilik səviyyəsinə uyğunlaşdırılsın. Onların prinsiplərinə uyğunlaşdırılsın ki, Azərbaycanda təhsil almış və mühəndis diplomu almış bir

insan başqa ölkələrdə də həmin diplomla qəbul edilə və fəaliyyət göstərə bilsin" deməklə uzaqgörənliklə ölkəmizin ali təhsil sistemi qarşısında dayanan ən zəruri vəzifəni müəyyənləşdirmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda təhsilin inkişafı ilə bağlı şərəfli fəaliyyətinə qısa nəzər saldıqda bir daha sübut edir ki, dahi şəxsiyyətin zəngin irsi qiymətli bir xəzinə kimi daim öyrənilməlidir. Zamandan asılı olmayaraq Heydər Əliyev ideyaları daim yaşayacaq və müstəqil Azərbaycanın inkişafı və tərəqqisinə öz töhfəsini verəcəkdir.

Ədəbiyyat

1. Əhmədov, Aydın. Azərbaycanın ümumi təhsili Heydər Əliyev ideyalarının işığında: Ulu Öndərin fəaliyyətində təhsil siyasəti, təhsil quruculuğu daim önəmli mövqe tutmuşdur //Azərbaycan müəllimi. - 2022. - 17 fevral. - № 7. - S. 1,7.
2. Hacıyev Rəhman Balabəy oğlu - Azərbaycan gəncliyinin himayədarı, Bakı, 2014
3. Heydər Əliyev və Azərbaycan elmi: biblioqrafik göstərici, Bakı, 2010
4. Həsənova, Samirə. Dinamik inkişaf edən təhsilimiz Ulu Öndər Heydər Əliyev təlimindən qaynaqlanır // Olaylar.-2023.-17-30 mart.-№11.-S.10.
5. http://anl.az/down/meqale/azerbaycan/2017/may/541616.htm
6. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm
7. https://nuhcixan.az/news/cemiyyet/15110-heyder-eliyev-irsi-boyuyen-nesillerin-terbiye-numunesidir

Zümrüd İMANOVA
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
imanovazumrud544@gmail.com
Orcid id: 379.85

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINA DƏSTƏYİ

GREAT LEADER HEYDAR ALIYEV'S SUPPORT FOR THE DEVELOPMENT OF TOURISM IN AZERBAIJAN

ВЕЛИКИЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ ПОДДЕРЖИВАЕТ РАЗВИТИЕ ТУРИЗМА В АЗЕРБАЙДЖАНЕ

Xülasə: Azərbaycanın adının bu gün dünyanın bir çox qabaqcıl ölkələri ilə bir sırada çəkilməsində Ulu Öndərin sonsuz əməkləri olmuşdur. Heydər Əliyevin rəhbərlik etdiyi müddətində bütün sahələrin inkişafı kimi turizm sahəsində də bir çox uğurlu siyasəti olmuşdur. Ulu Öndər bir sıra islahatlar, qanunlar, qərarlar qəbul etməklə bu sahədə inkişafa nail olunmuşdur. Görülən işlərin nəticəsində regionlarda turizm infrastrukturunun, ekskursiya bürolarının sayı və keyfiyyəti artırıldı. Azərbaycan gözəl təbiəti, mülayim iqlimi tarixi abidələri ilə turistlərin həmişə diqqətini çəkmişdir.

Açar sözlər: Heydər Əliyev, turizmin inkişafı, ekskursiya, sanatoriya, turist

Abstract: Today, the name of Azerbaijan is mentioned among many advanced countries of the world due to the endless work of the Great Leader. Heydar Aliyev, had many successful policies in the development of all fields as well as in the field of tourism during his leadership. Development has been done in this field by adopting many reforms, laws, decisions by the Great Leader. As the result of the work done, the number and quality of tourism infrastructure, excursion bureaus have been increased in the regions. Azerbaijan has always been in the focus of attention with its beautiful nature, soft climate and historical monuments.

Keywords: Heydar Aliyev, tourism development, excursion, sanatourium, tourist

Абстракт:Сегодня имя Азербайджана стоит в одном ряду со многими передовыми странами мира благодаря неустанным усилиям Великого Лидера. Во время руководства Гейдара Алиева, наряду с развитием всех сфер, в сфере туризма было реализовано много успешных политик. Развитие в этой области способствовал ряд реформ Великого Вождя, принятие законов и указов. В результате проделанной работы увеличено количество и качество туристической инфраструктуры и туристических агентств и регионах. Азербайджан всегда привлекал внимание туристов своей красивой природой, мягким климатом и историческими памятниками.

Ключевые слова: Гейдар Алиев, развитие туризма, экскурсия, санаторий, турист

Hər bir xalq, hər bir dövlət yaşam tarixində torpağını, xalqını sevən, onu mübarizə meydanında qələbəyə, çətin anlarda işığa doğru aparan rəhbərə, şəxsiyyətə ehtiyac hiss edir. Hər bir dövlətin bir dövlət olaraq formalaşmasında, millətlər sırasında mətin dayanmasında böyük şəxsiyyətlərə daim ehtiyacı var. Müasir Azərbaycanın xilaskarı və memarı, ümummilli liderimiz Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenimumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri təyin olmuşdur. 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur [7, s. 7-8].

Turizm müasir dünyamızda bütün ölkələri maraqlandıran iqtisadi, sosial və ekoloji bir faktdır. Azərbaycanın həm təbii və tarixi zənginlikləri, həm də iqlim şərtləri baxımından olduqca zəngin bir turizm potensialına malikdir. Tarixə nəzər salsaq yüz illərdən bəri Azərbaycan torpaqlarına səyahət edənlərin maraqlarını davamlı olaraq öz üzərinə cəlb etmişdir. Azərbaycan dövləti yalnız əlindəki təbii sərvətlərin ixracatı və satışı ilə iqtisadi inkişafa nail olmağa çalışmış, digər sektorları isə diqqətdən kənarda qalmışdır. Bu səbəbdən bundan 20 il əvvəl Sovet ölkələrinin turizm sahəsində ən çox inkişaf etmiş və çox əhəmiyyətə malik olan Azərbaycan torpaqları sözü gedən vaxtlarda müəssisələrdən, düşərgələrindən və müalicəvi istirahət mərkəzlərindən faydalana bilməmiş, hətta bunlar istifadə edilə bilməz hala gəlmişdir. Azərbaycanda turizm ilə bağlı işlər başlanğıcını keçən əsrin 80-ci illərindən götürür. Bunlar əlbəttə ki, o zamankı Azərbaycan SSRİ-nin rəhbəri Azərbaycan Respublikasının Ümumilli lideri Heydər Əliyevin səyləri nəticəsində olmuşdur.

Bu illərdən başlayaraq kurort turizmi geniş inkişaf etmişdir. Habelə, 1984-cü ildə Azərbaycan Xəzərsahili zonada ümumi ittifaq əhəmiyyətli kurort yaradılmışdır [3, s. 4; s. 8].

1969-cı ildə Sumqayıtda və Naftalanda, 1971-ci ildə Xankəndində, 1972-ci ildə Mingəçevirdə, 1978-ci ildə Naxçıvanda ekskursiya büroları fəaliyyətə başladı. Kütləvi turist-ekskursiya tədbirlərinin keçirilməsi, bu məqsədlə qatarlardan, dəniz və çay gəmilərindən, təyyarələrdən və avtobuslardan geniş istifadə olunmasına başlanıldı [4, s. 91]. Bununla yanaşı ölkədə turist və istirahət bazalarının sayı sürətlə atırdı. Belə ki, 1970-ci ildə Zaqatalada və 1972-ci ildə Şuşada turist bazalarının yeni binaları, 1975-ci ildə Qəbələdə "Qafqaz", Nabranda "Dostluq" turist bazaları, Bakıda "Qarabağ" turist mehmanxanası istifadəyə verildi.

XX əsrin 60-cı illərindən sonra ölkədə sanatoriya xidmətləri də genişlənməyə başladı. Xüsusilə, 1970-ci illərdə Abşeronda (Mərdəkan, Buzovna, Şüvəlan, Pirşağı) müxtəlif sanatoriya müəssisələri istifadəyə verilir. 1960-1990-cı illərdə sanatoriya və pansionatlarda yerlərin sayı 6000-ə çatdırılmışdır.

Azərbaycanda daxili turizm hərtərəfli inkişaf etsə də, xarici turizm sektoru isə Moskvada fəaliyyət göstərən "İnturist" təşkilatı tərəfindən istiqamətləndirilirdi. Azərbaycandan xarici turizm marşurutlarının keçməsi, bu sahənin inkişafına təkan verirdi. Həmin dövr üçün çox tanınan Daşkənd-Səmərqənd-Buxara-Krasnovodsk-Bakı-Tiflis-Təl-Əviv marşrutu hazırda bərpa olunan İpək Yolu

turizm marşrutunun keçdiyi yolları əhatə edirdi. 1980-cı illərdə Azərbaycanda turizmin şöhrəti bütövlükdə keçmiş ittifaqa yayılır. Azərbaycan Respublikasında turizmin inkişafında 1983-cü il yadda qalan olmuşdur. Həmin vaxtlar Qara dəniz sahillərində ittifaq və beynəlxalq əhəmiyyətli turizm obyektlərinin çoxalması və sahil zonanın ekoloji cəhətdən yüklənməsi, hakim dairələri turist axınının Azərbaycanın Xəzər sahillərinə yönəldilməsi tədbirlərini həyata keçirməyə sövq etmişdir. Bu məqsədlə SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini işləmiş Ulu Öndərimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə "Xəzərin Azərbaycan sahillərində ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması" barədə qərar qəbul edilir. Bundan sonra Azərbaycan Respublikası Nazirlər Sovetinin 1984-cü il 2 oktyabr tarixli 381 saylı qərarına əsasən, Azərbaycan Respublikasında 2000- ci ilə qədər turizmin inkişaf sxemi qəbul olunur. Bu qərara uyğun qəbul olunmuş proqrama əsasən Xəzərin Azərbaycan sahillərində 21300 yerlik müxtəlif turizm obyektləri tikilib istifadəyə verilməli idi. Bunun da əsas hissəsini istirahət və turist bazalarının genişləndirilməsi təşkil edirdi.

Bu illər ərzində respublikaya xarici ölkələrdən 50, sabiq sovet respublikalarından 250 minə yaxın turist gəlmişdi. Həmin il Azərbaycan vətəndaşlarının 10 min nəfəri xarici ölkələrdə, 300 min nəfərə yaxını isə SSRİ ərazisində turist səfərlərində olmuşlar. 1988-ci ildə başlanan Ermənistan – Azərbaycan münaqişəsi turizm təsərrüfatında idarə olunma sisteminin pozulmasına səbəb oldu. Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşurutları ləğv olundu. Dağlıq Qarabağda baş verən məlum hadisələr və keçid dövrünün çətinlikləri iqtisadi-mədəni əlaqələrin zəifləməsinə səbəb oldu ki, bu da Azərbaycana turist axınını zəiflətdi. Bütün bu amillər turizm sektoruna mənfi təsir etdi və bu sahə tənəzzülə uğradı [6, s.18-20].

Qarabağda ermənilərin azərbaycanlılara qarşı apardıqları düşmənçilik siyasəti nəticəsində doğma yurd-yuvalarından yüz minlərlə yerli əhali qovularaq demək olar ki, Azərbaycanın hər yerində məcburi köçkün olaraq məskunlaşmışdılar. Azərbaycan hökuməti 16 dekabr 1988 tarixli qərarı ilə Ermənistandan qovulmuş azərbaycanlıların ölkənin turistik təsisatlarında yerləşdirilməsinə başlanmışdır [2, s. 92].

Müstəqilliyimizi qazandıqdan sonra dinamik inkişaf yolunu seçmiş Azərbaycan milli turizmin geniş istifadəsi üçün sosial-iqtisadi rifahın, bölgələrdə artan inkişaf tempi, əlverişli təbii mühiti və mülayim iqlimin mövcud olması, dövlətin bütün bunlardan maksimum şəkildə faydalanaraq müxtəlif turizm potensialı zəngin olan bölgələrdə bir sıra yeni turizm obyektlərinin açılmasına, formalaşdırılmasına və inkişafına şərait yaratmışdır.

1991-ci ildə Nazirlər Kabinetində Turizm Şöbəsi yaradılması haqqında qanun qəbul edilmişdir. 1999-cu ildə Ulu öndər Heydər Əliyevin turizm sahəsinə göstərdiyi qayğının nəticəsində "Turizm haqqında" qanun qəbul edildi [3, s. 4-5]. Onun tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafı üzrə Dövlət Proqramı" ölkəmizdə turizm sahəsində dövlət siyasətinin əsaslarını və bu sahənin əsas istiqamətlərini müəyyən etmiş, Azərbaycanda turizmin inkişafına təkan vermişdir [1, s. 4].

Ölkə iqtisadiyyatının turizm sahəsinə yönəlik maraqları nəticəsində turizm potensialı olan regionların durumu geniş müzakirə edildi və bu regionlara potensialın üzə çıxması üçün böyük məbləğdə investisiyalar yatırıldı. Bu uzaqgörən iqtisadi siyasət, keçmiş dövrlərdə istifadəyə yararsız olan yüzlərlə turistik obyektlərin yenidən bərpa edilib turistlərin istifadəsinə verilməsi nəticəsində ölkəmizə çox saylı turist və valyuta axını gətirdi [3, s. 5].

Son illər Azərbaycanın turizm ölkəsinə çevrilməsi üçün həyata keçirilən dövlət siyasəti nəticəsində respublikada turizm infrastrukturu müasir tələblərə uyğun qaydada daha da inkişaf etdirilir. Turizm Azərbaycanda post-neft dövrü üçün bütövlükdə iqtisadiyyatın inkişafına stimul verəcək aparıcı sektor hesab edilir. Paytaxt Bakıda və bölgələrdə beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etmək, cavab verən yeni mehmanxana və istirahət mərkəzlərinin tikilməsi, mədəni iaşə obyektlərinin inşası və ümumilikdə turizm infrastrukturunun müasirləşdirilməsi məqsədi ilə görülən işlər ölkəmizə ildən-ilə daha çox turistin gəlməsinə şərait yaradır [1, s. 4].

Turizmin inkişaf etdirilməsi iqtisadiyyatın müxtəlif sahələrinin formalaşmasını və inkişaf etməsini təmin edir. Xüsusilə, Azərbaycanda postneft erasının başlaması və alternativ iqtisadi inkişaf

sahələrinin inkişaf etdirilməsinə ehtiyacın ortaya çıxması durumunda turizmin inkişaf etdirilməsi bölgələrdə sosial-iqtisadi problemlərin həll olunmasına imkan verir [5, s. 4].

2001-ci ilin sentyabr ayının 25-də Cənubi Koreya Respublikasının paytaxtı Seul şəhərində Ümumdünya Turizm Təşkilatının XIV Baş Assambleyasında Azərbaycan Respublikası bu beynəlxalq turist təşkilatına üzv qəbul olunmuşdur.

Hər il Azərbaycanda da 27 sentyabr Turizm Günü kimi qeyd olunur. Bununla bağlı müxtəlif tədbirlər, ümumrespublika daxili turizm konfransları, turizm sahəsinə aid layihələr həyata keçirilir.

Gənclər, İdman və Turizm Nazirliyi ləğv olunaraq Mədəniyyət və Turizm Nazirliyi təşkil edilmişdir [8].

"Azərbaycan Respublikasında 2002-2005 illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edildikdən sonra ölkədə turizm ehtiyatlarından səmərəli istifadə olunur [8]. Proqramın əsas vəzifələri ölkənin turizm potensialından səmərəli istifadə etməklə Azərbaycan Respublikasında turizmin inkişafına nail olmaq, turizm sahəsində sahibkarlığı, ilk növbədə kiçik və orta sahibkarlığı inkişaf etdirmək, rəqabətə davamlı turizm bazarı yaratmaq, turizmdən dövlət və yerli büdcələrə daxil olan vəsaitin həcmini artırmaq, turistlərə xidmətin keyfiyyətinin yüksəldilməsini, onun beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etmək, turizm fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsini həyata keçirmək, turizm infrastrukturunu onun maddi-texniki bazasını möhkəmləndirməkdir. Xarici investorları turizm sahəsinə cəlb etmək üçün turist müəsissələrinin beynəlxalq turizm proqramlarında iştirakı üçün əlverişli şərait yaratmaqdır [6, s. 404]. Respublika ərazisində turizmin inkişafını təmin etmək məqsədilə 2002-ci ildə beynəlxalq standartlara cavab verən 7 əsas (Bakı-Xaçmaz, Bakı-Astara, Bakı-Balakən, Bakı-Qazax, Bakı-Abşeron yarımadası – Qobustan, Bakı-Naxçıvan, Bakı-Şuşa) turist marşurutu müəyyənləşdirilmişdir.

Əlverişli iqlim şəraiti (Lənkəran-Astara, Nabran-Yalama, Abşeron və b.) müalicəvi mineral sular, neft və palçıqlar (Lənkəran, Kəlbəcər, Naxçıvan, Naftalan, Abşeron və b.) sağlamlıq turizminin inkişafına geniş imkan yaradır. Respublika dövlət təbiət qoruqlarının və milli parkların sayının artması təbiət, ekoloji və ekzotik turizm növlərinin inkişafını sürətləndirmişdir.

6600-dən artıq mədəniyyət abidəsini əhatə edən Milli-Mədəni İrs Siyahısı qəbul edilmişdir. 65-i dünya, 2034-ü ölkə, qalanı isə yerli əhəmiyyətlidir. UNESCO-nun Dünya İrs Siyahısına Azərbaycandan da İçərişəhər Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə salınmışdır (2000). "İçərişəhər" Tarix-Memarlıq Qoruğunun ərazisindəki 10 dünya, 27 ölkə əhəmiyyətli abidə maraqlı turizm obyektləridir.

Bakıda dünyanın ən böyük mehmanxana şəbəkələrinə daxil olan beşulduzlu "Hyatt Reegency" (1995), "Grand Hotel Europe" (1997), "Radisson SAS Plaza Hotel" (1998), "Park Hyatt Hotel" (1999) və b. fəaliyyət göstərir.

Ulu Öndərin hər bir sahədə qurduğu siyasi, iqtisadi, mədəni kursu Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müstəqil Azərbaycanda turizm sahəsinin infrastrukturu ciddi şəkildə inkişaf etmişdir. Azərbaycanda turizm müasir həyat tərzinin və mədəniyyətin mühüm atributu, beynəlxalq əlaqələrin bir forması kimi inkişaf etdirillir.

2020-ci ilin payızında Azərbaycanın 20 faiz ərazisinin Ermənistan ordusunun işğalından azad edilməsindən sonra yeni yolların çəkilməsi, hava limanlarının istifadəyə verilməsi, "ağıllı" şəhər və kəndlərin salınması həmin regionda turizmin inkişafına xeyli dərəcədə təkan verəcəkdir [8].

Ədəbiyyat

1. Abdullayev M. Yerli Turizmin təşkilində bələdiyyələrin iştirakı: (metodik vəsait) – Bakı – 2017. – 80 s.
2. Bünyadov Z. Azərbaycan tarixi. AzərNəşr. – Bakı, 1994. − 680 s.
3. Əmiraslanlı E. Azərbaycanda Turizm sektorunun inkişafının regional aspektdən qiymətləndirilməsi: / bakalavr dərəcəsi üzrə diplom işi) / – Bakı, 2018. – 58 s.
4. Həsənzadə Ü. Heydər Əliyev və Azərbaycan Turizmi. / Turizm və rekreasiya XXI əsrdə: problemlər və prespektivlər. – Bakı, 2019. – 303 s.
5. Salıfov T. Azərbaycanda Turizmin inkişafına sosial-mədəni amillərin təsiri. / sosiologiya üzrə fəlsəfə doktoru dissertasiyanın avtoreferatı) / – Bakı, 2021. – 23 s.

6. Soltanova H. Azərbaycan Respublikasında Turizm və onun inkişafı. – Bakı, 2015. – 238 s.
7. Ümumilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibəti ilə Azərbaycanın özü qədər əbədi olan şəxsiyyəti: (metodik vəsait) / tərt. ed. Ruhiyyə Məmmədli – Bakı, 2013. – 34 s
8. https://republic.preslib.az/az_c7-5.html.

Mehriban ALLAHQULUYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
müəllim
mehriban.allahguluyeva@atmu.edu.az

ANA DİLİMİZİN İNKİŞAFINDA TARİXİ ŞƏXSİYYƏTLƏRİN ROLU

РОЛЬ ИСТОРИЧЕСКИХ ЛИЧНОСТЕЙ В РАЗВИТИИ РОДНОГО ЯЗЫКА

THE ROLE OF HISTORICAL FIGURES IN THE DEVELOPMENT OF THE NATIVE LANGUAGE

Xülasə: Azərbaycan dili Azərbaycan xalqının milli sərvətidir. Azərbaycan dilinin inkişafı uzun və ziddiyyətli bir yol keçmişdir. Azərbaycanın mədəniyyət və dövlət xadimləri dilimizin inkişafında müəyyən töhvələr vermişlər.

Görkəmli dövlət xadimi H.Əliyev bütün sahələrdə, o cümlədən ana dilimizin inkişafında, təbliğində özü örnək olmuş, N.Nərimanovun bu sahədəki fəaliyyətini davam etdirmişdir.

Açar sözlər: dil, milli, şəxsiyyət, dövlət

Abstract: The Azerbaijani language is the national property of the Azerbaijani people. The development of the Azerbaijani language has passed a long and contradictory path.

Cultural and state figures of Azerbaijan have made a certain contribution to the development of our language.

The outstanding statesman H. Aliyev himself became an example in all areas, including the development and spread of our native language, and continued the activities of N.Narimanov in this area.

Keywords: language, national, personality, state

Абстракт: Азербайджанский язык является национальным достоянием азербайджанского народа. Развитие азербайджанского языка прошло долгий и противоречивый путь.

Культурные и государственные деятели Азербайджана внесли определенный вклад в развитие нашего языка.

Выдающийся государственный деятель Г.Алиев сам стал примером во всех областях, в том числе в развитии и распространении нашего родного языка, и продолжил деятельность Н.Нариманова в этой области.

Ключевые слова: язык, национальное, личность, государство

Ana dili hər bir xalqın milli sərvəti, həmin xalqın varlığının təsdiqidir. Dil millətin formalaşmasında vacib olan amillərdən biridir. Xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk növbədə, onun dilində öz əksini tapır. Dil, həm də, çətin tarixi-siyasi dövrlərdə millətin varlığını sürdürməsi üçün əsas vasitədir. Dilini itirən xalq məhvə məhkumdur. Azərbaycan dili də Azərbaycan xalqının milli sərvətidir və xalqımız, millətimiz tarix durduqca bu sərvətin qayğısına qalmalı və dilimizi gələcək nəsillərə ötürməlidir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Lakin Azərbaycan dilinin yaxın keçmişdə ciddi sınaqlarla üzləşdiyini də unutmaq olmaz.

Azərbaycan dili qədim və zəngin tarixə, ənənəyə, rəngarəng dil faktlarına, inkişaf etmiş fonetik, leksik və qrammatik sistemə, çoxcəhətli və əhatəli üslublara malikdir. Bu dil bizə məlum olan konkret

ərazidə – Böyük Azərbaycanda eramızın ilk əsrlərində oğuz-səlcuq dilləri zəminində formalaşmış, məhəlli-qəbilə, tayfa səviyyəsindən 50 milyondan çox azərbaycanlı türkünün istifadə etdiyi müasir, ümummilli dil səviyyəsinə yüksəlmişdir. Müasir dünyanın xəritəsinə nəzər salsaq, görürük ki, Azərbaycan dilinin yayılma arealı XX əsrdə çox genişlənmişdir. Xüsusilə sovet ittifaqı dağıldıqdan sonra bu proses daha da sürətlənmişdir. Azərbaycan dilini yaşadan xalqımızın çoxu Azərbaycan Respublikasında (10 milyon) və Cənubi Azərbaycanda (30-35 milyon), 20-25 milyonu isə Rusiyada, Orta Asiya Respublikalarında, Amerikada, Avstraliyada, Türkiyədə və Qərbi Avropa ölkələrində yaşayır.

Dünyanın bütün qitələrində ünsiyyət vasitəsi kimi səslənən Azərbaycan dili Azərbaycan xalqının milli mənliyi və ən qiymətli, əvəzolunmaz sərvətidir. Azərbaycan dilinin inkişafı, çiçəklənməsi, zənginləşməsi uzun və ziddiyyətli bir yol keçmişdir. Bu işdə xalqımızın soykökündə iştirak edən qəbilə, tayfa, xalq və neçə-neçə etnik qrup fəal rol oynamışdır. Azərbaycan dilinin bu günkü səviyyəyə çatmasında xalqımızın mənəvi zənginləşməsi və təkmilləşməsi, elmi, bədii və məntiqi təfəkküründün formalaşması mühüm rol oynamışdır. Azərbaycan dilinin yüksək zirvəyə qalxmasında, beynəlxalq nüfuz qazanmasında aşağıdakı amillər əhəmiyyət kəsb edir:

1. Dilimizin şirinliyi, sadəliyi, ahəngdar səslənməsi və dil faktları ilə zəngin olması;
2. Bu dili yayan, təbliğ edən çox güclü bədii, fəlsəfi və siyasi əsərlərin yaranması;
3. Bütün dövrlərdə dilimizin canlı təbliğatçısı olan istedadların olması;
4. Dilimizin yayıldığı, işləndiyi tarixi-coğrafi mühit;
5. Azərbaycan dili hakim dil iddiasına düşməsə də, bu dildən çoxları bəhrələnmiş və indi də istifadə edirlər. Azərbaycan dili Azərbaycan türklərinin ana dili olması ilə yanaşı, respublikamızda yaşayan diğər etnosların da ikinci ana dili kimi çıxış edir;
6. Siyasi-iqtisadi və ictimai amillərdən irəli gələrək Azərbaycan dili həmişə öz mövqeyini möhkəmləndirmişdir;
7. Dövlət dili statusu daşıyır.

Xalq təkcə özünün çoxluğu, geniş ərazisi, təbii sərvətləri, iqtisadi inkişafı ilə deyil, həmçinin mənəvi sərvəti sayılan dili, mədəniyyəti, ədəbiyyatı, musiqisi, incəsənəti, şərəfli tarixi ilə, xüsusi ilə bütün bunları yaradıb-yaşadan övladları ilə tanınır. O övladlar ki, öz həyatını xalqının taleyi ilə bağlamışlar. Onlar ayrı-ayrı dövrlərdə xalqının kimliyini sübut edən ölçü vahidinə çevrilirlər. Azərbaycan xalqının tarixində bu sahədə ən böyük xidmət yazıçılara, alimlərə, sənət adamlarına, şifahi xalq ədəbiyyatının daşıyıcılarına, Şah İsmayıl Xətai, N.Nərimanov, M.Ə.Rəsulzadə və əlbəttə, Heydər Əliyev kimi dövlət başçılarına nəsib olmuşdur. XI əsrdən ta bu günə kimi Xətib Təbrizi, Qətran Təbrizi, Xəqani, Nizami, Əvhədi, Həsənoğlu, Nəsimi, Xətai, Füzuli, Qövsi Təbrizi, Saib Təbrizi, Vaqif, Aşıq Ələsgər, M.F.Axundov, Ə.Haqverdiyev, N.Vəzirov, C.Məmmədquluzadə, Sabir, Müşfiq, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm, R.Rza, S.Rəhimov, B.Vahabzadə, M.Araz, Şəhriyar, Qabil, Anar və onlarca digər yüksək mədəniyyət sahibi, söz bilicisi, Xətai, N.Nərimanov və Heydər Əliyev kimi dövlət xadimləri Azərbaycan ədəbi dilinin inkişafında, çiçəklənməsində, zəngin üslubların formalaşmasında öz sözlərini demişlər. Bunun bariz nümunəsini Azərbaycan ədəbiyyatının klassikləri, xalqımızın müdrik söz söyləyənləri əməli olaraq dəyərli bir xəzinə kimi gələcək nəsillərə ötürmüşlər.

Dahiləri dahi edən, zamanın sınaqlarından çıxaran da elə dildir. Dil, söz ağlın, şəxsin, millətin güzgüsüdür. Dahi Nizami Gəncəvi "Leyli və Məcnun" poemasında deyəndə ki, "Aqil ki, görünməz bir xəlifədir; Qüvvəti, qüdrəti sözlərindədir", – məhz bunu nəzərdə tutmuşdur. [12-13] Sözün, dilin ilahi qüdrəti haqqında çoxları söz açsa da, onun dəyərini, qiymətini M.Füzuli qədər heç kim verməmiş. Onun sözə verdiyi qiyməti şərh etmək üçün cilid-cilid kitablar lazımdır. M.Füzuli "söz"ü belə qiymətləndirir: "Xəlqə ağzın sirrini hər dəm qılır izhar söz, Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz. Artıran söz qədrini sidq ilə qədrin artırır, Kim nə miqdar olsa da, əhlin eylər ol miqdar söz. Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl Edə hər saət səni ol yuxudan bidar söz..." Verdiyimiz seçmələrdən göründüyü kimi, bu insanlar ixtisasca dilçi, dil nəzəriyyəçiləri olmasalar da, öz yazılarında, söhbətlərində dilə dair olduqca dəyərli fikirlər söyləmiş, dilimizi yad təsirlərdən qorumuş, Azərbaycan ədəbi dilinin formalaşmasına əməli kömək göstərmişlər. 700 il öncə "Məndə sığar iki cahan,

mən bu cahana sığmazam", – deyən böyük Nəsimi bütün dövrlərdə şerin, sözün zirvəsində dayanmış, dilimizin ilahiliyindən, gözəlliyindən xəbər vermişdir.

"Düşdü yenə dəli könül gözlərinin xəyalinə,
Kim nə bilir bu könlümün fikri nədir, xəyali nə?
Al ilə ala gözlərin aldadı aldı könlümü,
Alını gör nə al edər, kimsə irişməz alinə...
Ay ilə gün sücud edər surətini görücəgiz,
Bu nə cəmalü hüsn olur, səlli-əla cəmalinə.
Buldu Nəsimi çün səni, keçdi qamudan, ey sənəm,
Qoydu hərirü ətləsi, girdi əbavü şalinə".

Azərbaycan dili VII-XX əsrlərdə, bəlkə də yeganə dildir ki, dörd dilin ünsiyyətilə qarşılaşmış, qalib çıxmış, saysız-hesabsız əlifba islahatlarına məruz qalmışdır.

Azərbaycan dili, ədəbiyyatı və mədəniyyəti sahəsində iki görkəmli şəxsin xidmətlərini çox böyük hörmətlə yad edir: yazıçı-dramaturq M.F.Axundov və yazıçı, dövlət xadimi N.Nərimanov. Bu şəxslər, həqiqətən bütün varlıqları ilə xalqına, dilinə bağlı olmuşlar. Azərbaycan dili tarixinin əvəzsiz tədqiqatçısı prof. Ə.Dəmirçizadənin təbirincə desək, "M.F.Axundov ümumi Şərq xalqlarını, xüsusən azərbaycanlıları maarifləndirmək, yeni mədəniyyət aləminə daxil etmək, feodalizm, despotizm və [17-18] din əsarətindən xilas etmək uğrunda mübarizə apararkən, ictimai ünsiyyətin əvəzsiz vasitəsi – mədəniyyətin forması və ən kəskin silahı olan dili nəzərdən qaçırmamış, hətta dil və onun təzahur forması olan yazı (yəni özünün qəbul etdiyi kimi – "Qrafik dil") məsələsi ilə xüsusi məşğul olmuşdur. O, dil və dilçilik məsələləri ilə həm nəzəri, həm də əməli surətdə məşğul olmuş, əməli əhəmiyyəti olan ən mühüm sahələrə əl atmış və ən xəstə cəhətləri sağaltmağa ciddcihd ilə çalışmışdır" (1, s.14).

Azərbaycan mədəniyyəti tarixində tək-tək ziyalı tapmaq olar ki, o, mütəfəkkir alim, böyük drammaturq, dil məsələlərində alovlu və prinsipial mübariz M.F.Axundov qədər əlifba problemini ön plana çəkmiş olsun. Onun fikrincə, dil və yazı mədəni yüksəliş üçün çox mühüm və əvəzsiz bir vasitədir. Böyük dramaturq öz yaradıcılığında şer, dram, nəsr dilinə, terminalogiyanın məsələlərinə toxunmuş, Azərbaycan dilinin orfoqrafiya və orfoepiyası üçün dəyərli fikirlər söyləmiş, yazıda aydınlığı, dəqiqliyi təmin etməkdə durğu işarələrinin vacibliyini elmi şəkildə şərh etmişdir. Bir sıra durğu işarələrinin - sual /?/, mötərizə /( )/, dırnaq /«»/, qoşa nöqtə /:/, üç nöqtə /.../, nida /!/ işarələrini yeni əlifbaya - latın qrafikalı əlifbaya ilk gətirən məhz o olmuşdur. Cəhalətin hökm sürdüyü və dilçilik elminin inkişaf etmədiyi XIX əsrdə M.F.Axundov ürək ağrısı ilə yazırdı: "Bizim gələcək övladlarımız bu ideyanı hə - [18-19] yata keçirməyi, şübhəsiz, məmləkətin hər cür tənzimat və tədbirlərindən qabaq və üstün sayacaqlar. Övladlarımız və gələcək nəsil görəcəklər ki, müasirlərimiz nə qədər şüursuz olmuşlar və minlərlə təəssüf edəcəklər. Bizim ideyamızı həyata keçirəcək, qəbrimizin üstündə abidə qoyacaqlar. O zaman mənim arzum yerinə yetəcək və mən indidən rahat ola bilərəm. Hərçənd mən o sevincli və könül açan epoxaya qədər yaşayacağam" (Klassiklərimiz dil və yazı haqqında, B., 1981, s.37-38).

Mənəvi dəyərlərimizdən, xalqımızın ictimai-siyasi, sosial problemlərindən söhbət gedərkən N.Nərimanov kimi tarixi bir şəxsiyyətin xidmətlərini mütləq qeyd etmək lazımdır. XX əsrin əvvəllərində N.Nərimanov yazıçı, müəllim, həkim, ictimai xadim, dövlət rəhbəri kimi mənəvi dəyərlərimizin qorunub saxlanması, xalqımızın maariflənməsi üçün dəyərli işlər görmüşdür. Bunlardan ən önəmlisi onun Azərbaycan dili ilə bağlı söylədiyi fikirlər və gördüyü işlərdir. Bu təbii bir haldır. İctimai-siyasi məsələlərlə məşğul olan şəxs üçün dil müstəsna rola malikdir. Çünki dil sadəcə olaraq adi ünsiyyət vasitəsi deyil, prof. Ə.Dəmirçizadənin dediyi kimi: "Dil - müəllimin aləti, təlim və tədris vasitəsi olduğu kimi, yazıçının da bədii məhsul vasitəsidir; dövlət xadiminin isə ictimai anlaşma vasitəsi və mübarizə silahıdır" (Yenə orada, s.39). [21-22]

N.Nərimanov dil haqqında düşüncəsini, ana dilinin fəlsəfəsini hələ 1906-cı ildə "Həyat qəzetində" (№181) şairanə tərzdə belə ifadə etmişdir: "Ana dili... Nə qədər rəfiq, nə qədir ali hissiyatı qəlbiylə oyandıran bir kəlmə! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzimli bir qüvvə! Ana dili! Bir dil ki, 12 mehriban bir vücud öz məhəbbətini, şəfqəti madəranəsini sənə o dildə bəyan edibdir; bir dil ki, sən daha

beşikdə ikən, bir laylay şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhən ən dərin guşələrində nəqş bağışlayıbdır! Bir dil ki, həyat və kainat haqqında ilk əvvəl o dil sayəsində bir fikir hasil edibsə, cisim və ruhun möhtac olduğu muradı o dildə tələb eyləyibsən... Bir dil ki, ibtida o dildə yaxşı-yaman bilibsən...". N.Nərimanov yazılarında ən çox ədəbi dil, ədəbi dil və şivə, ədəbi dilin lüğət tərkibi, fonetika, qrammatika, yazı, əlifba və durğu işarələri məsələlərinə toxunub faydalı fikirlər söyləmişdir.

Görkəmli dövlət xadimi H.ƏIiyev bütün sahələrdə, o cümlədən ana dilimizin inkişafında, təbliğində özü örnək olmuş, N.Nərimanovun bu sahədəki əvəzsiz fəaliyyətini davam etdirmişdir. H.Əiiyev Azərbaycan xalqının və onun dilinin mənşəyi, formalaşması, sabitləşməsi kimi məsələlərə çox ciddi yanaşır, bütün bunları elmi faktlarla əsaslandırır. H.ƏIiyevin Azərbaycan dili ilə bağlı dilçilik görüşləri çoxcəhətlidir. Onun çıxışlarında yeri gəldikcə dil siyasəti, dil quruculuğu, dil mədəniyyəti, yazı və əlifba, üslublar və sair yaxşı, özü də yerli-yerində əsaslandırılır. O, Azərbaycan dilinə xalqımızın əvəzsiz sərvəti, tarixi, mədəniyyəti, mədəni sərvəti kimi yanaşır. Bunu onun alimlərlə, yaradıcı ziyalılarla, diplomatlarla, tələbələrlə, xaricdə yaşayan həmvətənlərimizlə, təsərrüfat adamları ilə söhbətlərində duyuruq. H.ƏIiyevin səyi nəticəsində Azərbaycan dili Azərbaycan Konstitusiyasında təsbit olunmuşdur. Möhtərəm prezidentimiz H.ƏIiyev elə bir ciddi toplantı yoxdur ki, orada dilimiz, milli mənliyimiz, milli sərvətimiz, tariximiz, mədəniyyətimiz və s. [26-27] haqqında söz açmasın. Xüsusilə gənclərlə görüşlərdə bu məsələlər ön plana çəkilir, çox dərin və məzmunlu mətləblər açılır, vətəndaş qayğıkeşliyi ilə bu fikirlər təbliğ olunur, insanların beyninə həkk edilir. Onun işlətdiyi sözlər, ifadələr, cümlələr, söz və cümlələrin sıralanması, söz və ifadənin təkrarlanması, bir mətləbə təkrar-təkrar qayıtması, sözə və ifadəyə xüsusi məna verməsi, qarşıdakı insanların fikri qavramalarına əmin olması, ən çətin fikirləri və mənaları çox sadə, adi sözlərlə çatdırması H.Əliyev cənablarının başlıca silahıdır. Bu mənada o, ən məşhur natiqləri belə heyran qoyur

H.Əliyev H.ƏIiyevin Azərbaycan dilinin qorunması və inkişafı istiqamətində gördüyü ən böyük xidmət dilimizə Dövlət statusu verilməsi istiqamətində gördüyü əməli işlərdir. Xüsusilə son bir neçə ildə Azərbaycan dili və əlifbası, xalqımızın mənəvi dəyərləri ilə bağlı H.ƏIiyevin imzaladığı tarixi fərman və sərəncamlar bu istiqamətdə olduqca əhəmiyyətli işlərin görülməsinə imkan yaratmışdır. H.ƏIiyev verdiyi fərmanın reallaşması istiqamətində ciddi işlər gördü. Hər şeydən əvvəl, aidiyyatı olan insanlara anlatdı ki, Azərbaycan dili, sadəcə olaraq bir ünsiyyət vasitəsi kimi başa düşülməməlidir. Hər bir azərbaycanlı anlamalıdır ki, ulu babalarımızın, aqillərimizin bizə yadigar qoyduqları bu dil tarixdir, mənəviyyatdır, Azərbaycan xalqının varlığı və Azərbaycan adlı müstəqil dövlətin əsas simvoludur.

Əsrlər, qərinələrdir ki, xalqımıza, o taylı-bu taylı Azərbaycana xidmət edən dilimiz qədim tarixə malik olan, min illərin növbənöv burulğanlarından üzüağ çıxaraq dövrümüzə gəlib çatmış ən böyük mənəvi sərvətimizdir. Azərbaycan dili tarixi-genetik dəyərlərimizi, ruhumuzu, həyatımızın psixoloji-fəlsəfi cizgilərini yaşadan milli varlıqdır. Bu gün dünyada 50 milyondan çox azərbaycanlı bu dildə danışır, öz milli mədəniyyəti, tarixi ilə haqlı olaraq qürur hissi keçirir, millətinin sabahı, gələcəyi barədə düşünür, müstəqil Azərbaycanla fəxr edir, qürur duyur. İnsan, vətəndaş kimi borcunu başa düşür, dolayısı ilə Azərbaycan dilinə borclu olduğunu dərk edir. Bu dillə ruhunu, fikrini, istək və arzusunu, böyük ideallarını ifadə edir. Xalqımızın laylalarını, nəğmələrini, nağıllarını, dastanlarını bu dillə qəlbinə hopdurur. Azərbaycan dilinə olan sevgi, bağlılıq, doğmalıq onun qüdrətini torpaq və Vətən qədər müqəddəs zirvəyə çatdırır.

Tarixin dolanbaclarından, sərt sınaqlarından üzüağ çıxan dilimiz bu gün dünyanın ən inkişaf etmiş, zəngin dillərindən biridir. Azərbaycan dili ulu babalarımızdan bizə miras qalan milli sərvətimizdir. Bu sərvəti dədə-babalarımız göz bəbəyi kimi qorumuş, klassiklərimiz Azərbaycan dilinin mövqelərinin möhkəmlənməsində əllərindən gələni əsirgəməmiş, tarixi şəxsiyyətlərimiz isə dövlət dili kimi rəsmiləşməsinə, daha da inkişafına qayğı göstərmişlər.

Dilimiz dövlət rəmzlərimiz olan himn, gerb, bayraq kimi müqəddəsdir. Müstəqil dövlətin müqəddəs atributlarına qayğı ilə yanaşmaq hamının borcudur. Xüsusilə, Azərbaycan dilinə qayğıkeşlik göstərməkdə ziyalıların, ədəbiyyatçıların, yazıçıların, dilçilərin daşıdıqları məsuliyyət daha böyük-

dür. Ona görə ki, cəmiyyətin bu təbəqəsi təkcə Azərbaycan dilindən istifadə etmir, həm də onun tətbiqi işinin təkmilləşməsinə, inkişaf etməsinə, lüğət tərkibinin zənginləşməsinə qayğı göstərirlər.

Böyük ictimai xadim və yazıçı Nəriman Nərimanov yazırdı: "Bir millət sözünü tanımayınca, hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır. Bunların da meydana gəlməsi və tərəqqisi bizim üçün hürriyyətə bağlıdır".

Müasir Azərbaycan dili mütəxəssisləri bu qənaətdədir ki, türk dillərinin, o cümlədən Azərbaycan dilinin daxili enerjisinin, potensial gücünün, ifadə imkanlarının və lüğət tərkibinin zənginliyi, qrammatik quruluşunun bütövlüyü və s. xüsusiyyətlər dilimizin assimilyasiyasının qarşısını almışdır. Tarixi həqiqət çox doğru olaraq onunla əsaslandırılır ki, digər türk dilləri kimi Azərbaycan dili də ərəb, fars, Avropa dillərinin təsirinə qarşı müqavimət göstərmiş, müasir inkişaf səviyyəsinə gəlib şatmışdır.

Hər bir dilin praktik işlənməsi üçün münbit şəraitlə yanaşı, onun yad təsirlərə qarşı müqavimətli olması da böyük rol oynayır. Belə olmadıqda dil assimilyasiya olunar, gələcək nəsillərə gəlib çatmaz, bu əvəzsiz xəzinədən ulularımızdan bizə miras qalan qiymətli sərvətdən hamı məhrum olardı. Dilimiz ərəb və fars dillərinin təsirinə və təqibinə məruz qalsa da, məğlub olmamış, xalqa məxsusluğunu qoruyub saxlamışdır. Sadəcə şairlərimiz öz dilində deyil, ərəb və fars dillərində yazıb-yaratmağa məcbur olsalar da yazdıqları ilə də ümumtürk mədəniyyətinə, bəşər sivilizasiyasına xidmət etmişlər. Dilimizin daxili potensial imkanları, gücü, enerjisi və müqaviməti yad dillərin mövqeyini üstələyə bilmiş, bununla da dilimiz elm, sənət və ədəbiyyat dili kimi daim hücumçu mövqedə olmuş, qalib gəlmək və yaşamaq haqqına sahib çıxmışdır.

Dilimizə yaşam hüququ verən amillərdən biri də bu dilin olduqca həyati olmasıdır. Dünyada yaşayan 50 milyon azərbaycanlı harada olmasından asılı olmayaraq bu dili unutmurlar. Hazırda Cənubi Azərbaycanda yaşayan 30 milyon azərbaycanlı doğma dilində məktəblərin yoxluğuna baxmayaraq, Azərbaycan dilini yaşadırlar, bu dil ilə fəxr edir, bu dil ilə sevinclərini, kədərlərini bölüşürlər.

Vaxtilə ustad Xəlil Rza Ulutürk dünyanın harasında olmasından asılı olmayaraq, xalqın öz dilində təhsil almaq hüququnu müdafiə edir, onu bu hüquqdan məhrum edənlərə nifrətini şair – vətəndaş mövqeyini ortaya qoyurdu:

Danış, xəbərdar eylə Təbrizdəki valini,
Dilimə xor baxanın qopardaram dilini.

Azərbaycanın müstəqillik qazanmasıyla bu dilə maraq daha da artıb. Dünyanın onlarla universitetində Azərbaycan dili öyrənilir. ABŞ-ın altı (Şikaqo, Los-Ancelos, Vaşinqton, Nyu-York, San-Fransisko, Harvard) universitetinin proqramında Azərbaycan dili öyrənilir. Azərbaycan dilinə Asiya, Avropa və digər qitə ölkələrində maraq artmaqdadır.

Məlumdur ki, XXI əsr Azərbaycan dilinin inkişafında əlamətdar hadisələrlə zəngindir. Xüsusilə dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, ana dilimizin inkişafı, tətbiqi və təsir dairələrinin genişlənməsi ilə bağlı ümummilli liderimiz Heydər Əliyevin fərmanları, sərəncamları, habelə digər hüquqi-normativ aktlar, qanunlar, dilimizin daha da inkişafı üşün əlverişli şərait yaradır. Bu şərait Azərbaycan dilinin tədrisi işinin yüksək səviyyədə qurulmasına da geniş imkan və perspektivlər açır.

Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. Hazırda ölkəmizdə cəmiyyətimizin elə bir sahəsi yoxdur ki, Azərbaycan dili orada rahat işlədilə bilməsin.

Azərbaycan dilinin "Kitabi-Dədə Qorqud" kimi mükəmməl eposu var. Təkcə bu kifayətdir ki, dilimizin qədim tarixi ilə öyünək. Bayatılarımızın, laylalarımızın, nağıl və dastanlarımızın tarixini isə yəqin ki, eramızdan çox-çox əvvəllərdə axtarmalıyıq.

Bu gün Azərbaycan dilini tədris edən və bu işdən şərəf duyan biz müəllimlər qarşısında şox mühüm, müqəddəs vəzifələr dayanır. İnanırıq ki, Azərbaycan dilinin işlənmə arealının, təsir dairəsinin genişləndiyi, onun tədrisinə böyük önəm verildiyi bir dönəmdə dilçi alimlərimiz, elmimizin cəfakeşləri bu şərəfli missiyanın da öhdəsindən ləyaqətlə gələcək, ulu öndərin Azərbaycan dilinin inkişafı naminə qəbul etdiyi qərarlar, imzaladığı qanunlar, fərman və sərəncamlar isə bu yolda daim işıq saçacaqdır.

Ədəbiyyat

1. Klassiklərimiz dil və yazı haqqında, Bakı, 1981
2. Ayşən Sadiqli.Ümumilli lider heydər Əliyev və Azərbaycan dili. Bakı, Mütərcim-2011.
3. Elməddin Əlibəyzadə.Azərbaycan ədəbi dilinin tarixi. 2 cilddə (I cild), Bakı, 2007

İlkin MƏMMƏDLİ
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
memmedlilkinten@gmail.com

DÖVLƏT SİYASƏTİNDƏ İDARƏETMƏNİN YERİ VƏ ROLU

THE PLACE AND ROLE OF MANAGEMENT İN PUBLİC POLİCY

МЕСТО И РОЛЬ МЕНЕДЖМЕНТА В ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКЕ

Xülasə:Dövlət siyasətində idarəetmənin yeri və rolu son dövrlərdə daha da artmış və əhəmiyyəti artmaqdadır. İdarəetmə, dövlətin səmərəliyyini və effektivliyini artırmaq, maliyyəsini nəzarət altında saxlamaq, qanunvericiliyə uyğunluğu təmin etmək, daxili və xarici münasibətlərini idarə etmək üçün ən vacib məsələlərdən biridir.

İdarəetmə, dövlətin qurumları və strukturları vasitəsi ilə aparılır və dövlətin məqsəd və vəzifələrini yerinə yetirir. İdarəetmə, ən vacib qanunvericilik və siyasi qərarların hazırlanması, tərtib edilməsi və icrası üçün mühüm bir rol oynayır. İdarəetmə, dövlətin iqtisadi, sosial və siyasi sahələrdəki fəaliyyətlərini nəzarət altında saxlamaq üçün də əhəmiyyətli bir vasitədir.

Dövlət idarəçiliyi, dövlət təşkilatlarının effektivliyini artırmaq və inkişaf etdirmək üçün də əhəmiyyətli bir rola sahibdir. İdarəetmə, dövlətin maliyyə resurslarını səmərəli şəkildə idarə etməyə və dövlət büdcəsinin idarə edilməsinə də kömək edir.

İdarəetmə prosesi, dövlətin səmərəliyyini və effektivliyini artırmaq, maliyyəsini nəzarət altında saxlamaq, qanunvericiliyə uyğunluğu təmin etmək, daxili və xarici münasibətlərini idarə etmək üçün dövlət idarəçiliyinin ən mühüm vəzifələrindən biridir.

Açar sözlər: idarəetmə, siyasət, dövlət, çevik idarəetmə, yenilik, rol

Abstrakt: The place and role of management in state policy has increased and its importance is increasing in recent times. Management is one of the most important issues for increasing the efficiency and effectiveness of the state, keeping its finances under control, ensuring compliance with legislation, and managing its internal and external relations.

Management is carried out through the institutions and structures of the state and fulfills the goals and tasks of the state. Governance plays an important role in the preparation, formulation and implementation of the most important legislative and political decisions. Management is also an important tool to control the economic, social and political activities of the state.

Public administration also has an important role to increase and develop the effectiveness of public organizations. Governance also helps to effectively manage the financial resources of the state and manage the state budget.

The management process is one of the most important tasks of public administration in order to increase the efficiency and effectiveness of the state, keep its finances under control, ensure compliance with legislation, and manage its internal and external relations.

Keywords: management, politics, state, flexible management, innovation, role

Абстракт: В последнее время возросло место и роль управления в государственной политике и возрастает его значение. Управление является одним из важнейших вопросов повышения эффективности и действенности государства, удержания его финансов под контролем, обеспечения соблюдения законодательства, управления его внутренними и внешними связями.

Управление осуществляется через институты и структуры государства и выполняет цели и задачи государства. Государственное управление играет важную роль в подготовке, формулировании и реализации важнейших законодательных и политических решений. Менеджмент также является важным инструментом контроля за экономической, социальной и политической деятельностью государства.

Государственное управление также играет важную роль в повышении и развитии эффективности общественных организаций. Управление также помогает эффективно управлять финансовыми ресурсами государства и управлять государственным бюджетом.

Процесс управления является одной из важнейших задач государственного управления в целях повышения эффективности и действенности государства, удержания его финансов под контролем, обеспечения соблюдения законодательства, управления его внутренними и внешними отношениями.

Ключевые слова: управление, политика, государство, гибкое управление, инновации, роль

Giriş

Dövlət siyasətində idarəetmə, dövlətin məqsədlərinə nail olmaq üçün strateji planların hazırlanması, təşkilatlanması və idarə olunmasıdır. Bu, bir neçə mərhələdən ibarət olur və dövlətin qoyduğu məqsədlərə nəzarət edir. İdarəetmə prosesi, dövlətin vətəndaşlarına təqdim etdiyi xidmətlərin və məhsulların effektivliyinin təmin edilməsi, səmərəliliyin artırılması və bərpa olunması üçün əlavə dəyərlər yaratmaq məqsədi ilə aparılır.

İdarəetmə, effektiv və effektivsizliyin ayrılmasını təmin edir və maliyyəsini kontrol altında saxlayır. Bu, dövlətin büdcəsi və vəsaitlərinin nəzarət altında tutulması deməkdir. İdarəetmə, dövlət idarəetməsinin fəaliyyətinin səmərəli olmasını və yaxşı nəticələr verməsini təmin edir.

Həmçinin, idarəetmə dövlətin siyasəti və proqramları ilə uyğunluğunun və əlaqəli qanunvericiliyin təmin edilməsində rol oynayır. Bu, qanunvericilik prosesinin düzgün şəkildə həyata keçirilməsini, prosedurların və protokolların izlənilməsini təmin edir.

İdarəetmə, dövlətin daxili və xarici münasibətlərində də əhəmiyyətli bir rol oynayır. Dövlətin xarici siyasəti, diplomatik münasibətləri və miqrasiya siyasəti kimi sahələrdə idarəetmə prosesi, dövlətin xarici siyasətinin müəyyən edilməsi, icrası və yaxşı nəticələr verilməsi üçün əlavə dəyərlər yaratmaq üçün aparılır.

Ümumiyyətlə, idarəetmə prosesi, dövlətin səmərəliyyini və effektivliyini artırmaq, maliyyəsini nəzarət altında saxlamaq, qanunvericiliyə uyğunluğu təmin etmək, daxili və xarici münasibətlərini idarə etmək üçün dö vlət tərəfindən tətbiq edilən bir nizam və tədbirdir. Bu proses, dövlətin hər bir sahəsindəki fəaliyyətlərinin planlaşdırılması, icrası və nəzarəti ilə bağlıdır. İdarəetmə, dövlətin məqsədlərinə çatmaq üçün bütün resursları effektiv bir şəkildə istifadə etməyə çalışır. Bu, dövlətin sosial, iqtisadi və siyasi sahələrdə inkişaf etməsinə və təhlükəsizliyinə kömək edir. [1,s.222]

İdarəetmənin başlıca məqsədi, dövlətin fəaliyyətinin transparensiyanı təmin etməkdir. Bu, dövlət orqanlarının fəaliyyətləri və qərarlarının açıq və səmərəli şəkildə verilməsinə imkan verir. Həmçinin, idarəetmə, dövlətin maliyyəsini nəzarət altında saxlamaq üçün də vacibdir. Bu, dövlətin büdcəsinin effektiv istifadəsini təmin edir və sərf edilən məbləğlərin yoxlanılmasına imkan verir.

İdarəetmə prosesi ayrıca, dövlətin müxtəlif sahələrdə təşkil etdiyi qanunvericiliklərin tətbiqini təmin etmək üçün də istifadə olunur. Bu, hüquqi qaydaların bərpa edilməsini təmin edir və dövlətin sosial və siyasi stabilliyini qoruyur.

Dövlət siyasəti, bir ölkədə hər hansı bir konuda qərar vermək üçün dövlət tərəfindən tətbiq edilən bir sənəddir. İdarəetmə isə bu sənədin icrası üçün lazım olan addımların həyata keçirilməsidir. İdarəetmə prosesi, dövlət orqanlarının, nümayəndələrinin, qurumların və digər aktör və təşkilatların bir arada çalışması ilə aparılır.

İdarəetmənin yeri və rolu dövlət siyasətinin həyata keçirilməsinə və ölkənin sosial-iqtisadi inkişafına dəstək olmaqdadır. İdarəetmə, dövlətin təşkilatı və quruluşlarının, sənaye, ticarət, maliyyə və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin, vətəndaşların və digər cəmiyyət üzvlərinin birgə işləməsi üçün çətinlikləri aradan qaldırır. Bu əməliyyatlar, ölkənin məqsədlərinə uyğun olaraq dövlət siyasətinin icrasını təmin edir və nəticədə ölkənin inkişafına təkan verir.

İdarəetmə, dövlətin qanunvericilik və icra qurumlarının fəaliyyətinin tənzimlənməsində də böyük rol oynayır. Bu, qanunların və tədbirlərin hazırlanması, tətbiqi və müvafiq sahələr üzrə nəzarət edilməsi işinə aid olur. Həmçinin, idarəetmə, ölkədə qanun və düzgünlük hökmlərinin yerinə yetirilməsini təmin edir.

Ən vacib rolu, idarəetmənin dövlətin insanlarına xidmət etməsidir. Dövlət, sosial və iqtisadi qurumları ilə birgə çalışaraq, xalqının sağlamlığı, təhsili, iş imkanları, mənzili, təxminən çoxluqların tələb etdiyi bütün xidmətləri təmin edir. [2,s.100]

Qısaca deyək ki, idarəetmə, dövlət siyasətinin həyata keçirilməsi və ölkənin inkişafına dəstək olmaq üçün böyük bir rol oynayır.

Dövlət siyasətində idarəetmənin rolu, dövlətin icra və idarəetmə qurumlarının effektiv bir şəkildə işləməsi və dövlətin məqsədlərinə uyğun olaraq strateji planların hazırlanması, icrası və nəzarəti ilə əlaqəlidir. İdarəetmə, dövlətin qarşısına qoyduğu məqsədlərə nail olmaq üçün tədbirlər təklif edir, planlar hazırlayır, proqramlar təqdim edir və onların icrasını nəzarət edir.

İdarəetmə prosesi, dövlətin qanunvericiliyinə uyğun olmalı və dövlət təşkilatının quruluş prinsiplərinə əsaslanmalıdır. Məsələn, idarəçilik prosesi demokratik, şəffaflıq və hesabatvericilik prinsiplərinə əsaslanmalıdır.

İdarəetmənin rolu, dövlətin siyasi məqsədlərini və sahibkarlıq siyasətini təmin etmək və xalqın maraqlarını qorumaqdan ibarətdir. Bu məqsədlərə nail olmaq üçün, idarəetmə dövlət büdcəsini idarə edir, vergi siyasətini formalaşdırır, ictimai vəziyyəti təhlil edir, siyasi məsələlərdə vəzifələr icra edir və xalqın müntəzəm olaraq səlahiyyətli şəkildə idarə edilməsini təmin edir.

Ən müasir dövlətlər, idarəetmə prosesində yenilikçi təcrübələrə və texnologiyalara rəğbət edir və onları effektiv bir şəkildə tətbiq edir. Bu, idarəetmənin nəzarət və rəhbərlik funksiyalarının daha da artırılması və qlobal problemlərin həlli üçün daha təsirli addımların atılması üçün böyük imkanlar yaradır.

Dünya dövlətləri yenilikçi təcrübələrə qayğı ilə yanaşırlar və bir çox sahədə inkişaf edirlər. Bəzi yeniliklər, daha sürətli, effektiv və rahat idarəetmə və nəzarət imkanı təmin edir, bəziləri isə dövlətin maliyyə və sosial sahələrində daha sürətli və effektiv addımlar atmasına kömək edir. Aşağıda bir neçə misal göstərilə bilər:

1.Elektron hökumət və xidmətləri: Müasir dövlətlər, elektron xidmətlər və tətbiqlər təqdim edərək, xalqın dövlət təşkilatları ilə təmasının rahatlığını artırırlar. Elektron xidmətlər sayəsində, məsələn, dövlət tənzimləyiciləri vəzifələrini daha sürətli icra edə və məsələlərə daha sürətli nəzarət edə bilərlər.

Elektron hökumət (e-hökumət) sistemi, hər hansı bir hökumət və ya dövlət orqanının əməkdaşları, vətəndaşları və iş adamlarını bir araya gətirən və onlara daha səmərəli, effektiv və asan bir xidmət təqdim edən bir informasiya və kommunikasiya texnologiyası (ICT) mənbəyi ilə təmin edilmiş sistəmdir. Elektron hökumət sisteminin faydaları arasında aşağıdakılar sayılabilir:

Asanlıq və əlçatanlıq: E-hökumət sistemi, vətəndaşların və iş adamlarının, bəzi əməliyyatları evdən çıxmadan və ya ofisdən kənarlaşmadan həll etməsinə imkan verir. Bu, zaman və ehtiyatları azaltmaq üçün bir çox əlaqələri eliminə edir.

Effektivlik və səmərəllik: E-hökumət sistemi, hökumət işçilərinin effektivliyini artıraraq vətəndaşların və iş adamlarının bir çox xidmətlərini və müraciətlərini daha sürətli və səmərəli şəkildə həll etməsinə imkan verir. Bu da hökumətin əməkdaşlarının daha çox məsuliyyət daşımasını və daha az xərc tutmasını təmin edir.

Şəffaflıq və hesabatlılıq: E-hökumət sistemi, hökumət əməkdaşlarının fəaliyyətlərini daha açıq şəkildə göstərməsinə və hər hansı bir növbəti qapılı müəssisəyə gətirilən xərcləri daha düzgün qeyd etməsinə imkan verir. Bu, hökumət qurumlarının hesabat verilməsinin daha asanlaşdırılmasına və daha doğru olmasına kömək edir.

Xidmət keyfiyyəti: E-hökumət sistemi, hökumət tərəfindən təqdim edilən xidmətlərin keyfiyyətini artıraraq vətəndaşların və iş adamlarının daha çox rəğbət etməsinə imkan verir. Bu da hökumətin işlərini daha yaxşı aparmağına və daha çox qazanmağa kömək edir.

Müxtəlif texnologiyaların istifadəsi, dövlət idarəetməsinin daha effektiv və səmərəli olmasına kömək edir. Bu texnologiyaların ənənəvi və ya daha yeni olması fərq etməz.[4,s.109]

İnternet və mobil texnologiyaları, xüsusilə də sosial media platformaları, dövlətin ictimaiyyətlə əlaqə yaratma və onunla təmasda qalmaq üçün effektiv bir vasitə kimi xidmət edir. Bu platformalar vasitəsi ilə dövlət, ictimaiyyətə məlumat verməklə yanaşı, insanlarla dialoq saxlamaq, onların fikirlərini və problemlərini eşitmək üçün də istifadə edir.

Bir neçə ölkədə elektron sənədləşmə, vergi ödənişi, pasportun vəsiqələri, əmlak satışı və s. kimi bir çox proseslər də elektron formada aparılır. Bu proseslər, vaxt və ehtiyatlılıq açısından çox səmərəlidir və xərci azaldır.

2. Verilər analitikası: Verilər analitikası dövlətlərə, siyasi kararların və maliyyə sahəsində qərarların verilməsində daha məntiqi və effektiv addımlar atmaq imkanı verir. Bu, dövlətlərin bütün sahələrdə daha səmərəli və doğru qərarlar verməsinə kömək edir.

Verilər analitikası (data analytics), müxtəlif məlumatların toplanması, analiz edilməsi, təhlil edilməsi və yararlı məlumatların çıxarılması prosesidir. Bu proses, dövlətlərin bir çox sahədə daha məntiqi və effektiv qərarlar verməsinə kömək edir.

Verilər analitikası, dövlətlər üçün bir neçə faydalı tətbiqetmələrə malikdir. Birinci tətbiqetmə, dövlətlərin siyasi qərarlarında verilər analitikasından istifadə etməsidir. Bu, dövlət idarəçilərinin müvafiq məlumatları cəmləməsi, analiz etməsi və bu məlumatlardan effektiv bir şəkildə istifadə etməsi deməkdir. Bu, dövlətin siyasi qərarlarının daha doğru, məntiqi və səmərəli olmasına kömək edir.

İkinci tətbiqetmə, dövlətin maliyyə sahəsində verilər analitikasından istifadəsidir. Bu, dövlətin maliyyə siyasətinin daha effektiv olmasına kömək edir. Verilər analitikası vasitəsilə, dövlət idarəçiləri maliyyə sənədlərindən (məsələn, vergi məlumatları, büdcə sənədləri) yararlı məlumatlar toplaya bilərlər. Bu məlumatlar analiz edilərək, dövlətin maliyyə sənədləri və büdcəsi daha doğru və səmərəli bir şəkildə hazırlanıraq, daha çox xərcləmələrə imkan verilir.

Üçüncü tətbiqetmə, dövlətin vətəndaşlarının xidmətlərinin təmin edilməsində verilər analitikasından istifadədir. Bu, dövlətin vətəndaşların problemlərini daha effektiv bir şəkildə həll etməsinə kömək edir. Dövlət idarəçiləri, vətəndaşların məlumatlarını cəmləyərək, daha yaxşı və effektiv xidmətlər təmin edə bilərlər. Bu məlumatlar, xüsusilə dövlətin sağlık və sosial xidmətlərində (məsələn, sağlamlıq xidmət).

Verilər analitikası, dövlətlərin vətəndaşlara daha yaxşı xidmət verməsi üçün də istifadə edilə bilər. Bu, dövlətin daxilində vətəndaşların üstündə olan məsuliyyəti daha yaxşı yerinə yetirməsinə və dövlət xidmətlərinin daha sürətli, effektiv və keyfiyyətli olmasına kömək edir. Aşağıdakı misallar bunun nümunələridir:

Sağlamlıq sektoru: Verilər analitikası, sağlamlıq sahəsində dövlətlərə vətəndaşların sağlamlığı və müalicələrin daha səmərəli və effektiv olması üçün kömək edir. Bu, vətəndaşların sağlamlığına və müalicəsindən daha çox məmnun olmalarına səbəb olur. sağlamlıq sahəsində, verilər analitikası sayəsində, epidemiyaların yaranma ehtimalını qabaqcadan görə bilər və onların yayılmasını sürətləndirən faktorları daha yaxşı anlaya bilərik. Bu da, sağlamlıq sahəsində qərarlar vermək üçün daha doğru məlumatlar toplamağı və onlardan istifadə etməyi mümkün edir.

Eyni zamanda, maliyyə sahəsində də, verilər analitikası sayəsində, vergi toplamaq, büdcə planlaması, vəsaitlərin idarəedilməsi və s. kimi proseslər daha effektiv hala gətirilə bilər. Bu da, dövlət büdcəsinin daha sağlam və sabit hala gətirilməsinə kömək edə bilər və bu da son nəticədə ölkənin bütün sahələrində daha səmərəli xidmətlərin təqdim edilməsinə kömək edə bilər.[5,s.123].

Trafiq və nəqliyyat sahəsi: Verilər analitikası, trafik və nəqliyyat sahəsində daha sürətli və effektiv xidmətlərin göstərilməsinə kömək edir. Bu, qaydaların daha doğru təyin edilməsi və trafik sıxlığı və qazaya yol açan sahələrin müəyyən edilməsinə kömək edir.

Mənzil sahəsi: Verilər analitikası, mənzil sahəsində dövlətlərə daha səmərəli qərarlar verməyə və daha effektiv mənzil xidmətləri göstərməyə kömək edir. Bu, daha sərfəli və keyfiyyətli mənzillərin göstərilməsinə və vətəndaşların mənzil problemlərinin daha sürətli həll edilməsinə səbəb olur.

Vergi sahəsi: Verilər analitikası, vergi sahəsində dövlətlərə daha doğru və səmərəli vergilərin təyin edilməsinə kömək edir. Bu, daha doğru vergilərin ödənilməsinə və vergi əldə etmə prosesinin daha effektiv olmasına səbəb olur.

Eyni zamanda, maliyyə sahəsində də, verilər analitikası sayəsində, vergi toplamaq, büdcə planlaması, vəsaitlərin idarəedilməsi və s. kimi proseslər daha effektiv hala gətirilə bilər. Bu da, dövlət büdcəsinin daha sağlam və sabit hala gətirilməsinə kömək edə bilər və bu da son nəticədə ölkənin bütün sahələrində daha səmərəli xidmətlərin təqdim edilməsinə kömək edə bilər.

3. İnkişaf etmiş dövlətlərdə sosial təşkilatlar: Bəzi inkişaf etmiş dövlətlər, sosial təşkilatları tətbiq edərək, məsələn, sağlamlıq və təhsil sahəsində xidmətləri daha səmərəli və əlçatan etmək imkanı yaradırlar.

İnkişaf etmiş ölkələrdə sosial təşkilatlar, dövlətin xəritəsində önəmli bir rol oynayır və sosial müdafiə sisteminin bir hissəsidir. Bu təşkilatlar, geniş əhalinin iştirakı ilə müxtəlif sosial, humanitar və mədəni sahələrdə fəaliyyət göstərir. Məsələn, həkimlər, məktəblər, universitetlər, qoruma xidmətləri, idman klubları, təşkilatlar, humanitar yardım təşkilatları, sosial media platformaları kimi quruluşlar bu kateqoriyaya daxildir.

Bu təşkilatlar, bir tərəfdən, sosial problemlərin həllində dövlətin yanında əsas təşkilat kimi fəaliyyət göstərir və, digər tərəfdən, vətəndaşların bir-biriləri ilə və dövlət orqanları ilə əməkdaşlıq etməsinə kömək edir. İnkişaf etmiş ölkələrdə sosial təşkilatlar, bəzi məsələlərin həllində dövlətə yardım edir və həm aradan qaldırılması, təhsil və sağlamlıq sahələrində daha çox imkanların də ictimai quruluşlarla və sənaye sahələri ilə birgə çalışır. Bu təşkilatların əsas məqsədi, sosial problemlərin yaradılması və insanların yaşama keyfiyyətinin yüksəldilməsidir.

4. Dövlətin İnkişafı və İnvestisiya Şirkətləri (Sovereign Development and Investment Corporations): Bu, müasir bir quruluş formasıdır və bu şirkətlər, dövlətin istənilən inkişaf sahəsində iqtisadiyyatı tənzimləməsini və inkişaf etdirməsini təmin edir.

Suveren İnkişaf və İnvestisiya Korporasiyaları (SDICs) müəyyən bir ölkədə və ya regionda iqtisadi inkişaf layihələrinə investisiya yatırmaq üçün cavabdeh olan dövlətə məxsus qurumlardır. Bu korporasiyalar adətən iqtisadi artımı təşviq etmək, iş yerlərinin yaradılması və fəaliyyət göstərdikləri ərazilərdə infrastrukturun yaxşılaşdırılması məqsədi ilə yaradılır.

SDIC-lər ölkədən asılı olaraq müxtəlif formalarda ola bilər, lakin onlar tez-tez enerji, nəqliyyat, telekommunikasiya və daşınmaz əmlak kimi bir sıra sektorlara investisiya etmək səlahiyyətinə malikdirlər. Onlar həmçinin öz regionlarında biznes və sənayelərə maliyyə və ya digər dəstək formaları təqdim etmək səlahiyyətinə malik ola bilərlər.

SDIC-lərin əsas xüsusiyyətlərindən biri odur ki, onlar adətən hökumətdən uzaq məsafədə idarə olunur, bu da onların qərar qəbul etmə proseslərində müəyyən dərəcədə muxtariyyətə malik olması deməkdir. Bu, onlara ənənəvi dövlət qurumları ilə müqayisədə daha çevik və dəyişən iqtisadi şəraitə cavab verməyə imkan verir.

SDIC-lərə misal olaraq Sinqapurdakı Temasek Holdings, Çin İnvestisiya Korporasiyası və Küveyt İnvestisiya Təşkilatı daxildir. Bu qurumlar öz ölkələrində və regionlarında iqtisadi inkişafın təşviqində mühüm rol oynamışlar.

Bu yalnız bir neçə misaldir və yeniliklər inkişaf edərkən, dövlət idarəçiləri yeni təcrübələr və fikirlərə açıq olmaq lazımdır. Dünya sürətli şəkildə dəyişir və dövlət idarəetməsi də bu dəyişikliklərə uyğun olmalıdır. Yeniliklər və təcrübələr, məsələn, çevik idarəçilik, müxtəlif təşkilatların və qurumların birləşməsi və ya ortaq fəaliyyət göstərməsi, sosial məsələlərin effektiv şəkildə həll olunması, müxtəlif sənaye sahələrində inkişafın təmin olunması və daha bir çox sahədə görülə bilər.

Məsələn, bir çox dövlət, sürətli bir şekildə dövlətin vəzifələrini icra etmək üçün çevik idarəetmə metodlarına keçid edir. Bu, dövlət təşkilatlarının daha effektiv və sürətli olmasını təmin edir. Həmçinin, bir çox dövlət sosial məsələlərin həllinə daha effektiv bir yanaşma göstərmək üçün sosial media və digər yenilikçi kommunikasiya vasitələrindən istifadə edir.

Bunun yanı sıra, digər bir yenilikçi təcrübə, bir çox dövlətin sənaye sahələrində inkişafı təmin etmək üçün iqtisadiyyatı dəstəkləmək və inkişaf etdirən şirkətlərin yaradılmasıdır. Bu şirkətlər, özünü ispatlamış iqtisadiyyat modelləri ilə, dövlətin vəzifələrini yerinə yetirməsində yardımcı olur.

Bu və digər yenilikçi təcrübələr, dövlətin effektiv və sürətli olaraq işləməsini təmin edir və müasir dövlətlərin idarəçilik metodlarında dəyişikliklərə gətirir. Dövlət siyasətində idarəetmənin negativ rolu ola bilər. Bəzi hallarda, idarəçilər özləri üçün faydalı qərarlar qəbul edərək, mənfi təsir göstərən siyasi, iqtisadi və sosial inkişafı təkəbbür hissi ilə saxlaya bilərlər.

Həmçinin, idarəçilər tərəfindən qəbul edilən qərarlar dövlətin və ya xalqın ümumi maraqlarına zidd ola bilər. Bu, korruptsiya, rüşvət və ya özünə yaxın insanların özəllikləri ilə bağlı qərarların verilməsi kimi amillər nəticəsində baş verə bilər.Bununla birlikdə, idarəetmənin mənfi təsiri mümkündür, amma dövlət idarəetməsi və siyasətinin effektivliyini artırmaq üçün müxtəlif anti-korruptsiya və nəzarət mehanizmləri də mövcuddur.

Dövlət siyasətində idarəetmənin negativ rolu ilə mübarizə aparmaq üçün aşağıdakı tedbir və addımlar göz önündə tutulmalıdır:

Transparensiyanın artırılması: Dövlət orqanlarının və idarəetmənin işlərinin şəffaflığı və hesabatvericiliyi artırılmalıdır. Buna görə də, dövlət orqanlarının işləri haqqında daha çox məlumat və açıqlama tələb olunmalıdır.

Vətəndaşların iştirakının təmin edilməsi: Vətəndaşların iştirakı, dövlət siyasətinin formalaşmasında ən vacib amillərdəndir. Bu səbəbdən dövlət, vətəndaşların iştirakını təmin etmək və onların fikirlərini, tələblərini və istəklərini dinləmək üçün müxtəlif platformalar təşkil etməlidir.

Müəyyən sahələrdə özümüdafiə etmək: Müxtəlif sahələrdə dövlət orqanları tərəfindən özümüdafiə strategiyaları hazırlanmalıdır. Buna görə də, dövlət orqanları müxtəlif təhlükəsizlik məsələlərini müzakirə edərək, idarəetmə proseslərində daha təhlükəsiz bir mühit yarada bilərlər.

Qorxmazlığın təmin edilməsi: Dövlət orqanları tərəfindən gözlənilməz hallarda dəqiq və sürətli reaksiya göstərmək üçün hazırlıqlar aparılmalıdır. Buna görə də dövlət orqanları, idarəetmə proseslərində nəzarət, təhlükəsizlik və kriz idarəetmə sistemlərini daha effektiv hala gətirməlidirlər.

İdarəetmə proseslərinin təkmilləşdirilməsi: Dövlət orqanları, idarəetmə proseslərinin effektivliyini artırmaq üçün müxtəlif texnoloji və yeniliklərdən istifadə etməlidirlər.

Nəticə

İdarəetmə prosesi, dövlətin fəaliyyətlərinin qanunvericiliyə uyğunluğunu təmin etmək, resursların effektiv istifadəsini təmin etmək və sosial, iqtisadi və siyasi sahələrdə inkişaf etməyə kömək edir.

Verilər analitikasının daha çox istifadəsi, dövlətlərin proseslərini daha sürətli, daha səmərəli və daha keyfiyyətli hala gətirməsinə kömək edə bilər. Bu da, vətəndaşlara daha yaxşı xidmət göstərilməsinə və ölkənin daha effektiv bir şəkildə idarə edilməsinə imkan vergilər analitikasının daha çox istifadəsi, dövlətlərin proseslərini daha sürətli, daha səmərəli və daha keyfiyyətli hala gətirməsinə kömək edə bilər. Bu da, vətəndaşlara daha yaxşı xidmət göstərilməsinə və ölkənin daha effektiv bir şəkildə idarə edilməsinə imkan verir.

Süni intellekt və maşın öyrənmə texnologiyalarının istifadəsi, dövlətin proqramları və xidmətləri təkmilləşdirərək, effektivliyi və səmərəliyi artırmaq üçün daha da imkanlar yaradır. Məsələn, xəstəliklərin təşhis və müalicəsi, əmlak, vergi və bank xidmətlərinin idarəedilməsi və s. kimi bir çox sahədə, yapay intellekt və maşın öyrənmə texnologiyalarının istifadəsi ilə dövlətin effektivliyi artırıla bilər.

Ədəbiyyat

1. Public Administration: Concepts and Cases by Richard Stillman II, Houghton Mifflin, 2005,545 pages
2. The New Public Governance?: Emerging Perspectives on the Theory and Practice of Public Governance" edited by Stephen Osborne, Taylor & Francis, January 21, 2010, 448 pages
3. Public Administration and Public Affairs by Nicholas Henry, 11 B/W Illustrations Published September 7, 2017 by Routledge, 534 pages
4. The Future of Public Administration: Challenges and Opportunities edit,New York, 2015, 333 pages
5. New Public Management: Current Trends and Future Prospects, Los Angeles, 2017,456 pages

Qüdrət UMUDOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru, dosent
Qumudov1957@gmail.com

Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var. Biz nə qədər zənginik!
H.Əliyev

HEYDƏR ƏLİYEV ÖLMƏZ SÖZ SƏNƏTKARLARI – NİZAMİ, NƏSİMİ VƏ FÜZULİ HAQQINDA

HEYDAR ALIYEV ABOUT IMMORTAL WORDSMITH – NIZAMI, NASIMI AND FUZULI

ГЕЙДАР АЛИЕВ О БЕССМЕРТНЫЕ ТВОРЦАХ СЛОВА НИЗАМИ, НАСИМИ И ФИЗУЛИ

Xülasə: Ümummilli lider H.Əliyev milli-mənəvi dəyərlərimizə, o cümlədən ədəbiyyatımıza xüsusi həssaslıqla yanaşmışdır. Dünya söz xəzinəsinə qiymətli incilər bəxş etmiş dahi şairlərimizin yaradıcılığı və onun təbliği məsələsi rəhbərin həmişə diqqət mərkəzində olmuşdur. O, klaasiklərimizin yubileylərinin keçirilməsi, onların abidəsinin, ev muzeylərinin açılmasını vacib bilmiş və reallaşdırmışdır. N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif, C.Məmmədquluzadə, N.Nərimanov, H.Cavid, S.Vurğun və b. o sırada yer almaqdadır.

Dahi sənətkarlar – Nizami, Nəsimi və Füzuli H.Əliyevin sevib pərəstiş etdiyi ədiblərdir. Bu məqalədə Ulu Öndərin bu üç böyük şairlə əlaqədar reallaşdırdığı ideya və əməli tədbirlər, onlarla bağlı söylədiyi ədəbiyyatşünaslığımız üçün də mühüm əhəmiyyət kəsb edən qiymətli-qiymətli fikirləri nəzərdən keçirilmişdir.

Açar sözlər: Heydər Əliyev, milli dəyərlər, Nizami, Nəsimi, Füzuli, Azərbaycan ədəbiyyatı

Abstract: Tha national leader of Azerbaijanis, H.Aliyev, was very sensitive to our national and moral values, including our literature. The creativity of our genius poets, who have given precious pearls to the world treasury of words, and the issue of its promotion have always been the focus of the leader's attention. He considered it important to hold jubilee events of our classics, to open their monuments and home monuments and home museums and implemented them. N.Ganjavi, I.Nasimi, M.Fuzuli, M.Vagif, J.Mammadguluzade, N.Narimanov, H.Javid, S.Vurgun and many others are among them.

Genius skilfull masters – Nizami, Nasimi and Fuzuli are writers whom Heydar Aliyev loved and adored. In this article, the great poets, as well as his valuable ideas, which are important for our literary studies, have been revieved.

Keywords: Heydar Aliyev, mental values, Nizami, Nasimi, Fuzuli, Azerbaijani literature

Абстракт: Обшенациональный лидер Г.Алиев относился к национально – нравственным ценностям в том числе и литературе с большой чувствительностю. Художественное наследие мировые творцов, подаривших миру драгоценные жемчужины из слов были всегда в центре его внимания. Во время руководство Г.Алиева проводились юбилейные мероприятия классиков, открывались дома – музеи, возвышалис их памятники Н.Гянджеви, И.Насими, М.Физули, М.П.Вагиф, Д.Мамедкулузаде, Н.Нариманов, Г.Джавид, С.Вургун и др. именно в их числе.

Великие художники слова – Низами, Насими и Физули те поеты которых любил Г.Алиев.

В статье идет речь о практический делах реализуемых обшенациональным лидером связанных с творчеством трех поетов – Низами, Насими и Физули, интересные мысли, которые рассматриваются с точки зрения литературоведения.

Ключевые слова: Гейдар Алиев, нравственные ценности, Низами, Физули, Насими, Азербайджанская литература.

Ümummilli lider Heydər Əliyev mədəniyyətimizə, milli klassik irsə, xalqının mədəni keçmişinə (həm də bu gününə) o dərəcədə böyük dəyər verirdi ki, məhz bu səbəbdən duyub yaşadığı qürur hissi ilə millətindən olan dahi sənətkarları fəxarətlə dünyaya təqdim edir, onları daha yaxşı tanıtmaq, daha çox sevdirmək, humanist ideyaları, mütərəqqi ruhlu sənət əsərləri ilə bəşəriyyətə etdikləri xidmətləri dünya söz xəzinəsinə verdikləri misilsiz töhfələri bütün dünyaya – hər ölkənin, hər xalqın nəzər diqqətinə çatdırmağa çalışır, hər bir insanın əbədiyaşar sənət incilərimizdən xəbərdar olmasını istəyirdi. O, bu ideyalarını elə hakimiyyətə gəldiyi ilk vaxtlardan, ələ düşən ilk fürsətdə həyata keçirməyə səy göstərmişdir. ADU-nun 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda (2 noyabr 1969-cu il), Azərbaycan yazıçılarının V qurultayı (1 iyun 1972-ci il) və sonra keçiriləcək növbəti qurultaylarında, onun iradəsi ilə reallaşan neçə-neçə yubiley tədbirləri, yaradıcılıq konfransları, ardı kəsilməyən açılış tədbirlərində Ümummilli liderin söylədiyi dərin məzmunlu nitqləri onun elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənətin mahir bilicisi olduğunun göstəricisi idi. Faktlara müraciət edək.

H.Əliyev Respublikanın rəhbəri olaraq 1973-cü ilin yazında, MK-nın xətti ilə Azərbaycan şairi İ.Nəsiminin 600 illik yubileyinin çox geniş – SSRİ miqyasında, YUNESKO ilə birlikdə və çox təntənəli şəkildə qeyd olunması ilə bağlı qərar qəbul eləmiş, yubiley komissiyasına bununla bağlı hazırlıqlara başlanmasını tapşırmışdı. Tədbirlər planı çox geniş idi. Müxtəlif şəhərlərdə tədbirlərin keçirilməsindən tutmuş, şairin əsərlərinin nəşri, onunla bağlı tədqiqat əsərlərinin yazılması, ədibin portretinin çəkilməsi, heykəlinin ucaldılması, əzabkeş-filosof şair haqqında bədii filmin çəkilməsinə qədər...

Təntənəli yubiley tədbirində iştirak etmək üçün SSRİ-dən və 26 xarici ölkədən xeyli qonaq gəlmişdi. Şairin yubiley gecəsi H.Əliyevin iştirakı ilə 1973-cü ildə Respublika sarayında (indiki H.Əliyev adına sarayda) keçirildi. Çox möhtəşəm bir tədbir həyata keçdi. Ertəsi gün (14 sentyabr) H.Əliyev xaricdən və Sovet İttifaqının mərkəzi şəhərlərindən, müxtəlif respublikaların yaradıcılıq ittifaqlarından gəlmiş qonaqları qəbul etdi. O, qəbul zamanı nitq söylədi. Ümummilli liderin Azərbaycanın böyük söz sənətkarları ilə bağlı söylədiyi əsas fikirlərdən biri belə səslənirdi: "Bəşər tarixinin müxtəlif mərhələlərində bir çox görkəmli şəxsiyyətlər yetişmişdir. Hər bir xalq həmin dühaların tərəqqiyə, işıqlı həyata, xoş güzərana çağırışları ilə haqlı fəxr edir. Azərbaycan xalqı öz böyük övladlarının – Nizaminin, Xaqaninin, Füzulinin və başqalarının adlarını iftixarla çəkir. Bu gün isə biz Azərbaycan və dünya poeziyasının parlaq ulduzu İmadəddin Nəsiminin yubileyini qeyd edirik" [8].

H.Əliyevin Nəsimi ilə bağlı söylədiyi aşağıdakı fikirlər də mədəniyyətşünaslıq və ədəbiyyatşünaslığımız üçün çox diqqətəşayandır: "...Nəsiminin yaratdığı, qoyub getdiyi irsə heyran olduğumuzu bildirərkən biz gərək onun ikinci yaranışından da danışaq. Yalnız bizim zəmanədə Nəsimi əsrlərin dərinliklərindən qaldırılmışdır və o, layiqincə qiymətləndirilir. Bu gün Nəsimi dünya qarşısında bütün əzəməti ilə ucalır. O, elə bir insan idi ki, hələ uzaq keçmişlərdə cəhalətpərəstlərdən qorxmayıb zülmə, riyakarlığa, dini mövhumata etiraz səsini ucaldır, çox-çox irəliyə nəzər salırdı. Görkəmli Azərbaycan şairi, müasirimiz Səməd Vurğun Nəsimi haqqında belə demişdir: "Tarixlər boyunca qaldı yadigar, ölməz fikirlərin, ölməz sözlərin..." [8].

Heydər Əliyevin birinci hakimiyyəti dövründə yubileyi böyük təntənə ilə qeyd olunan digər böyük humanist şairimiz, Azərbaycan poeziyasının günəşi, dahi Nizami Gəncəvi olmuşdur. Nizami Ulu öndərin də çox sevdiyi, dəyər verdiyi, poetik irsini unikal hesab etdiyi dünyanın nadir söz sənətkarlarından biri idi. Şairin 800 illik yubileyinin çox çətin, fövqəladə şəraitdə, dar çərçivədə, "elə-belə" qeyd olunduğunu yaxşı xatırlayan Heydər Əliyev böyük sənətkarın adına layiq, 840 illik yubileyini çox geniş bir diapazonda, böyük coşqu və təntənə ilə keçirməyi qərara almışdı. O, hələ 1979-cu ilin 6 yanvarında "Azərbaycanın böyük şairi və mütəffəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" xüsusi qərar vermiş və həmin tarixi qərarla da təşkil ediləcək təntənəli yubileyə hazırlıq mərhələsi başlanmışdı. Yubiley 1981-ci il oktyabrın əvvəllərinə planlaşdırılmış, bunun üçün Sovet İttifaqından və xeyli xarici ölkədən nüfuzlu qonaqlar – nümayəndə heyəti dəvət olunmuşdu.

Sentyabrın 25-də Bakıda başlanan Nizami poeziya günləri şairin vətəni Gəncədə davam etdirildi. Sentyabrın 28-də Bakıda - şairin əzəmətli heykəlinin ucaldığı meydanda böyük izdihamla ke-

çən poeziya məclisi şənliklərin zirvəsi oldu. Məclisi görkəmli Azərbaycan şairi Süleyman Rüstəm açdı. Sonra, söz növbə ilə gələn möhtərəm qonaqlara verildi. Nizami haqqında biri-birindən fərqli, gözəl sözlər eşidildi. Deyilənlər şairə verilən həqiqi qiymətlər idi.

1981-ci il oktyabrın 6-da Heydər Əliyev Nizami Gəncəvinin 840 illiyi şənliklərində iştirak etməyə gəlmiş sovet və xarici ölkə qonaqlarının böyük bir qrupunun qəbul etdi. Respublikanın ali rəhbəri kimi qəbulda qonaqları salamlayıb təbrik edən H.Əliyev dahi şairlə bağlı dərin məzmun ifadə edən nitq söylədi. Çıxışda ədəbiyyat tariximizə qısa nəzər salındı. Nizami poeziyasının dünya ədəbiyyatında tutduğu mövqe barədə dəyərli fikirlər səsləndi. Natiq nüfuzlu qonaqların, bədii söz adamlarının diqqətinə çatdırdı ki, "Nizaminin yaşayıb yaratdığı dövrdən təqribən səkkiz əsr yarım vaxt keçmişdir. Bunlar həm ümumən dünyada, həm də Şərqdə, o cümlədən Azərbaycan torpağında çətin və mürəkkəb əsrlər olmuşdur. Bu torpaqda gedən viranedici müharibələr dəfələrlə bütöv sivilizasiyaları məhv etmiş, lakin Nizaminin əsərləri gələcəyə yol tapa bilmiş və böyük sərvət olan bu əsərlərin əksəriyyəti bizim günlərə gəlib çıxa bilmişdir" [1].

Tədbirdə öz xalqının qədim mədəniyyəti, zəngin ədəbiyyatı barədə qürur hissi ilə söz açan Ümummilli lider Nizami kimi dahi sənətkardan, şairin bizə gəlib çatan ədəbi irsindən ürək dolusu danışmış, fəxrlə auditoriyanın diqqətinə bunları da çatdırmışdır: "Şərq öz poeziyası ilə ta qədim zamanlardan şöhrət qazanmışdır. Lakin Nizami poemaları kimi sanballı əsərləri yalnız dahi bir insan yarada bilərdi. Onun poemaları yüksək sənətkarlıqla yazılmış şeiriyyəti ilə fərqləndiyi kimi, həm də dərin bəşəri fəlsəfəni o dövrün sivilizasiyasının ümumiləşdirilmiş nailiyyətləri ilə, gələcəyin nəbzini tutan ideyalarla əlaqələndirir. Təsadüfi deyil ki, Nizaminin yaradıcılıq dühasının saçdığı şüalar ... səkkiz əsrin dərinliklərindən keçib, bir çox maneələri dəf edərək bizim günlərə işıq saçmış və yeni çalarlarla bərq vurmağa başlamışdır. Nizaminin fikirləri və ideyaları mənəviyyat, əxlaq, humanizm, beynəlmiləlçilik baxımından bu gün həmişəkindən də aktualdır. Biz hamımız bununla fəxr edirik" [9, s.4].

H.Əliyev dahi şairin yaradıcılığının təbliği, yubiley şənlikləri ilə əlaqədar danışarkən bir məsələni də xüsusi olaraq vurğuladı ki, Azərbaycan KP MK-nın Nizami ilə bağlı son qərarı (6 yanvar, 1979-cu il) "Respublikanın ədəbi ictimaiyyəti, bütün zəhmətkeşləri tərəfindən böyük razılıq hissi ilə qarşılanmış və yazıçılarımızın, tədqiqatçılarımızın, alimlərimizin fəaliyyətinin genişlənməsində mühüm rol oynamışdır". Dahi rəhbər onu da əminliklə bildirdi ki, "Nizami yaradıcılığının öyrənilməsi alimlər, yazıçılar, ədəbiyyatşünaslar, tərcüməçilər üçün geniş fəaliyyət meydanıdır" [9, s.4].

Böyük şairin 840 illik yubileyinin əhəmiyyətindən danışarkən əminliklə bunu da qeyd edirdi ki, "indiki yubiley tədbirləri Nizami Gəncəvinin 850 illik yubileyini keçirmək üçün yaxşı zəmin yaradacaq, həmin tədbirə daha yaxşı hazırlaşmağa kömək edəcəkdir" [9, s.5].

Lakin Ulu öndərin arzu etdiyi həmin yubiley tədbiri təəssüf ki, müəyyən tarixi, siyasi-ictimai səbəblərə görə gözlənilən vaxtda baş tutmadı. SSRİ dağıldı, Azərbaycan təcavüzə məruz qaldı. Bakıda da qara yellər əsdi. Separatizmə etiraz, Kremlin ikiüzlü siyasətinə qarşı yüksələn xalqımızın aksiyasını yatırmaq üçün Qorbaçovun tətbiq etdiyi "fövqəladə vəziyyət", müharibə şəraitində olan ölkədəki siyasi qarışıqlıq və Heydər Əliyevin Bakıda, hakimiyyətdə olmaması bu xeyirli işin həyata keçirilməsini əngəllədi. Yalnız, 850 illik yubileyinin keçirilməli olduğu zamandan 30 il sonra – 2021-ci ildə Heydər Əliyev kursunun bütün istiqamətlərdə layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü, verdiyi xüsusi sərəncamla dahi sənətkarın 880 illik yubileyi layiqincə keçirilmiş oldu. İndi hədəfdə Nizaminin doqquz əsrlik yubileyi dayanır.

Ulu rəhbərin on ilə yaxın sürən Moskva həyatı, Kremldəki siyasi fəaliyyəti onu Vətənindən, xalqından, milli problemlərdən ayırıb uzaqlaşdırmadı. Əksinə, Azərbaycan qayğıları onu heç vaxt tərk etmədi. Azərbaycandakı narahatlıqlar onu qayğılandırdı, problemlərimiz onu düşündürdü. O, vətənin çətin günlərində, Moskvada rahatlıq tapıb sakit bir həyat yaşaya bilmədi. Ölkəsinin çətin vaxtında o, Vətənə qayıtdı. H.Əliyev Azərbaycan xalqının həsrətində olduğu böyük qayıdışdan sonra, 1993-cü ildə müstəqil Azərbaycanın prezidenti seçilərək öz xalqına, öz doğma ölkəsinə yenidən rəhbərlik etməyə başladı. Dahi rəhbər ömrünün qalan hissəsini, şüurlu həyatını bütün imkanlarını,

müqayisəolunmaz müdriklik səlahiyyətini millətinə, Azərbaycan dövlətçiliyinə, ölkəsinin ictimai-siyasi, iqtisadi və mədəni dirçəlişinə həsr etdi.

Ulu öndər Azərbaycanı mədəniyyətinə, o cümlədən ədəbiyyatı və incəsənətimizə xidmətlə əlaqədar xeyli əvvəl öz üzərinə götürmüş olduğu missiyanı müstəqillik illərində də bir neçə istiqamətdə davam etdirmişdir. Bir tərəfdən klassik irsin araşdırılıb öyrənilməsi, nəşri və təbliği, qədim söz sənəti abidələrinin, dahi söz sənətkarlarının geniş, iri miqyaslı yubileylərinin qeyd olunması, elmi-kütləvi, tarixi-sənədli və bədii kinofilmlərin çəkilişi, zirvə tədbirlərinin beynəlxalq yaradıcılıq konfranslarının keçirilməsi ilə bağlı fərman və sərəncamlar imzalayır, dövlət komissiyaları yaradır, onların işinə nəzarət edir, hesabatlarını dinləyir, təntənəli yubiley tədbirlərinin təşkili və keçirilməsində şəxsən iştirak edir və orada nitqlər söyləyirdi. Digər tərəfdən də o, çətin tarixi mərhələdə canlı klassiklərin, tanınmış müasir yaradıcı sənətkarların da qayğısını çəkir, ədəbiyyat xadimlərinin əməyini, yaradıcılıq imkanlarını stimullaşdırmaq üçün onları mükafatlandırır, fəxri ad və ödüllərlə təltif edirdi.

Ümummilli lider H.Əliyev 1994-cü ilin avqustunda prezident sarayında keçirdiyi bir mədəniyyət tədbrində yeni müstəqillik əldə etmiş ölkəmizdə keçid dövrünün siyasi-iqtisadi çətinlikləri, yaradıcı insanların üzləşdiyi problemlər və onu narahat edən digər məsələlər barədə deyirdi: "İndi biz keçid dövründəyik. Məni də çox narahat edir ki, ziyalılarımızın, mədəniyyət və incəsənət xadimlərimizin bir çoxu, bəlkə də, hamısı ağır şəraitdə yaşayır. Bu onların yaradıcılığına da təsir göstərir. Hər halda bu sahədə müəyyən işlər görməyə çalışacağıq... İndi Azərbaycanda 70-ci illərdə olan imkanlar yoxdur. O zaman heç bir minnətsiz hər şey edirdik və bunu təbii hal sayırdıq. Yazıçıya, alimə, bəstəkara, rəssama mənəvi hörmət indi də var. Şəxsən məndə onlara qarşı belə hörmət həmişə olmuşdur və ömrümün axırınadək də olacaqdır. Ancaq bunu maddi baxımdan reallaşdırmaq imkanları çox azdır. Bununla belə, biz yaradıcı adamlarımıza kömək etməliyik" [5, s.227].

H.Əliyevin keçid dövründə verdiyi çox vacib və qlobal dərəcədə əhəmiyyətli fərmanlardan və reallaşdırdığı mədəni hadisələrdən biri dahi Azərbaycan şairi M.Füzulinin 500 illik yubileyinin geniş miqyasda qeyd olunması haqqında olmuşdur. Azərbaycan Respublikasının 16 mart 1994-cü il tarixli fərmanı ilə şairin yubileyinin hazırlanması və təşkili üçün Dövlət Komissiyası yaradıldı. Sədr Heydər Əliyev, müavin Elçin Əfəndiyev olmaqla komissiyanın tərkibinə əlliyə yaxın görkəmli dövlət, elm və mədəniyyət xadimi daxil idi. Həmin il, yəni 1994-cü il YUNESKO-nun qərarı ilə "Füzuli ili elan edildi. 1 avqust 1994-cü ildə komissiyanın ilk geniş iclası keçirildi. H.Əliyev öz giriş sözündə vurğuladı ki, "Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəffəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymətdir. Bu eyni zamanda həm də mədəniyyətimizi təbliğ etmək üçün çox əlverişli fürsətdir və biz bundan hərtərəfli istifadə etməliyik" [5, s.218].

Həmin ilin 17 noyabrında Moskvada keçmiş İttifaqlar Evinin Sütunlu sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr edilmiş təntənəli yığıncaq keçirildi. H.Əliyev orada nitq söylədi. Bu tədbir YUNESKO xətti ilə keçirilən tədbirlərdən biri idi. Azərbaycanda isə böyük yubileyə hazırlıq işləri davam edirdi. 1996-cı ilin 23 iyulunda Prezident sarayında H.Əliyevin sədrliyi ilə dahi şairin 500 illik yubileyi üzrə dövlət komissiyasının növbəti iclası oldu. Heydər Əliyev orada giriş, komissiya üzvlərini dinlədikdən sonra da yekun sözü söylədi. Onun proqram xarakterli çıxışında səslənən maraqlı fikirlərdən biri belə idi: "...Bu yubileylərin keçirilməsində məqsəd... xalqın elminin, mədəniyyətinin, mənəviyyatının zənginliyini nümayiş etdirməkdir və indiki nəslə, gələcək nəsillərə onlardan daha faydalı istifadə etmək üçün imkan yaratmaqdır. Biz Füzuli ilə fəxr edirik. Məsələn, biz millətimizdən danışarkən deyirik ki, 500 il bundan öncə yaşamış azərbaycanlı Füzuli dünya mədəniyyət xəzinəsinə öz böyük töhfələrini veribdir. Ona görə də biz yubileyi elə keçirməliyik ki, bu tədbir təkcə Azərbaycanda deyil, Türkiyədə də, İranda da, İraqda da, Moskvada da, Dərbənddə, bir sözlə hər yerdə iftixar hissi doğursun. Məhz Füzulinin yaradıcılığı və əsərləri ilə göstəririk ki, xalqımız hansı zənginliyə, hansı mədəniyyətə, hansı mənəviyyata, hansı elmə malikdir" [3].

Böyük şairin təntənəli yubileyinin keçirilmə vaxtı noyabr ayının 8-nə təyin edilmişdi. O günlər üçün Prezidentin olduqca əhəmiyyətli, çox sıx tədbirlər planı mövcud idi. Bu tədbirlərin hamısı böyük türk millətinin, o cümlədən Azərbaycan xalqının ortaq mədəniyyəti və ədəbiyyatı ilə bağlı düşünülüb nəzərdə tutulmuşdu.

Diqqət yetirək: 6 noyabr 1996-cı il tarixində Bakıda Türk dünyası yazıçılarının III qurultayı, Türksoyun VIII toplantısı, türkoloji qurultay və simpozium keçirildi. Bundan bir qədər əvvəl (29 oktyabr) Naxçıvanda böyük ədib Hüseyn Cavidin məqbərəsinin tənətənəli açılışı olmuşdu. Yorulub usanmaq bilməyən ümummilli lider böyük həvəslə bu tədbirlərin hər birində şəxsən iştirakçı olmaqla dərin məzmunlu çıxışlar etmişdir.

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyinin təmtəraqla bayram edilməsinə gəldikdə isə xatırladaq ki, xaricdən, qardaş ölkələrdən gəlmiş çoxsaylı nüfuzlu qonaqlar və ölkəmizin tanınmış siyasi-ictimai xadimləri, elm və mədəniyyət camiəsi əvvəlcə böyük şairin şəhərin mərkəzində qoyulmuş abidəsi önündə toplantı keçirdi. Maraqlı çıxışlar səsləndi. Ruh coşqunluğu ilə keçən toplantıda H.Əliyev də çıxış etdi. Dahi sənətkarın möhtəşəmliyi ilə yadda qalan və tarixiləşən yubiley şənliyi "Gülüstan" sarayında yubiley tədbirlərində iştirak etmək üçün ölkəmizə gəlmiş mötəbər qonaqlar üçün təşkil edilmiş rəsmi qəbul və ziyafət məclisində davam etmişdir. Mərasimdə nitq söyləyən Heydər Əliyev qəbul iştirakçılarına ədəbiyyat tariximiz, zəngin mədəniyyətimiz haqqında özünəməxsus şövqlə məlumat vermiş, Füzuli sənəti ilə bağlı dəyərli fikirlər səsləndirmişdir. Yekun, təntənəli yubiley tədbiri isə Respublika sarayında baş tutdu. Ümummilli lider yubiley tədbirində çox maraqlı ədəbiyyatşünaslıq və mədəniyyətşünaslığımız üçün əhəmiyyət daşıyan dərin, elmi məzmunlu nitq söylədi. Onun çıxışında ulu şairin Azərbaycan, ümumtürk, İslam şərqi və bütün dünya mədəniyyətində uca bir məqama sahib olmasının səbəbləri şərh edilir, Füzuli sənətinin bədii ecazkarlığı, poetik siqləti və fəlsəfi mahiyyəti işıqlandırılırdı. Natiq haqlı olaraq vurğulayırdı ki, M.Füzuli kimi şairlər bir xalqın böyük şairi, alimi, filosofu olmaqla qalmır, bütün türk xalqlarını İslam dünyasının, bütün dünyaya mənsub olurlar. H.Əliyev Füzuli şeirinin ideya yükünü ümumi şəkildə xarakterizə edərək deyirdi: "Məhəmməd Füzulinin əsərlərində insanın sevgisi, məhəbbəti, eşqi, insanın insana münasibəti, sədaqəti, etibarlılığı vəsf, tərənnüm edilmişdir. M.Füzuli bütün əsərlərində insanları sədaqətə, etibarlılığa, ataya-anaya, Vətənə, torpağa, eşqə, məhəbbətə, öz ülvi duyğularına, sədaqətə dəvət etmişdir – bunların hamısı 500 il bundan əvvəl olduğu kimi, bu gün də insanlar üçün ən vacib, lazım olan yüksək mənəvi keyfiyyətlərdir. Məhəmməd Füzuli öz dövrünün həyatını əks etdirərək, öz mühitindən qida alaraq yaratdığı əsərləri uzaq gələcəyə istiqamətləndirmişdir. Ona görə də Füzulinin əsərləri 500 ildir yaşayır və bundan sonra yüz illərlə yaşayacaqdır" [2].

Dahi rəhbərin Azərbaycan mədəniyyətinə, ədəbiyyatına özünəməxsus qayğısını ifadə edən bu tipli misalları, tarixi mədəni hadisələri istənilən qədər nümunə göstərmək olar. Yuxarıda deyilənlərdən belə qənaət hasil olur ki, Ümummilli lider Heydər Əliyevin Vətən, millət sevgisi o dərəcədə böyük olmuşdur ki, o bu millətin sahib olduğu qədim və zəngin mədəniyyət ilə hər zaman fəxr etmiş, öyünmüş, Azərbaycanın dahi sənətkarlarının yaratdıqları şedevr əsərlərlə qürurlanmış həmin sevgidən qaynaqlanan həvəslə də milli mənəvi dəyərlərimizi daim təbliğ etmiş, böyük mədəniyyətə sahib olan xalqını daim yüksəklərdə görmək istəmişdir. H.Əliyev Azərbaycanın dünya söz xəzinəsinə çox qiymətli töhfələr vermiş dahi sənətkarları Nizami, Nəsimi və Füzuli yaradıcılıqlarını çox sevmiş, əzəmətli söz ustadlarının şəxsiyyətlərini və bənzərsiz yaradıcılıqlarını qlobal mədəni arenada daha yaxşı tanıtmaq üçün mühüm əməli işlər görmüşdür.

Ədəbiyyat

1. Dahi Füzulinin yubileyi ədəbiyyatımızın bayramıdır (Azərbaycan Respublikası Prezidenti H.Əliyevin yubiley komissiyasının iclasında çıxışı). / "Ədəbiyyat və İncəsənət" qəzeti, 1981, 9 oktyabr.
2. Əliyev H. 1996-cı il noyabrın 8-də dahi şair mütəfəkkir M.Füzulinin 500 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsində nitqi / "Xalq qəzeti", 1996, 9 noyabr.
3. Əliyev H. Dahi Azərbaycan şairi M.Füzulinin anadan olmasının 500 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi / "Ədəbiyyat və incəsənət" qəzeti, 1996, 26 iyul.

4. Əliyev H. Milli varlığımızın mötəbər qaynağı // Kitabi-Dədə Qorqud ensiklopediyası. 2 cilddə, I c., -Bakı: YNE, -624 s., -səh.5-12.
5. Heydər Əliyev və mədəniyyət, 3 cilddə, I c. – Bakı: Nurlar Nəşriyyat Poliqrafiya Mərkəzi, 2008, -504 s.
6. Həbibbəyli İ. Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr // Heydər Əliyev akademik yaddaşda. – İstanbul, 2019. -360 s.
7. Kərimli T. Ədəbi irsimizin və ədəbiyyatşünaslıq elmimizin böyük hamisi // Heydər Əliyev akademik yaddaşda. – İstanbul, 2019, - 360 s.
8. Nəsiminin 600 illiyi şərəfinə / "Kommunist" qəz., 1973, 16 sentyabr
9. Nizami Gəncəvinin anadan olmasının 840 illiyi ilə bağlı Azərbaycan KP MK-da qəbul / "Azərbaycan" jurnalı, oktyabr, 1981, №10
10. Sadıqlı A. Ümummilli lider Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. -Bakı: Mütərcim. -2013, -308 s.

Yeganə QASIMOVA
Azərbaycan Dövlət Pedaqoji Universitet
filologiya üzrə fəlsəfə doktoru, dosent
yegana.gasimova@mail.ru

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ XALQ YAZIÇISI İLYAS ƏFƏNDİYEV YARADICILIĞI

NATIONAL LEADER HEYDAR ALIYEV AND PEOPLE'S WRITER CREATIVITY OF ILYAS EFENDIYEV

ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И ТВОРЧЕСТВО НАРОДНОГО ПИСАТЕЛЯ ИЛЬЯСА ЭФЕНДИЕВА

Xülasə:Dövlətçilik tariximizdə silinməz iz qoymuş ulu öndər Heydər Əliyev mədəniyyət və ədəbiyyatımıza, milli dəyərlərimizə böyük həssaslıqla yanaşmışdır.

Məqalədə ümummilli liderin ədəbiyyat siyasəti, tarixi mövzuya münasibəti, həmçinin "yazıçı və dramaturq kimi xalq tərəfindən tanınmış, bəyənilmiş və sevilmiş" İ. Əfəndiyev sənətinə verdiyi dəyərləndirmələr yer almışdır.

Çoxsaylı tarixi dramların müəllifi olan İ. Əəfəndiyevin yaradıcılığının son dövrlərinə aid olan "Hökmdar və qızı" pyesi ulu öndərin əsərə bir ədəbiyyaşünas kimi verdiyi yüksək meyarılar baxımından nəzərdən keçirilmişdir.

Açar sözlər: Heydər Əliyev, İlyas Əfəndiyev, yaradıcılıq, tarixi dram

Abstract: The great leader Heydar Aliyev, who left an indelible mark on the history of our statehood, was very sensitive to our culture and literature, and our national values.

The article includes the national leader's literary policy, his attitude to the historical topic, as well as his evaluations of the art of Ilyas Efendiyev, "known, liked and loved by the people as a writer and dramatist".

The author of numerous historical dramas, Ilyas Afendiyev's play "The Ruler and his Daughter", which belongs to the last periods of his work, was reviewed in terms of the high criteria given by the great leader to the work as a literary critic.

Keywords: Heydar Aliyev, Ilyas Efendiyev, creativity, historical drama

Абстракт: Гейдар Алиев, оставивший неизгладимый след в истории нашей государственности относился с большой очень чуткостью к культуре, литературе т нашим национальным ценностям.

В статье освещается политика в области литературы общенационального лидера, его отношение к исторической темам в современной литературе, а также оценка творчества «известного признанного и , полюбившегося писателя и драматурга И. Эфендиева».

Рассматривается одна из последних работ автора многочисленных исторических пьес И. Эфендиева и «Правитель и его дочь» с точки зрения литературоведческих критерий и высокой оценки общенационального лидера.

Ключевые слова: Гейдар Алиев, Ильяс Эфендиев, творчество, историческая драма, писатель

Prezident İlham Əliyevin 28 noyabr 2022-ci il tarixli sərəncamı ilə Azərbaycanda 2023-cü il "Heydər Əliyev" ili elan edilmişdir. Bu il 10 mayda müstəqil Azərbaycanın qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əlievin 100 ili tamam olur. Dövlətçilik salnaməmizdə özünəməxsus iz qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş H.Əliyev dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Elmin, iqtisadiyyatın, sənayenin, tarixin, fəlsəfənin, mədəniyyət və incəsənətin - bir sözlə, həyatımızın bir çox sahələrinin bilicisi, universal bilik sahibi olan H. Əliyev rəssamla bir sənətşünas, yazıçı ilə bir ədəbiyyatşünas-kulturoloq, memarla mahir bir mütəxəssis kimi fikir mübadiləsi edə bilirdi.

Müdrik lider ilk gənclik illərindən ədəbiyyatı yüksək səviyyədə mənimsəmiş, daim ədəbi prosesi maraqla izləmiş, bir ideoloq-analitik kimi ədəbiyyatı sənət meyarları ilə təhlil etməyi bacarmışdır. Buna onun həm hərtərəfli biliyi və dünyagörüşü, həm də çoxillik təcrübəsi imkan vermişdir. H.Əliyevin fikrincə, "Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Bilmirəm, bəlkə də səhv edirəm, ancaq yazıçıya, şairə, mədəniyyət xadiminə bizim Azərbaycandakı kimi hörmət və ehtiram bəlkə də az yerlərdə tapılar, bunun kökləri var. Çünki bizim ədəbiyyatımız da, mədəniyyətimiz də zəngindir. Ədəbiyyatımızı, mədəniyyətimizi və tariximizi zənginləşdirən şəxsiyyətər də olubdur. Ona görə də xalq bu şəxsiyyətlərlə həmişə fəxr edərək, onların yaratdıqlarını sevə-sevə oxuyaraq mədəniyyətə, ədəbiyyata hörməti nəinki saxlayıb, hətta artırıblar" [1, s.152].

H.Əliyevin milli mədəniyyətimizin, xüsusilə ədəbiyyatımızın inkişafına diqqəti və qayğısı heç bir ölkə başçısının humanitar sahədə fəaliyyəti ilə müqayisə oluna bilməz. Onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə sənətkarlarımızın yubiley təntənələri keçirilmiş, heykəlləri ucaldılmış, adları əbədiləşdirilmiş, kitabları yüksək tirajlarla nəşr olunmuş, əsərləri dünya dillərinə tərcümə edilərək təbliğ edilmiş, orden və medallara layiq görülmüş, Prezident təqaüdü ilə mükafatlandırılmışlar. Qədim abidəmiz olan "Kitabi Dədə Qorqud" dastanlarının, N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif, M.F.Axundzadə, C.Məmmədquluzadə, H.Cavid, C.Cabbarlı, S.Vurğun, S.Rəhimov, B.Vahabzadə, İ.Əfəndiyev, R.Rza və onlarla müxtəlif nəsillərə mənsub klassiklərimizin yubileylərinin respublika və beynəlxalq səviyyədə qeyd olunması ulu öndərin adı ilə bağlıdır. Bu istiqamətdə görülən işlərin hamısını bir yazıda əhatə etmək əlbəttə imkan xarıcındədir. Təkcə bir faktı xatırlatmaq yerinə düşər. O da Heydər Əliyevin Hüseyn Cavidin şəxsiyyətinə və sənətinə olan qədirşünas münasibətidir.

Ümummilli liderin Cavid sənətinə verdiyi yüksək dəyər, onun xatirəsini əbədiləşdirmək sahəsində imzaladığı sərəncamlar – 1981-ci ildə ədibin 100 illik yubileyi haqqındakı tarixi qərarı, yaşadığı evin şairin adını daşıyan muzeyə çevrilməsi, 1982-ci ildə Cavidin cənazəsinin Uzaq Sibirdən gətirilərək doğma torpağa tapşırılması, məqbərəsinin təntənəli açılışı ilə bağlı tarixi nitqi, əsərlərinin külliyyatının nəşri, dramlarının yeni üslubda səhnəyə qoyulması və bu kimi möhtəşəm tədbirlər ölkə rəhbərinin, hər şeydən əvvəl, ədəbi-mədəni irsə varislik münasibətinin ifadəsidir. Düşünürük ki, bu həssas münasibət və səmimi bağlılıq bir siyasi xadimin, dövlət başçısının mənsub olduğu xalqın böyük şairinə bəslədiyi məhəbbətin ən bariz timsalıdır və ayrıca bir mövzu kimi xüsusi araşdırılma predmeti olmalıdır. Onun fəaliyyətinin əsasında hər zaman insan amili – azərbaycanlı anlayışı dayanmış, xalqımızın milli müstəqillik ideologiyası, istiqlal düşüncəsi formalaşıb möhkəmlənmişdir.

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi vaxtdan etibarən, xüsusilə XX əsrin 60-cı illərində ədəbi prosesdə milli təfəkkürün canlandırılması mühüm bir hadisə və dövrün tələbi kimi dəyərləndirilmişdir. Bədii ədəbiyyatın insan mənəviyatına təsiri həmişə böyük olmuşdur. Məhz bu baxımdan mədəniyyət xadimləri və ziyalılarla görüşlərində H.Əliyev deyirdi ki, biz yazıçılardan müasir həyat hadisələrinin dərin ictimai-bədii tədqiqini gözləyirik, elə əsərlər ki, orada cəmiyyətin şəxsi və ümumi mənafelərinin dialektikası, şəxsiyyətin hüquq və vəzifələrinin dialektikası açılıb göstərilir.

H.Əliyev tarixi mövzularda yazılan və tarixi şəxsiyyətlərin bədii obrazlarını canlandıran əsərlərə yüksək həssaslıqla yanaşırdı. O, tarixi yaradan şəxsiyyətlərlə yanaşı, həm də bu tarixin özünün obyektiv və dürüst yazılmasına da diqqət yetirirdi: "Qeyd etmək istəyirəm ki, tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, açıq deyək ki, mürəkkəb mövzulardır. Belə mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bilikli sənətkarlar gələ bilərlər. Buna görə də tarixi mövzulu əsərlər yaratmağa girişməzdən əvvəl ədib öz qüvvə və imkanlarını götür-qoy etməli, böyük, ciddi hazırlıq işi aparmalıdır" [5] .

Böyük öndər tarixi milli yaddaşı irəliyə doğru inkişafın əsas amillərindən biri hesab edirdi. İctimai formasiyanın hər yeni mərhələsində millət öz tarixini dərk etmək istəyir. Ədəbiyyatın isə bu prosesdə rolu mühümdür. Azərbaycan Yazıçılarının VII qurultayındakı nitqində Heydər Əliyev deyirdi: "Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır. Əvvəlki nəsillərin istedadı və əməyi ilə yaradılmış bütün sərvətləri mənimsəmədən və araşdırmadan yeni mədəniyyət yaratmaq mümkün olmadığı kimi, əvvəlki təcrübəyə arxalanmadan müvəffəqiyyətlə irəliyə getmək olmaz". Təbii ki, bu ədəbiyyatda tarixi mövzu problemini zəruri edir. "Tarix ən qüdrətli və təsirli tərbiyə vasitələrindən, şüurları və həyat mövqelərini formalaşdırmaq vasitələrindən biridir". Bu fikirləri ilə natiq yazıçılar qarşısında tarixi canlandirmaq kimi çətin və ali vəzifə qoyurdu. Burada yazıçının vəzifəsi çoxcəhətli ola bilər, lakin ən başlıcası "xalqın tarixini onun müasir mədəniyyətinə xidmət göstərməyə cəlb etmək"dən ibarət olmalıdır. "Yazıçı sənəti salnaməçi peşəsinə yaxındır" deyən H.Əliyev xüsusilə Azərbaycan tarixinin hansı dövrünü əks etdirməyin, eləcə də mədəniyyət və elm xadimlərimizin obrazlarının ədəbiyyata gətirilməsinin zəruriliyini də qeyd etmişdi.

Məhz bu baxımdan Xalq yazıçısı, dramaturq və publisist İlyas Əfəndiyevin yaradıcılığı ulu öndərin həmişə diqqət mərkəzində olmuşdur. Bu, xüsusən Azərbaycanın müstəqillik qazandığı dövrlərdə yeni bir vüsət almışdır.

Hələ ötən əsrin 80-cı illərində H. Əliyev xalq yazıçısının sənət fəaliyyətini vurğulayaraq yazırdı: "Bir çox romanların və pyeslərin müəllifi olan İlyas Əfəndiyev respublikada yazıçı və dramaturq kimi xalq tərəfindən tanınmış, bəyənilmiş və sevilmişdir" [2].

İ.Əfəndiyevin "Hökmdar və qızı" pyesinə tamaşa etdikdən sonra H. Əliyev dramaturqun tarixi mövzularda yazdığı əsərlərin əhəmiyyəti üzərində dayanır: "İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı bir də ona görə əhəmiyyətlidir ki, o, öz əsərlərində Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəilə buğünkü nəsillərə çatdırıbdır.... Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmiş və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda, yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, vətənə və millətə sədaqət ruhu aşılamışdır" [1,s.140] .

H.Əliyev ədəbiyyata aid çıxışlarında belə bir prinsipdən çıxış edirdi: "Xalqımız, xüsusən gənc nəsil tariximizi bilməli, görkəmli şəxsiyyətlərimizi yaxından tanımalıdırlar". Məhz bu baxımdan H. Əliyev İ.Əfəndiyevin "Hökmdar və qızı" dramının tarixilik və müasirlik qatını açıb göstərir və tarixi dəyəri ilə yanaşı, müasir həyata təsirini də müəyyənləşdirir: "Əsərin bir mənası da bundan ibarətdir ki, xalqımızı, elə o vaxt keçmiş tarixi dövrlərdə də bədbəxt edən içindəki çəkişmələr olub. Bu həqiqətdir ki, xanlar o vaxt bir-biri ilə çəkişməsəydilər, ədavət aparmasaydılar, bəlli iddiada olmasaydılar, biri o birinə hörmət edib hamısı birləşsəydilər, buna nail ola bilərdilər. Düzdür, İbrahim xan bundan çox şikayətlənir ki, mən xanlıqları birləşdirmək istəyirəm, amma birləşmirlər. Bu da həqiqətdir. Çünki İbrahim xan, Cavad xan, Quba xanı Fətəli xan da, Şəki xanı da şah olmaq istəyirdi. Bəli, hər biri istəyirdi ki, şah olsun. Ancaq bunlar bir yerdə olsaydılar, yığılıb hamısı desəydilər ki, gəlin bir nəfəri şah seçək və ona da itaət edək, əlbəttə ki, bu faciələrdən bəlkə də xilas olmaq mümkün olardı" [1, s.142].

Həqiqətən də, İlyas Əfəndiyev özünəxas cəsarətlə istər bədii yaradıcılığında istərsə də publisistikasında tariximizi, xalq həyatını, milli müstəqilliyimizi azərbaycançılıq və türkçülük məfkurəsi ilə əks etdirib. Xüsusilə ata-baba yurdu Qarabağın tarixi keçmişi və bu günü sənətkarı həmişə düşündürmüşdü. "Ədəbiyyat və incəsənət" qəzetinə verdiyi bir müsahibəsində İ. Əfəndiyev bir mövzuya aid konkret misallar göstərir: "Xalqı qıra-qıra gəlib Şuşa qalasında, öz qoşununun ortasında

hər tərəfdə mühafizə dəstəsi ilə əhatə edilmiş halda sakin olan Ağa Məhəmməd şahın adı bir vətənpərvər tərəfindən öldürülməsi, minlərlə insanın, vətən torpağının xilas edilməsi, sonra isə, satqın, mürtəce xainlərin həmin xilaskarı tutub, ayağına nal çaldıraraq İran şahının hüzuruna göndərmələri dəhşətli faciə deyildi? Yaxud, Qarabağ xanı İbrahimxəlil xanın bütün arvad-uşağı ilə bərabər gecə qılıncla doğranması hadisəsi? Şekspir qələminə layiq olan bu faciələr və buna bənzər digər hadisələr bədii ədəbiyyatımızda yenə də öz həqiqi yüksək ifadəsini gözləyir" [4,s. 99].

Tarixi hadisələri müasir baxımdan mənalandıraraq müqayisələr aparmağı və tarixin dərslərindən ibrət götürməyi Heydər Əliyev qələm adamlarına həmişə tövsiyə edir. Tarixi səhvlər üzündən uzaq keçmişimizdə xalqımızın yaşadığı faciələrlə müasir dövrümüzdə başımıza gələn müsibətlərin eyni kökdən, eyni mənbədən qaynaqlandığını, keçmiş təcrübədən ibrət ala bilməməyimizi gündəmə gətirir və bu işdə ədəbiyyatın, yazıçı şəxsiyyətinin önəmini qeyd edir: "Bu çəkişmələr dünən də vardı, bu gün də var. 1988-ci ildən xalqımızın başına gələnlər, ermənilərin Azərbaycana təcavüz etməsi, Dağlıq Qarabağ məsələsini qaldırması nəyin nəticəsində oldu? Azərbaycanın içində gedən çəkişmələrin nəticəsində oldu.... Əgər Azərbaycan xalqı birləşsəydi, hamı bir olsaydı, ermənilərin qarşısını almaq mümkün olmazdımı?.... Xalqımızı..... bu təhlükədən qorumaq, birləşdirmək və həmrəy etmək, Azərbaycanın bu ağır dövründə hamının müstəqilliyimizi qoruyub saxlaması üçün bu əsərin çox böyük əhəmiyyəti var – həm pyesin, həm də sizin bu səhnədə yaratdığınız bu tamaşanın Bizim gəncləri bu tamaşaya mütləq gətirmək lazımdır – universitetlərdən, məktəblərdən gəlsinlər baxsınlar. Tamaşanı tez-tez qoymaq lazımdır ki, çoxları gəlib baxsın. Həm tariximizi, həm başıımıza gələn faciələri bilsinlər, həm də bundan ibrət götürsünlər, nəticə çıxarsınlar. Bumdan sonra belə şeylərə yol vermək olmaz – müstəqilliyimizi, azadlığımızı əldən vermək olmaz. Əsərdəki son monoloqda da bunlar deyilir" [1,s. 144].

Xalq yazıçısı İ.Əfəndiyevin yaradıcılığı sovet dövrünün sosioloji şablonlarını dağıtması, sosialist realizminin estetik tələblərinə uyğun gəlməməsi, xalq həyatının milli mənafe baxımından və tarixi dürüstlüklə canlandırması Ulu Öndərin diqqətini cəlb etmişdi. "İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir". Beləliklə xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, Vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu əsərlərdən çox bəhrələnmişdir" [1, s.140].

Heydər Əliyev "Hökmdar və qızı" tamaşasının premyerasından sonra səhnə arxasına keçərək yaradıcı heyət – rejissor və aktyorlarla görüşmüş, "maraqlı, məzmunlu və mənalı" tamaşa hazırladıqları üçün onları təbrik etmişdir. Tariximizin bu dövrünün keçmişdə təhrif olunduğunu, tarixçi və salnaməçilərin bu hadisələrə açıq, müasir gözlə, yenidən baxmağa başladıqlarını qeyd edərək bir daha vurğulamışdır ki, "bütün vasitələrlə, o cümlədən mədəniyyət, ədəbiyyat, teatr vasitəsilə indi həqiqəti xalqa bildirmək lazımdır. Həqiqətin xalqa belə çatdırılması daha təsirlidir, xalq bunu qavraya bilir. Yenə də deyirəm, böyük bir kitabı götürüb oxumaq, ondan nəticə çıxarmaq olar. Amma bu o qədər də asan deyil. Lakin bunu ədəbiyyat dili ilə yazıb çatdırmaq, sizin kimi çox gözəl aktyorların ifasında bu vasitə ilə xalqa çatdırmaq çox əhəmiyyətlidir. Mən əsəri bu baxımdan çox yüksək qiymətləndirirəm" [1, s.141] .

Bir ictimai xadim, ölkə başçısı və şəxsiyyət olaraq Heydər Əliyev, sözün əsl mənasında, qələm adamlarının yaxın dostu, məsləkdaşı, mədəniyyətimizin hamisi olmuşdur. Ədəbiyyat haqqında söylədiyi nitqlərinin birində "... bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətdir" deyən ulu öndərin çoxcəhətli fəaliyyətinin ayrılmaz tərkib hissəsi, böyük milli ideyaları həyata keçirmək yolunda onun mənəvi silahı olmuşdur.

Ədəbiyyat

1. Heydər Əliyev və mədəniyyət. 3 cilddə. II c. Bakı, 2008, 520 səh.
2. Əliyev Heydər. Xalq yazıçısı İlyas Əfəndiyevin 80 illik yubileyi münasibətilə "Ədəbiyyat qəzeti", 1994 27 may
3. Əliyev Heydər. İlyas Əfəndiyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin fərmanı "Mədəniyyət" qəzeti, 1994 30 may
4. Yeganə Qasımova. İlyas Əfəndiyevin bədii publisistikası. Bakı, 2017, 155 səh.
5. Nəbiyev Bəkir. İbrətamiz tamaşa ("Hökmdar və qızı" pyesinin tamaşası haqqında) "Azərbaycan" qəzeti, 1996 27 dekabr

Çingiz ƏLİYEV
Azərbaycana Turizm və Menecment Universiteti
aqrar elmləri üzrə fəlsəfə doktoru, dosent
chingiz.aliyev@atmu.edu.az

Cavid MƏMMƏDOV
Azərbaycana Turizm və Menecment Universiteti
müəllim
c.mammadov@atmu.edu.az

ELM - TƏCRÜBƏLƏRİN NƏZƏRİ İNKİŞAFININ HƏRƏKƏTVERİCİ QÜVVƏSİ KİMİ

SCIENCE AS A DRIVING FORCE OF EXPERIMENTAL THEORETICAL DEVELOPMENT

НАУКА КАК ДВИЖУЩАЯ СИЛА ЭКСПЕРИМЕНТАЛЬНОЙ ТЕОРЕТИЧЕСКОЙ РАЗРАБОТКИ

Xülasə: Məqalədə həll edilməli olan elmi işin formalaşmasından, tədqiqatların məqsəd və vəzifələrinin müəyyən edilməsindən, təcrübələrin nəzəri əsaslarından, təcrübələrin planlaşdırılmasının və keçirilməsinin müasir elmi metodları, onformasiya və nəticələrin etibarlılığının artmasından, eyni zamanda tədqiqatların istiqamətinin müəyyən edilməsindən bəhs edilir.

Açar sözlər: Elm, təcrübə, inkişaf, tədqiqat, vəzifə.

Abstract: The article talks about the formation of the scientific work to be solved, the determination of the goals and tasks of research, the theoretical basis of experiments, modern scientific methods of planning and conducting experiments, the increase of the reliability of information and results, and at the same time, the determination of the direction of research.

Keywords: Science, experience, development, research, duty.

Абстракт: В статье говорится о формировании решаемой научной работы, определении целей и задач исследования, теоретической основе экспериментов, современных научных методах планирования и проведения экспериментов, повышении достоверности информации и результатов, а также в то же время определение направления исследований.

Ключевые слова: наука, опыт, разработка, исследование, долг.

Ulu öndərimiz Heydər Əliyev elm haqqında müdrik fikirlərində qeyd etmişdir ki, hər bir alim qiymətlidir, ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edən və onlardan əməli nəticə götürüb cəmiyyətə, xalqa, ölkəyə fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar.

Elm insan fəaliyyətinin bir sahəsi kimi həmin fəaliyyət haqqında obyektiv biliklərin alınması və sistemləşdirilməsi ilə məşğul olur.Elm yeni biliklər əldə etməyin və bu fəaliyyətin nəticələrini əhatə edir.Elm mürəkkəb sosial sistemlər qrupuna daxil olmaqla müxtəlif mənşəli elementlərin dialektik məcmusunu əks etdirir.Buna görə də elmin tədqiqi çoxaspektli olmalıdır.

Elm insanın cəmiyyət, təbiət və onun təfəkkürü haqqında obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş fəaliyyət növüdür.Bu fəaliyyətin əsasını elmi faktorların toplanması, onların daima müasirləşdirilməsi və sistemləşdirilməsi, tənqidi analizi və bu əsasda elmi biliklərin toplanmasıdır.

Elmin indiyə qədər üç anlayışı mövcuddur: elm bilik kimi, fəaliyyət kimi və sosial bir qurum kimi. Müasir dövrümüzdə elm üç məqamın üzvi birliyidir. Burada fəaliyyət onun əsasını, bir növ "özəyini" təşkil edir, bilik sistemi yaradan amildir. Sosial institut isə elm adamlarını birləşdirmək və onların birgə fəaliyyətini təşkil etmək yoludur. Elm biliyə söykənir, obyektiv həqiqəti axtarmağa, mahiyyəti dərk etməyə, yeni bilik əldə etməyə yönələrək adi təcrübə obyektləri çərçivəsindən çıxaraq reallıq obyektləri ilə məşğul olur. Müasir elm mədəni – ideoloji, metodik, tənzimləyici təhsil, proqnoz, akseoloji, idarəetmə kimi funksiyaları yerinə yetirir.[1]

Hər hansı bir elm haqqında təsəvvür bu elmin obyektini, predmetini, metod və prinsipini öyrənməkdən başlayır.

Elm bəşəriyyat aləmində baş verən prosesləri təbiət qurumlarına uyğun şəkildə izah etməyə çalışır və bu halda heç bir fövqəltəbii gücə ehtiyac duymur. Bu prinsipə söykənərək elm xadimləri müşahidələr aparır, hipotezlər irəli sürür və bu hipotezləri alimlər və mütəxəssislər təcrübələrlə yoxlayırlar. Hipotezlər müvəqqəti cavab xüsusiyyəti daşıyırlar. Qeyd etmək lazımdır ki, elmin ən önəmli xüsusiyyətlərindən biri onun doqmatik olmamağı və yalnız həqiqətləri öyrənməyə çalışmağıdır. Buradan belə bir nəticəyə gəlmək olar ki, elm doğru olmayan cavabları kənara ataraq doğru cavablar axtardığı üçün irəliləyir. Doğru cavabları əldə etmək üçün sualları doğru formada soruşmaq mühüm əhəmiyyət kəsb edir. Təbiət qanunlarına nümunə olaraq butun canlıların quruluş vahidinin hüceyrə olmağını misal gətirmək olar. İndi isə bir təbiət qanununu izah etmək üçün istifadə olunan nəzəriyyənin formalaşma ardıcıllığına nəzər salaq:

Müşahidə → Hipotez →Təcrübə →Nəzəriyyə

Hüceyrə olmadan həyatın mövcud olmamağı təbiətin bir qanunudur. Bu qanunu izah edən hüceyrə nəzəriyyəsi 1839-cu ildə alman alimləri Teodor Şvan və Matias Şlayden tərəfindən kəşv edilmişdir.Bu struktur modelindən aydın olur ki, hipotez nəzəriyyə statusuna yiyələnmək üçün bütün təcrübələrdən keçməli və dəstəklənməlidir. Nəzəriyyə bir nöqtədə yeni təcrübələrlə təkzib oluna bilər. Burada fəaliyyət onun əsasını, bir növ "özəyini" təşkil edir, bilik sistemi yaradan amildir, sosial institut isə elm adamlarını birləşdirmək və onların birgə fəaliyyətini təşkil etmək yoludur. Elm biliyə söykənir, obuektiv həqiqəti axtarmağa mahiyytəti dərk etməyə yeni bilik əldə etməyə yönələrək adi təcrübə obyektləri çərçivəsindən çıxaraq reallıq obyektləri ilə məşğul olur. Müasir elm mədəni-ideoloji, metodik, tənzimləyici təhsil, proqnoz, akseoloji, idarəetmə kimi funksiyaları yerinə yetirir [1].

Biologiya canlı varlıqları öyrənən elm sahəsidir. Onun ayrı-ayrı sahələri, botanika və zologiya da daxil olmaqla, həyatın müxtəlif formalarını öyrənir. Biologiya ən vacib nəzəriyyələrindən biri canlı varlıqların olduqları formaya necə düşməsini izah edən təbii seçim nəzəriyyəsidir [2].

Elm müşahidə edilən təbii və ictimai məqamları təkcə təsvir etmir, eyni zamanda onların əlaqələrini tapır və sonuncunun əlaqələndirilməsini asanlaşdıraraq sadələşdirir. Sosiologiya elminin inkişafına təkan vermiş alim və mütəxəssislər bu elmi iki kateqoriyaya ayırmışlar: klassik sosiologiya və müasir sosioloji nəzəriyyəçilər. Klassik nəzəriyyəçilər sosiologiya elminin yarandığı XX əsrin əvvələrinədək işləyən şəxsləri əhatə edir. (Georq Jummel, Ogüst Kont, Herbort Spenser və Vilfredo Poreto) onların ideyaları hələdə yaşayır və müasir dövrdəki sosial məsələləri anlamaq üçün alimlər onların nəzəriyyələrindən də olduqca səmərəli qaydada istifadə edirlər [3]. Müasir qrupa isə ikinci dünya müharibəsinin (1939) başlandığı illərdən indiki dövrə kimi olan şəxslər nəzərdə tutulur, (Talkot Parsens, Entoni Giddens və s.)[4].

İctimai biliyin dərinləşməsi, digər elmlərin diferensasiyası, cəmiyyətin tədqiqində labüdlüyü sosiologiyanın ayrıca elm kimi formalaşmasına şərait yaradır. Sosiologiya elmi digər elmlərlə birgə işləyir və buna görə də multidisplinar elm kimi də tanınır.

Sosioloqlar əsasən problemlərin media, ekspert və dövlət nümayəndələri tərəfindən göstərilən səbəbləri ilə tam razı olmayaraq, problemin görünməyən tərəflərini və səbəblərini araşdırırlar, ele buna görə də bir çoxları (media, dövlət, kapitalist) tərəfindən tənqidə məruz qalırlar.

Təcrübələrin nəzəri əsaları

Elm insan fəaliyyətinin sahəsi kimi həmin fəaliyyət haqqında obyektiv biliklərin alınması və sistemləşdirilməsi ilə məşğul olur. Elm yeni biliklər əldə etməyin və bu fəaliyyətin nəticələrinin təsvirini əhatə edir.Elmi fəaliyyətin ən mühüm tərkib hissəsini təcrübə və eksperiment təşkil edir.Akademik təyinə görə təcrübə nəzəriyyəyə əsaslanaraq eksperimentin məqsədinin müəyyən edilməsi və onun nəticələrinin şərh edilməsi ilə həyata keçirilir.Eksperimentin əsas məqsədi nəzəriyyədən irəli gələn fərziyyə və proqnozlaşmaların yoxlanılmasından ibarətdir. Praktiki torpaqşünaslıq və təbii proseslər üzrəində 18-ci əsrin sonu, 19-cü əsrin əvvələrində , hələ kənd təsərrüfatında təcrübə işinin inkişafınadək, çoxəsirlik təcrübələrin ümumiləşdirilməsi əsasında artıq bitkiçiliyin və torpaqşünaslığın əsas qanunları formalaşmışdı. Bu ümumi xarakter onları təbiət qanunları sırasına aid etməyə imkan verir [5].

Çöl təcrübələrində elm və istehsalat üçün əhəmiyyət kəsb edən nəticələr əldə etmək üçün həmin təcrübələrin planlaşdırılması və keçirilməsi zamanı müasir elmi metodlara keçilməsi zəruridir: elmi fərziyənin məlum qanunuyğunluq və elmi informasiyanın ümumiləşdirilməsi əsasında formalaşdırılması; fərziyyə əsasında tədqiq edilən fenomenin riyazi və məntiqi modelinin qurulması; model üzərində komputer, ədədi və ta məntiqi eksperimentlər və onların müsbət nəticə verən parametrlərinin müəyyən edilməsi; fərziyyətinin və modelin praktiki istifadəsi və alınmış nəticələrin işlənməsinə dair tövsiyyələtin verilməsi. Təcrübələrin planlaşdırılmasının və keçirilməsinin müasir elmi metodları informasiya və nəticələrin etibarlılğının artması fonunda, çöl təcrübələrinin keçirilməsinin vaxtının və vəsaitlərinin qənaət edilməsinə imkan verir.

Mövcud Olan Elmi İnformasiyanın Analizi və Tədqiqatların İstiqamətlərinin Müəyyən Edilməsi

Hər bir elmi tədqiqat işinin başlanğıcında öyrəniləcək elmi problemin aydın və dəqiq formalaşdırılması zərurəti durur. Elmi problem, əvvəlki mənbələrdə hazır həlli və cavabı olmayan mürəkkəb sualdır. Problem orada yaranır ki, meydana çıxan suallar hələ cavabsızdır və bu da araşdırılmamış məsələnin tədqiq edilməsinə həvəsləndirir.

Həll edilməli olan elmi işin formalaşması, tədqiqatların məqsəd və vəzifələrinin müəyyən edilməsi üçün elmi informasiyanın ümumiləşdirilməsi aparılır. Bitkiçilik üzrə elmi tədqiqatların planlaşdırılması zamanı elmi məlumatların mənbəyini elmi tədqiqat institutlarının hesabatları, patent ədəbiyyatları, məlumat nəşrləti. Elmi jurnal məqlələri, elm və istehsalat yönümlü kitablar (o cümlədən monoqrafiyalar, elmi əsərlərin məcmuələri), məlumatlar, konfrans, simpozium, sərgimaterialları və s. təşkil edə bilər. Bu arada elmi ədəbiyyat tədqiq olunan sahənin bilik səviyyəsini, istehsalat ədəbiyyatı isə istehsalatda əldə edilmiş texnoloji və texniki səviyyəni əks etdirir. Elmi məlumatın mənbəyinə təkə elmi tədqiqat fəaliyyəti deyil, həm də bütün insan təcrübəsi xidmət edir.

Elmi problem formalaşdırıldıqdan sonra tədqiqatçı elmi məlumatlardan, həmçinin əvvəlki biliklərə əsaslanaraq problemin həllinin mümkün yollarını axtarmağa başlayır, eyni zamanda problemin həllinin yekun nəticəsi haqqında təkliflər verir. Yəni tədqiqatın məqsəd və vəzifələrinin müəyyən edən elmi fərziyyəni formalaşdırır. Bunun üçün bütün məlum qanun və prinsiplər, nəzəri müddəalar və tədqiqatçıya əl çatan olan bütün eksperimental materiallar cəlb edilir. Təcrübə - elmi fərziyyənin eksperimental yoxlanılması üsuluna çevrilir.

Elmi tədqiqatların aparılmasının əsaslandırılması üçün tədqiqatçıya vacib olan elmi informasiyanın axtarışı, öyrənilməsi vacib olan məlumat mənbələrinin siyahısının tərtibindən başlanılır. Axtarışlar kitab kataloqları, referatif, icmal, biblioqrafik və s. nəşrlər, o cümlədən elektron informasiya

sistemlərindəki tematik sorğular vasitəsilə aparılır. Daha sonra çıxarış, annotasiya, və ya xülasə şəklində qısa qeydləretməklə birbaşa məlumat mənbələrinin öyrənilməsinə başlanılır.

Kifayət qədər ədəbiyyat mənbəsi öyrənildikdən sonra ən vacib mərhələ sayılan məlumatların təhlilinə başlanılır.Bunun üçün tematik sistemləşdirilmə və dolğun təsnifat üsulundan istifadə olunur. Bu zaman bir-birilə müqayisə edilən müxtəlif nəzəriyyələr, ideyalar, faktlar tənqidi analizə məruz qalır.Belə analitik işlər nəticəsində şəxsi fikir və mülahizələr, daha aktual suallar meydana çıxır, elmi problem və tədqiqatın fərziyyəsi haqqında fikirlər formalaşır.

İşlənmiş informasiyanın analizi nəticəsində tədqiqatın aktuallığı və yeniliyi, işlənib hazırlanmalı olan mühüm, aktual məsələlər, onların məqsədəuyğunluğu və effektivliyi haqqında nəticələr əldə edilir. Nəticələr əsasında planlaşdırılan tədqiqatın məqsədi və konkret məsələləri formalaşır. Tədqiqatlar aktual olmalı, yəni hazırda həllini tələb edən, eimi yeniliyə malik, iqtisadi cəhətdən əsaslandırılmış, nəticələrinin istehsalat şəraitində praktiki tətbiq etmək imkanı olmalıdır.

Ədəbiyyat

1. Sadıqov, İ. "İnformatika terminlərinin izahlı lüğəti". Bakı, " Bakı nəşriyyatı", 996 səh.
2. Johnson, George B, Biology, Visualizing Life Holt, Rinehart, and Winston, 2005.
3. George Ritzer (2008). Classical sociological sosiological theory.
4. Vahidov, F. Ağayev, B. Sosiologiya. Ali məktəblər üçün dərs vəsaiti. Bakı. "Təknur" nəşriyyatı, 2008. 334 səh.
5. Литвинов С.С. Методика Полевего Опыта в обощебодству. Москва, 2011, с. 7-16.

Ülkər SADIQOVA
Azərbaycan Turizm və Menecment Universiteti
iqtisad üzrə fəlsəfə doktoru
u.sadiqova@atmu.edu.az

Günay İLDIRIMLI
Azərbaycan Turizm və Menecment Universiteti
müəllim
Gunay.ildirimli@atmu.edu.az

AZƏRBAYCANDA REGİONLARIN İNKİŞAFINDA TURİZM TƏŞKİLATLARININ ROLU

THE ROLE OF TOURISM ORGANIZATIONS IN THE DEVELOPMENT OF THE REGIONS OF AZERBAIJAN

РОЛЬ ТУРИСТИЧЕСКИХ ОРГАНИЗАЦИЙ В РАЗВИТИИ РЕГИОНОВ АЗЕРБАЙДЖАНА

Xülasə: Turizm iqtisadi kompleksdir, onun inkişafı daha çox iqtisadi proseslər və münasibətlərlə izah olunur. Lakin turizm həm də sürətlə inkişaf edən bir çox ölkələrin iqtisadi artımı üçün ən mühüm katalizatordur, mal və xidmətlərin ixracı (idxal) ilə müşayiət olunmayan ümumi milli məhsulun ölkələr arasında yenidən bölüşdürülməsi kanalı kimi çıxış edir. Müasir turizm iqtisadi hadisə kimi: 1. sənaye formasına malikdir; 2. yığılması və daşınması mümkün olmayan turizm məhsulu və xidmətləri kimi çıxış edir; 3. yeni iş yerləri yaradır və tez-tez yeni sahələrin inkişafında qabaqcıl və milli iqtisadiyyatın sürətli inkişafının katalizatoru kimi çıxış edir; 4. milli gəlirin turizm üzrə ixtisaslaşmış ölkələrin xeyrinə yenidən bölüşdürülməsi mexanizmi kimi çıxış edir; 5. milli gəlirin artımının, məşğulluğun və yerli infrastrukturun inkişafının və yerli əhalinin

həyat səviyyəsinin yüksəlişinin multiplikatorudur; 6. yüksək səmərəlilik səviyyəsi və investisiyanın tez qaytarılması ilə xarakterizə olunur;

Açar sözlər: turizm sektoru, regional turizm, turizm təşkilatları, iqtisadi problemlər, turizm infrastrukturu

Abstract: Tourism is an economic complex, its development is mostly explained by economic processes and relations. However, tourism is also the most important catalyst for the economic growth of many rapidly developing countries, acting as a channel for redistributing the gross national product among countries that is not accompanied by the export (import) of goods and services. Modern tourism as an economic event: 1. has an industrial form; 2. act as tourism products and services that cannot be collected and transported; 3. creates new jobs and often acts as a catalyst for the rapid development of advanced and national economy in the development of new fields; 4. acts as a mechanism of redistribution of national income in favor of countries specialized in tourism; 5. it is a multiplier of national income growth, employment and local infrastructure development and improvement of living standards of the local population; 6. characterized by a high level of efficiency and a quick return on investment;

Keywords: tourism sector, regional tourism, tourism organizations, economic problems, tourism infrastructure

Абстракт: Туризм представляет собой хозяйственный комплекс, его развитие во многом обусловлено экономическими процессами и отношениями. Однако туризм является также важнейшим катализатором экономического роста многих быстроразвивающихся стран, выступая каналом перераспределения валового национального продукта между странами, не сопровождающегося экспортом (импортом) товаров и услуг. Современный туризм как экономическое мероприятие: 1. имеет индустриальную форму; 2. выступают в качестве туристических продуктов и услуг, которые невозможно собрать и транспортировать; 3. создает новые рабочие места и часто выступает катализатором быстрого развития передовой и национальной экономики при освоении новых месторождений; 4. Выступает механизмом перераспределения национального дохода в пользу стран, специализирующихся на туризме; 5. является мультипликатором роста национального дохода, занятости и развития местной инфраструктуры и повышения уровня жизни местного населения; 6. характеризуется высоким уровнем эффективности и быстрой окупаемостью инвестиций;

Ключевые слова: туристическая сфера, региональный туризм, туристские организации, экономические проблемы, инфраструктура туризма.

Turizm ölkə iqtisadiyyatının prioritet sahələrindən biri kimi

Turizmin davamlı olaraq inkişafında və güclənməsində əsas rolu regionun rəqabət gücünün olmasıdır. Turizmin təşkil olunduğu regionlarda ətraf mühitin təhlili aparılaraq planlaşmanın edilməsi, sərmayə qoyuluşunda mühitə təsirin qiymətləndirilməsinin nəzərə alınması, dövlət və özəl sektor nümayəndələri və vətəndaş cəmiyyətləri tərəfindən bu proseslərin izlənilməsi və dəstəyi əhəmiyyətli rola malikdir

Dövlət turizmi ölkə iqtisadiyyatının prioritet sahələrindən biri kimi qəbul edərək turizmin dövlət tənzimlənməsinin əsas prinsiplərini, məqsəd və istiqamətlərini "Turizm haqqında" qanun layihəsində, "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanunda müəyyənləşdirmişdir. Turizm sənayesinin inkişafı üçün həm dövlət, həm də regional səviyyədə maliyyə dəstəyi tələb olunur. Turizmin inkişaf strategiyasında vergi güzəştləri, güzəştli kreditlərin verilməsi, turizm obyektlərinə investisiya qoyuluşu baxımından yerli vergilərin azaldılması da olmalıdır. Turizm fəaliyyəti praktikasında - turist tədarükçüləri (göndərən ölkələr) və bir qayda olaraq turistləri qəbul edən ölkələr var. Birinciyə: ABŞ, Almaniya, İngiltərə, Belçika, Danimarka və s. İkincisi - Fransa, ABŞ, İspaniya, İtaliya, Macarıstan və s. aid etmək olar. Səyahət dinamikası iqtisadiyyatın yüksəlişdə və ya tənəzzüldə olub-olmamasına çox həssasdır. Dünyanın hər bir turizm regionunda turizm bazarının təhlili qlobal turizm sektorunun inkişaf tarixini, hazırkı vəziyyətini və gələcəyini işıqlandırır və əsas məqsədləri qarşıya qoyur: beynəlxalq turizmin artdığı və azaldığı regionları müəyyən etmək, turistlərin sayının və onlardan əldə olunan gəlirin coğrafi bölgüsündə böyük fərqlərin səbəblərini və bu fərqlərin dina-

mikasını izah etmək, beynəlxalq turizmin iqtisadi inkişafın mühüm elementinə çevrilmək üçün böyük potensiala malik olduğu ölkələri müəyyən etmək [7.s 54].

Azərbaycanda turizm iqtisadiyyatın prioritet və perspektivli sahələrindən biridir. Bu sahənin inkişafı naminə qəbul edilmiş mühüm qanunlar, Dövlət Proqramları, respublika başçısının fərman və sərəncamları arasında 2022-ci il fevralın 18-də daxili turizm sənayesinin şaxələndirilməsi, onun tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, turizm sahəsində dövlət idarəçiliyinin əsaslarının müəyyən edilməsi zərurəti ilə bağlı bir çox əlavələri özündə əks etdirən yenilənmiş "Turizm haqqında" qanunu qeyd etmək olar. Bu hüquqi sənədin müddəalarının həyata keçirilməsi turizm sektorunda innovativ potensialın daha da səfərbər edilməsi və biznes modellərinin müasirləşdirilməsi imkanlarını xeyli genişləndirəcək.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Fərmanı xüsusi əhəmiyyət kəsb edir. Bu əsrin əvvəlləri ilə ölkənin səyahətçilər arasında populyarlığının və imicinin artması fonunda dövlət turizm siyasətinin köklü şəkildə dəyişdirilməsi zərurəti yarandı. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, qəbul edilmiş proqramlar sahibkarlıq mühitinin yaxşılaşdırılmasında əvəzsiz rol oynamışdır və turizm sahəsində fəaliyyətin səmərəliliyinin artırılmasına təkan vermişdir.


Turizm sektorunun regional səviyyədə təhlili və regional turizmin planlaması.

Turizm sektorunun fəaliyyətinin təhlili deməyə imkan verir ki, onun regional səviyyədə inkişafı bazar mexanizmindən asılıdır və bu, regiona iqtisadi, təbii və sosial-mədəni problemlər gətirir. Bu problemlər arasında [6.s 176]:

1. regionda büdcə və kommersiya gəlirlərinin itirilməsi;
2. turizm zonalarında sıxlıq;
3. ətraf mühitin çirklənməsi;
4. turist axınının və turizm infrastrukturu obyektlərinin sayının nəzarəsiz artması ilə əlaqədar ekoloji problemlər, turizm obyektlərinin düzgün və ya həddindən artıq istifadəsi nəticəsində məhv olması;
5. mədəniyyətin kommersiyalaşdırılması (qiymətlərin eyni vaxtda artması ilə turistlərə təqdim olunan obyektlərin və xidmətlərin keyfiyyətinin azalması);
6. sosial problemlərin artması.

Bu problemlər regionun inkişafına mənfi təsir göstərir ki, bu da turizmin planlı şəkildə inkişaf zərurətini əvvəlcədən müəyyən edir.

Şək. 1 Regional turizmin planlaması



Turizm obyektinin planlaşdırılmasında ikili xüsusiyyətlər mövcuddur:

1) xidmət sektoru kimi

2) ətraf mühitə təsiri ilə əlaqəli istehsal sahəsi kimi.

Bundan əlavə, turizmin planlaşdırılmasının sosial-mədəni amillərini (mədəniyyət obyektlərinin, infrastrukturun saxlanılması), onun iqtisadiyyatın əlaqəli sahələrinin inkişafını stimullaşdırmaq qabiliyyətini və yerləşdiyi yerə resurs bağlılığını nəzərə almaq lazımdır. Regional turizmin planlamasında ilk mərhələdə, ilkin məlumatların, həyata keçirmə texnologiyasının, mərhələlərin və inkişaf müddətlərinin iş sahəsini müəyyən etmək təklif olunur. Regional turizmin inkişafının planlaşdırılmasını təmin edən bütün kəmiyyət və keyfiyyət məlumatlarının toplanmasını nəzərdə tutan müvəqqəti, coğrafi, sektoral aspektlərdə vəziyyəti öyrənməyə başlanır. Bu, sistemli və etibarlı məlumatın son nəticədə regional turizmin (iqtisadi, təbii, sosial-mədəni) təsirinin miqyasından və keyfiyyətindən nə dərəcədə asılı olmasından asılıdır. Lazımi ilkin məlumatlar toplandıqdan sonra onu emal olunmasına ehtiyac var, regional iqtisadiyyatın turizm sektorunda mövcud vəziyyətin ən dolğun mənzərəsini əldə etmək üçün təhlil və sintez. Turist tələbinin üstünlük təşkil edən nisbəti və regionun imkanları əsasında turizm obyektlərinin növü və həcmi, nəqliyyat və işçi qüvvəsi ilə ehtiyacların ilkin müəyyən edilməsi həyata keçirilir. Alınan məlumatlara əsasən, ikinci mərhələyə keçid etmək olar. 2ci mərhələdə regional turizmin təşkilati elementlərinin planlaşdırılması regional turizmin planlaşdırılması texnologiyasının ikinci mərhələsinin əsas məqamlarında biridir ki, mövcud yanaşmalardan fərqli olaraq bura: təşkilati strukturların planlaşdırılması, əmək resursları və onların hazırlanması, qanunvericilik normaları və qaydaları, habelə regional turizmin inkişafına investisiyaların cəlb edilməsini aid etmək olar. Regional turizmin dövlət və özəl təşkilati strukturları zamana və vəziyyətə görə dəyişə bilər. Regionun təşkilati strukturları regional turizmin əmək ehtiyatlarının planlaşdırılmasına təsir göstərir.

Regional turizmin əmək ehtiyatlarının planlaşdırılması bizə mərhələlərlə həyata keçirilən proses kimi görünür: 1) regionun əmək potensialının fəaliyyət sahələri üzrə qiymətləndirilməsi; 2) regional turizmdə işçi qüvvəsinin məşğulluğunun tədqiqi və qiymətləndirilməsi və mövcud problemlərin müəyyən edilməsi; 3) məşğulluq kateqoriyaları üzrə cari anda tələb olunan insan resurslarının miqdarının müəyyən edilməsi 4) inkişafı nəzərə almaqla regionun əmək ehtiyatlarının potensialının qiymətləndirilməsi; 5) təlimə, təhsil və təlim proqramlarına ehtiyacın müəyyən edilməsi. Əmək ehtiyatlarının planlaşdırılmasında mövcud vəziyyətdən fərqli olaraq, turizmdə işləyən bütün kateqoriyalı işçilər nəzərə alınmalıdır: mehmanxanaların, xidmət obyektlərinin, turizm agentliklərinin və özəl sektorun işçiləri [8.s 78].

Regionların sosial-iqtisadi inkişafında turizm təşkilatlarının rolu

Azərbaycanda turizm şirkətlərinin və otellərinin sayının artması və onların dünya standartlarına cavab verməsi istiqamətində atılan addımlar ölkəmizin dünya turizm bazarına inteqrasiyasını sürətləndirir. Respublikamızda bu inkişafla birlikdə turizm təşkilatları da artmışdır. Azərbaycanda fəaliyyət göstərən bəzi turizm təşkilatları :

Azərbaycan Turizm Agentlikləri Assosiasiyası (ATAA): 2019-cu ildə yaradılan assosiasiya turizm sektorunda fəaliyyət göstərən bütün agentliklər üçün vahid platforma kimi fəaliyyət göstərir. Assosiasiya dövlət və özəl sektor əməkdaşlığını təşviq etməklə turizmdə keyfiyyətin yüksəldilməsini dəstəkləyir . Turizm sahəsində inkişafı təmin etmək üçün bir çox yerli və xarici turizm təşkilatları ilə əməkdaşlıq edir. Azərbaycanda yeni turizm sənayesinin yaranması, xüsusilə də vahid standartın formalaşdırılması və sistemləşdirilməsində fəal iştirak edir.O, həmçinin Azərbaycanın milli turizm brendinin dünya turizm bazarlarında təbliğinə dəstək verir, beynəlxalq turizm bazarlarında üzvlərə yardım edir, milli turizm sərgi və festivallarının təşkilində mühüm rol oynayır. [2].

Azərbaycan Hotel Assosiasiyası (AHA): AHA-nın müntəzəm üzvlərinin iştirak etdiyi ali qərar qəbuletmə orqanı Baş Assambleyadır. AHA-nın strateji idarə olunması və sənaye ilə bağlı mövzularda qərarların qəbul edilməsinə cavabdeh idarəetmə orqanı isə İdarəetmə heyətidir. Assosiasiya Azərbay-

canda qonaqpərvərlik sənayesinin inkişafını təmin etmək və keyfiyyəti yüksəltmək üçün həmkar (otel məhsul və xidmətlərini təmin edən təchizat şirkətləri, banklar, konsultantlar) və fərdi (müstəqil otellər, yerli otel şəbəkələri, beynəlxalq otel zəncirləri) üzvləri bir araya gətirir. Qonaqpərvərlik sənayesində təlimlərin təşkil edilməsini, otellərdə beynəlxalq standartların tətbiq edilməsini təşviq edir. [3].

Azərbaycan Turizm Bələdçiləri Assosiasiyası (ATBA): Assosiasiya turizm bələdçilərini təmsil edir və onların effektiv fəaliyyətinə dəstək verir. Sertifikatlaşdırma və akkreditasiya prosesindən keçmiş üzv bələdçilərin texniki peşə bilikərinin artırılması üçün davamlı olaraq təlimlər təşkil edilir. [4].

Azərbaycan Təbiət və Ov Turizmi Assosiasiyası : 2022-ci ildə fəaliyyətə başlayan asssiasiyanın əsas məqsədi Azərbaycanda "məsuliyyətli ovçu" anlayışını həm yerli, həm də əcnəbi turistlərə təbliğ etmək və bioloji müxtəlifliyin qorumaqdır.

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi: Agentlik tabeliyində olan dövlət qoruqlarının ərazilərində yerləşən tarix və mədəniyyət abidələrinin mühafizə olunmasına görə dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Ölkənin turizm potensialını artırmaq və turizm sənayesi üzərindəki imicini formalaşdırmaq üçün çalışır. Agentlik ölkənin turizm məhsullarının tanıtımı, turizm infrastrukturunun inkişafı, turizm tədbirlərinin təşkil edilməsi və bir çox sahədə fəaliyyət göstərir. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi həm də regionlarda turizmin inkişafı və turizm potensialının artırılması üçün fəaliyyət göstərir. Agentliyin regionlarda gerçəkləşdirdiyi bəzi fəaliyyətlər aşağıdakılardır:

- **Turizm bazarının tədqiqi və analizi**: Agentlik regionlarda turizm bazarının tədqiqi və analizini həyata keçirir. Bu analizə əsasən, turizm sektorunda hansı sahələrə yatırım edilməli, hansı turistik məkanlar inkişaf etdirilməli və s. haqqında məlumat toplanır.
- **Turizm təşkilatlarına dəstək:** Agentlik regionlarda fəaliyyət göstərən turizm təşkilatlarına dəstək olur. Bu dəstək, turizm mətnlərinin hazırlanması, tanıtım materiallarının çap edilməsi, turizm konfransları və s. kimi fəaliyyətləri daxil edir.
- **Turizm mərkəzlərinin yaradılması**: Agentlik regionlarda turizm mərkəzlərinin yaradılması üçün fəaliyyət göstərir. Bu mərkəzlər turistlərə ölkənin turistik məkanları, mədəniyyəti və əyləncə imkanları haqqında məlumat verir.
- **Turizm layihələrinin həyata keçirilməsi:** Agentlik regionlarda turizm layihələrinin həyata keçirilməsinə dəstək verir. Bu layihələr turistlərin ölkədə daha rahat və keyfiyyətli şəkildə seyahət etmələrini təmin edir.
- **Turistlərin güvənliyi və rahatlığı:** Agentlik turistlərin regionlarda rahat və təhlükəsiz şəkildə seyahət etmələrini təmin edir. məkanların təhlükəsizliyi, yemək və içkilərin keyfiyyəti, vəsiqə və s. kimi məsələləri əhatə edir. [1].

Azərbaycan Respublikasının Dövlət statistika komitəsinin ən son məlumatına görə Turagent və turoperatorların vasitəçiliyi ilə Azərbaycan vətəndaşlarının səyahət etdiyi rayonlar (şəhərlər) əsasən Dağlıq Şirvan iqtisadi rayonu üzrə İsmayıllı , Şəki-İqtisadi rayonu üzrə Qəbələdir. Belə ki, 2021 ci ildə İsmayıllı rayonunu ziyarət edən turistlərin sayında artım (3460 turist) müşahidə edilmişdir. Qəbələ rayonuna ziyarət edənlərin sayı isə 2018-ci ilə nəzərən (8950 turist) 2021 ci ildə (562 turist) azalmışdır. Təqdim olunmuş cədvəldən (cədvəl 1) göründüyü kimi, Turagent və turoperatorların vasitəçiliyi ilə Azərbaycan vətəndaşlarının səyahət etdiyi rayonlar (şəhərlər) məhdud saydadır. [5].

Cədvəl 1

Turagent və turoperatorların vasitəçiliyi ilə Azərbaycan vətəndaşlarının səyahət etdiyi rayonlar (şəhərlər)

	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021
Azərbaycan Respublikası	**12,803**	**9,101**	**11,562**	**9,544**	**14,164**	**18,046**	**16,763**	**64**	**5,995**
Bakı şəhəri	**760**	**1,185**	**168**	**250**	**1,110**	**1,657**	**984**	**25**	**108**
Naxçıvan Muxtar Respublikası	**-**	**-**	**15**	**4**	**22**	**125**	**218**	**-**	**17**
Abşeron-Xızı iqtisadi rayonu	**-**	**112**	**60**	**-**	**-**	**4**	**4**	**-**	**-**
Abşeron rayonu	-	99	41	-	-	4	2	-	-
Xızı rayonu	-	13	19	-	-	-	2	-	-
Dağlıq Şirvan iqtisadi rayonu	**3,292**	**1,084**	**667**	**2,144**	**2,611**	**412**	**1,250**	**-**	**3,974**
Ağsu rayonu	-	-	-	20	-	-	-	-	-
İsmayıllı rayonu	2,830	741	433	2,088	2,254	291	915	-	3,460
Qobustan rayonu	-	-	-	-	-	-	-	-	-
Şamaxı rayonu	462	343	234	36	317	121	333	-	514
Gəncə-Daşkəsən iqtisadi rayonu	**200**	**225**	**550**	**66**	**149**	**234**	**258**	**-**	201
Gəncə şəhəri	200	15	-	56	31	1	-	-	3
Naftalan şəhəri	-	-	113	10	118	-	2	-	198
Daşkəsən rayonu	-	-	154	-	-	225	256	-	-
Göygöl rayonu	-	210	283	-	-	8	-	-	-
Qarabağ iqtisadi rayonu	-	-	-	-	-	-	-	-	-
Qazax-Tovuz iqtisadi rayonu	-	-	**128**	-	-	**78**	**207**	-	**4**
Gədəbəy rayonu	-	-	-	-	-	78	207	-	-
Qazax rayonu	-	-	128	-	-	-	-	-	3
Şəmkir rayonu	-	-	-	-	-	-	-	-	-
Quba-Xaçmaz iqtisadi rayonu	**5,672**	**4,741**	**7,140**	**4,507**	**6,499**	**3,587**	**8,340**	**14**	**439**
Xaçmaz rayonu	4,417	3,756	5,040	2,641	4,957	2,299	5,819	4	362
Quba rayonu	474	461	1,534	1,313	557	775	1,563	10	69
Qusar rayonu	781	524	566	536	748	507	958	-	3
Lənkəran-Astara iqtisadi rayonu	**153**	**505**	**676**	**718**	**691**	**1,177**	**1,753**	**-**	**67**
Astara rayonu	-	-	68	68	-	135	311	-	-
Lerik rayonu	55	-	45	10	106	527	888	-	-
Lənkəran rayonu	-	5	46	8	250	20	138	-	17
Masallı rayonu	98	500	517	632	335	495	416	-	50
Mərkəzi Aran iqtisadi rayonu	**917**	**-**	**-**	**25**	**-**	**124**	**282**	**-**	-
Şəki-Zaqatala iqtisadi rayonu	**1,809**	**1,249**	**2,158**	**1,830**	**3,082**	**10,648**	**3,467**	**25**	**1,185**
Qax rayonu	-	17	596	242	308	698	1,146	-	-
Qəbələ rayonu	1,697	851	916	1,417	2,256	8,950	1,404	15	562
Oğuz rayonu	-	150	297	-	63	245	423	-	110
Şəki rayonu	87	223	309	171	455	755	494	10	513
Zaqatala rayonu	25	5	40	-	-	-	-	-	-
Şərqi Zəngəzur iqtisadi rayonu	-	-	-	-	-	-	-	-	-

Mənbə: stat.gov.az

Azərbaycanın regionlarından biri olan Qax rayonu turizm baxımından böyük potensiala malikdir. Sərin dağ havası, gözəl mənzərəsi olan Qax rayonu ekoturizm üçün çox uyğundur. Lakin, turizm infrastrukturunun zəifliyi və turizm xidmətlərinin azlığı son illərdə turist sayının azalmasına səbəb olmuşdur. Qarabağ iqtisadi rayonunda speloturizmin inkişafı üşün xüsusi yeraltı və yerüstü relyef formaları mövcuddur. Regiondakı speleoloji resurslar kimi göllər, hövzələr, mağaralar yeraltı marşrutların təşkili üçün əlverişlidir. Hal-hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonuna da ziyarət etmək istəyən turistlər bölgədə davam edən münaqişə səbəbi ilə ciddi qadağalarla üzləşir.

Nəticə

Hal-hazırda Azərbaycan regionlarının turizm potensialından tam istifadə edilməməkdədir. Belə ki, regionlarda müalicə, sağlamlıq, ekoturizmin, mədəniyyət turizminin, ekstremal turizmin inkişaf etdirilməsi prioritet imkanlardan biridir. İkinci məsələ turizm xidmətlərinin keyfiyyətinin aşağı olmasıdır. Bəzi regionlarda otellər və restoranlar turistlərin tələblərinə cavab verməkdə çətinlik çəkir. Üçüncü məsələ, turizm infrastrukturunun zəif olmasıdır. Turizm infrastrukturunun və xidmətlərin keyfiyyətinin artırılması, turistlər üçün daha çox xidmət göstərən otellərin yaradılması, tanıtım və reklam kampaniyalarının təşkili və ətraf mühitə diqqət yetirilməsi vacibdir. Düşünürük ki, sadalanan problemlərin həllində turizm təşkilatlarının rolunun artırılması lazımdır. Azərbaycanda turizm

sənayesi üzərindəki inkişafın təmin edilməsi üçün fəaliyyət göstərən turizm təşkilatları ölkədə turizmin inkişafı üçün səy göstərir. Turizm təşkilatların idarəedilməsi spesifikdir və digər sənaye sahələrinin fəaliyyətindən əhəmiyyətli dərəcədə fərqlənir. Turizm təşkilatlarının birinci xüsusiyyəti onun tərkib elementləri arasındakı əlaqələrin mürəkkəbliyindədir. Turizm müəssisələrinin əksəriyyəti kiçik ölçülüdür. Böyük turizm müəssisələri ancaq əhalinin sıx məskunlaşdığı yerlərdə yaradılır. Turizm sənayesində bir çox turizm müəssisə və təşkilatları var ki, onlar bu və ya digər şəkildə vahid regional idarəetmə sisteminə uyğun olmalıdır, burada məqsəd bazarda rəqabət qabiliyyətini təmin etməkdir. İdarəetmə obyekti kimi turizmin ikinci xüsusiyyəti aydın olmayan və ölçülməsi çətin olan məqsədlərin formalaşmasıdır. Turizm təşkilatının ölçülə bilən məqsədləri olmadığı üçün onun fəaliyyətini və uğurunu obyektiv qiymətləndirmək mümkün deyil, çünki turizm sənayesində baş verən bütün hadisə və prosesləri (siyasi vəziyyət, iqlim şəraiti, iqtisadi amillər və s.) dəqiq proqnozlaşdırmaq çox çətindir. Lakin bəzi problemlər də var ki, turizm təşkilatlarının effektiv fəaliyyət göstərməsinə mane olur. Bu problemlər aşağıdakı kimi təqdim edə bilərik:

1. **Maliyyə problemi**. Turizm təşkilatlarının effektiv fəaliyyət göstərə bilməsi üçün maliyyələşmə problemləri ilə üzləşmələri ehtimalı var. Bəzi təşkilatlar kifayət qədər maliyyə resursuna malik olmadığı üçün turizm sənayesi üzərindəki səylərini tam şəkildə həyata keçirə bilmir.
2. **İnformasiya çatışmazlığı**. Turizm sənayesi üzərindəki səylərin effektivliyi üçün məlumatların ətraflı və açıqlıqla təqdim edilməsi vacibdir. Lakin bəzi turizm təşkilatları bu məsələdə informasiya defisiti ilə üzləşə bilər və turizm sənayesi üzərindəki səyləri tam şəkildə həyata keçirə bilməz.
3. **İşgüzar kadrların çatışmazlığı:** Turizm sənayesi üzərindəki səylərin effektivliyi üçün işgüzar kadrların yaxşı hazırlanması və müxtəlif sahələrdə təcrübə sahibi olması vacibdir. Lakin bəzi turizm təşkilatları işgüzar kadrların çatışmazlığı ilə üzləşə bilər və bu da fəaliyyətlərinin effektivliyini azalda bilər.
4. **Həmsədrlərin azlığı:** Turizm sənayesi üzərindəki səylərin effektivliyi üçün müxtəlif sahələrdə həmsədrlər ilə əməkdaşlıq vacibdir. Lakin bəzi təşkilatların həmsədrlərinin azlığı ilə üzləşməsi effektivliyi azalda bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi , tourism.gov..az
2. Azərbaycan Turizm Agentlikləri Assosiasiyası, ataa.az
3. Azerbaijan Hotel Association , hotelassociation.az
4. Azərbaycan Turizm Bələdçiləri Assosiasiyası, atga.az .
5. Azərbaycan Respublikasının Dövlət statistika komitəsi, stat.gov.az
6. Богданов Е.И., Кострюкова О.Н., Орловская В.П., Фенин П.М. Планирование на предприятии туризма. СПб. Издательский дом "Бизнес-пресса", 2018. 288 с.
7. Гуляев В.Г., Селиванов И.А. “Туризм: экономика, управление, устойчивое развитие”. Москва: Советкий спорт, 2008. - 280 с.
8. Севастьянова С.С. Региональное планирование развития туризма и гостиничного хозяйства: учебное пособие. Издательство: Кнорус, 2010 г. 256 с

BÖLMƏ 2/SECTION 2
BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN İDARƏ EDİLMƏSİNDƏ MİLLİ DƏYƏRLƏRİN ROLU/
THE ROLE OF NATIONAL VALUES IN THE MANAGEMENT OF INTERNATIONAL RELATIONS

Məhərrəm ZÜLFÜQARLI
Azərbaycan Turizm və Menecment Universiteti
tarix üzrə elmlər doktoru, professor
mzulfugarli@gmail.com

SOVET RƏHBƏRLİYİNİN QƏRƏZLİ SİYASƏTİNƏ QARŞI HEYDƏR ƏLİYEVİN MÜBARİZƏSİ (1985-1991-Cİ İLLƏR)

HAYDER ALIYEV'S STRUGGLE AGAINST THE PREJUDICE POLICY OF THE SOVIET LEADERSHIP (1985-1991)

БОРЬБА ГАЙДЕРА АЛИЕВА ПРОТИВ ПРЕДВЗЯТОЙ ПОЛИТИКИ СОВЕТСКОГО РУКОВОДСТВА (1985-1991 ГГ.)

Sov.İKP MK-nın 1985-ci il mart plenumunda M.S.Qorbaçovun Baş katib seçilməsi və həmin ilin aprelində keçirilmiş Sov.İKP MK Plenumunda irəli sürülmüş yenidənqurma konsepsiyası ölkədə yeni münasibətlərin formalaşmasına şərait yaratdı. Yeni konsepsiyada artıq inkişaf etmiş sosializmdən deyil, sosializmin təkmilləşdirilməsindən bəhs olunur, kommunizm haqqında isə gələcək perspektiv kimi ayrıca danışılırdı. Keçilmiş tarixi yola tənqidi yanaşan M.Qorbaçov Böyük Oktyabr inqilabının 50 illik yubleyi ilə əlaqədar təşkil olunmuş təntənli toplantıda Stalinin represiya siyasətini dövlət terrorizminin təzahürü kimi qələmə verdi. Bu konsepsiya ilə sovet sisteminin düzgünlüyü şübhə altına alındı. Sovet sisteminin fundamental əsaslarının dəyişdirilməsi, hakimiyyət, dövlət mülkiyyəti üzərində partiya inhisarının, bir ideologiyanın-marksizm-lenini-nizm ideologiyasının inhisarının aradan qaldırılması irəli sürülürdü.

Sov.İKP MK-nın 1985-ci ilin mart plenumunda M.Qorbaçov Baş katib seçildikdən sonra onun apardığı siyasət bir çoxları kimi H.Əliyevi də qane etmirdi. Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini Heydər Əliyev-yenidənqurmanın milli münaqişələrə səbəb ola biləcək metodlarına etiraz edir və onu düşünülməmiş dövlət siyasəti kimi səciyyələndirirdi. H.Əliyev özü bu barədə belə demidir: "1986-cı ildə ilk dəfə olaraq Qorbaçov SSRİ-nin tərkibində olan türkdilli respublikaların rəhbərlərini çıxarıb, onların yerinə rusları və başqa millətdən olan adamları təyin etməyə başladı. Mən ona anlatdım ki, belə etmək olmaz... 1986-cı ilin dekabrında Qazaxstan rəhbəri Kunayevə qarşı ədalətsizlik oldu. Kunayev qazax, türk idi. O, 22 il orada bu vəzifədə çalışmışdı. O vəzifədən istefa verməli oldu. Mən ona qarşı olan ədalətsizliyə etiraz etdim... Kabardin-Balkar Muxtar Respublikasının rəhbəri Malbaxov da müsəlman idi. Qorbaçov onu da çıxarıb, yerinə Sibirdən bir rusu gətirib qoymaq istəyirdi. Mən buna da, digər belə məsələlərə də etiraz etdim. Siyasi Büroda mənim – bir türkün, müsəlmanın olması onlar üçün əlverişli deyildi." [3,14 noyabr 1996-ci il]

H.Əliyev kimi şəxsiyyətin yüksək vəzifələrdə olması M.Qorbaçovun planlarını poza bilərdi. Ona görə də H.Əliyev 1987-ci ilin oktyabr ayında nəinki rəhbərlikdən istefaya göndərildi, hətta ona qarşı böhtançı təbliğat işi başlandı. Bu məqsədlə Bakıya gəlmiş Sov.İKP MK-nın katibi V.Liqaçov Azərbaycan KP MK-nın ikinci katibi V. Konovalova tapşırıq vermişdi ki, H.Əliyevin Azərbaycan KP MK-nın birinci katibi işlədiyi dövrdəki fəaliyyətini yoxlamaq üçün xüsusi komissiya yaradılsın.

Yenidənqurma konsepsiyası digər respublikalar kimi Azərbaycanda da ictimai-siyasi vəziyyəti dəyişdirdi. Buna görə Azərbaycan KP MK-nın birinci katibi K.Bağırovun fəaliyyətinin ikinci dövrü (aprel 1985-may 1988-ci illər) birinci dövründən (dekabr 1982-aprel 1985-ci illər) köklü şəkildə fərqlənmişdi. M.Qorbaçov ilə H.Əliyev arasında yaranmış ziddiyyətlər K.Bağırovun H.Əliyevə münasibətlərinə də təsir etməyə bilməzdi. Buna görə də 1985-1988-ci illərdə H.Əliyevin respublikaya rəhbərlik etdiyi 70-80-ci illər dövrünə münasibətm dəyişmiş və təftişi başlamışdır. Lakin bu proses respublikada rəhbərlikdə təmsilolunan bir çox şəxslərin müqaviməti nəticəsində güclənə bilməmişdir. Əvvəlkiillərin kəskin tənqidi K.Bağırovun özü üçün də sərfəli deyildi. Çünki bu illərin məsuliyyətinin bir hissəsi MK katibi kimi onun da üzərinə düşürdü. Amma bütün hallarda K.Bağırovun hakimiyyəti illərində bir-birindən köklü surətdə fərqlənəniki müxtəlif siyasətin yeridilməsi respublikanın da həyatına öz təsirini göstərirdi.

Qorbaçovun yeritdiyi siyasətə etiraz olaraq H.Əliyev 1987-ci ilin sonunda tutduğu vəzifələrdən istefa verərək 1990-cı ilin iyuluna kimi Moskvada yaşamışdı. H.Əliyevin yüksək partiya və hökumət vəzifələrindən kənar edilməsi ermənilərin Azərbaycan torpaqlarına yiyələnmək barədə niyyətlərini reallaşdırmağa ümidlərini artırdı.

M.S.Qorbaçovun göstərişi ilə həyata keçirilən alkoqolizmə qarşı mübarizə kampaniyası bir çox respublikalarda yerinə yetirilmədiyi halda Azərbaycanda buna demək olar ki, canla-başla əməl edilmişdir. Halbuki alkoqolizm halları Azərbaycan üçün xarakterik deyildi. Aparılan səhvsiyasətin nəticəsində 1985-ci ildə respublika-da olan 268 min hektar üzümlükdən 100 min hektardan çoxu məhv edildi. [3, s. 352-353] 1985-ci ilə nisbətən 1990-cı ildə üzüm bağlarının sahəsi 107 min hektar azaldı (demək olar ki, ümumi sahəsinin 40 faizi məhv edildi). Halbuki respublikada bu qədər üzüm sahələrinin artırılması üçün milyardlarla manat vəsait və 15 il vaxt sərf edilmişdi. Respublikaya 4 milyard manatdan çox ziyan dəymişdi. H.Əliyevin ölkə rəhbərliyindən getməsi ilə fürsətdən istifadə edərək SSRİ Dövlət Plan Komitəsində, bir sıra başqa nazirliklərdə və partiya-dövlət orqanlarında kök salmış erməni millətçiləri Azərbaycan iqtisadiyyatının gələcək yüksəlişi üçün müstəsna əhəmiyyət kəsb edən, artıq tikintisi qurtarmaq üzrə olan mühüm sənaye müəssisələrinin maliyyələşdirilməsini azaltdılar. 1988-ci ilin axırlarında Gəncə avtomobil zavodu, akustik sistemlər, iri maşınqayırma və başqa mühüm müəsisələrin fəaliyyəti dayandırıldı. [1, s. 163]

80-ci illərdə Azərbaycanın milli gəlirinin ildə orta hesabla 20-25 faizinin İttifaq fondunun yaradılmasına sərf edildiyi halda respublika həyat səviyyəsinin əsas göstəricilərinə görə SSRİ üzrə orta səviyyədən 1,7 dəfə geri qalırdı. Bu da SSRİ rəhbərliyinin Azərbaycana olan ögey münasibətinin nəticəsi idi. [4, 14 sentyabr 1989-cu il]

Azərbaycan iqtisadiyyatının inkişafına yönəldilən əsaslı vəsait ildən-ilə məhdudlaşdırılırdı. Əsas fondların istifadəyə verilməsi 1990-cı ildə 1985-ci ilə nisbətən 55 faizi aşağı düşmüşdü. Sovet beşilliklərində (İkinci dünya müharibəsini nəzərə almadan) həmişə iqtisadiyyatın dinamik artımına nail olan Azərbaycan təkcə on ikinci beşilliyin (1986-90-cı illər) əsas iqtisadi göstəricilərinin yekunla-rına görə artıma nail ola bilməmişdi. Belə ki, respublikada sənaye məhsulunun ümumi həcmi 1990-cı ildə 1985-ci ilin səviyyəsinin 99,1 faizini, həmin beşillikdə kənd təsərrüfatı məhsullarının orta illik həcmi isə əvvəlki beşilliyin səviyyəsinin ancaq 96,2 faizini təşkil etmişdı. Azərbaycan altmışıncı illərdə olduğu kimi, bir sıra əsas sosial-iqtisadi göstəricilər üzrə yenə də müttəfiq respublikalar içərisində axırıncı yerlərdə dururdu. 80-ci illərin ikinci yarısında manatın alıcılıq qabiliyyətinin 37 faiz aşağı düşməsi əhalinin real gəlirlərinin artım sürətinin azalmasına səbəb olmuĢdu. Əgər 70-ci illərdə real gəlir 42 faiz artmışdısa, 80-ci illərdə bu, 16 faizdən çox deyildi. Əhalinin istehlak tələbləri ilə təklif arasında uyğunsuzluq mövcud

idi. Əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatı tam ödənilmirdi. 80-ci illərin ikinci yarısından başlayaraq, bu sahədə vəziy-yət daha da gərginləşmişdi. [1, s.164,167]

Yenidənqurma siyasəti dövründə sovet rəhbərliyi yaranmış vəziyyətdən sui-istifadə edərək, Azərbaycanın ictimai-siyasi həyat-da əvvəlki illərdə əldə etdiyi nailiyyətlərə kölgə salmağa çalıĢırdı. Buna misal olaraq Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu ilə bağlı qərarını göstərmək olar. Fikrimizcə digər respublikalarda da təhsil siste-mində eyni problemlərin olmasına baxmayaraq Azərbaycana bu cür münasibətin siyasi tərəfləri mövcud idi və bu qərar respublikaya qarşı mərkəzin o dövrdəki qərəzkarlığından irəli gəlirdi. Mərkəzi hakimiyyətin qərarına müvafiq olaraq Azərbaycan KP MK-nın "Ali məktəbi daha da inkişaf etdirmək və mütəxəssislər hazırlanmasının keyfiyyətini yüksəlmək haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarlarının yerinə yetirilməsi sahəsində D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun işindəki ciddi nöqsanlar haqqında" qərarı (26 noyabr 1985) qəbul olundu. [4, 27 noyabr 1985-ci il] Bu qərarın qəbul olunması o dövrdəki Azərbaycan rəhbərliyinin Moskvanın ayrı-seçkilik siyasətinə qarşı heç bir müqavimət göstərmək gücünə malik olmadığını, bu siyasət qarşısında açizliyini sübut edirdi. Qərarda göstərilir ki, "pis oxuduqlarına görə institutdan xaric edilən tələbələrin sayı hələ də çoxdur. Təkcə son 5 il ərzində institutdan 527 nəfər xaric edilmişdir. Təkrar kursda saxlanılan tələbəlrin sayı həmin dövr ərzində 113 nəfər olmuşdur. Qəbul imtahanlarının hazırlanması və keçirilməsində ciddi nöqsanlar vardır. İnstituta qəbul olunanların sosial tərkibinin tən-zimlənməsi məsələləri nəzərdən qaçırılır. 1980-ci ildən bəri ali mək-təbə qəbul olunanlar arasında fəhlələrin, koxozçuların və onların uşaqlarının xüsusi çəkisi 7,6 faiz azalmış və 1985-ci ildə ancaq 55,3 faiz olmuşdur. Bundan başqa qərarda qeyd olunurdu ki, aspirantura vasitəsilə elmi-pedaqoji kadrların hazırlanmasının ciddi surətdə yaxşılaşdırılması tələb olunur. Aspirantlar arasında hazırlığı zəif olan, elmi tədqiqat işinə meyl göstərməyən, ali məktəbi kafi qiymət-lərlə bitirən şəxslər də az deyildir. 1980-ci ildən 1984-cü ilədək olan dövr ərzində aspirantların cəmi 7,1 faizi dissertasiya işlərini vaxtın-da müdafiə etmişdir." [4, 27 sentyabr 1989-cu il]

Göstərilən nöqsanlar içərisində qeyd olunan "ali məktəbə qəbul zamanı kvotanın gözlənilməməsi" kommunist ideologiyasının doğan bir məsələ idi. Normal ölkələrin təhsil sistemində bu cür anormal tələblər yoxdur. Qeyd olunan digər nöqsan "aspirantların dissertasiyalarını vaxtında müdafiə etməmələri" o zaman bütün sovet ali məktəbləri üçün xarakterik idi. Hətta müasir dövrdə də bu problem qalmaqdadır.

Fikrimizcə bu addım o zamankı SSRİ rəhbərliyinin Azərbaycana qarşı ayrı-seçkilik siyasətinin bariz nümunəsi hesab oluna bilər. Bu qərardan sonra həmin institutun müstəqil fəaliyyəti dayandırılmış və Leninqrad İqtisad İnstitunun filialına çevrilmişdir.

Moskvanın və beynəlxalq təşkilatların himayəsi ilə ermənilər Azərbaycana qarşı planlı surətdə düşmənçilik siyasəti yeritməyə başlayarkən K.Bağırovun başçılıq etdiyi Azərbaycan rəhbərliyi buna qarşı cavab verməkdə acizlik nümayiş etdirmiş və gözləmə mövqeyi tutmağa üstünlük vermişdir. Azərbaycan rəhbərliyi bu məsuliyyətli dövrdə erməni düşmənçiliyinin qarşısını çox zaman formal xalqlar dostluğu ideyalarının təbliği ilə almağa çalışırdı. Respublika əhalisinin erməni təxribatlarına qarşı mübarizə aparmaq tələblərinə isə heç bir reaksiya verilmirdi.

Belə bir dövrdə Azərbaycan rəhbərliyi yenə də süni beynəlmiləlçilik siyasətını üstünlük verirdi. Azərbaycan KP MK-nın "Azərbaycan SSR əmək kollektivlərinin 1982-1990-cı illərdə RSFSR-in qeyri-qaratorpaq zonasında aqrar-sənaye kompleksi və onunla əlaqədar, xalq təsərrüfatı sahələri obyektlərinin tikintisinə hamilik yardımını genişləndirmək təşəbbüsü haqqında "(4 aprel 1986) və digər bu kimi qərarları məhz bunun nəticəsində meydana çıxmışdı. [4, 04 aprel 1986-cı il]

SSRİ-nin dağılması prosesində əsas amillərdən biri olan millətlərarası münaqişələr Alma-Atada (17-18 dekabr 1986-cı il), Frunzedə (Hazırki Bişkek) (fevral 1987-ci il), Tallinn və Vilnüsdə (23 avqust 1987-ci il), Vıru və Tartuda (21 oktyabr 1987-ci il), Tbilisidə (9 aprel 1989-cu il), Özbəkstanın Fərqanə vilayətində (3-4 iyun 1989-cu il), Qazaxstanın Novıy Uzen şəhərində (17 iyun 1989-cu il), Tacikstanın İsfaran rayonunda (13 iyun 1989-cu il), Sxumidə (15-16 iyul 1989-cu il), Kişnyovda (7-

10 noyabr 1989-cu il) və digər ərazilərdə baş vermişdir. [2,s.359] Lakin bunlardan ən güclüsü, böyük dövlətlər tərəfindən qızışdırılan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olmuşdu.

Millətlərarası münaqişələrin qızışdırılmasında maraqlı olan qüvvələr SSRİ-nin müxtəlif ərazilərində ekspermentlər keçirərək məkrli niyyətlərini həyata keçirmək üçün Azərbaycanın Dağlıq Qarabağ ərazisinin SSRİ-nin digər ərazilərindən daha münasib ərazi olduğu qənaətinə gəldilər. Bundan sonra Moskavadakı havadarlarının köməkliyi ilə erməni separatçıları vasitəsilə 1988-cı ilin fevralından başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa qarşı təxribatlara başladılar.

Sov.İKP Baş Katibi M.S.Qorbaçovun müşaviri Abel Aqanbekyanın 1987-ci ilin 18 noyabrında Fransanın "Humanite" qəzetinə verdiyi müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsi barədə dövlət başçısına təklif verildiyini və bu məsələnin bu yaxında həll ediləcəyini bildirilmişdi. Həmin müsahibədə A.Aqanbekyan Qarabağ haqqında verilmiş suala cavab olaraq demişdir: "Bir iqtisadçı kimi mən belə hesab edirəm ki, Qarabağ Azərbaycana nisbətən Ermənistanla daha artıq bağlıdır." Halbuki həmin dövrdə DQMV xarici mal dövriyyəsində Ermənistanın payı cəmi 1,5 faiz idi. [5,s.18]

Bu müsahibədən sonra Azərbaycan torpaqlarını ələ keçirmək məqsədilə ermənilərin əvvəllər yaratdıqları "Qarabağ" komitəsinin fəaliyyəti genişləndi. "Qarabağ" Komitəsinin Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən "Krunk" təşkilatı açıq mübarizəyə keçdi. 1986-cı ilin 26 aprelində baş vermiş Çernobıl faciəsi, 1986-cı il sentyabrın 1-nə keçən gecə Novorossiysk yaxınlığındakı Semes buxtasında "Pyotr Vasev" yük teploxodu ilə "Admiral Naximov" sərnişin gəmisinin toqquşması, Qazaxstan KP MK-nın birinci katibi D.A.Kunayevin Ulyanovsk vilayət partiya komitəsinin rəhbəri Gennadi Kolbinlə (milliyətcə rus) əvəz edilməsinə etiraz edən gənclərin 1986-cı ilin dekabrda başladığı hərəkatın qan içində boğulması, 1988-ci ilin noyabrında Estoniyada ittifaq qanunlarının dayandırılmasına imkan verən "Suverinitet və respublika konistitusiyasına əlavələr haqında" qanunu qəbul edilməsi, bunun ardınca 1989-cu ilin may və iyul aylarında Litva və Latviyanın da analoji addım atması, Qarabağ münaqişəsinin (fevral 1988-ci il) alovlandırılması və digər hadisələr SSRİ-də "yenidənqurma" siyasətinin iflasını sürətləndirirdi.

Ermənilərin gündən-günə azğınlaşdığı bir vaxtda K.Bağırovun respublikaya rəhbərliyi Moskvanı qane etmirdi. K.Bağırov Moskvanın yeni siyasətinin icrası üçün uğurlu kadr hesab olunmadığına görə Azərbaycan KP MK-nın 21 may 1988-ci il tarixli plenumunda bu siyasəti daha çevik həyata keçirəcəyi ehtimal olunan Əbdülrəhman Xəlil oğlu Vəzirovla əvəz edildi. Həmin gün Ermənistanda da K.S.Dəmirçiyan S.Q.Arutunyanla əvəz olundu. Bu dəyişikliklərlə Moskva hər iki respublikada mövcud olan gərginliyin aradan qaldırılmasına nail olmaq istəyirdi. Lakin əksinə, sonrakı dövrdə digər müttəfiq respublikalar kimi Azərbaycanda da vəziyyət daha da gərginləşməyə başladı. [5, s.458]

Fikrimizcə, 12 il Azərbaycandan kənarda diplomatik fəaliyyət göstərmiş, ölkədə gedən proseslərdən xəbərsiz olan və hətta yerli dili çox pis bilən bir şəxsin erməni separatizminin gücləndiyi bir vaxtda Azərbaycana rəhbər göndərilməsində Moskvanın bir neçə məqsədi var idi: Birincisi, demokratikləşmə pərdəsi altında dolayı yolla ermənilərin öz məkrli niyyətlərini həyata keçirməsinə münbit şərait yaratmaq; İkincisi, M.Qorbaçovun düşmən münasibət bəslədiyi H.Əliyevə və onun kadrlarına qarşı mübarizədə Ə.Vəzirovdan istifadə etmək; Üçüncüsü isə onun köməkliyi ilə ölkədə başlamış milli-azadlıq hərəkatının qarşısını almaq.

Ə.Vəzirovun H.Əliyevin rəhbərliyi altında 6 il respublikada yüksək vəzifədə çalışmasına baxmayaraq respublikada anti-Əliyev kampaniyasına rəhbərlik etməyə canla-başla razı olması onun uzaq görən siyasətçi olmadığını göstərirdi. Fikrimizcə, Vəzirovun tezliklə iflasa uğramasında digər məsələlərlə yanaşı bu amilin də mühüm rolu olmuşdur.

Ə.Vəzirovun fəaliyyətində əsas, prioritet məsələ respublika rəhbərliyində çalışan H.Əliyev tərəfdarlarını vəzifədən uzaqlaşdırmaq olmuşdur.

Ə.Vəzirovun hakimiyyəti dövründə mətbuatda 70-80-ci illərin tənqidinə aid çoxlu sayda məqalələr dərc olunurdu. Məsələn, belə yazılara misal olaraq "Zəfər çalan ədalət deyildi" [5, 21 dekabr 1988-ci il], "Ağ pambıqda qara ləkə" [4, 2 fevral 1989-cu il] və digər məqalələri göstərmək olar. Fikrimizcə

mövcud problemləri həll etməyə qadir olmayan Ə.Vəzirov 70-80-ci illərin tənqid etməkdə məqsədi əhalinin diqqətini yayındırmaq və baş verənlərə görə məsuliyyəti əvvəlki rəhbərlərin üstünə atmaq idi.

SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən, Siyasi Büro üzvlüyündən istefaya getdikdən sonra Moskvada yaşayan Heydər Əliyev 1990-cı il 20 Yanvar günlərində həyatını təhlükədə qoyaraq Azərbaycanın daimi nümayəndəliyinə gedib çıxış etdi, qəzəb və kəskin etirazını bütün dünyaya bildirdi. O, Azərbaycan xalqına başsağlığı verərək sovet ordusunun Bakıya basqın edib görünməmiş vəhşiliklər törətdiyini, çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxiləsini pislədi. O, bu faciənin ölkənin ali dövlət və partiya rəhbərliyinin səhv qərarı ucbatından baş verdiyini bildirdi və qırğın törədənlərin hamısının layiqincə cəzalandırılmasını istədi. Bundan sonra Heydər Əliyevin Moskvada qalması mümkün deyildi. Orada M. Qorbaçovu ələ alan güclü erməni mafiyası – Aqanbekyanlar, Şahnazarovlar, Balayanlar, Sitaryanlar, Alixanyanlar Dağlıq Qarabağı və Naxçıvanı Azərbaycandan qoparmaq üçün dəridən-qabıqdan çıxırdılar. Heydər Əliyevin Azərbaycana qayıdışı zamanı Bakıda vəzifə və kreslo düşgünlərinin ona qarşı qaldırdıqları siyasi təqib kampaniyası xalqımızın hiddətinə səbəb oldu. Moskvadan Bakıya, oradan da təyyarə ilə doğma Naxçıvana qayıdan Heydər Əliyevin ilə görüşə gələnlər ona dərin ehtiramlarını bildirirdilər. Səhəri gün - 22 iyul 1990-cı il tarixdə axşamüstü Naxçıvan şəhərinin mərkəzi hissəsi, 80 min nəfərdən çox adamın toplaşdığı Azadlıq meydanda Heydər Əliyevin əhali ilə görüşü onun sonrakı həyatında mühüm rol oynadı. 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında Naxçıvan MR Ali Məclisinin sədri, 3 oktyabr 1993-cü ildə Azərbaycan Respublikasında Prezidenti seçilməsi ona qarşı qərəzkarçılıq və düşmənçilik edən daxili və xarici düşmənlərindən qat-qat güclü olduğunu sübut etdi.

Ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci il-lər). Bakı. "Elm". 2008. 608 səh. + 48 səh. illüstrasiya.
2. Zülfüqarlı M.P. Tarixşünaslıq (1920-1991-ci illər) Azərbaycan tarixi-DƏSRLİK. Bakı-MEKAN SERVES NN, 2017, 486 s.
3. "Azərbaycan"qəz., Bakı, (Azərb. dilində)
4. "Kommunist" qəz., Bakı (Azərb. dilində)
5. Помпоев Ю.А. Кровавый омут Карабаха. Баку, издатель. Азербайджан,1992-208с.

Murad NİFTALİZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
murad.niftalizad@bk.ru

TURİZMİN MƏDƏNİYYƏTLƏRARASI KOMMUNİKASİYADA ROLU VƏ ƏHƏMİYYƏTİNİN İQTİSADİ TƏSİRLƏRİ

ЭКОНОМИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ РОЛИ И ЗНАЧЕНИЯ ТУРИЗМА В МЕЖКУЛЬТУРНОЙ КОММУНИКАЦИИ

ECONOMIC CONSEQUENCES OF THE ROLE AND SIGNIFICANCE OF TOURISM IN INTERCULTURAL COMMUNICATION

Xülasə: Turizm iqtisadiyyatın inkişafında və bir çox yüksək inkişaflı iqtisadiyyatların davamlı olmasında xüsusi yer tutur.Mədəniyyətlərarası kommunikasiya isə , artımın təməlində dayanan xüsusiyyətlərdən biridir. Tədqiqatımız sonunda gəldiyimiz nəticə ondan ibarətdir ki, keçiriləcək mədəni və sosial tədbirlər eyni zamanda mədəniyyətlərarası kommunikasiyanın inkişafı üçün baş tutan digər tədbilər ümumilikdə iqtisadiyyatın artım

tempində müşahidə olunan və zaman keçdikcə, insanların səyahət maraqları artdıqca daha çox populyarlaşan səyahət növlərinin kommunikasiya və ekonomik təsirlərinin əhatəsi müsbət anlamda genişlənir.

Açar sözlər: turizm, mədəniyyət, kommunikasiya, iqtisadiyyat,statistika

Abstract: Tourism occupies a special place in the development of the economy and in the sustainability of many highly developed economies. Intercultural communication is one of the characteristics that stand at the foundation of growth. The conclusion we reached at the end of our research is that the cultural and social events that will be held at the same time are other events that take place for the development of intercultural communication. In general, the range of communication and economic effects of the types of travel, which are observed in the growth rate of the economy and become more popular over time, as people's travel interests increase, expands in a positive sense.

Keywords: tourism, culture, communication, economy, statistics

Абстракт:Туризм занимает особое место в развитии экономики и в обеспечении устойчивости многих высокоразвитых экономик.Межкультурная коммуникация является одной из характеристик, лежащих в основе роста.Вывод, к которому мы пришли в конце нашего исследования, заключается в том, что культурные и общественные мероприятия, которые будут проводиться одновременно, являются другими мероприятиями, которые проводятся для развития межкультурной коммуникации.В целом, спектр коммуникативных и экономических эффектов видов путешествий, которые наблюдаются в темпах роста экономики и становятся более популярными с течением времени, поскольку интерес людей к путешествиям увеличивается, расширяется в положительном смысле.

Ключевые слова: туризм, культура, общение, экономика статистика

Turizm və turizm sənayesi haqqında

Turizm – dövrümüzdə ən çox yayılmış olan və ən kütləvi istirahət növü hesab olunur. Xüsusilə son illərdə vərdiş halını almaqda davam edir.İnsanlar, hər il digər minlərlə insan kimi səyahətlərin iştirakçısına çevrilir. Bu turizmin inkişafı ilə nəticələnir.

Turizm səyahət zamanı, səyahətin baş tutması üçün , bir sıra detalları özündə birləşdirir. Bu detallar ümumilikdə turizm sənayesini yaradır. Bu detallara əsasən aşağıdakılar aiddir:

- istehsal
- ticarət
- nəqliyyat

Bir turist səyahət etmək istədiyi zaman, bir turizm agentliyinə müraciət edər və onların təqdim etdiyi paketlərin birini seçdikdən sonra yollanacağı ölkəyə gedəcəyi nəqliyyat vasitəsilə yola düşər. Gedəcəyi yerdə qarşılama xidməti göstərilə bilər və yekunda qalacağı yerə yola düşər. Bu otel və ya digər qonaq müəssisələri ola bilər. Turist növbəti addımda ictimai-iaşə obyektlərinə və əyləncə mərkəzlərinə gedə bilər. Bütün bunlar hamısı turizm sənayesini əmələ gətirir. Yuxarıda qeyd etdiyimiz istehsal, ticarət və nəqliyyatın nümunələridir.

Turizm sənayesinin dinamik artımı üçün səyahətlərin sayının çoxalması əsas səbəbdir. Və bu da bir faktdır ki, turizm sənayesinin inkişafında, səyahət edilən ölkənin turizm infrastrukturu, peşəkar xidmət səviyyəsi və digər səbəblərdən əlavə mədəniyyətlərarası dialoqu, kommunikasiyası inkişaf etmiş ölkələr daha böyük turizm potensialına malik olurlar.

Son onilliklər ərzində insanların həyat şəraiti yaxşılığa doğru xeyli dəyişilmişdir. Bununla yanaşı, mədəni inkişafın kölgəli tərəfləri də özünü büruzə verməyə başlamışdır. Bu, özünü işdə və ailədə insanların artmaqda olan hərəkətsizliyində, artıq qidanın qəbulunda, psixo-emosional gərginliyin artmasinda göstərir.

Yaxın keçmişdə ən yaxşı səyahət dənizə səyahət , təbiət mənzərələrini seyr etmək və s. hesab olunurdu. Günəş, hava və su sağlamlığın möhkəmləndirilməsinin əvəzolunmaz amilləridir. Sağlamlığın möhkəmləndirilməsi ilə səciyyələnən və özündə bir neçə turizm növlərini cəmləşdirən kənd yaşıl turizm və idman turizmidir.

Turizmin iqtisadi tərəfləri və kommunikasiyanın bu mövzuda rolu

İnkişaf sürətinə və gəlirlərə görə turizm iqtisadiyyatın əksər sahələrini üstələyərək neft və neft məhsulları ticarəti və avtomobil satışından sonra 3-cü yeri tutur.

İqtisadi baxımdan dayanıqlı bir turizmə sahib olmaq üçün, resursların məqsədyönlü və hərtərəfli şəkildə stimullaşdırmaq lazımdır.Eyni zamanda atılan addımların bu istiqmətdə etmək mütləqdir. Bu dayanıqlılığa təsir edən təbii-coğrafi amillər, mədəni-tarixi amillər,demoqrafik amillər , iqtisadi amillər, sosial amillər, texnoloji amillər, siyasi amillər, ekoloji amillər və s. aiddir. Tədqiqatımıza əsasən sosial və iqtisadi tərəfləri əhatə edir.Sosial baxımdan turizm, əhalinin maariflənməsinə təsir göstərir, olduğu ərazilərdə tarixi və mədəni abidələrin qorunmasına olan marağı artırır. İqtisadi tərəfdən infrastrukturun inkişafına təsirləri və məşğulluqun müsbət tərəfdən artımı ilə seçilir.

Mədəniyyətlərarası kommunikasiya inkişafi birbaşa olaraq sosial inkişafa aid olur.Sosial tərəfdən inkişaf etdikcə iqtisadi baxımdanda inkişaf baş tutmuş olur.Kommunikasiya inkişafi nəticəsində artım müşahidə olunan turizmdə, gəlirlərinin yüksək sürətli artımı baş tutur. Gəlirlərdə müşahidə olunan artım, inkişaf edən turizm fonunda həmçinin xalqlararası əlaqələrin inkişafının göstəricisidir.

Dünya turizm təşkilatının verdiyi statistikaya əsasən turizm gəlirlərindəki artım göstərilmişdir (dollarla göstərilmişdir)

2000-ci il	500 milyard
2004-cü il	600 milyard
2009-cu il	850 milyard
2013-cü il	1 trilyon

Artan əlaqələr və inkişaf edən mədəniyyətlərarası kommunikasiya çərçivəsində artmaqda olan gəlirlər istənilən ölkənin iqtisadiyyatında yeni aktivlərin yaranmasına səbəb olur.Bu aktivlərə, inşa olunan otellər, istehsal edilən və ya xaricdən alınan turizm məqsədli nəqliyyat vasitələri həmçinin restoran və bu tipli obyektlər maliyyə göstəricilərinin yüksəlməsinə səbəb olur.Nəticədə,iqtisadi artımın kökündə dayanan məsələnin əsas nəticələrindən birinin, aktivlərin artmasında təsir etdiyinidə görmüş oluruq.

Mədəniyyətlərarası kommunikasiyanın təsir etdiyi sahələr,mənfi təsir yarada biləcək hadisələr və statistikalar

Mədəniyyətlərası kommunikasiya inkişafına təsir edən bir xeyli hadisə ölkəmizdə keçirilir.Bu hadisələrin nəticəsində, ölkəyə gələn xarici turistlərin artımı müşahidə edilmişdir.Qeyd edilən cədvəldə ölkəmizə gələn turistlərin sayının yetərincə çox olduğu görünür.Bu , ölkəmizdə olan turizm potensialının , güclü sosial və iqtisadi əlaqələrin mövcudluğunun nəticəsi və bariz nümunəsidir. Ölkəmizdə olan turizm potensialının düzgün istifadə olunması və bu inkişafın günü-gündən çoxalması və sürətli artımı iqtisadiyyatımızda özünə məxsus yer tutur.Xalqımızın qonaqpərvərliyi, milli-adət və ənənələrində olan qonaqa hörmət və xarici turistlərə göstərilən hörmət eyni zamanda bu sadaladıqlarımızın paralelində getdikcə inkişaf etməkdə olan turizm ixtisas olaraq, peşəkar kadrları ilə bu sahəyə daha da çox artım tempində inkişaf etməkdədir.

Peşəkar kadrların yetişdirilməsi istiqamətində,univeristetdə bu yönümdə ixtisaslar açılması və təcrübə imkanlarının çoxalması dayanır.

Aşağıda qeyd edəcəyimiz cədvəldə , verilən rəqəmlərin analizini aşağıdakı yazılarda görmüş olacıq və əlavə qeydlərində həmçinin göstərilmişdir.

2.4 Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkələr üzrə sayı

Ölkələr	**2013**	**2014**	**2015**	**2016**	**2017**	**2018**	**2019**
Cəmi	**2.508.904**	**2 297 804**	**2.006.176**	**2.248.773**	**2.696.745**	**2 849 592**	**3.170.373**
o cümlədən ölkələr üzrə:							
Rusiya Federasiyası	903.242	843.851	685.555	744.125	854.331	880.029	932.984
Gürcüstan	810.390	699.532	571.648	506.306	538.213	610.556	725.465

İran	143.579	131.179	149.600	248.632	363.528	241.124	255.628
Türkiyə	361.413	314.476	288.620	313.341	301.924	291.499	316.628
Böyük Britaniya	32.841	33.563	34.892	29.514	31.751	29.417	36.914
Ukrayna	51.802	58.201	55.119	55.508	57.818	57.707	59.116
Qazaxıstan	28.226	29.468	27.145	31.994	36.360	37.824	47.551
ABŞ	15.612	14.543	13.208	12.291	15.178	17.516	18.787
Almaniya	13.920	13.838	15.210	13.042	16.319	17.200	20.509
Özbəkistan	18.627	19.336	15.185	16.093	18.795	18.306	23.507
Çin	6.465	5.930	5.094	7.363	10.274	15.730	25.542
İsrail	6.989	7.534	8.325	10.814	15.385	40.158	47.056
Türkmənistan	4.766	5.398	6.800	7.637	17.101	28.305	52.127
Belarus	8.251	9.256	10.729	12.320	13.119	13.024	14.844
Hindistan	4.791	4.853	5.584	6.012	14.244	39.051	65.118
Fransa	5.919	6.858	6.637	5.785	6.959	7.903	9.101
İtaliya	8.566	9.605	10.379	8.654	10.133	11.035	12.259

Mənbə: stat.gov.az

Göründüyü kimi, qeyd etdiyimiz cədvəldə sonuncu illər öz əksini tapmamışdır.Çünki , baş verən pandemiya səbəbilə, ölkəyə gələn turist sayısı dəfələrlə enmişdir.Və əlbəttəki fövqaltəbii hal olaraq qəbul etdiyimiz bu hal kommunikasiyanın inkişafına mənfi təsirləri ilə nəticələnmişdir.Bu tip hallar aradan qalxdıqda statistikalarda olan artım tempi çoxalmaqdadır.

Mədəniyyətlərasası kommunikasiyanın tarixi, bugün dövrü və gələcəkdəki iqtisadi faydaları

Turizm, tarixi köklərə malik olan, ilk səyahətlər dövründən sonra yeni torpaqların kəşfi və davamında uzun illərlə səyahətlərin nəticəsində yeni yerlərin kəşf edilməsi ilə yadda qalmışdır. Bugünki gündə də davam edən, bu prosesdə hər yeni, bilinməyən yerlərin kəşfi iqtisadi baxımdan faydaların bir hissəsinə sadecə bu faktor yetərlidir.Hər yeni bir torpağın kəşfi, orda olan insanlarla kommunikasiya qurulmasına gətirib çıxarır.Və bu yerlərin çoxunda indi yüksək səviyyədə infrastruktur qurulmuş bugünki gündə böyük turizm obyektləri inşa edilmişdir.

Mədəniyyətlərarası kommunikasiyada , coğrafi amillər birbaşa olaraq iqtisadi təsirlər yaradır

Bəşər sivilizasiyasının bütün təkamül mərhələlərin qitələrarası, regionlararası, xalqlararası əlaqələrin genişlənməsi və dərinləşməsi ilə səciyyələnir. Qlobalizasiya şəraitində isə çoxlu sayda yeni kommunikasiya formaları: miqrasiya, üfüqi təmaslar (xalq diplomatiyası), mütəxəssislərin, tələbələrin mübadiləsi və s. əmələ gəlir. Kütləvi turizm də mədəniyyətlərarası əlaqələrin, xalqlar arasındakı dialoqun əsas faktorlarından birinə çevrilir. Müasir beynəlxalq miqrasiya proseslərini (o cümlədən, beynəlxalq turizmi miqyasına görə) dünya xalqlarının birinci böyük köçü ilə müqayisə edirlər. Bu gün "miqrasiya axını"na 1 mlrd.-dan çox insan cəlb olunmuşdur. Azərbaycan Respublikası da müasir dövrümüzün ən dinamik prosesləri olan miqrasiya və turizmin mühüm aktorlarından birinə çevrilməkdədir. Azərbaycanın turizm məkanı kimi cəlbediciliyinin artması ölkədə turizm sənayesinin inkişafına, infrastruktur və informasiya-kommunikasiya sisteminin genişlənməsinə şərait yaratmaqla yanaşı, onun beynəlxalq arenada nüfuzunun və imicinin artmasına da müsbət təsir göstərir. Turizm bizim dövrümüzdə müxtəlif mədəniyyətləri və xalqları birləşdirən ən asan və səmərəli yollardan biridir. Müasir siyasi və sosial-iqtisadi münasibətlər əvvəlki dövrlərlə müqayisədə turizmin inkişafı üçün daha əlverişli şərait yaradır. Müxtəlif xalqların tarixi, mədəni, milli, dini ənənələrinin özünəməxsusluğu, tarixi və mədəni abidələr başqa mədəniyyətlərin və xalqların nümayəndələri üçün mühüm cəlbedici amil olaraq qalmaqdadır. Əlbəttə, səyahətlər, turizm səfərləri mədəniyyətlər arasında dialoqun yaranmasının heç də yeganə üsulu deyildir. Başqa xalqların tarixi və ənənələri, mədəni nailiyyətləri, milli özünəməxsusluğu ilə tanış olmaq üçün müxtəlif forma və üsullar mövcuddur [2.s. 239].

Ədəbiyyat

1. Əlirzayev Ə.Q. "Turizmin iqtisadiyyatı və idarə edilməsi". Bakı-2011, 493 səh.
2. Tarix və onun problemləri, № 3 2013, MƏDƏNİYYƏTLƏRİN DİALOQUNDA TURİZMİN ROLU 239 –243. Bakı 2013
3. https://az.wikipedia.org/wiki/Turizm
4. Stat.gov.az

Orxan MUSA
Azərbaycana Turizm və Menecment Universiteti
doktorant
o.musa@atmu.edu.az

AZƏRBAYCAN VƏ İTALİYA RESPUBLİKALARI ARASINDA İQTİSADİ ƏLAQƏLƏR: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR

ECONOMIC RELATIONS BETWEEN THE REPUBLICS OF AZERBAIJAN AND ITALY: RESULTS AND PERSPECTIVES

ЭКОНОМИЧЕСКОЕ СВЯЗИ МЕЖДУ РЕСПУБЛИКАМИ АЗЕРБАЙДЖАН И ИТАЛИЯ: РЕЗУЛЬТАТЫ И ПЕРСПЕКТИВЫ

Xülasə: Elmi tədqiqatda 2-ci Qarabağ müharibəsinin hərbi və geosiyasi nəticələrinin Azərbaycanın xarici iqtisadi əlaqələrinə yarada biləcəyi yeni imkanlar araşdırılır. Konkret olaraq isə Azərbaycan və İtaliya respublikaları arasındakı qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın mövcud güclü və çoxşaxəli potensialı Cənubi Qafqazdakı yeni geosiyasi reallıqlar müstəvisində nəzərdən keçirilir. İşdə habelə müəyyən ümumiləşdirmələr aparılır və elmi nəticələr çıxarılır.

Açar sözlər: Azərbaycan, İtaliya, 2-ci Qarabağ müharibəsi, iqtisadi əlaqələr, əməkdaşlıq, nəticələr, perspektivlər

Abstract. The article studies the new opportunities that the military and geopolitical consequences of the Second Karabakh War may create for Azerbaijan's foreign economic relations. Specifically, the existing strong and multifaceted potential of mutually beneficial economic cooperation between Azerbaijan and Italy is considered in the context of new geopolitical realities in the South Caucasus. The study pays attention some generalizations and draws scientific conclusions.

Keywords: Azerbaijan, İtaly, Second Karabakh war, economic ties, cooperation,results, perspectives

Абстракт: В статье исследуются военные и геополитические последствия Второй Карабахской войны, которые могут создать новые возможности для внешнеэкономических связей Азербайджана. В частности, существующий сильный и многогранный потенциал взаимовыгодного экономического сотрудничества между Азербайджаном и Италией, рассматривается в контексте новых геополитических реалий на Южном Кавказе. В исследовании также делаются некоторые обобщения и научные выводы.

Ключевые слова: Азербайджан, Италия, 2-я Карабахская война, экономические связи, сотрудничество, результаты, перспективы

Azərbaycan – İtaliya iqtisadi və ticarət əlaqələri dərin köklərə malikdir. Bu sahədəki çoxşaxəli əməkdaşlıq hazırda daha mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin işğalçı Ermənistan üzərində qələbəsi ölkəmizin Qarabağ və Şərqi Zəngəzur bölgələrində aparılan bərpa – quruculuq işlərində İtaliyanın da fəal iştirakına səbəb olmuşdur.

Hazırda Güney Qafqazda çox ciddi, köklü tarixi, geostrateji proseslər yaşanır və dəyişikliklər baş verir. Bunu şərtləndirən regiondaxili amillər sırasında İkinci Qarabağ müharibəsinin hərbi – si-

yasi nəticələri aparıcı rol oynayır. Bu və digər nəticələr həm də regioniçi və ətrafı dövlətlərin iqtisadi işbirliyinin indiki durumu və perspektivləri məsələlərini daha da qabardır və önə çəkir. Azərbaycan və Türkiyənin dövlət başçıları İ.Əliyevlə T.Ərdoğanın 6 dövləti (Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya, İran, Ermənistan) əhatə etməsi düşünülən geniş miqyaslı iqtisadi əməkdaşlıq təklifi- layihəsi, yəni altılı işbirliyi platforması (1) bu baxımdan olduqca diqqətçəkicidir.

Digər yandan da, 2-ci Qarabağ savaşına fərqli beynəlxalq yanaşmaların (ayrı-ayrı dövlətlərin mövqelərinin) Azərbaycanın ölkələrarası çağdaş iqtisadi əlaqələrinə müxtəlif yönlü təsirləri də istisna deyil. Beləki respublikamız, təbii və haqlı olaraq, Böyük Vətən müharibəsi dönəmində və postmünaqişə şəraitində açıq-aşkar özünü göstərən ədalətli – dost (Türkiyə, Pakistan, İtaliya və s) və ədalətsiz – düşmən (Fransa, Belçika, Niderland və b.) dövlətlər bölgüsünü nəzərə alır və almalı olacaqdır.

Bu axarda da dost İtaliya ilə əlaqədar məqamların dəyərləndirilməsinə ehtiyac vardır. Həmin məqamlara isə bunlar aid edilə bilər:

- ölkələrarası tarixi əlaqələrdə ənənəvilik;
- İtaliyanın Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq və işğalçılıq siyasəti ilə bağlı tutduğu ədalətli mövqe;
- İ.Əliyevin "Azərbaycan İtaliya, İtaliya Azərbaycan üçün çox etibarlı tərəfdaşdır" baxışı və mövqeyi (2,3);
- fərqli sivilizasiyaların toqquşmasına deyil, yaxınlaşmasına xidmət edən səmərəli birgə humanitar fəaliyyəti;
- müsbət nəticələrli və yüksək göstəricilərli iqtisadi işbirliyi və s.

İlkin çoxyönlü təhlillər və gəlinən qənaətlər Azərbaycanın Böyük Vətən müharibəsinin məlum nəticələrinin respublikamızın İtaliya ilə yüksələn xətli iqtisadi əməkdaşlığını daha da genişləndirəcəyini söyləməyə əsaslar verir. Bu əsaslar isə mahiyyət və məzmun baxımından aşağıdakılarda ifadə olunur:

1. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı zəruri və təmin edən çoxlu imkanlar:

a) Azərbaycanın – zəngin enerji/yanacaq kompleksi; inkişaf edən qeyri/neft sektoru(inşaat, kənd təsərrüfatı, turizm və s.);

b) İtaliyanın – "Böyük yeddilər" dən olması; iqtisadiyyatın həcminə və inkişafına görə Avropanın 4-cü dövləti sayılması, (3)TANAP – TAP layihələrində aparıcı tranzit ölkə durumu (2;3) və digər.

2. İqtisadi – ticarət əlaqələrinin yetərli hüquqi bazası. Bu əsası (bazanı) təşkil edən sənədlər arasında aşağıdakıların (4;4,s.74) mühüm əhəmiyyəti vardır:

- Eni-Acip şirkəti ilə ARDNŞ arasında "Kürdaşı" blokuna aid saziş (1997);
- İqtisadi əməkdaşlıq haqqında Birgə Bəyanat (1997);
- Azərbaycan – İtaliya Qarşılıqlı Balans Fondunun təsisi ilə əlaqədar Niyyət Memorandumu (2014);
- İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair Birgə Bəyannamə (2014) və s.

3. Heydər Əliyev Fondunun İtaliyanın müvafiq qurumları ilə faydalı, çoxtərəfli və genişəhatəli humanitar əməkdaşlıq təcrübəsi.

4. İqtisadi – ticarət əlaqələrinin daha da intensivləşdirilməsi sahəsində çoxillik əməli fəaliyyət və konkret işlər. Bunlarla bağlı olaraq da:

a) "Cənub Qaz Dəhlizi" (TANAP və TAP) layihəsi (2;4) çərçivəsindəki səmərəli əməkdaşlıq vurğulanmalıdır;

b) İtaliyanın işgüzar dairələrinin (şirkətləri və s.) ölkəmizin iqtisadiyyatına yatırdığı irihəcmli sərmayələr qeyd olunmalıdır;

c) əsasını Azərbaycanın ixracatı təşkil edən irihəcmli ticarət dövriyyəsi nəzərə alınmalıdır və s.

5. Sanballı iqtisadi nəticələr – statistika göstəriciləri. Məsələn (5;6;8):

- 2003 -cü ildən etibarən Azərbaycanın ixricatının 51,9 faizi İtaliyanın payına düşür;
- ölkəmiz 2013-cü ildən bəri İtaliyanın neftlə təchizatında birinci yeri tutması;

- 2015-ci ildə Azərbaycanın ixracatında və xarici ticarət dövriyyəsində xüsusi çəkisi çox olan dövlətlər sırasında da İtaliya əvvəlinci olmuşdur;
- son vaxtlarda Azərbaycanda İtaliyanın 114 şirkəti fəaliyyət göstərir. Onlar ölkəmizin neft -qaz sektorunda dəyəri 9,9 mlrd. dollar olan 277 layihədə və qeyri-neft bölməsində isə 708 mln. dollarlıq 37 layihədəki işlərdə podratçı kimi iştirak edir;
- Azərbaycanın müstəqilliyi dönəmində respublikamızın iqtisadiyyatına İtaliya tərəfindən 770 mln. və əks yöndə isə 1,7 mlrd. dollarlıq sərmayə qoyuluşu həyata keçirilmişdir.

6. İtaliya şirkətlərinin İkinci Qarabağ müharibəsinin qurtarmasından dərhal sonra Ermənistanın işğalından azad edilən Azərbaycan ərazilərində – başlanan iqtisadi yönümlü (enerji təchizatı, yol tikintisi və digər infrastruktur layihələrlə bağlı) fəaliyyətləri. Belə bir müsbət hala isə həm də İ.Əliyevin İtaliya prezidenti S.Mattarelli ilə Bakıdakı danışıqlarında (2018) vurğuladığı "İtaliya şirkətləri üçün Azərbaycanda bütün qapılar açıqdır" kimi dəvət – təminat səciyyəli fikri (3) də rəvac vermişdir.

Ədəbiyyat

1. "Azərbaycan" qəz.,Bakı:2020, 11 dekabr; trthaber.com/haber/gundem/
2. Bbc.com/azeri/azerbaijan – 44869378.
3. Məmmədova N.İtaliya – Azərbaycan münasibətləri yeni mərhələdə/bizimyol. İnfo (az) news/84760/html.
4. Əhmədzadə M. Azərbaycan – İtaliya əlaqələrinin 25 ili: Strateji tərəfdaşlığa aparan yol/azvision.az/-news/116950/azerbaycan-italiya elaqeleri – haqda-meqale. html;
5. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991 – 2003): 2 hissədə, II hissə - Bakı: Mütərcim, 2015 – 6645; Azərbaycan – İtaliya sənədləri imzalanmışdır. /M.07.2014/- http:/www.-president.az/articles/12390//ib.aliyevheritage.org/az/869201.html.
6. Hüseynov V. Azərbaycan – İtaliya münasibətləri strateji tərəfdaşlıq müstəvisində inkişaf edir. news.-unes.edu.az/ekspert – reyi /4119
7. "Azərbaycan" qəz., Bakı: 2020,19 dekabr.
8. Report.az /analitika/azerbaycan-italiya- munasibetleri- yeni – inkisaf – merhelesinde.

Nilgün NƏCƏFOVA
Azərbaycan Kooperasiya Universiteti
magistrant
nilgun.najaf@gmail.com

BORU KƏMƏR VƏ NƏQLİYYAT DƏHLİZLƏRİNİN AZƏRBAYCANIN DAYANIQLI İQTİSADİ İNKİŞAFINDA ROLU

THE ROLE OF PIPELINES AND TRANSPORT CORRIDORS IN THE SUSTAINABLE ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN

РОЛЬ ТРУБОПРОВОДОВ И ТРАНСПОРТНЫХ КОРИДОРОВ В УСТОЙЧИВОМ ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ АЗЕРБАЙДЖАНА

Xülasə: Məqalədə Ulu Öndər Heydər Əliyevin uğurlu neft strategiyası siyasətinin ölkənin iqtisadi inkişafındakı rolu və bu siyasətin davamı olaraq aktuallaşan boru kəmər və beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycanın dayanıqlı inkişafına verdiyi perspektiv üstünlüklər öz əksini tapmışdır.

Açar sözlər: "Əsrin müqaviləsi", "Bir kəmər, bir yol", Cənubi Qafqaz, Orta koridor, Şərq-Qərb nəqliyyat dəhlizi

Abstract: The role of the successful oil strategy policy of the Great Leader Heydar Aliyev in the country's economic development and the prospective benefits of the pipeline and international transport corridors, which became relevant as a continuation of this policy, to the sustainable development of Azerbaijan were reflected in the article.

Key words: "The Contract of the Century", "One Belt, One Road (OBOR)", South Caucasus, Middle corridor, East-West transport corridor

Резюме: Роль успешной нефтяной стратегической политики Великого лидера Гейдара Алиева в экономическом развитии страны и перспективные преимущества трубопровода и международных транспортных коридоров, ставших актуальными как продолжение этой политики, для устойчивого развития Азербайджана нашли свое отражение в статья.

Ключевые слова: «Контракт века», «Один пояс, один путь (ОПОП)», Южный Кавказ, Средний коридор, транспортный коридор Восток-Запад

Giriş

Dəhlizlər konsepsiyası iqtisadi inkişafda mühüm rol oynayır, çünki iqtisadiyyatlar səmərəli və dayanıqlı logistika sistemləri ilə dəstəklənir. Dəhlizlər həm ticarəti, həm də nəqliyyatı asanlaşdırmaq və ölkələrarası əlaqəni artırmaq üçün bir konsepsiya kimi istifadə olunur.

Müasir dövrümüzdə biznesin qloballaşması və müxtəlif ölkələrin nəqliyyat sistemlərinin dünya nəqliyyat sisteminə inteqrasiyası əsas tranzit yük axınlarının keçdiyi beynəlxalq nəqliyyat dəhlizlərinin intensiv inkişafını daha da şərtləndirmiş oldu.

Azərbaycanın beynəlxalq logistik mərkəzə çevrilmə prosesi ötən əsrin əvvəllərindən başlamışdır. İstər əlverişli coğrafi mövqeyi, istərsə də zəngin enerji ehtiyatları və təbii sərvətləri Azərbaycanı mühüm nəqliyyat qovşağı və Şimalla Cənubu, eləcə də Şərqlə Qərbi əlaqələndirən əhəmiyyətli logistik mərkəzə çevirə bilmişdir. 20 ilə yaxın bir müddətdə Azərbaycanın mühüm geostrateji mövqeyi genişmiqyaslı layihələr həyata keçirməyə və müasir standartlara söykənən nəqliyyat-kommunikasiya infrastrukturunun qurulmasına imkan vermiş oldu.

Azərbaycanda boru kəmər nəqliyyatının inkişaf xətti Ulu Öndər Heydər Əliyevin strateji siyasəti ilə bağlıdır. 1994-cü il 20 sentyabr tarixində onun məqsədyönlü səyi nəticəsində Azərbaycanın Dövlət Neft Şirkəti ilə 6 ölkənin 10 şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amoko Kaspian si Petroleum Limited, BP Eksploreyşn (Kaspian si) Limited, Delta Nimir Xəzər Limited, Den Norske Stats Olyeselskap a. s, LUKOYL Səhmdar Cəmiyyəti, Makdermott Azərbaycan İNK, Pennzoyl Kaspian Korporeyşn, Remko Xəzər Enerci Limited, Türkiye Petrolleri a. o., Yunokal Xəzər LTD arasında Saziş imzalandı [1].

Beynəlxalq və mühüm siyasi əhəmiyyətə malik olan, dörd dildə öz əksini tapmış bu saziş "Əsrin müqaviləsi" adı ilə tarixə düşdü. Bu müqavilənin imzalanması Azərbaycanın uğurlu "Yeni neft strategiyası"nın başlanğıcını qoymuş oldu.

İlkin hesablamalara görə, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun çıxarılabilən neft ehtiyatı 511 milyon ton müəyyən edilmiş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu göstərici 730 milyon tona çatmışdır. Yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları təşkil edirdi. Ümumi xalis gəlirdən Azərbaycanın payına 80%, sərmayəçilərin payına 20% düşürdü. "Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradılaraq, Dövlət Neft Şirkəti ilə birgə işlərə başlanıldı [1, 7].

"Əsrin müqaviləsi" sonrakı dövrdə dünyanın daha 19 ölkəsindən olan 41 neft şirkətləri ilə 30-dan artıq sazişlərin imzalanması prosesini sürətləndirdi. Bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxildir [1].

"Əsrin müqaviləsi" çərçivəsində imzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları sərmayə qoyuluşunun 57,6 milyardı dəniz

yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldildi [1].

14 sentyabr 2017-ci ildə Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilib, yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirildi. Yeni Sazişlə "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Yeni Saziş Azərbaycana mərhələli şəkildə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödənilməsini, SOCAR-ın payının 11,6 faizdən 25 faizə yüksəldilməsini ehtiva edir. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsinin 75 faiz həcmində olması nəzərdə tutulur [7, 12].

Məhz bu siyasətin davamı olaraq ölkəmizin enerji ehtiyatlarının dünya bazarına çıxarılması istiqamətində uğurlar davam etdirildi. Belə ki Azərbaycanın təşəbbüsü və iştirakı ilə yeni regional və qlobal nəqliyyat və enerji layihələri həyata keçirilməyə başlandı. Bu layihələr əsasən enerji və yük daşımaları sahəsində effektivliyin artırılmasına nail olmaqla bərabər, həmçinin də regionun inkişafında öz müsbət töhfəsini vermiş oldu. Azərbaycan Böyük İpək Yolu regionu, Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, TANAP və TAP qaz boru kəmərləri kimi beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsində fəal iştirakçılardan biridir. Cənub Qaz Dəhlizi Layihəsi çərçivəsində qaz kəmərləri də enerji dəhlizinin rolunu artırmış oldu.

2012-ci il iyunun 26-da "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" Saziş imzalandı. Trans-Anadolu Qaz Kəməri təkcə "Şahdəniz" layihəsi çərçivəsində hasil olunan qazı deyil, Azərbaycanın digər yataqlarından hasil edilən təbii qazı da dünya bazarına çatdırmaq potensialına malik olması ilə mühüm siyasi və iqtisadi əhəmiyyət daşıyır [4].

Azərbaycanın xarici iqtisadi əlaqələrinin şaxələndirilməsində böyük rol oynayan, Avropa və Asiyanı ən qısa marşrutla birləşdirən əsas dəhliz "Şərq-Qərb" nəqliyyat dəhlizidir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri Avropa və Asiyanın ölkələri arasında yükdaşınma prosesində Azərbaycanın tranzit ölkə olaraq əhəmiyyətini artırdı. "Şərq-Qərb" nəqliyyat dəhlizinin əsas marşrut xəttinə Çin-Qazaxıstan sərhəddi və Avropa daxildir. Bu xətt yükdaşımalarda həm vaxta, həm də yükdaşımalara görə çəkilən xərclərin qənaət olunmasına imkan yaradır.

Azərbaycanın dayanıqlı iqtisadi inkişafına təsirinə gəldikdə qeyd etməliyik ki, ölkəmizin tranzit potensialından əhəmiyyətli dərəcədə istifadə edilməsi həm ölkənin tranzit imkanlarının artırılmasına, həm də Bakı-Tbilisi-Qars dəmiryolu xətti boyunca daşınan yüklərin həcminin artması bu sahədə rəqabətqabiliyyətliliyin yüksəldilməsində mühüm rol oynayır. Statistikaya nəzər salsaq görürük ki, 2018-ci ildə Azərbaycan ərazisindən 9,3 milyon ton tranzit yük daşınmış və tranzit qeyri-neft məhsullarının həcmində 49 faiz artım qeydə alınmışdır [2]. Bu da öz növbəsində ölkədə qeyri-neft sektorundan gələn gəlirlərin artmasına səbəb olacaqdır.

Cədvəl 1. Boru kəmər nəqliyyatı üzrə yük daşınmasından əldə olunan gəlir, min manat

	1996	1997	1998	1999	2000	2005	2010	2015	2020	2021
Ümumi gəlirlər, min manat	49 011	45 144	47 196	39 724	21 946	18 996	1 712 629	1 679 790	2 323 741	3 049 506
neft kəməri	6 424	10 423	9 916	10 466	11 930	15 946	1 563 281	1 325 903	1 127 013	1 197 650
qaz kəməri	42 586	34 721	37 280	29 258	10 016	3 050	149 348	353 887	1 196 728	1 851 856

Mənbə: Dövlət Statistika Komitəsi

Cədvəl 1-dən də göründüyü kimi, 1996-cı ildən başlayaraq boru kəmər nəqliyyatı üzrə gəlirlərdə müsbət dinamika ilə artım qeydə alınmışdır. Son 20 il ərzində neft kəməri ilə yükdaşımalardan əldə olunan gəlirlərdə dəfə, qaz kəməri ilə yükdaşımalardan əldə olunan gəlirlərdə dəfə artım müşahidə olunmuşdur ki, bu da birbaşa ölkənin dayanıqlı iqtisadi inkişafına təsir edən göstəricilərdən biridir.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin təsisçi ölkələri Rusiya, İran, Hindistandır. Bu dəhliz təsisçi ölkələr arasında ticarət əlaqələrinin geniş potensiala malik olması, bu dəhlizin iştirakçısı qismində Azərbaycan Respublikasının əlverişli tranzit imkanlarından geniş istifadəni təmin edəcəkdir [10].

Əsasən Türkiyənin təşəbbüskarlığı ilə qurulan Orta Koridor texniki cəhətdən Çindən Türkiyəyə gedən mövcud avtomobil və dəmir yolu marşrutlarının daha funksional istifadəsinə əsaslanır. Bu çərçivədə atılan addımlardan biri də Çinin Sincan-Uyğur Muxtar Bölgəsindəki Şihezi şəhərindən başlayan və Qazaxıstanın Manqışlak yarımadasındakı Aktau limanına çatan Nomad Ekspresinin istifadəsidir. 07 noyabr 2013-cü il tarixində Astanada keçirilən İkinci Beynəlxalq Nəqliyyat və Logistika Biznes Forumunda Gürcüstan, Qazaxıstan və Azərbaycan Dəmir Yolları ilə Batumi, Aktau və Bakı Liman administrasiyaları tərəfindən imzalanmış "Transxəzər Beynəlxalq Nəqliyyat Xəttinin İnkişafı üzrə Koordinasiya Komitəsinin yaradılması" kontekstində yaradılmışdır [11].

Orta Koridor Çindən Türkiyəyə, həmçinin də də Avropa Birliyi ölkələrinə və əksinə olaraq yük daşımalarının artırılmasında fəaliyyət göstərir. Bu nəqliyyat dəhlizi boyunca hərəkətdə olan qatarlar yükləri Çindən Avropaya təxminən orta hesabla 10-12 günə çatdırır [6]. Bu nəqliyyat dəhlizi ilə yüklər Avropaya 2 istiqamətdə – Gürcüstanın Poti və Batumi limanları və Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə nəql olunur.

Orta Koridor təşəbbüsü çərçivəsində həyata keçirilən digər mühüm layihə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yoludur. BTQ dəmir yolu layihəsi Ermənistanla münasibətlərində problem yaşayan Türkiyə və Azərbaycan arasında mövcud Qars-Gümrü-Bakı və Qars Gümrü-Tbilisi dəmir yolu xətlərinə alternativ marşrut alternativi kimi ortaya çıxdı və xəttin tikintisi ilə bağlı razılıq Türkiyə, Azərbaycan və Gürcüstan arasında 2007-ci il fevralın 7-də Tbilisidə əldə edilmişdir. Ümumi uzunluğu 838 kilometr olan dəmir yolu xətti 30 oktyabr 2017-ci ildə xidmətə başlamışdır.

Orta Koridoru həm də "Böyük İpək Yolu"nun məntiqi davamı hesab etmək olar. Bu vaxtadək Çindən Avropa ölkələrinə daşınan əsas yüklər Rusiya ərazisi ilə Trans-Sibir tranzit marşrutu ilə aparılırdı. Orta Koridor bu tranzit xəttindən 2 min km qısadır və keçdiyi ərazilər əlverişli coğrafi iqlimə malikdir. Əsas uzunluğu 5400 km olan Şərq-Qərb nəqliyyat dəhlizi ortalama tranzit müddəti 15 gün hesab edilir. Alternativ dəniz yolu ilə müqayisə edərsək bu dəhlizin yükləri Çindən Avropaya 3 dəfəyə qədər daha az müddətə çatdırdığının şahidi olarıq.

Deyilənlərə əsaslanmaqla Azərbaycanın nəqliyyat sektorunda yük daşınması üzrə son 20 il üzrə statistik qiymətləndirmə aparılmışdır (Cədvəl 2).

Cədvəl 2. Nəqliyyat sektorunda yük daşınması, 1000 ton

	1995	**2000**	**2005**	**2010**	**2015**	**2020**	**2021**
Cəmi yük daşınması, min ton	**8 331**	**15 948**	**26 533**	**97 504**	**92 776**	**76 328**	**78 654**
dəmiryolu ilə	2 409	5 770	9 628	8 250	6 210	4 861	5 316
Dəniz	4 325	5 192	7 521	4 859	2 937	3 299	3 093
Hava	57	102	310	139	582	2 302	2 802
Boru kəməri	1 013	1 371	1 538	72 931	67 515	57 065	58 018
neft kəməri	465	646	624	68 804	62 511	49 271	47 585
qaz kəməri	548	725	914	4 127	5 004	7 794	10 433

Mənbə: Dövlət Statistika Komitəsi

Cədvəl 2-dən də göründüyü kimi, nəqliyyat sektorunda yük daşınması son 20 ildə hər il müntəzəm olaraq artmışdır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin istifadəyə verilməsi həmin dövrdə boru kəməri ilə daşınmaları kəskin artırmış və bu da, onun cəmi yükdaşınmalarda payını 2007-ci ildə əvvəlki illə müqayisədə 10 % bəndi artırmışdır [2].

Ölkəmizin tranzit potensialının reallaşdırılmasında Çinin "Kəmər, yol" təşəbbüsünün də böyük əhəmiyyəti vardır. Strategiyanın tərəfdaş ölkələrindən biri Azərbaycan olmuşdur. Azərbaycanın bu strategiya təşəbbüsünün əsas məqsədi Transxəzər Tranzit Dəhlizinin "Kəmər, yol" layihəsi ilə inteqrasiya olunması ilə yanaşı digər iştirakçıların iqtisadi maraqlarına uyğun olaraq fayda əldə etməkdən ibarət olmuşdur.

Azərbaycanın enerji potensialını dünya bazarına çatdırmaq istiqamətində ən mühüm tranzit boru kəmər nəqliyyat xəttlərindən biri Transxəzər Boru Kəməridir. Bu kəmər Türkmənistan qazını Avropaya çatdırmaqla yanaşı həm də Azərbaycan və Türkmənistan dövlətlərini yaxınlaşdırmaqda mühüm rola malikdir. Çünki bu kəmər Türkmənistan qaz ehtiyatları ilk dəfə Azərbaycan vasitəsilə Avropa bazarına nəql ediləcəkdir. Onu da qeyd edək ki, Türkmənistanə əsasən təbii ehtiyatlarını Çin və Rusiyaya ixrac etməkdə maraqlı idi. Türkmənistan Transxəzər boru kəmərinə qoşulmaqla qeyd edilən tərəfdaşlarından daha az asılı olacaq və xarici bazarının əhəmiyyətli dərəcədə şaxələndirilməsinə nail olacaqdır.

Nəticə və təkliflər

Məqalədə qeyd olunanlara əlavə olaraq qeyd etmək yerinə düşər ki, İkinci Qarabağ müharibəsində qazanmış olduğumuz qələbə yeni bir layihənin - Zəngəzur nəqliyyat dəhlizinin aktuallaşmasına səbəb oldu. Zəngəzur dəhlizi Şərq-Qərb nəqliyyat dəhlizinin bir hissəsi olaraq Avropa və Asiyanı birləşdirən və Azərbaycandan keçən mühüm tranzit xətti olacaqdır. Bu layihə Türkiyə və Azərbaycan arasında birbaşa quru yol nəqliyyatının reallaşmasına səbəb olacaqdır.

Ümumilikdə belə nəticəyə gəlirik ki, ölkəmizin istər Ulu Öndər Heydər Əliyevin birbaşa təşəbbüsü və uzaqgörən siyasəti ilə əsasını qoyduğu və əsl tarixi nailiyyət hesab olunan boru kəmər nəqliyyatı, istərsə digər tranzit nəqliyyat layihələri Azərbaycanın regionda tranzit mövqeyinin güclənməsi və onun geoiqtisadi mövqeyinin möhkəmlənməsini şərtləndirmiş oldu. Haqqında danışdığımız tranzit marşrutlar ölkəmizdə yükdaşımaların diversifikasiyasına və nəqliyyat sektorunun qeyri-neft sənayesində xüsusi payının artmasına öz müsbət təsirini göstərəcək, qeyri-neft məhsulları üçün yeni ixrac bazarlarının açılmasına səbəb olacaqdır. Azərbaycan iqtisadiyyatının dayanıqlı böyüməsinə və şaxələndirilməsinə töhfəsini verəcəkdir.

Eyni zamanda Orta koridor layihəsi Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından olan Çinlə ticarət əlaqələrinin inkişafına öz səmərəsini verəcəkdir. Həmçinin bu koridor Rusiya və Türkiyə üçün böyük imkanlar açmış olacaq və iki ölkə arasında yüklərin həm xərc, həm müddət baxımından daha münasib çatdırılmasına gətirib çıxaracaqdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Energetika Nazirliyi, https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, stat.gov.az
3. "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Trans-Anadolu təbii qaz sisteminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu
4. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu
5. Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
6. Azərbaycan Dəmir Yolları, https://freight.ady.az/beynelxalq-dehlizler/serq-qerb-neqliyyat-dehlizi
7. Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi üzrə layihədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payı ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
8. Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi, http://etsim.az/db/neqliyyat/neqliyyat17.php
9. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı, Bakı Universiteti Nəşriyyatı, 2003, -434s.
10. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

11. Toprak, N. G. (2020). Orta Koridor Girişimi bağlamında Türkiye'nin değişen Orta Asya politikası. Ahi Evran Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 6(1), 19-32
12. https://president.az/az/articles/view/25217

Səbinə BABAYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
sabina.babayeva@atmu.edu.az

MUZEY SƏRGİLƏRİNİN İDARƏ EDİLMƏSİNƏ YENİ YANAŞMALAR

NEW APPROACHES TO MUSEUM EXHIBITION MANAGEMENT

НОВЫЕ ПОДХОДЫ К УПРАВЛЕНИЮ МУЗЕЙНОЙ ЭКСПОЗИЦИЕЙ

Xülasə: Muzeylər qədim zamanlardan bu günə qədər insanların istehsal etdiyi əşyaların toplanması funksiyasını davam etdirərək ictimai yaddaşı formalaşdırıb. Bu kollektiv yaddaş bəşəriyyətin ümumi keçmişinin izahını verən əsas bilik mənbəyidir. Müasir dövrə qədər sahib olduqları bilikləri bölüşməyən, lakin biliyin mütləq qoruyucusu olan muzeylər 20-ci əsrdə yayılan müasir muzeyşünaslıq anlayışı ilə cəmiyyətə inteqrasiya edən, keçmişindən xəbər verən mərkəzlərə çevrilmişdir. Eyni dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı muzeylərə də informasiya institutu kimi təsir göstərmişdir. Bu gün bu yeni anlayışı mənimsəyən və informasiya əsrindəki inkişafları izləyən muzeylər, əldə etdikləri məlumatları ən yaxşı şəkildə əldə etmək, onu təşkil etmək və müxtəlif tətbiqlərlə cəmiyyətə təqdim etmək üçün ən təsirli üsul, təcrübə və standartları inkişaf etdirmişlər.

Açar sözlər: muzey, təşkilat, idarəetmə, incəsənət, mədəniyyət

Абстракт: С древнейших времен и до наших дней музеи продолжали функцию собирания предметов, произведенных людьми и формировавших общественную память. Эта коллективная память является основным источником знаний, объясняющих общее прошлое человечества. Музеи, которые не делились знаниями, которые у них были до современной эпохи, но были абсолютными хранителями знаний, стали центрами, которые интегрируются в общество и информируют о своем прошлом с концепцией современной музеологии, которая распространилась в 20-м веке. В этот же период развитие информационных и коммуникационных технологий коснулось и музеев как информационных институтов. Сегодня музеи, принявшие эту новую концепцию и следившие за развитием информационного века, разработали наиболее эффективные методы, методы и стандарты для наилучшего сбора имеющейся у них информации, ее организации и представления публике с различными приложениями.

Ключевые слова: музей, организация, управление, искусство, культура

Abstract: From ancient times to the present day, museums have continued the function of collecting objects produced by people and shaped public memory. This collective memory is the main source of knowledge that explains the common past of mankind. Museums, which did not share the knowledge they had until the modern era, but were the absolute guardians of knowledge, have become centers that integrate into society and inform about their past with the concept of modern museology that spread in the 20th century. In the same period, the development of information and communication technologies also affected museums as information institutes. Today, museums that have adopted this new concept and followed the developments in the information age have developed the most effective methods, practices and standards to best obtain the information they have, organize it and present it to the public with various applications.

Keywords: museum, organization, management, art, culture

Muzeyin kolleksiyaları haqqında biliklərini cəmiyyətlə bölüşdüyü ən əsas fəaliyyət sahəsi sərgilərdir. Sərgi "qavramların, dəyərlərin və yaxud biliklərin ötürülməsi məqsədi ilə xüsusi rəvayət üsullarından və öyrənmə ardıcıllığından istifadə edərək əvvəlcədən müəyyən edilmiş ərazidə təqdim olunan obyektlərə və onların bir-birini tamamlayan elementlərinə əsaslanan ünsiyyət vasitəsidir". Muzey sərgilərinin məqsədi kolleksiyadakı əşyaları cəmiyyətin tanıyacağı şəkildə təşkil etmək və əşyalar haqqında məlumat təqdim etməkdir. Düzgün planlaşdırılmış sərgi ilə keyfiyyətli kolleksiyanın təqdim edilməsi cəmiyyətin bilik və öyrənməsinə töhfə verir.

Sərgi kolleksiyalar və əşyalar haqqında biliklərin üzə çıxdığı mühüm prosesdir. "Reallıqla obyekt öz varlığında daşıdığı məlumatı dəstəkləyir, lakin obyekti oxuya bilmək xüsusi təlim tələb edir. Təhsilinə görə obyekti oxuya bilən arxeoloq və ya sənətşünas ilə ibtidai sinif şagirdinin, tibb həkiminin və ya mühəndisin eyni obyektdən nə qavraması arasındakı fərqi bilən muzeylər əşyaların oxunmasına rəhbərlik edən bələdçi kimi fəaliyyət göstərirlər". Sərgidəki obyektlər haqqında məlumatlar etiketlər, məlumat lövhələri və istiqamətlər kimi müxtəlif vasitələrlə ziyarətçilərə çatdırılır [1].

Bunlar sərgi növlərinə, ziyarətçi profillərinə və kolleksiya keyfiyyətlərinə görə ayrılan və xüsusilə muzey eksponatları üçün yaradılan təsnifat təkliflərdir. Bu təsnifatlar bəzən muzeyin sərgi məqsədinə əsaslansa da, bəzən ziyarətçi və ya obyekt yönümlü olur. Sərgi növlərini müəyyən edən müddəalardan biri belədir; Sense nümayiş etdirmək, Təhsil göstərmək və Əyləncəli göstərmək. Muzey eksponatlarının ziyarətçilərə təsirlərinin ön planda tutulduğu bu araşdırmada təsnifatın əsasını məlumat və əyləncə təşkil edir. Bu təsnifatı qısaca araşdırmaq üçün: Hiss Eksponatları; Baxdıqda görürük ki, belə sərgilər tamaşaçıların hisslərinə təsir etmək məqsədi ilə təşkil olunur. Onlar öz aralarında "estetik nümayiş və emosional nümayiş" olaraq iki yerə bölünürlər. Estetik nümayişlər gözəlliyin qəbulu nəzəriyyəsi kimi nəzərdə tutulan estetik dəyərləri tutmaq məqsədi daşıyır. Emosional nümayişlər tamaşaçıların emosiyalarını oyatmağa çalışanlardır. Dərslik Sərgiləri; Bu sərgilər məlumat və maarifləndirmə məqsədi daşıyır. Bu cür sərgilərdə müxtəlif vasitəçi materiallardan istifadə etməklə obyektlərin xassələri şərh edilir və ünsiyyət vasitələrinin köməyi ilə sərgilənən obyektin tərbiyəvi funksiyası təqdim olunur. Əyləncəli Sərgilər; Bu barədə danışsaq, deyə bilərik ki, bu sərgilər təkcə muzeyin məzmununa və kolleksiya kontekstinə uyğun əylənməklə yanaşı, həm də interaktiv tətbiqlərlə ziyarətçilərinə təcrübə qazandıran sərgilərdir. Atasoyun sərgi növlərinə klassik çeşidləri də əlavə etsək, deyə bilərik ki, muzeylərdə yuxarıdakı təkliflərdən başqa, ziyarətçi, kolleksiya və ya məlumat yönümlü sərgilər də keçirilir. Kolleksiya yönümlü sərgilərdə; təqdim olunan obyektlər vasitəsilə məlumat ziyarətçiyə ötürülür. Ancaq ön planda olan obyektlər var [11]. Bunlar əsasən obyektə və obyektin keyfiyyətinə əsaslanan sərgilərdir. Bu tip sərgilərdə vacib olan obyektin olması və məlumatın mövcudluğunda obyektin nümayiş etdirilməsidir. Obyekt yönümlü məlumatların ötürüldüyü bu sərgilərdə müxtəlif media vasitələrinin köməyi ilə obyektlər informasiya baxımından dəstəklənir. İnformasiya və Təhsil yönümlü sərgilər; əsasən obyektə deyil, obyekt yönümlü məlumatlara diqqət yetirir. Məqsəd ziyarətçiləri məlumatlandırmaq və obyektləri şərh etməkdir. Maarifçilik baxımından da mühüm əhəmiyyət kəsb edən bu tip sərgilər sistemli və proqramlaşdırılmış şəkildə tərtib edildikdə ziyarətçilərin diqqətini cəlb edə bilir. Bundan əlavə, muzey təhsili baxımından da əhəmiyyətli olan bu sərgilərdə hədəf auditoriya üçün araşdırmalar və təqdimatlar etmək daha asandır. Çünki bilik çoxaldıla və şərh edilə bilən bir məfhumdur.

Beynəlxalq Muzeylər Komitəsinin tərifinə görə, muzey "cəmiyyətin və onun inkişafının xidmətində olan, ictimaiyyətə açıq olan, insanın və onun mühitinin şahidi olmuş maddi və qeyri-maddi elementlər üzərində tədqiqatlar aparan, kolleksiyalar toplayan muzeydir, məlumatı qoruyur, paylaşır və nəhayət cəmiyyətin maarifləndirilməsi və dəyərlərinin yüksəldilməsi məqsədi ilə sərgilənir, mənfəət düşüncəsindən asılı olmayaraq daimi bir qurumdur". Riviere bu tərifi "sənət, elm, tarix, sağlamlıq və texnologiya kolleksiyaları olan daimi bir qurum" kimi də genişləndirdi. Keçmişdə yalnız arxeologiya və etnoqrafiya muzeylərindən ibarət olan muzey formalaşması zamanla sənət, tarix coğrafiyası, elm və texnologiya kimi mövzuları da əhatə etmişdir; bu gün kommunikasiya hədəfinin genişliyi nəzərə alınaraq, getdikcə ideoloji təmsillərə çevrilmiş və həm dövlətə, həm də özəl sektora

aid ideya muzeyləri, brend muzeylər, butik muzeylər, peyk muzeyləri, anbar muzeyləri kimi janrlarla şaxələnmişdir. Cəmiyyətin cari ehtiyac və maraqlarına uyğun kolleksiyalar yaradan müasir muzeylərdə ifadə diqqəti obyektdən subyektə, yəni muzey istifadəçisinə keçib. Müasir muzeyşünaslığın ziyarətçi yönümlü anlayışı muzeylərə elm institutları kimi ziyarətçilərin təhsilinə diqqət yetirmək üçün qapı açır. İndi muzeylər sərgilərində verdikləri mesajın muzey istifadəçisinin həyatında yaratdığı əlavə dəyəri şübhə altına alır; məlumatın qavranılmasını artırmaq üçün araşdırmalar aparır və auditoriya təcrübələrinin rəylərini məlumatlara çevirir.

Qeyd etmək lazımdır ki, ənənəvi muzeyşünaslıq anlayışı muzeylərin kolleksiyalar yaratmaq, qorumaq, saxlamaq və sərgiləmək kimi funksiyasını çərçivəyə salsa da müasir muzeylər həmçinin ünsiyyət, maarifləndirmə və tədris kimi missiyaları da öz üzərinə götürürlər. Bu məqsədlə daha effektiv, dinamik, interaktiv və iştirakçı sərgi üsullarına tez-tez müraciət etdikləri görünür. İndi muzeyin verdiyi məlumatlar, muzey divarları içərisində neytral müstəvilərdə sabitlənmiş əsərlərdən çox, muzey ziyarəti zamanı və sonra hekayəni yaşayan istifadəçidə canlanan görüntülər toplusudur. Müasir muzeyşünaslıq toplama və sərgiləməyə əsaslansa da, post-modern sərgi münasibəti ziyarətçi ilə qarşılıqlı əlaqənin qurulmasına əsaslanır. Müasir muzey sərgilərinin nüfuzlu məlumat ötürülməsi zamanı ziyarətçi passiv vəziyyətdə olur. Digər tərəfdən, 1970-ci illərdən sonra ortaya çıxan post-modern muzeyşünaslıq yanaşması muzey və ziyarətçi arasında paylaşma, araşdırma, açılış və əməkdaşlığın vurğulanır. Başqa sözlə desək, müasir muzeyşünaslıq avtoritet, post-modern muzeyşünaslıq şərhi və qarşılıqlı əlaqəni bir münasibət kimi qəbul etmişdir. Muzeylər milli mədəniyyətlərin simvolları və tarixi bu günümüzlə birləşdirən körpülərdir. Muzeylər Qədim Yunanıstandan bu günə qədər bir çox müxtəlif mərhələlərdən keçmişdir [2]. 19-cu əsrdə müasir hərəkatın təsiri ilə yenilənən və sayı sürətlə artan muzeylər sənət nümunələrinin qorunub saxlanmasında, xalqların milliləşməsi və müasirləşməsində mühüm rol oynayıb. 20-ci əsrdə Amerika Birləşmiş Ştatlarının super gücə çevrilməsi, qloballaşma fenomeninin meydana çıxması və beynəlxalq şirkətlərin güclənməsi hər sahədə olduğu kimi, mədəniyyət sahəsində də dəyişikliklər baş verdi. Dövlətlərin rolu getdikcə azalmağa başladı və beynəlxalq təşkilatlar dövlətlər üzərində dominant oldular. Özəlləşdirmə prosesindən, dünyada sərhədlərin götürülməsindən, iqtisadi sahədə azadlığın yayılmasından mədəniyyət də öz payını alıb. Universallaşmağa başlayan dünyada muzeylər də özəlləşdirməyə başlayıb. Muzeylərdə marketinq strategiyaları hazırlanmağa başlandı və muzeylərin menecerləri qlobal dünya ilə ayaqlaşa bilmək üçün beynəlxalq şirkətlərlə əməkdaşlıq edərək sponsorluq müqavilələrinin imzalanması prosesinə daxil oldular. Filiallar açmağa başlayan muzeylər bu mənada sənətsevərlərə xidmət göstərsələr də, sənət tarixçilərinin reaksiyalarından qaça bilməyiblər. Rəqabətli bazarda incəsənət müəssisələri düzgün strategiyalara əməl etməsələr, onların sağ qalması çətinləşir. Bununla belə, sənət rəqabətə gəldikdə populyarlıqdan o tərəfə keçə bilməz [10]. Muzeylərin yaradılma məqsədləri və qloballaşma ilə dözümlü dəyişikliklər muzeyin tarixi qədim Yunanıstana gedib çıxır. Arxelaosun Hellenistik dövrdə çəkdiyi "Arxelaos relyefi"ndə muzalara mövzu verilir. Qədim sivilizasiyalarda bu günə qədər rastlaşdığımız müxtəlif muzey formaları var. Qəbirlərdə, saraylarda və ya məbədlərdə xalqın görməsi üçün qiymətli əşyalar və sənət əsərləri görünür. Yunanların sənət kolleksiyasına əhəmiyyət verməsi ilə məbədlər zamanla qalereya kimi xidmət etməyə başladı. Romalılar isə kolleksiya ilə yanaşı, onların çoxalmasını da kəşf etdilər. Orta əsrlərdə Avropa cəmiyyətində kilsə hakim yer tuturdu. Bu səbəbdən kilsə keçmişdən XV-XVII əsrədək qədər əhəmiyyətli gördükləri dini əsərləri toplayırdı. Tapıntılar kilsələrdə qorunurdu. Amerikanın kəşfindən sonra Avropaya gətirilən hər bir qeyri-adi obyekt kolleksiya hesab olunurdu. Avropa ölkələrində nadir kabinetlər yaradılıb. Kabinetlər ilk dəfə 14-15-ci əsrlərdə Fransada yaradılmış, 17-ci əsrdə isə bir çox ölkələrdə çoxlu sayda kabinetlər yaranmışdır. Kabinetlər özəldir. Şübhəsiz ki, ən möhtəşəmləri imperatorlara aiddir. Avropada ilk muzey olan Palazzo Medici XV əsrdə yaradılmışdır. Medici evi müasir Avropa muzeylərinin başlanğıc nöqtəsi hesab olunur. XVIII əsrin əvvəlləri ilə Avropada bir-birinin ardınca müasir muzeylər yaradılmağa başladı. Müasir muzeylərin yaradılması məqsədləri eynidir. Bütün muzeylər imperiya və ya kral əsərlərinin nümayişi üçün yaradılıb və milli mədəniyyət yaratmaq

məqsədi daşıyırdı. XIX əsrin sonlarına qədər muzeylər sadəcə tarixi yerlər idi. Onlar tarixi göstərmək üçün yaradılmışdır. Keçmişin izlərini sərgiləməklə tarixlə bu gün arasında körpü rolunu oynadılar. Muzeydə eksponatların mühafizəsi və nümayişi ziyarətçiləri tarix haqqında düşünməyə sövq edir. 19-cu əsrdə incəsənət muzeylərinin açılması muzeylərin tarixi bu günə çatdırmaq missiyasını təhdid etməyə başladı. Fransız İnqilabı ilə başlayan mədəniyyət müharibəsi ilə birlikdə sənət əsərləri tapıldıqları bölgələrdən çıxarılaraq müxtəlif yerlərdə sərgiləndi. Tarixi qorumaq missiyası ilə qurulan muzeylər tarixin pula çevrilməsinə önəm verməyə başlayıb. Bütün dünyada muzeylərin missiyasının dəyişməsində ABŞ-ın təsiri danılmazdır. Amerikada 19-cu əsrin sonlarında muzeylərin sayı sürətlə artdı. Avropanın köklü tarixinə baxmayaraq, Amerikanın sərgiləyə biləcəyi sənət əsərlərinin sayı son dərəcə məhduddur. Avropada ictimai muzeylər olduğu halda, Amerikada da özəl muzeylər açılıb. Avropaya kolleksiya toplamaq üçün gələn amerikalılar buradan aldıqları eksponatlarla muzeylərini doldururlar. ABŞ-ın ictimai muzeylərində isə əsərlər altında kolleksiyaları bağışlayan xeyriyyəçilərin adları göstərilir. Bu yolla həm ictimai xərcləri azaldır, həm də xeyriyyəçilər öz reklamlarını edirlər. Avropanın muzeylərlə təmin etməyə çalışdığı millilik ideyası Amerikanın qəbul etdiyi universallıq ideyası ilə qarşılaşdı.

Özəl sektorun muzeylərə daxil olması muzeylərin mövcudluğunu saxlamaq üçün dövrün iqtisadi sistemi ilə ayaqlaşmaq zərurətini ortaya qoydu. Bu gün muzeylər sənət menecerlərinə təslim olub və müxtəlif yollarla iqtisadi töhfə verməyə çalışırlar. Muzeylər daxilində açılan mağazalar, restoranlar, mütəxəssislər tərəfindən keçirilən təlimlər, seminarlar və bu kimi ödənişli tədbirlər giriş təmin etmək üsullarına misaldır. Qloballaşma prosesində muzeylərin düşdüyü son vəziyyətdə şaxələnməsi ən çox diqqət çəkən vəziyyətdir. Muzeylərdə filiallar beynəlxalq françayzinqlərə malik brendləri xatırladır [8]. Guggenheim Muzeyi şaxələnməyə üstünlük verən bir muzeydir. Bunun əsas səbəbi sənəti daha geniş auditoriyaya çatdırmaq, yoxsa kommersiyaya çevirərək sənəti bazara çıxarmaqdır, bu mübahisə mövzusudur. Qloballaşmanın təsirinin həyatın hər sahəsində hiss olunduğu çağımızda sənətin də iqtisadi, siyasi və siyasi şəraitin təsirinə məruz qalması gələcəklə bağlı narahatlıqları artırır. İncəsənətin sağlam şəraitdə ortaya çıxması üçün o, orijinal və sərbəst olmalıdır. Bu gün hətta sənət adamları populyar mədəniyyətin təsiri altında daha çox kommersiya məqsədli əsərlər hazırlayırlar. Əksər sənət qurumları rəssamları bu istiqamətdə hərəkət etməyə məcbur edir. Qalereyalar və muzeylər sərgilərdəki əsərlərin satışı ilə gəlirlərini artırmağı hədəflədikləri üçün ya müəyyən reputasiya qazanmış, ya da satış potensialı gördükləri rəssamlarla işləmək istəyirlər. Milli mədəniyyətin simvolu olan muzeylər ABŞ-ın təsiri ilə universal xarakter almağa başlayıb. Qloballaşmanın təsiri ilə milli mədəniyyət tədricən yox olur. Güclü beynəlxalq şirkətlər iqtisadi sahədə olduğu kimi mədəniyyət sahəsində də təsirli olublar. İncəsənət institutlarının davamlılığı güclü şirkətlərin dəstəyindən asılı olmuşdur. Sponsorluqdan əlavə, marketinq strategiyalarının düzgün müəyyən edilməsi ilə qurumlar davamlılığını təmin edə bilərlər [7]. Son zamanlar sayları artan muzeydəki mağazalar və restoranlar da marketinq strategiyalarının bir hissəsidir. Təkcə özəl muzeylər deyil, dövlət muzeyləri də universallaşma və özəlləşdirmə istiqamətində addımlar atmağa başlayıb. Milli dəyərlərin ön planda olduğu Fransada Abu Dabi ilə bağlanan razılaşma nəticəsində Luvr Muzeyinin Səadiyyə adasına açılması böyük əks-səda doğurub. Lakin bütün reaksiyalara baxmayaraq, iki ölkə arasında müqavilə imzalanıb. Beləliklə, Fransanın simvolu olan Luvr muzeyi qlobal muzeylər şəbəkəsinə çevrilib. Türkiyədə dövlət muzeylərində özəlləşdirmə prosesi başlayıb, amma hələ ki, muzey filialı yoxdur. Türkiyədə özəlləşdirmə prosesi 2010-cu ildə 50 muzeyin özəl müəssisələrə verilməsi ilə ortaya çıxıb. Hazırda ümumilikdə 154 xarabalıq və muzey Türkiyə Səyahət Agentlikləri Birliyinə (TÜRSAB) təhvil verilib [7]. Aydındır ki, muzeylər təkcə ziyarətçilərlə büdcələrini tarazlaya bilməzlər. Ancaq onlar dərk etməlidirlər ki, sənət yalnız davamlılığını artırmaq üçün ruhlarını satmaq bahasına özəl şirkətlərlə əməkdaşlıq edərək gələcəklərini təhlükə altına alır. Müasir muzeyşünaslıq toplama və sərgiləməyə əsaslansa da, post-modern sərgi münasibəti ziyarətçi ilə qarşılıqlı əlaqənin qurulmasına əsaslanır. Müasir muzey eksponatlarının nüfuzlu məlumat ötürülməsi zamanı ziyarətçi passiv vəziyyətdə olur. Digər tərəfdən, 1970-ci illərdən sonra ortaya çıxan post-modern muzeyşü-

naslıq yanaşması muzey və ziyarətçi arasında paylaşma, araşdırma, açılış və əməkdaşlığın vurğulanır. Başqa sözlə desək, müasir muzeyşünaslıq avtoritet, post-modern muzeyşünaslıq şərhi və qarşılıqlı əlaqəni bir münasibət kimi qəbul etmişdir. Məsələn, Barselonada məşhur memar Antoni Qaudinin bərpa işlərindən biri olan Casa Batllo ailə mənzilindən şəhər muzeyinə çevrilib; Turizm baxımından şəhərə əlavə dəyər qatan mühüm tətbiqlərdən biri halına gəldi. Yuxarıda adı çəkilən butik muzeyləri üçün nümunə olan Casa Batllo interaktiv video bələdçi və proyeksiya xəritəçəkmə tətbiqləri ilə muzey ziyarətçilərinə unikal təcrübə təqdim edir. Muzeyin girişində ziyarətçilərə verilən planşet vasitəsilə binanın divarları üzən dəniz tısbağaları, okeanda yaranan tornado ilə örtülmüşdür. Buna "artırılmış reallıq tətbiqi" deyilir. Elektron proqram təminatındakı vizual vurğular memarın unikal dizayn yanaşmasını canlı struktura çevirir. Muzeyin ziyarətçisi binanın mərtəbələrində könüllü olaraq dolaşarkən memarın xətlərini araşdırmaq üçün motivasiya olunur. Bu vəziyyət Dilmancın izahı üçün də nümunədir [9]. Tətbiqin təqdim etdiyi imkanlarla binanın tikinti tarixi və dizayn konsepsiyası haqqında məlumat verilir, binadakı dövrlərdə otaqların istifadə məqsədləri ilə bağlı dövr mebelləri ilə virtual animasiyalar hazırlanır və mühüm memarlıq həlləri qeyd edilə bilər. eyni zamanda çıxır. İnteraktiv tətbiqlərlə yanaşı, muzey quruluşunda təcrübə dizaynına da böyük əhəmiyyət verildi. Binanın damı Batllo ailəsi tərəfindən camaşırxana kimi istifadə edilərkən, muzey ziyarətinin son səhnəsi olaraq yaddaqalan bir səhnəyə çevrildi. Bütün döşəməni bürüyən sabun qoxusu, müntəzəm eşidilən suyun səsi və bəzi otaqlarda uçan tülün üzərinə proyeksiya edilən quruyan çamaşırların təsviri döşəmə haqqında verilən məlumatları istifadəçi üçün güclü "yaddaş"a çevirir. Bu cür dizayn qərarları Casa Batllo-nu interaktiv tətbiqlərlə formalaşmış bir şəhər muzeyi olaraq Barselonaya şəhər səyahətlərinin əvəzsiz ziyarət nöqtələrindən birinə çevirdi. Xüsusi sərginin dizaynı dizayn təkliflərinə multidissiplinar yanaşma tələb edir. O qədər ki, məkan, işıq, səs, qrafik və media dizaynını birlikdə istifadə edərək məkan atmosferi asanlıqla təşkil edilə bilər. Yaradılan həyati mühitlə ziyarətçiləri yüksək müvəffəqiyyətlə müəyyən bir hekayənin mərkəzinə yönəldə bilərlər. Alman muzey sərgilərinin görkəmli dizayn qruplarından biri olan Atelier Brückner, prof. Uwe Brukner tərəfindən təqdim edilən Senoqrafiya texnikası ilə o, bu məqsədi formalaşdırıb və tamaşaçıların bədii ədəbiyyatla qarşılıqlı əlaqədə ola biləcəyi bir çox mühüm sərgilər hazırlayıb. Atelier Brückner, instalyasiya olaraq qəbul edilə bilən sərgi məkanları üçün dizaynlarda sensoru qarşılıqlı əlaqə ölçüsündə təşkil edir və mesajın təşkilində səs, istilik və qoxu məlumatlarından məharətlə istifadə edir [9].

Aparılan araşdırmalardan sonra deyə bilərik ki, bu gün sərgilər, onların idarə olunması Brüknerin düzgün olaraq qeyd etdiyi kimi muzeylər müasir dövrün ruhundan geri qalmamaq üçün ünsiyyət münasibətlərini yeniləməlidir. Muzeylər və sərgilər internet təhlükəsi altındadır. İndi bütün İnternet üzərindən müxtəlif cür məlumat əldə etmək olar. Muzeylər sağ qalmaq üçün məlumatdan, insanlar isə internetdəki məlumatdan kənara çıxırlar. O, onların tapa bilmədiyi unikal təcrübələr yaratmalıdır.

Ədəbiyyat

1. Alpay, Halil Rıfat. "Teknolojik Bağımlılık ve Yaratıcı Mühendislik Eğitiminin Gerekliliği." Sanayi Kongresi Bildirileri.TMMOB Sanayi Kongresi. Ankara:TMMOB, 1989. 9-12.
2. Atasoy, Sümer. "Müzelerde Sergileme". Yeniden Müzeciliği Düşünmek. Ed. Atagök, Tomur. İstanbul: Yıldız Teknik Üniversitesi Sosyal Bilimler Enstitüsü, 1999. 175-179.
3. Barkan, Murat ve Eroğlu Erkan. "Eğitim İletişiminde Çağdaş Ortamlar: İletişim Bir Sorun Kaynağı mı? Yoksa Çözüm Seçeneği mi?". TOJET 3.3 (2004): 115.
4. Çamdereli, Mete. Ana Çizgileriyle Halkla İlişkiler. Konya: Çizgi, 2000.
5. Çetinkanat, Canan. "İnsan İlişkilerinde İletişim". Çağdaş Eğitim Dergisi 21.223 (1996): 18-20.
6. Gümüşoğlu, Şevkinaz ve Üzeyme Doğan. "Teknoloji ve Verimlilik Kültürü ile Yüksek Öğretim Kurumları Arasındaki İlişkiler". DEÜ İktisadi ve İdari Bilimler Fakültesi Dergisi 9.2 (1994): 51-70.
7. Maccario, Nihal. "Müzelerin Eğitim Ortamı Olarak Kullanımı". Uludağ Üniversitesi Eğitim Fakültesi Dergisi15.1 (2002): 275-285.
8. Madran, Burçak. "Müze Türleri". Yeniden Müzeciliği Düşünmek. Ed. Atagök, Tomur. İstanbul: Yıldız Teknik Üniversitesi Sosyal Bilimler Enstitüsü, 1999. 3-10.

9. Marins, Vania. "Learning in Museums With Use of Digital Technologies and Virtual Reality". Realidade Virtual 3.3 (2010): 3.
10. Robinson, Ken. Yaratıcılık Aklın Sınırlarını Aşmak. İstanbul: Kitap, 2003.
11. Schweibens, Werner."The Development Of Virtual Museums". ICOM News 3.3 (2004): 3.

Rəqsanə HACIYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
reqsanehaciyeva99@gmail.com

ERMƏNİ İŞĞALI DÖVRÜNDƏ AZIX ABİDƏSİNİN VƏZİYYƏTİ

СОСТОЯНИЕ ПАМЯТНИКА АЗЫХ ВО ВРЕМЯ АРМЯНСКОЙ ОККУПАЦИИ

THE CONDITION OF THE AZIKH MONUMENT DURING THE ARMENIAN OCCUPATION

Xülasə :Dünya Arxeologiya elmi üçün mühim əhəmiyyətə malik Azıx mağarası XX əsrdə kəşf olunduqdan sonra bura daim diqqət mərkəzində oldu, ilkin araşdırmalar zamanı dünyada aşkarlanmış ən qədim 4-cü yaşayış məkanı olan mağara bizə ilk insanların yaşamı, məişəti haqqında biliklər verir. Bundan irəli gələrək də Azıx dünya elmi üçün maraqlı bir abidədir. Təəssüf olsun ki 30 ilə yaxın bir müddət ərzində mağara Erməni işğalı altında qalmışdır. Bu vaxtlar ərzində mənfur düşmənlərimiz orada qeyri-qanuni qazıntılar aparmış və bu prosesə xarici ekspedisiya qruplarını daxil etmişdilər.

Məqalədə bu haqqda məlumatlar əks etdirilmiş və işğal dövründə hər iki tərəfin bu mövzu üzərində işlərinə diqqət yetirilmişdir

Açar sözlər: işğal, qeyri-qanuni qazıntı, erməni saxtakarlığı

Abstract: Azikh cave, which is of great importance for the world archeology science, has always been in the center of attention since its discovery in the 20th century, the cave, which is the 4th oldest living space discovered in the world during preliminary research, gives us knowledge about the life and lifestyle of the first people. Based on this, Azikh is an interesting monument for world science. Unfortunately, the cave remained under Armenian occupation for nearly 30 years. During this time, our hated enemies conducted illegal excavations there and included foreign expedition groups in this process.

In the article, the information about this is reflected and attention is paid to the work of both sides on this topic during the occupation.

Keywords: occupation, illegal mining, Armenian forgery

Абстракт: Азыхская пещера, имеющая большое значение для мировой археологической науки, всегда находилась в центре внимания с момента ее открытия. Первобытная стоянка, считающаяся 4-м древнейшим памятником палеолита, дает нам знания о жизни и образе жизни первобытных людей. Исходя из этого, Азых представляет большой научный интерес. К сожалению, пещера в течение 30 лет находилась в зоне армянской оккупации. За это время армяне проводили там незаконные раскопки и привлекали к этому процессу иностранных исследователей.

Ключевые слова: оккупация, незаконные раскопки, армянские фальсификации

30 illik bir dövr ərzində Erməni işğalı altında qalmış Azərbaycan torpaqları, bütün istiqamətlərdə Erməni vandalizminə məruz qalmışdır. Ermənilər maddi sərvətləri talamaqla yanaşı həmişəki kimi saxtalaşdırma siyasəti yürüdərək tarixi mədəniyyət abidələrini də özününküləşdirmə yolu ilə dünyada tanıtmağa çalışmışdır. Bu baxımdan işğal altında olmuş ərazilərimizdə qeyri-qanuni tədqi-

qatlar aparmış və həmçinin bu prosesdə bir çox saxtakarlıqlara yol vermişdilər. Belə abidələrdən biri və demək olar ki ən vacibi Azıx mağarası idi. Ermənilər Azıx daş dövrü abidəsini hər zaman dünya miqyasında öz abidəsi kimi tanıtmağa çalışmışdır. Bu yolda atılan addımlar isə tamamilə qeyri-qanuni idi. Həmçinin ermənilər bu prosesdə mağaranın tarixi barədə qondarma hekayələr uydurmaqda davam edirdilər. Məsələn onlar 2020-ci ilin mayında nəşr etdirdikləri bir məqalədə qeyd edirdilər ki, tapılmış şərab qalıqları sübut edir ki, mağaranın adı ermənicə "kal üzüm" mənasını verən "Azox" sözündəndir [1, səh 1]. Daha sonra həmin məqalədə Azərbaycan arxeoloqlarının tədqiqatlarına qərəzli yanaşmaq məqsədilə daha bir hekayəyə rast gəlinir. Bu hissədə isə deyilir ki, azərbaycanlı arxeoloqlar əslində ermənilərin gizlətdiyi xəzinəni tapmaq üçün Azıxa gəliblər, barbar üsullarla mağarada qazıntılar aparılıb və xəzinə uğrunda mağara arxeoloji baxımdan bərbad vəziyyətə salınıb. Lakin, mövzudan az çox xəbəri olan hər bir insan bilir ki, Məmmədəli Hüseynov həm Azıx mağarasının kəşfi zamanı, həm də orada tədqiqat işləri apararkən çox məsuliyyətli davranmış, heç bir xırda detalı gözardı etmədən, mağaraya heç bir zərər vurmadan qazıntıları həyata keçirmişdir. Bu məqamda ermənilərin mağarada apardıqları tədqiqata keçmədən əvvəl kimin mağaraya zərər vurması, mühafizəsini təşkil edə bilməməsi məsələsini isə müharibədən sonrakı ilk günlərdə mağaradan çəkilmiş şəkillər sübut edir. Divarlarda kobud arxeoloji qazıntıların aparılması izləri, içərinin qum torbaları ilə dolu olması, ön dəhlizə metaldan hasar çəkilməsi orada olmasaq belə mühafizənin təşkili səviyyəsini bizim üçün aydınlaşdırır.

Alimlərin əvvəlki şəkillərlə müqayisəsindən məlum olur ki, 700 min illik ocaq izi qalsa da onun ətrafındakı daş yığınları qanunsuz olaraq harasa aparılmış yaxud da dağıdılmışdır. Həmçinin onlarının mühafizəsinin digər bir sübutu isə sadə erməni vətəndaşlarının divara qırmızı boya və iri hərflərlə öz adlarını yazmasıdır. Hansı ki, divarda "Suren, Karen" kimi adlar açıq şəkildə qalmaqdadır. Bu da daha bir versiyanı aşkar edir ki, müharibə dövründə ermənilər mağaranı əsgərlərin sığınacağı və silah anbarı kimi istifadə ediblər [2, səh. 1]. Böyük ehtimalla divarda yazılan adlar da məhz erməni əsgərlərinin adlarıdır. Bizim üçün bu mədəni cinayət sayılsa da görünür ermənilər dünyanın dörd qədim yaşayış yerlərindən biri olan Azıx mağarasında mühafizə qaydalarını heç də ciddiyə almayıblar.

2001-ci ildən etibarən Azıx mağarasında İngiltərə, İspaniya, İrlandiya və Ermənistandan olan beynəlxalq tədqiqatçılar qrupu İspaniyanın Madrid şəhərində yerləşən Təbiət Elmləri Milli Muzeyinin əməkdaşı Yolanda Fernandez-Jalvo və Ermənistan Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitunun əməkdaşı Levon Yepiskopyanın başçılığı altında tədqiqat işlərinin aparılmasına başlanılmışdır [3, səh. 1]. Bu tədqiqat işləri qondarma "Dağlıq Qarabağ Respublikası"nın himayəsi altında aparılmışdır. Levon Yepiskopyan hətta rasizm xarakterli bəyanatla çıxış edərək Azıx mağarasından qanunsuz arxeoloji fəaliyyət nəticəsində tapılan və 7000 il yaşı olduğu iddia edilən DNT izinin müasir "erməni genetikasi" ilə uyğunluq təşkil etməsi barədə fikrini irəli sürmüşdür [4, səh. 1]. Təbii ki bu dünya arxeologiya və antropologiya elminə qarşı təhqirdir, bütün mənəvi-etik çərçivələrdən kənardır.

Tədqiqatlar zamanı 300 min il yaşı olan mağarada sümük qalıqları, daş əmək alətləri və isthesal tullantıları aşkarlanmışdır. Qazıntılar ildə bir ay olmaqla doqquz il davam etmiş və əldə edilmiş bütün maddi mədəniyyət nümunələri tədqiq olunmaq üçün Londona göndərilmişdir. Tədqiqatların nəticəsi olaraq 2010-cu ildə Azıx mağarası haqqında məqalələr toplusu nəşr edilmişdir [5, səh. 1]. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitunun altıcildlik "Azərbaycan Arxeologiyası" nəşrinin I cildində qeyd edilir ki "Azərbaycan alimlərinin Azıx paleolit düşərgəsində apardıqları uzunmüddətli arxeoloji qazıntılar nəticəsində oradakı mədəni təbəqələrin 80%i tədqiq olunmuşdur. Ona görə də hazırda orada nəinki qazıntı, eyni zamanda kəşfiyyat işləri aparmaq bəşəriyyətə qarşı ən böyük cinayət kimi qiymətləndirilməlidir.

Bəlkə 100 ildən sonra yeni elmi tədqiqat metodu meydana çıxa bilər onda Azıx düşərgəsinin çöküntülərindən nümunə götürüb istifadə oluna bilər. Ona görə də hazırda orada qazıntı işləri aparmaq bəşər sivilizasiyasına qarşı ən böyük təxribat hesab olunmalıdır. Azıxda aparılan arxeoloji qazıntılar zamanı tapılmış 100 minlərlə maddi mədəniyyət qalıqları Bakıda saxlanılır və istənilən alim onlarla tanış ola bilər.

2012-ci ildə işğalçı və separatçılar tərəfindən Xankəndidə Azıx mağarası tapıntılarına həsr olunmuş sərgi keçirilib. 2016-cı ilin noyabrında isə yenə də Xankəndində bir0 neçə əcnəbi alimin iştirakı ilə Lüksemburqdakı "Springer" beynəlxalq kitab nəşriyyatı tərəfindən nəşr edilmiş "Azıx mağarası və Trans-Qafqaz dəhlizi" (Azokh Cave and the Transcaucaaion Corridor) adlı saxtalıqlar dolu kitabın təqdimatı oldu [9, səh. 1]. Bütün bunlardan sonra Azərbaycan Baş Prokurorluğu 2017-ci ilin fevralında Azərbaycan Arxeologiya və Etnoqrafiya İnstitunun müraciəti əsasında Dağlıq Qarabağ ərazisindəki Azıx mağarasında tədqiqatlar aparan Ermənistan, İspaniya və Böyük Britaniya alimlərinə cinayət işi açaraq onlar barədə beynəlxalq axtarış elan edib [10, səh. 1].

Prokurorluğun məlumatına görə, ermənistanlı alim Levon Yepiskoposyan, ispaniyalı tədqiqatçı Yolanda Fernandez-Jalvo, Böyük Britaniyanın Blanford Muzeyinin "Azox layihəsi" nin direktoru Tanya King və elmi işçi Puter Endryusun 2002-ci ildən etibarən Azıx mağarasında arxeoloji qazıntı işlərini həyata keçiriblər.

Məlumatda qeyd edilir ki, İspaniyanın Milli Təbiət Muzeyi, Elm və Texnologiya Nazirliyi, Böyük Britaniyanın Qaluay Universiteti, "Armenian General Benevolent Union"un London filialının qazıntı işlərinə maliyyə və digər dəstək vermələridə əsaslı şübhələr yarandığından adları çəkilən şəxslər barəsində cinayət işi qaldırılıb və İnterpola müvafiq sorğu göndərilib. Rəsmi Bakı bundan öncə də Britaniya və İspaniya arxeoloqlarını Dağlıq Qarabağda qazıntı işləri aparmamağa çağırıb. 2008-ci ildə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi bu məsələ ilə bağlı açıqlama yayıb. Açıqlamada qeyd olunur ki, Azıx mağarasında qazıntılar "Silahlı münaqişə zamanı mədəni dəyərlərin saxlanması haqqında" Haaqa Konvensiyasına, "Arxeoloji dəyərlərin qorunması haqqında" Avropa Konvensiyası YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyasına ziddir.

2016-cı ilin noyabrında Azərbaycan XİN Azıx mağarasında tədqiqatlar aparan arxeoloqlar qrupunu "qara siyahı"ya daxil edib [10, səh. 1]. 2017-ci ilin martında İnterpolun Ermənistandakı mərkəzi bürosu Azərbaycanın quruma üzv dövlətlərə ünvanladığı sorğunu aldığını bəyan edib. Müraciəti ünvanlayan AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru, professor Nəcəf Müseyibli, şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Qoşqar Qoşqarlı, sektor müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Təvəkkül Əliyev, aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru, dosent Azad Zeynalov, elmi işçi Səbuhi Hüseynov Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə rəsmi müraciətində bildiriblər ki, istintaq-axtarış prosesində ermənilərin abidələrimizlə bağlı daha çox cinayət əməllərinin üzə çıxacağı istisna edilmir.

İşğalda olmuş ərazilərdəki abidələrdən qanunsuz olaraq aparılmış bütün tapıntıların Azərbaycana qaytarılması hələ mümkün olmasa da, Azıx mağarasına aid arxeoloji tapıntılar Bakıya gətirilməsi bizə məlumdur. Bu da o deməkdir ki, artıq maddi-mədəni irsimizin müəyyən bir qismini erməni saxtakarlığından xilas edə bilmişik. Bu barədə çıxış edən bir digər alim: AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev bildirir ki, ermənilərin qanunsuz qazıntılar nəticəsində aşkar etdikləri materialların Bakıya gətirilməsi çox müsbət bir hadisədir [11, səh. 1]. Alimin çıxışından bir daha aydın olur ki, Ermənistan tərəfi bütüb beynəlxalq normativlərə zidd olaraq qanunsuz arxeoloji qazıntılara xarici mütəxəssisləri cəlb etmişdir. Çünki məlum məsələdir ki Ermənistanın özündə həmin dövrü dəqiq bilən mütəxəssislər yox dərəcəsindədir. Təbii ki bu hissəyə elə biz özümüz də daxilik. Ermənistanın isə xarici mütəxəssis dəvət etməsində digər bir nüans isə abidəylə birlikdə ərazini dünya arenasında "özününkü" kimi təqdim etmək idi. Azıxda əsasən poleobotaniklər, geomorfoloqlar və digər sahələr üzrə ixtisaslaşmış alimlər işləyiblər. Qutularda Bakıya gətirilən tapıntılar əsasən fauna materiallarıdır. Böyük ehtimalla aşkarlanmış daş alətlər və digər materiallar Ermənistana daşınmışdır.

Məlum olduğu kimi Xocavənd rayonunun işğaldan azad edilmiş Azıx kəndindəki evlərdən birinə baxış keçirilərkən əsgərlərimiz üzərində "Azıx" yazılmış və içərisində arxeoloji materiallar olan qutular aşkarlamışdılar [6, səh. 1]. Hərbi birləşmə komandanlığı dərhal bu barədə Arxeologiya və Etnoqrafiya İnstituna xəbər vermişdi. Dövlət Təhlükəsizlik Xidməti və AMEA rəhbərliyi məlumatlandırıldıqdan sonra hüquqi qaydada işlərə başlanıldı. Məlumat mühim tarixi-stratejik əhəmiy-

yət daşıdığı üçün DTX nümayəndələrinin iştiraki ilə Arxeologiya və Etnlqrafiya İnstitunun əməkdaşı tarix üzrə fəlsəfə doktoru Azad Zeynalov Azıx kəndinə ezam olundu [7, səh. 1]. İlkin olaraq yerində baxış keçirilirdi. Məlum oldu ki qutulardakı işğal müddətində Azıxda xarici ekspedisiyaların apardıqları qazıntılar zamanı aşkarlanmış tapıntılar qablaşdırılmışdır. 90-a yaxın plastik qutulardakı tapıntılar Noyabrın 23-ü axşam Bakıya gətirilərək İnstitutun Arxeoloji Fondunda yerləşdirilib [8, səh. 1]. Bu barədə ermənilər açıqlama verərək bildirirlər ki, müharibədən əvvəl abidə ərazisində qazıntı işləri aparılmamışdır. Mağara Dövlət Qoruğuna daxil edilmiş, dövlət tərəfindən mühafizə olunmaqda idi, müharibədən sonra aşkarlanaraq Bakıya aparılmış qutularda saxlanan tapıntılar İcma ərazisində muzeyin açılması üçün nəzərdə tutulmuş qalıqlar idi.

Azad Zeynalov ermənilərin Azıxda aparmış olduqları tədqiqata münasibətini bildirərək qeyd edir ki, 2020-ci ilin noyabrında ermənilərin son illərdə apardıqları qazıntılar nəticəsində əldə etdikləri tapıntılar Azıx kəndindən Bakıya gətirilsə də, pandemiya ilə bağlı yaranmış problemlərlə əlaqədar onlar tam araşdırılmayıb. 100-ə yaxın qutudakı tapıntılar arasında həm daş əmək alətləri, həm də paleontoloji materillar, yəni heyvan qalıq və sümükləri vardır. Alim bildirir ki bu qalıqların hamısı ardıcıl olaraq araşdırılacaqdır. Həmçinin alim tapıntıların əhəmiyyət dərəcəsindən söz açaraq onların 1960-1987-ci illər ərzində Azərbaycan alimlərinin tədqiqatları zamanı tapdıqları artefaktlarla müqayisədə elə də böyük əhəmiyyətə malik olmadıqlarını qeyd edir. Həmin müddətdə alimlərimiz 6 mindən artıq daş əmək aləti və 100 minlərlə sümük qalıqları aşkar ediblərsə, ermənilərin tapdıqları heç bunun 10 faizini təşkil etmir. Azad Zeynalov ermənilərin tədqiqatında insan qalıqlarının aşkar olunub olunmaması ilə bağlı bildirir ki insan qalığının tapılması sensasiya olardı, orada heç bir insan qalığı yoxdur, bu barədə əldə olunmuş yeganə tapıntı birbaşa Məmmədəli Hüseynovun aşkarladığı çənə sümüyüdür.

Bütün bunlardan belə bir nəticəyə gəlmək olar ki, məlum olduğu kimi 30 ilə yaxın bir müddətdə Azıx mağarası işğal altında olmuşdur. Bu müddət ərzində mağarada bir tərəfdən tədqiqatlar aparılsa da digər tərəfdən mühafizə prosesinə ciddi əməl olunmamışdır. İnkar etmək olmaz ki onlar Azıxı bir abidə olaraq tanımaq istəməmişlər. Onlar Azıxın əhəmiyyət dərəcəsini bilmiş Daş dövrünün səciyyəvi abidəsi kimi qiymətləndirmişlər. Lakin onların abidəni özününküləşdirmək, milliləşdirmək üçün addımlar atması, eyni zamanda beynəlxalq konvensiyalara zidd hərəkətlərə yol verməsi elmi ictimaiyyət tərəfindən düzgün qarşılanmamışdır. Dəfələrlə Azərbaycan tərəfin etirazına baxmayaraq yenə də xarici ekspedisiyaların mağaraya dəvət olunması, orada qazıntıların həyata keçirilməsi davam etdirilmişdir. Müharibə zamanı abidə heç bir zərərə məruz qalmamışdır, bunu qarşı tərəf də etiraf edir. Müharibədən sonra isə qarşıda mağara ilə bağlı mühim vəzifələr durur. Azıx daş dövrü abidəsini düşmən işğalından qurtarmaq qədər vacib olan məsələlər həyata keçirilməlidir. Buraya başlıca tədqiqatların ixtisaslaşdırılmış kadrlarla davam etdirilməsi, mühafizə prosedurlarının lazımınca həyata keçirilməsi üçün əsaslı planlar hazırlanması daxildir. Bu prosesdə müxtəlif sahə alimlərinin birgə iştirakı mütləqdir.

Ədəbiyyat

1. "Azərbaycanlı arxeoloqlar Azıx mağarasına ermənilərin gizlətdiyi xəzinəni tapmaq üçün gediblər"/ - Moderator.az / 20 may 2020 / https://moderator.az/news/326056.html
2. AŞPA 'da ermənilərin Azıx mağarasında apardığı qazıntılar məsələsi qaldırıldı / Modern.az / 28 sentyabr 2015/ https://modern.az/tehsil/85671/aspa-da-ermenilerin-azix-maarasinda-apardii-qazintilar-meselesi-qaldirildi/
3. Ermənistan tərəfindən Azıx mağarasında qanunsuz qazıntı işləti aparılıb / AZƏRTAC/ 26 oktyabr 2020/ https://azertag.az/xeber/Ermenistan_terefinden_Azix_magarasinda_qanunsuz_qazinti_isleri_aparilib_eksponatlar_talan_edilib-1624325
4. Azıx mağarasında qanunsuz qazıntı işləri aparılır / AzVision.az/ 28 noyabr 2016/ https://azvision.az/mobile/news.php?lang=az&id=105705

5. Azıx mağarası / Len.az / https://axtar.len.az/?q=Az%C4%B1x_ma%C4%9Faras% C4%B1#cite_note-%D0%9D%D0%B0%D1%85%D0%BE%D0%B4%D0%BA%D0%B8-18
6. Azıxa tarixi ekskursiya / anl.az /18 mart 2021/ http://www.anl.az/down/meqale/hafta_ichi/2021/mart/739208.htm
7. Azıx dünyanın ən unikal mağarasıdır / AzVision.az / 17 Mart 2021/ https://azvision.az/mobile/news.php?lang=az&id=253675
8. Azıx mağarasına aid arxeoloji tapıntılar Bakıya gətirilib / avtosfer.az / 24 noyabr 2020 / https://avtosfer.az/az/gundem/azix-magarasina-aid-arxeoloji-tapintilar-bakiya-getirilib-119642
9. Azıx mağarasında arxeoloji qazıntı işlərinin aparılması Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin ciddi şəkildə pozulmasıdır. / report.az / 24 Fevral 2017/ https://report.az/qarabag/xi-n-azix-magarasinda-arxeoloji-qazinti-islerinin-aparilmasi-azerbaycan-erazi-butovluyu-ve-suverenli/
10. Azıxda qazıntı aparan əcnəbilər İnterpola verildi/ azadlıq.org / 23 fevral 2017/ https://www.azadliq.org/a/28327128.html
11. Tək torpaqlarımız yox, erməni əsarətindəki arxeoloji abidələrimiz də azad olundu / bakı xəbər / 25 noyabr 2020/ https://www.baki-xeber.com/medeniyyet/112271.html

Ramilə EL-OĞLU
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
el-oghlu.ramila.2101@atmu.edu.az

THE POTENTIAL OF CULTURAL TOURISM IN LIBERATED AREAS OF AZERBAIJAN

AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ MƏDƏNİ TURİZM POTENSİALI

ПОТЕНЦИАЛ КУЛЬТУРНОГО ТУРИЗМА В ОСВОБОЖДЕННЫХ РАЙОНАХ АЗЕРБАЙДЖАНА

Abstract: Azerbaijan is one of the countries in the world having a long and rich history paving the way for the valuable culture carrying the traditional and unique features in it. Each region carries specific features displaying its uniqueness. Karabakh, being one of the ancient parts of Azerbaijan, is well-known for its culture and has not lost its cultural sites despite the fact of destruction committed by the opposite side.

The liberation of these areas paves the way to thrive these areas as cultural tourism sites, along with other types of tourism and deliver its beauty and potential to the international community.

Keywords: Karabakh, cultural tourism, sites, festival, potential of tourism

Xülasə: Azərbaycan dünya miqyasında ənənəvi və özünəməxsus xüsusiyyətləri özündə daşıyan dəyərli mədəniyyətə sahib uzun və zəngin tarixə malik ölkələrdən biridir. Onun hər bir regionu öz unikallığını nümayiş etdirən səciyyəvi xüsusiyyətlər daşıyır. Qarabağ Azərbaycanın qədim guşələrindən biri olmaqla öz mədəniyyəti ilə tanınır və düşmən tərəfindən dağıdılmasına baxmayaraq, öz mədəni abidələrini qismən qoruyub saxlaya bilib.

Bu ərazilərin azad edilməsi onların digər turizm növləri də daxil olmaqla mədəni turizm məkanı kimi də inkişaf etməsinə, gözəlliyini və potensialını beynəlxalq ictimaiyyətə çatdırmasına yol açır.

Açar sözlər: Qarabağ, mədəni turizm, turizm məkanları, festival, turizm potensialı

Абстракт: Азербайджан является одной из стран мира с долгой и богатой историей, проложившей дорогу ценной культуре, несущей в себе традиционные и уникальные черты. Каждый его регион несет в себе определенные черты, отображающие его уникальность. Карабах, будучи одной из древних частей Азербайджана, известен своей культурой и не утратил своих культурных памятников, несмотря на факт разрушений, совершенных противоположной стороной.

Освобождение этих районов прокладывает путь к процветанию этих районов как объектов культурного туризма, наряду с другими видами туризма, и позволяет представить их красоту и потенциал международному сообществу.

Ключевые слова: Карабах, культурный туризм, достопримечательности, фестиваль, туристический потенциал

Introduction

The growth of many sites throughout the world depends heavily on tourism. By boosting all tangible (such as places of interest like museums and historic centers, natural resources like seashores, sun, and hills), as well as intangible (such as boosting cuisine based on culture activities and festivals, and sale "environment") factors, culture is thus assumed to be one of the biggest heirs and is viewed as an important resource in tourism development.

With its roots in the Grand Tour, cultural tourism has a rich heritage and is perhaps the first form of travel. For instance, the World Tourism Organization stated: “Cultural tourism made up 37% of all travel worldwide and predicted that it would increase by 15% annually.

Entrancing integration of East and West, customs and modernity, metropolitan hustle and untouched country life may be found in Azerbaijan's cultural tourism. The country overall, an island primarily encircled by Muslim nations, offers unique traditions that you will not see anywhere else in the Caucasus. Each area gives its own distinct interpretation on Azerbaijani culture.

The great success of the Azerbaijani army in the Patriotic War, under the command of President and Commander-in-Chief of the Republic of Azerbaijan Ilham Aliyev, has finally put an end to the continuous struggle, one of the most terrible in recent history, with Armenia.

The Karabakh region is an area with a more ancient history, unlike many regions of Azerbaijan and the world. Namely, the Karabakh region is rich in its history, tangible and intangible cultural monuments, rich literature, art and musical culture. The beautiful nature, climate, and wealth of natural resources of the region had a great influence on the artistic thinking and creativity of Karabakh. While looking at the rich museum collections of London's Victoria and Albert, Paris' Louvre, Washington's Metropolitan Museum, Vienna, Rome, Berlin, Istanbul, Tehran, Cairo, one can see art examples created by the skilful hands of Karabakh masters. Karabakh handicrafts, which were created thanks to the labor of the Karabakh people and are widely used in the everyday life of the region, have a long and rich history. Through the art examples made of metal, it is possible to know the customs, religious meetings and even clothes of the people of that time. The historical, ethnographic and artistic features of Karabakh national creativity are reflected in the clothes. This characteristic is manifested both in certain forms of clothing and its decorations, and also in artistic embroidery, and weaving.

Cultural tourism in the modern world

Given that the limits between the ideas of culture and tourism clearly differentiate their meanings, it may seem simple to identify them apart. The same is true for the notion of cultural tourism. For example, it is commonly accepted that going to a cultural hub in a nation known for its cultural expressions is considered cultural tourism, while going to the beach is not. The two concepts of tourism and culture, as well as the meanings associated with them, have undergone substantial shift recently, to the point that their differences have gotten messier; for MacCannell (1993), "all tourism is a cultural experience," [6, 78] while for Urry (1990), "tourism is culture." [14, 27]

Due to the complexity of the notion of cultural tourism, there has been much discussion among researchers about how to identify and describe it [8, 218], [11, 254], [13, 29-41], which is why there are so many explanations for this term. Accordingly, "there are a great variety of descriptions of cultural

tourism being used, leading to various interpretations being applied in research associated with cultural tourism and in the context of cultural tourism," as one of the most significant latest documents on cultural tourism - more specifically cultural city tourism - mentions. [15, 137]

Some researchers believed that cultural tourism was a postmodern trend or something new as a result of these presumptions. What has changed, however, is the scope of cultural tourism use and the types of culture that are being experienced by cultural tourists, as can be seen by looking at the description of cultural tourism. [9, 54]

Given that the Grand Tour started in Britain in the 16th century, cultural tourism may be considered the first type of tourism [4, 23], [3, 60]. Nevertheless, it is more difficult than it seems to explain this idea since various individuals may interpret this complicated idea differently.

In general, cultural tourism can be defined as the act of traveling specifically for the purpose of understanding and familiarizing oneself with the historical past and way of living of a particular place, along with a variety of cultural elements that can be introduced in the framework of tourism. These elements can consist of the meals, recreation, engineering, beverages, hand-crafted and mass produced goods, or any other feature that captures the essence of a particular place's way of life [7, 89].

It also raises the question of whether promoting this "potential source of tourism growth" will actually benefit local people in contexts of heritage and ecological principles or "enter sensitive cultural surroundings" and ultimately weaken the very uniqueness of tourist spots. These ongoing discussions about the impact of cultural tourism on communities and the culture itself also raise this question. Cultural tourists are frequently viewed "good" travelers who visit seldom and cause minimal harm, but Butler (1990) maintains that they can also serve as the "Trojan Horse" that subjects a location to the less desirable impacts of tourism industry [1, 10].

Azerbaijan as cultural tourism destination

Today, Azerbaijan is a distinct synthesis of all the civilizations and dynasties that have inhabited the country, and it also offers some of the best breathtaking natural views in the Caucasus. Any of Azerbaijan's numerous galleries, from the sizable ones in the city to the charmingly modest rural ones, will demonstrate the nation's rich cultural heritage. Extremes are everywhere in Azerbaijan: old and new, real and artificial, simple and complex. Three UNESCO World Heritage Sites as well as a number of other significant locations that have been under consideration for admission are located in Azerbaijan. The Historic Center of Sheki with the Khan's Palace was the most recent addition (as of July 2019) from Azerbaijan to the UNESCO World Heritage list.

Although Baku is renowned for its thriving cultural scene, the remaining parts of the nation do not lack attractions of their own. Anyone may become a specialist in carpets and the numerous regional kinds found across Azerbaijan with a trip to the Azerbaijan Carpet Museum and trips to carpet manufacturers. Theater enthusiasts will have lots to explore in Baku, while art enthusiasts will like the Museum of Modern Art or the National Museum of Art. Some well-known historical locations also have a cultural component, such as the distinctive Khinalug culture and the superb Sheki handicraft. UNESCO has designated tar, mugham, silk scarves, and copper manufacturing in Lahic as Intangible Cultural Heritage.

Karabakh as a tourism destination

Karabakh is connected to a considerable percentage of the rich historical and cultural legacy that the Azerbaijani people have developed over millennia, treasured to this day, and passed down from generation to generation. This country's historical birthplace has long been renowned for its priceless artwork and old buildings. This region has absorbed the rich history of Azerbaijan's cultural identity. It took a long time for culture, song (mugham etc.), poetry, construction, and many forms of folklore to flourish in this region, especially after the foundation of the Karabakh Khanate in the 18th century.

The areas that were freed from Armenian captivity have begun massive reconstruction and infrastructure projects. Overall, this process may be seen as the start of a new phase in the cultural and social life of the nation.

The Gazanchi Church, whose ancient appearance had been changed, as well as the graves, home museums, and temples that had been harmed by Armenian violence in Shusha during the invasion, are presently undergoing restoration.

In addition to restoring Azerbaijan's territorial integrity and allowing Azerbaijanis to go back to their homes, liberating Karabakh from invasion additionally represents a larger revival of culture in this region. As a result, Azerbaijan's Ministry of Culture is carrying out pertinent initiatives and activities under the motto "Bringing culture back to Karabakh."

The Patriotic War opened the window for the full presentation and promotion of Azerbaijani culture across the world. [1, 6-12]

Results and discussion

Karabakh region is a potential site for cultural tourism in Azerbaijan. Regarding the liberation of the Karabakh region and its being a focus area in the world, it will draw so many people from around the world. Possessing rich culture and history, some of the examples of sites for cultural tourism are:

Khudafarin Bridges

It is located in the territory of Jabrayil district, which historically connects the north and south of Azerbaijan. Khudafarin is one of the magnificent historical monuments, which is considered a decoration of the history of Azerbaijani architectural art.

Askaran Castle

Askaran Castle is located on the slope of the mountain on the right and left banks of Gargarchay, about 24 km from Shusha, 5 km from Khojaly and 12 km south of Agdam city. Here, the mountains approach the valley of the river, which is about 500 m wide, and the small valley is surrounded by the walls of the fortress.

Azikh cave

It is located on the left bank of the Guruchay River on the southeastern slope of the Lesser Caucasus Mountains in the southwest of Azerbaijan, in the Khojavend region of Azerbaijan.

The world has very little information about the Azikh cave. Because during the time of the former USSR, the scientists who searched in this cave and talked about its history were not allowed to establish contact with their colleagues living in foreign countries.

Also, there are some events that can be held continuously in the Karabakh region, delivering its culture to the local and international visitors. As an example, Kharibulbul Music Festival can be underlined. Kharibulbul Music Festival is an international music festival held in Shusha since 1989. "Kharibulbul" international music festival has been held since 1989 because of the 100th anniversary of the famous singer Seyid Shushinsky. The festival was held every year in May with the participation of countries such as Japan, USA, Turkey, Germany, Israel, Italy, Spain, Austria, Afghanistan and USSR republics. With the beginning of the Karabakh conflict and the occupation of the city of Shusha, it was not possible to hold the festival. The last festival was held in May 1992.

The President of Azerbaijan Ilham Aliyev declared the city of Shusha the cultural capital of the country by his order dated May 7, 2021. With this decree, the Days of Vagif Poetry and the "Kharibulbul" festival were also restored. The festival was organized by the Heydar Aliyev Foundation on May 12 and 13, 2021.

It is one of the most beautiful cultural events held in Karabakh and has the potential to continue this trend in the following years, focusing on not local, but international participation as it intends. Regarding the latest events and the solution if the conflict in the Karabakh region, the festival was held within the local framework, which limited its accessibility to the international audience. Along Kharibulbul festival, several local and international events can be held in this regions, taking into account its nature and accessibility for all planned events.

Resources

1. A. Karimov. (2021). Azerbaijani culture complete with the liberation of Karabakh. p.6, 10-12
2. Butler, R. (1990) Alternative Tourism: Pious hope or Trojan Horse? Journal of Travel Research, p.10

3. Feifer, M. (1985) Tourism in History. From Imperial Rome to the Present. Stein and Day, New York, p. 60
4. Hibbert, C. (1969) The Grand Tour. Putnam, London, p.23
5. J. Csapo. (2012) The Role and Importance of Cultural Tourism in Modern Tourism Industry, p. 203
6. MacCannell, D. (1993) Empty Meeting Grounds; the Tourist Papers. Routledge, London, p. 78
7. McIntosh R and Goeldner C (1990) Tourism: Principles, Practices, Philosophies (6th ed.), New York: John Wiley & Sons, Inc, p.89
8. Michalkó, G. (2004). A turizmuselmélet alapjai Székesfehérvár: Kodolányi János Főiskola, 2004. p. 218 (Turizmus akadémia; 1.)
9. Richards, G. (1996). Cultural Tourism in Europe, Wallingford, CAB International, p. 54
10. Richards, G. (2003). What is Cultural Tourism?, p.1
11. Richards, G. (2005). Cultural Tourism in Europe The Association for Tourism and Leisure Education (ATLAS), p. 254
12. S.S.Mousavi, N.Doratli, S.N.Mousavi, F.Moradiahari. (2016). Defining Cultural Tourism, p. 70
13. Shackleford, P. (2001). The social context of cultural tourism KéK folyóirat, Budapest, p. 29-41.
14. Urry, J. (1990) The Tourist Gaze: Leisure and Travel in Contemporary Societies. Sage, London, p. 27
15. World Tourism Organization and European Travel Commission (2005). City Tourism & Culture – The European Experience, p. 137
16. https://www.azerbaijans.com/content_351_az.html
17. https://www.nam-pn.org/az-tourism
18. https://story.karabakh.center/en/karabakh-is-azerbaijan
19. https://www.advantour.com/azerbaijan/tourism/cultural-tourism.htm
20. https://www.virtualkarabakh.az/az/post-item/25/40/qarabag-medeniyyeti.html

Ləman NAĞIYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
lemannagiyeva476@gmail.com

AZƏRBAYCAN RESPUBLİKASINDA GƏLMƏ TURİZM İNKİŞAFINDA ANTROPOGEN REKREASİYA TURİZM EHTİYYATLARI

ANTHROPOGENİC RECREATİON AND TOURİSM NEEDS İN THE DEVELOPMENT OF TOURİSM İN THE REPUBLİC OF AZERBAİJAN

ПОТРЕБНОСТИ АНТРОПОГЕННОЙ РЕКРЕАЦИИ И ТУРИЗМА В РАЗВИТИИ ТУРИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Xülasə: Azərbaycan müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın bütün sahələrində yeni inkişafın və əlaqələrin formalaşmasına başlanıldığı üçün turizm sahəsinə xüsusi diqqət yetirilmişdir. Son 30 ildə turizm inkişafı əsasən üç şeyə görə dəyişdi – asudə vaxtlara daha çox xərcləməyə imkan verən birdəfəlik gəlirlərin artması, avtomobillərdən və ya hava səyahətlərindən istifadə etməklə fərdi hərəkətliliyin artması və təkmilləşdirilmiş insanların asudə vaxt üçün məlumatlılığını artıran rabitə.

Açar sözlər: rekreasiya ehtiyyatı, turizm, antropen rekreasiya, Bakı Ağ Şəhər

Abstract: Since Azerbaijan gained independence, new development and the formation of relations began in all areas of the economy, so special attention was paid to the field of tourism. In the last 30 years, tourism has changed mainly because of three things – rising disposable incomes that allow more spending on leisure,

increased personal mobility through the use of automobiles or air travel, and improved communication that has increased people's awareness of leisure.

Keywords: recreation reserve, tourism, anthropogenic recreation, Baku White City

Абстракт:С обретением Азербайджаном независимости началось новое развитие и становление отношений во всех сферах экономики, поэтому особое внимание уделялось сфере туризма. За последние 30 лет туризм изменился в основном благодаря трем причинам: росту располагаемых доходов, что позволяет больше тратить на отдых, повышению личной мобильности за счет использования автомобилей или авиаперелетов, а также улучшению связи, которое повысило осведомленность людей о досуге.

Ключевые слова: рекреационный заповедник, туризм, антропогенная рекреация, Baku White City

Giriş

Turizmə aid müasir elmi ədəbiyyatda rekreasiya anlayışlarından tez-tez istifadə olunur. Rekreasiya latın sözü olan re – "yenidən", creare – "yaratmaq, törətmək" deməkdir. Rekreasiya fiziki və mənəvi qüvvələrin bərpasının əsas məqsədidir.

Rekreasiya – asudə vaxtda həyata keçirilən məşğuliyyətlər hesab olunur. Bu məşğuliyyətlərə televiziya baxmaq və idman, teatr, kino və.s aiddir. Rekreasiya 3 cür qruplaşdıra bilərik;

1. Evdə istirahət (musiqiyə qulaq asmaq, televizor və videolara baxmaq, radioya qulaq asmaq, mahnı oxumaq, məşq etmək, kompüterdən asudə vaxtda istifadə və.s)
2. Evdən kənar rekreasiya (idmanda iştirak etmək, attraksionları ziyarət etmək, yemək və içmək, mərc və oyun oynamaq)
3. Səyahət və turizmlə bağlı istirahət (təyinat yerinə səyahət, təyinat yerində yerləşmə, təyinat yerində istirahət) [7. səh 3-4]

Rekreasiya fəaliyyəti kollektiv və ya tək, aktiv və ya passiv, açıq və ya qapalı, sağlam və ya zərərli, cəmiyyət üçün faydalı və ya zərərli ola bilər. Qumar, əyləncə məqsədilə narkotik istifadəsi və ya cinayət fəaliyyətləri kimi bəzi rekreasiya fəaliyyətləri ictimai norma və qanunları poza bilər. O da məlumdur ki, rekreasiya ehtiyatları bir neçə xüsusiyyətə malikdir. Bu xüsusiyyətlər aşağıdakılardır:

- rekreasiya ehtiyatları tarixidir. Belə ki, rekreasiya tələbatının artmasından, texniki-iqtisadi və sosial imkanlardan asılı olaraq dəyişə bilər. Məsələn, bataqlıq, sənaye obyektləri, köhnə texnika və avadanlıq və s. rerkeasiya sərvətinə (turistlər üçün baxış obyektinə) çevrilə bilər;
- rekreasiya ehtiyatlan ərazi tutumludur, yəni geniş ərazini əhatə edir. Sosial-iqtisadi hadisə kimi istirahət kənd təsərrüfatı və meşə təsərrüfatında istifadə olunan ərazilərə bərabər sahə tələb edir;
- bu və ya digər ixtisaslaşmaya malik xüsusi rekreasiya məntəqələri, rayonları və zonalarının formalaşmasına təsir edən təşkilatı rola malikdir. [5.səh 24]

Rekreasiya ehtiyyatları 2 yerə ayrılır: təbii və antropogen.

Təbii rekreasiya ehtiyatları insanın fiziki və mənəvi qüvvələrinin, əmək qabiliyyətlərinin və sağlamlığının bərpası və inkişafı üçün istifadə olunan fiziki, bioloji və informasiya elementləri və fiziki agentlər məcmusudur. Belə ki, təbii rekreasiya ehtiyatlarının istifadəsi 3 qrupa ayrılır.

1. İntensiv mənimsənilmə. Bu növ mənimsənsən turizm ehtiyatlarından istifadənin tam yüklənməsinə səbəb olur. Turizm ehtiyatlarından bu növ intensiv mənimsənilmə dəniz sahili bölgələr və ondan 50-100 km daxilə doğru olan ərazilər üçün səciyyəvidir.
2. Ekstensiv mənimsənilmə. Belə ərazilər turizmin istifadəsinə zəif yükləmə olmuş və ekstremal ərazilər də bu bölgüyə yardım ola bilər.
3. Az mənimsənilən ərazilər. Turizm baxımından az mənimsənilən bölgələrə daha çox ekstremal şəraitə malik olan ərazilər daxildir. Belə ərazilərə yarımsəhra və sahələr, komfort şəraiti az olan regionlar daxildir.

Rekreasiya resursları arasında antropogen rekreasiya ehtiyatları mühüm yer tutur. Turizm sənayesində daha məqsədyönlü maarifləndirmə turlarında antropogen turizm rekreasiya ehtiyatları istifadə edilir. İnsan tərəfindən yaradılmış turizm ehtiyatlar maddi və qeyri-maddi (mənəvi) olaraq təsnif edilir.

İnsan tərəfindən yaradılan maddi rekreasiya ehtiyatlarına tarixi binalar, arxeoloji abidələr və müasir şəhərsalma nümunələri daxildir. Mənəvi turizm rekreasiya ehtiyatlarına isə dinlə əlaqəli abidələr, məscidlər və.s aiddir.

Antropogen turizm rekreasiya ehtiyatları aşağıdakı qruplara bölünür:

- Abidələr
- Müasir şəhərsalma və arxitektur abidələr
- Mədəni irs nümunələri
- Muzeylər
- Dini abidələr [8. Səh 77]

Abidələr. Abidə bir şəxs və ya hadisəni qeyd etmək üçün açıq şəkildə yaradılmış və ya bədii, tarixi, siyasi, texniki xüsusiyyətlərinə görə tarixi dövrləri və ya mədəni irsi xatırlamaq üçün memarlıq növüdür. Tipləri:

1. Arxeoloji – Buraya ibtidai insan düşərgələri və yaşayış məskənləri, qədim qəbiristanlar, ziyarətgahlar, hər cür qədim əşyalar, qaya və daşüstü təsvirlər və yazılar, əmək alətləri, qədim yollar, körpü qalıqları və s. daxildir. Azərbaycanın məşhur arxeoloji antropogen rekreasiya ehtiyatlarına Qobustan qaya rəsmləri, Azıx mağarası, Tağlar və Damcılı mağaraları və.s daxildir.
2. Memarlıq – məskənsalma (şəhərsalma) abidələri; bağ-parklar, xiyabanlar, incəsənət nümunələri; yeni yaranmış memarlıq abidələri; monumentlər, fəvvarələr, hovuzlar və s. daxildir. Ən qədim abidələr Qafqaz Albaniyası dövrünə aid Qax rayonu ərazisindəki Ləkit məbədi və Şabran rayonu ərazisindəki Çıraqqaladır. Azərbaycanın məşhur memarlıq abidələrinə Atəşgah, Qız qalası, İçərişəhər, Şirvanşahlar sarayı, Ramana qəsri, Nardaran qəsri, Bayıl qəsri, Beşbarmaq səddi, Xınalıq, Yusif ibn Küseyir türbəsi, Möminə Xatun türbəsi, Gülüstan türbəsi və s. aiddir.
3. Tarixi abidələr – cəmiyyət və dövlət tarixi ilə, müharibə və milli azadlıq hərəkatı ilə, elm və texnikanın inkişafı ilə xalqın həyatındakı mühüm tarixi hadisələrlə bağlı dəyərlər, dövlət xadimlərinin və hərbi xadimlərin, Sovet İttifaqı Qəhrəmanlarının, Milli Qəhrəmanların, görkəmli elm və incəsənət xadimlərinin həyatı ilə bağlı mənzillər, xatirə yerləri, sənədlər və əşyalar, etnoqrafik abidələr daxildir. Buraya Əlincə qalası, Xudafərin körpüsü, Ərk qalası, Əsgəran qalası, Kiş məbədi, Gəmiqaya rəsmləri və.s göstərə bilərik.

Müasir şəhərsalma və arxitektur abidələr. Hazırda xüsusilə Bakı şəhəri gündən-günə inkişaf etməkdədir. Bakıda gözəçarpan, diqqətəlayiq tikililər son illərdə artmaqdadır. Gəlin bir neçəsi ilə tanış olaq:

Bakı Ağ Şəhər – bu layihə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ekoloji vəziyyətinin yaxşılaşdırılması 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" çərçivəsində həyata keçirilib. Layihə beynəlxalq səviyyədə ekspertlər tərəfindən ən böyük şəhərsalma layihəsi elan edilib. "Bakı Ağ Şəhər" "Cityscape Global" sərgisində "Ən yaxşı şəhərsalma layihəsi" mükafatını qazanıb.

Dövlət Bayraq Meydanı – , 2010-cu il sentyabrın 1-də isə Bayraq Meydanının rəsmi açılışı olmuş, bayraqlar ucaldılmışdır. 60 hektar okean sahilində inşa edilən Dövlət Bayrağı Meydanı kompleksində parklar, gəzinti yolları, istirahət zonaları, birgə idman və əyləncə fəaliyyətləri var. Bayraq dirəyinin hündürlüyü 162 metr, eni 35 metr və uzunluğu 70 metrdir.

Bakı Alov Qüllələri – Azərbaycandakı üç göydələndən ibarət qrupdur. Ən hündür qüllənin hündürlüyü 182 m təşkil edir. Alov formalı üç qüllə od elementlərini simvolizə etmək və Azərbaycanın "Odlar Yurdu" ləqəbinə istinad edir.

Heydər Əliyev Mərkəzi – Mərkəz müasir Bakının simvollarından biri hesab olunur. Mərkəz böyük konfrans zalı, Heydər Əliyev Muzeyi, sərgi salonları və inzibati ofislərdən ibarət böyük kompleksdən ibarətdir. Mərkəz Azərbaycanın üçüncü prezidenti Heydər Əliyevin adını daşıyır. Mərkəzin layihəsi 2007-ci ildə məşhur memar Zaha Hadid tərəfindən hazırlanıb.

Bakı Kristal Zal – Bakı Eurovision 2012-yə ev sahibliyi edən idman-əyləncə kompleksidir. Eurovision müsabiqəsi üçün altı həftə ərzində tikilən "Bakı Kristal Zalı" səhnəsi işıqlandırma effektləri və televizorlarla qurulub. Hazırda burda bir çox konsertlər həyata keçirilir.

Mədəni irs nümunələri. Milli irs nümunələrinin turizmdə istifadə xüsusiyyətləri antropogen ehtiyatlarda olduğu kimi əsasən ekskursiya məqsədli və beynəlxalq turizmin inkişaf etdirilməsi üçün əsas vasitələrdən biridir. Milli irs nümunələri – xalqın adət-ənənələrin özündə əks etdirən turizm ehtiyatlarına deyilir. Milli irs nümunələrinə ənənəvi sənətkarlıq milli bayram və festivallar, milli kulinariya, folklor nümunələri və s. daxildir.

Sırf yerli xarakter daşıyan peşələrlə (dulusçuluq, dəmirçilik, dəri ayaqqabılarının, xəz papaqların tikilməsi və s.) yanaşı, digər məmulatlar, məsələn, mis qab-qacaq, ipək parçalar, zərgərlik məhsulları istehsalı və s. bütün Azərbaycan ərazisi üzrə inkişaf etmiş peşələrdə olmuşdur. Xalçaçılıq, ipəkçilik, zərgərlik məhsulları ilə bütün dünyada şöhrət qazanmış Azərbaycan Avropa, Asiya, Afrika və Amerikanın turistləri üçün şübhəsiz ki, təkrarolunmaz milli suvenirlərin hazırlanma mənbəyidir. Suvenirlərin satılması isə turizm sənayesinin yüksək gəlir gətirən sahələrindən biridir. Azərbaycan milli mətbəxi ilə də şöhrət qazanmışdır. Bu ənənələr xalqın uzaq keçmişi ilə bağlıdır. Bu diyara birinci dəfə gəlmiş hər bir kəs ölkəmizin zəngin milli yeməklərinə heyran olur. Bunları nəzərə almaqla da Azərbaycanda kütləvi turizmi inkişaf etdirmək mümkündür. [1. Səh 23-24]

Muzeylər. Azərbaycanda isə muzeylərin yaranması XX əsrin 20-ci illərinə təsadüf edir. "Doğma diyar" adlanan ilk muzey 1920-ci ildə Bakıda, ilk memorial muzey isə 1938-ci ildə Şəkidə yaradılmışdı. Milli Azərbaycan Tarix Muzeyi, Hacı Zeynalabdin Tağıyevin ev muzeyi, İstiqlal Muzeyi, Ədəbiyyat Muzeyi, Müasir İncəsənət Muzeyi, Arxeologiya və Etnoqrafiya Muzeyi və s. adını çəkə bilərik.

Dini abidələr. Azərbaycanda bütün dinlərin dini abidələri qorunur. Ən çox yayılmış dini abidələrdən biri də "Allahın evi" adlanan məsciddir. Respublikamızda ümumən ibadət, moizə və müsəlmanlara məsləhət ocağı kimi qəbul edilən 1750-dən çox məscid var. Bakıda 114 məscid var, onlardan 64-ü fəaliyyətdədir. Hazırda ölkədə 40 kilsə, sinaqoq və digər ibadət yerləri, 500 kilsə və ziyarətgah var.

Təzəpir məscidi - İbadətgahın əsl tikintisi isə XX əsrin əvvəllərində başlayıb. Belə ki, məscidin əsaslı bərpasından təxminən 90 il sonra zəngin möminlərdən sayılan Nabat xanım Xocabəy qızı AşurbəyliRzayeva birmərtəbəli məscid binasının yerində yeni ibadətgahın tikintisinə başlayır. Deyilənlərə görə, Seyid Yəhya Bakuvinin nəslindən olan bu qadın belə bir məscid tikdirməyi əhd edibmiş və əhdinə sadiq qalaraq, sonunucu zinət əşyasına qədər satıb binanın inşa etdirir. Türbə üzərində yeni məscid tikildiyinə görə xalq arasında bu günə qədər də bu tikili Təzəpir məscidi adlanır. [3]

Bibiheybət məscidi - Bu tarixi dini memarlıq abidəsi XIII əsrdə Şirvanşah II Fərruxzad ibn Axsitan tərəfindən tikilmişdir. Məscidin divarlarında tarixi faktların yazıları var. "Bibiheybət məscidi" kimi tanınan Əli bəy Hüseynzadənin türbəsi 1934-cü ildə dinamitlə partladılıb. Məscidlər, minarələr dağıdılıb, üzərində yollar salınıb. Lakin müstəqillik əldə etdikdən sonra Bibi-Heybət məscidi bərpa olundu. Məscidin bərpasına 1998-ci ildə başlanılıb. Yenidən qurulan Bibi-Heybət məscidi 2008-ci il iyulun 12-də istifadəyə verilib. Klassik şərq üslubunda tikilmiş möhtəşəm Bibihebet türbəsi tamamilə ağ mərmərdən hazırlanıb.

Cümə məscidi – 1899-cu ildə Bakı milyonçusu, xeyriyyəçi, Hacı Şeyxəli ağa Dadaşov xeyriyyə məqsədi ilə Came məscidinin qalıqlarının yerində tamamilə yeni məscid olan Cümə məscidini tikdirmişdir.Məscid Sovet dövürndə xalça muzeyi olaraq fəaliyyət göstərmişdir. 1990-cı illərdən məscid olaraq fəaliyyətini bərpa edən Cümə məscidi Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına 2008-ci ildə əsaslı təmir və bərpa edilmişdir. [8]

Şamaxı Cümə məscidi – Şamaxı şəhəri ərazisində yerləşən Azərbaycan Respublikasının ərazisindəki ən qədim məsciddir. Məscid işçilərinin verdiyi məlumata görə, bu məscid əvvəllər dörd minarəli olub və 1905-ci ildə məscid şəhərin Lalayanlar məhəlləsindən ermənilər tərəfindən atəşə tutulub. Güllələrin izləri hələ də qalmaqdadır. [4. səh 304]

Məryəm Katolik Kilsəsi – 2008-ci il martın 7-də Bakıda Müqəddəs Məryəm Katolik Kilsəsinin rəsmi açılış mərasimi olmuşdur. 1256 kvadratmetr sahəsi olan müasir üslubda tikilmiş binada is-

tilik, havalandırma və yanğınsöndürmə sistemləri quraşdırılıb. Tikinti Vatikan dövləti tərəfindən maliyyələşdirilib. Kilsədə eyni vaxtda 250-300 nəfərin ibadət edə biləcəyi zal var.

Aşkenazi yəhudilərinin sinaqoqu – Aşkenazi və Gürcüstan yəhudilərinin sinaqoqu Bakıda yerləşir. Sinaqoq 2002-2003-cü illərdə memar Aleksandr Harberin layihəsi ilə qüds memarlıq üslubunda tikilmişdir. Sinaqoq son 60-80 ildə Yaxın Şərqdə tikilmiş ilk sinaqoq sayılır.

Nəticə və Təklif

Azərbaycanın gəlmə turizmi onun böyüməsinə və inkişafına mane olan bir çox problemlərlə üzləşir. Bunlara infrastrukturun olmaması, məhdud marketinq səyləri, viza məhdudiyyətləri, təhlükəsizlik məsələləri və məhdud turizm təklifləri daxildir. Bu problemlər akademik sorğu və tədqiqat vasitəsilə müəyyən edilir və təhlil edilir. Azərbaycanın turizm sektorunda iş prinsipləri hələ müəyyən edilməyib. Türkiyə qonşu ölkədir, amma biz onunla eyni şeyi turizmdə göstərmirik. Qeyd etmək lazımdır ki, ölkəyə gələn turistlərin sayının artması ilə peşəkar bələdçi tərcüməçiləri və bələdçi təlimatçıları kimi yüksək ixtisaslı kadrlara tələbat artmışdır. Bu baxımdan turizm sahəsində problemlər var. Problem ondadır ki, bu tur bələdçiləri peşəkar deyillər. Peşəkarlıq, perspektiv, yaxşı bilik və insanlarla ünsiyyət qurmaq bacarığı turizm məhsullarının keyfiyyətinə təsir göstərir. Yaxşı turist bələdçisi Azərbaycanın tarixini və coğrafiyasını yaxşı bilməlidir. Ünsiyyət qurduğu xarici dili mükəmməl bilməlidir. Ukrayna və Rusiya turist bələdçilərinin icazəsiz fəaliyyətinə görə cərimələnir. İtaliyada belə sənədlər olmadan tur bələdçilərinin xidmətlərindən hətta turistlər cərimələnə bilər. Yeri gəlmişkən, indiyədək Azərbaycan dilində bələdçinin məlumat kitabı nəşr olunmayıb, belə vəsaitlərə rus dilində çox rast gəlmək olar. Azərbaycan dilində ümumilikdə isə bu sahəyə dair cəmi 2-3 ədəd kitab var.

Bəzi muzeylərin internet saytı yoxdur. Azərbaycan muzeylərinin problemlərindən danışarkən bu mədəniyyət ocaqlarında kompüter məlumat bazasının olmamasını da qeyd etmək lazımdır. Əksər muzeylərimizdə temperatur – nəmlik rejiminə riayət edilməsi, sərinləşdirici sistemin yaradılması, xüsusi işıqlandırma imkanı normal səviyyədə deyil ki, bu da eksponatların məhvolma təhlükəsilə üzləşdirib. Muzeylərdən bəzilərinin mühafizə və yanğın əleyhinə siqnalizasiyası da zəif təşkil olunub. Muzeylər daim oğruların hədəfindəki sənət məbədləri olublar. Azərbaycandakı muzeylərdə də dəfələrlə oğurluqlar olub. 20 il əvvəl İncəsənət Muzeyindən oğurlanan 300-ə yaxın eksponatın bəzilərinin axtarışı hələ də davam etdirilir. Vaxtilə Tarix Muzeyindən də 50-dən çox qiymətli xalça oğurlanıb. XVIII-XIX əsrə aid həmin xalça eksponatlarının da heç biri tapılmayıb. Musiqi Mədəniyyəti Muzeyindən yoxa çıxan qiymətli eksponat – "Saz əsa"nın özü və oğruları da bu günədək tapılmayıb.

Ədəbiyyat

1. Abadov Məsim "Azərbaycan turizmi və onun inkişaf problemləri" Bakı-2014. 248 s.
2. Azərbaycanda ixtisaslaşdırılmış turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi.
3. İslamzadə Xalidə. Məscidlər və pirlər. "Dövlət və din" jurnalı.-2009.-№4.-S.191-198.
4. OCAQƏJAD, Seyyid Əliəkbər, Əlibala Hacızadə (ed.) "Azərbaycan Respublikası Məscidlərinin Ensiklopediyası" Bakı-2001
5. Soltanova Həbibə "Azərbaycan Respublikasında turizm və onun inkişafı" Bakı-2015. 475 s.
6. AL-MUQADDAS "The Best Divisions For Knowledge Of The Regions (Ahsan al-Taqasim fi Ma'rifat al- Aqalim), Basil Anthony Collins, Devha (Doha)". 1994 Garnet Publishing Limited
7. John Tribe " The Economics of Recreation, Leisure and Tourism-" 2020 fourth edition.
8. https://unec.edu.az/application/uploads/2015/02/umumi_sfera111.pdf

Rövşən ABBASZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
rovsenabbaszade041@gmail.com

LAÇININ QAFQAZ ALBANİYASI DÖVRÜNƏ AİD MEMARLIQ ABİDƏLƏRİ

АРХИТЕКТУРНЫЕ ПАМЯТНИКИ ЛАЧИНА ЭПОХИ КАВКАЗСКОЙ АЛБАНИИ

ARCHITECTURAL MONUMENTS OF LACHIN FROM THE CAUCASIAN ALBANIAN ERA

Xülasə: Laçın rayonu tarixi qədim olan bölgələrimizdən biridir. Buradakı abidələrin yaşı hələ eramızdan əvvəl II-I minilliyə aid edilən Xocavənd rayonu ərazisindəki Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaralarının yaşı ilə, demək olar ki, eynidir. Həmin abidələr olduqca nadir və dəyərli tarixi mədəniyyət nümunələridir. Rayon işğala məruz qalmamışdan öncə burada 300-ə yaxın tarixi, mədəni memarlıq abidəsi, onlarca kurqan, qala tipli abidələr, qəbirüstü abidələr, xeyli sayda stellalar, at, qoç fiqurları, süjetli daşlar və digər qiymətli tarixi abidələr mövcud olmuşdur. Aparılan tarixi araşdırmalar nəticəsində məlum olmuşdur ki, bu ərazidə olan abidələrin əksəriyyəti məhz Qafqaz Albaniyası dövrünə aiddir. Çünki indiki Laçın ərazisi erkən orta əsrlərdə Albaniya dövlətinin tərkib hissəsi olub. Tarixi mənbələrdən məlum olur ki, bu ərazidə yerləşən Qafqaz Albaniyası dövrü abidələrinin bir çoxu məhz bizim eranın xristianlıqdan əvvəlki dövrünə aid edilir.

Açar sözlər: alban monastırları, "Ağoğlan"məbədi, dairəvi məbədlər, bazillika, sövmə, süjet xarakterli oymalar

Abstract: Lachin region is one of our regions with an ancient history. The age of the monuments here is almost the same as the age of the Taglar caves in Azikh and Jabrayil region in Khojavand region, which are attributed to the 2nd-1st millennium BC. Those monuments are extremely rare and valuable examples of historical culture. Before the region was invaded, there were about 300 historical and cultural architectural monuments, dozens of mounds, castle-type monuments, grave monuments, a large number of stelae, horse, ram figures, plot stones and other valuable historical monuments. As a result of historical research, it was found that most of the monuments in this area belong to the period of Caucasian Albania. Because the current territory of Lachin was part of the Albanian state in the early Middle Ages. It is known from historical sources that many of the monuments of the Caucasian Albania period located in this area belong to the pre-Christian period of our era.

Keywords: Albanian monasteries, "Agoglan" temple, circular temples, basilica, sevma, plot carvings.

Абстракт: Лачинский район – регион обладающий, древней историей. Возраст памятников здесь почти такой же, как и возраст пещер -Таглар Джебраильского района и Азых Ходжавендского района, которые относятся ко II-I тысячелетию до н.э. Эти памятники являются чрезвычайно редкими и ценными образцами исторической культуры первобытного человека. До оккупации указанного района армянскими сепаратистами в данной области насчитывалось около 300 историко-культурных архитектурных памятников, десятки курганов, памятников замкового типа, надгробных памятников, большое количество стел, фигур коней, баранов и других ценных исторических памятников. В результате исторических исследований было установлено, что большинство памятников в этой местности относятся к периоду Кавказской Албании, потому что нынешняя территория Лачина в раннем средневековье входила в состав Албанского государства. Из исторических источников известно, что многие памятники периода Кавказской Албании, расположенные в этой местности, относятся к дохристианскому периоду нашей эры.

Ключевые слова: албанские монастыри, храм «Агоглан», круговые храмы, базилика, севма, сюжетная резьба

Tanınmış Qafqazşünas tarixçi alim Y.İ.Krupnov əsərlərindən birində belə yazır: "Albaniya dövlətinin qədim tarixinin öyrənilməsində heç bir zaman məhdudiyyət və ya məcburiyyət olmamışdır. Məlum olduğu kimi, Albaniyanın tarixi müxtəlif ölkələrin tarixçiləri tərəfindən öyrənilmişdir. Lakin həqiqət budur ki, Qafqaz Albaniyasının tarixi ilə ən çox məhz azərbaycanlılar məşğul olmalıdırlar. Çünki bu sahədə dünya elmi qarşısında məhz onlar məsuliyyət daşıyırlar". [2, s.22]

Aparılan araşdırmalar sübut edir ki, indiki Laçın bölgəsi antik dövrlərdə və erkən orta əsrlərdə Azərbaycanın Albaniya və Atropatena kimi tarixi dövlətlərinin tərkib hissəsi olub (e.ə.IV – eramızın VII əsri). Qədim alban dövlətində xristianlıq dini rəsmi din olaraq qəbul edildikdən sonra bu din bu və ya digər dərəcədə xristian dini ideologiyasının təsirinə məruz qalmışdır. Təqribən bir əsrlik tarixi olan Alban dövlətinin mövcud olduğu dövrlərdə Şimali Azərbaycanın bütün bölgələrində olduğu kimi Laçın rayonunda da alban-xristian dininə aid olan məbədlər, bazilikalar və sövmələr meydana gəlməyə başlamışdır. Öz dövrü üçün xarakterik sayılan bu tip memarlıq üslubundan da göründüyü kimi, həmin dövrdə Albaniyada şərq xristianlığına məxsus olan memarlığın demək olar ki, bütün növləri inkişaf etmişdir. Azərbaycanın bir çox bölgələrində bu abidələrinin bir çoxu özünün ilkin formalarını qorumuş və dövrümüzə qədər gəlib çıxmışdır. Buna misal olaraq, Laçın rayonunun Kosalar kəndində yerləşən Ağoğlan məbədini (IX əsr) və Varazuğun məbədini göstərmək olar. Bu abidələr alban memarlığının dövrümüzə qədər çatmış ən gözəl nümunələri hesab edilə bilər.



Şəkil 1. Ağoğlan monastırı

Alban monastırı – "Ağoğlan" məbədi (İNV № 310) qeyd edildiyi kimi, Laçın rayonunun ərazisindəki Ağoğlan çayının sahilində yerləşir. Tarixi abidədən əvvəllər qəsr kimi istifadə olunmuş, lakin müxtəlif dövrlərdə dağıntılara məruz qaldığı üçün eramızın IX əsrində yenidən kilsə üslubunda inşa edilmiş və monastır formasına salınmışdır [3, s.44]. Abidə bünövrəsini olduğu kimi saxlamış, dağıntılara məruz qalmış köhnə divarların üzərində yeniləri tikilmiş və beləliklə, abidə alban dövrü memarlığının möhtəşəm nümunələrindən birinə çevrilmişdir.

Məbədin əvvəllər qəsr kimi tanınması müxtəlif rəvayətlərdə də öz əksini tapmaqdadır. Belə ki, rəvayətlərdən birində deyilir ki, qədim zamanlarda bu ərazilərdən keçən bir gənc səyyah bu yerlərin gözəlliyinə heyran olmuş və bu məkanda qəsr tikdirmək qərarına gəlmişdir. Qəsrin tikintisi üçün yerli əhalidən tikinti işini bacaran könüllüləri toplayıb işə başlamışdır. Yerli xalqın həm sevgisini, həm də rəğbə-

tini qazanan gənc eyni zamanda, çox yaraşıqlı olduğundan əhali onu "Ağoğlan"deyə çağırarmış. Tikilən qəsr vaxtilə "Qaranquş qəsri" adı ilə də tanınmışdır. Bununla bağlı digər bir rəvayət də olduqca maraqlıdır. Belə ki, rəvayətə görə, günlərin bir günü nahar vaxtı bir qaranquş aşpazın başına firlanaraq onun camaata yemək verməsinə mane olmağa çalışırmış. Ətrafdakı insanlar isə quşun bu hərəkətinə maraqla tamaşa edir, ancaq heç bir şey anlamırlarmış. Bu zaman anidən qaranquş qaynar qazanın içinə atıb özünü öldürür. Bundan qəzəblənən aşpaz isə nahar yeməyini kənara boşaldarkən qazanın içində ilan ölüsü olduğunu görür. Camaat isə heyrətdən sadəcə donub qalır. Qəsrin sahibi isə xilaskar quşun ölüsünü tikilinin yanında təntənə ilə basdırır, qəsri də məhz onun şərəfinə "Qaranquş qəsri" adlandırır. Lakin zaman keçdikcə qəsrin bu adı unudulmuş, məbədə çevriləndən sonra xalq onu tikdirənin şərəfinə "Ağoğlan" olaraq adlandırmağa başlamışdır.

Qeyd edim ki, məbəd kifayət qədər iri ölçülərə malikdir. Abidə plan baxımından üç nefli olan düzbucaqlı bazilikadan ibarətdir. İbadət zalının bütün nefləri silindrik formasında olan tağlarla örtülüb. İnteryer baxımından bazilika möhkəm yerli daşdan-bazaltdan inşa olunubr. Abidənin fasad hissəsinin yan tərəfində zala açılan yeganə giriş oyuğu vardır. Yuxarı hissədə fasadın hamar səthləri bir-birindən uzaq məsafədə yerləşən ensiz pəncərə oyuqları ilə kəsilir və nəticədə, bu oyuqlardan zalın içərisinə işıq düşür. "Ağoğlan" məbədinin daxili divarları qara, iri, yonulmuş daşlarla üzlənib. Vaxtilə divarlarda mala üzərində müxtəlif tematikalı çoxrəngli rəsmlər çəkilmiş, lakin təəssüflər olsun ki, çox hissəsi zamanla silinmişdir. Şimal divarındakı freska rəsmli fraqmentlər isə indiyədək qismən qalmaqdadır. Məbədin zalının interyerinin yuxarı hissəsində daş üzərində dekorativ oymalar tətbiq olunmuşdur. [3, s. 47]

1992-ci ilin may ayında Laçın erməni qəsbkarları tərəfindən işğal edildikdən sonra bir çox tarixi abidələrimiz kimi, "Ağoğlan" məbədini də özününküləşdirməyə başlamışlar. Belə ki, onlar məbədi guya təmir etmək adı altında abidənin divarları üzərində olan daş yazıları, eləcə də alban dövrünə aid olan xeyli sayda ornamentləri və rəmzləri tamamilə silmiş və ya formalarını dəyişdirərək tanınmaz hala salmışlar. Ermənilər məbədin guya xristianlığın qriqoryan məzhəbinə məxsus olduğunu göstərmək üçün abidənin divarlarının müxtəlif yerlərinə 26 ədəd yazı lövhəsi bərkitmişlər. Bundan əlavə, saxtakarlıqlarında daha da irəli gedərək kompleksin ümumi giriş qapısının önünə İrəvandan gətirilmiş xaçdaşlar basdırmış, binanın fasadını sökərək, kirəmidlərlə və dəmirlə əvəz etmişlər.

Ermənistan hökumətinin tapşırığı ilə 2007-ci ildə erməni yepiskopları tərəfindən abidəyə "erməni qriqoryan kilsəsi" statusunun verilməsi ilə vaxtilə işğal olunmuş digər ərazilərimizdəolduğu kimi Laçında da Azərbaycan mədəniyyət nümunələrinə və tarixi abidələrinə qarşı soyqırımı siyasəti yürütdürdüklərini bir daha əyani şəkildə göstərmişlər. [4]

Laçın rayonunun ərazisində hal-hazırda onlarla belə tarixi memarlıq abidəsi mövcuddur. Məlum olduğu kimi, Laçın çətin dağ iqlim-şəraitində yerləşir. Belə bir şəraitdə Laçının ucqar bölgələrində alban memarlığının bu cür hərtərəfli inkişaf etməsi onu deməyə əsas verir ki, burada mövcud olan məbədlərin tikintisində təkcə din xadimləri ilə deyil, həmçinin, yerli əhali də yaxından iştirak edib. Xristianlıq dövrünə aid memarlıq sənətinin Laçın bölgəsində yaranması və inkişaf etdirilməsində ərazinin demək olar ki, yeganə işçi qüvvəsi olan yerli türk xalqlarının nümayəndələrinin xüsusi xidmətləri olmuşdur. Tarixi mənbələr də bir daha onu sübut edir ki, Alban dövlətinin yaranması, inkişaf etdirilməsi, idarə olunması, eləcə də onun mədəniyyəti və memarlığının inkişafında qədim türk tayfaları danılmaz rol oynamışlar. Ona görədir ki, bir çox tarixçilər qədim alban memarlığından danışarkən "alban-türk memarlığı" ifadəsini işlədirlər. Bu isə deyilənləri bir daha təsdiq edir.

Azərbaycanda dövlət quruluşları müxtəlif dövrlərdə dəyişdikcə, bu dəyişim ölkənin mədəniyyətinə, habelə onun bölgələrdə yaranmaqda olan tarixi memarlıq abidələrinin formasına və quruluşuna təsirsiz ötüşməmişdir. Nəticədə bu dəyişim bölgədəki abidələrin formasının müxtəlifliyinə gətirib çıxarmışdır. Bu baxımdan Laçının Qafqaz Albaniyası dövrünə aid olan tarixi memarlıq abidələri xüsusi maraq doğurmaqdadır. Laçının demək olar ki, bir çox yaşayış məntəqələrində, eyni zamanda əksərən də yol ayrıclarında və yol kənarlarında alban abidələrinə rast gəlmək mümkündür.. Bu abidələrin əksəriyyəti günümüzə qədər gəlib çıxmışdır.

Laçın bölgəsindəki alban abidələrin memarlıq quruluşunu incələyərkən nəzərə çarpan rəngarənglik və müxtəlifliyi onu deməyə imkan verir ki, qədim Albaniya dövlətində şərq xristianlığına məxsus memarlığın demək olar ki, əksər növləri inkişaf etmişdir.

Kilsə tikililəri alban xristianlığının ilk dövrü üçün xarakterik idi. Həmin kilsələr ibadət zalı uzunsov formada olan birnefli məbədlərdən ibarət idi. Bu növ məbədlərin üstü isə ikiqatlı sadə daşlarla örtülürdü. Rayonun əsasən Şəlvə, Qorçu, Ərikli, Aşağı Fərəcan, Piçənis, Əhmədli, Hoçaz, Sadınlar, Mirik, Qarakeşdi Qatos və digər kəndlərində bu cür abidələrə təsadüf etmək mümkündür [3, s. 45].

"Dairəvi məbədlər" deyilən xüsusi memarlıq abidələri də Albaniyanın xristianlıq memarlığı üslubunda tikilən və geniş yayılan abidələrindən idi. Bu abidələrə rayonun Qarakeşdi kəndində və Sadınlar dərəsində yerləşən məbədləri aid etmək olar. Bu üslub yalnız albanlara məxsusdur. Bunun da səbəbi vardır. "Dairəvi məbədlər"in tikilməsi Albaniyada erkən xristianlıq dövrünə aiddir. Bir çox tədqiqatçılar belə hesab edir ki, həmin məbədlər məhz günəşə ibadət edən albanlar tərəfindən, hələ xristianlığın geniş yayılmadığı və tam mənimsənilmədiyi, səma cismlərinə ibadətlə eyniləşdirildiyi dövrdə tikilib. Bu cəhət erkən xristianlıq dövrünə aid edilən alban xaçlarında da özünü göstərməkdədir.

Sövmələr karvan yolları kənarında kiçik ibadətgah rolunu oynayan, əslində, momerial tikili hesab olunan tarixi abidələrdir. Demək olar ki, sövmələr aAlban xristian memarlığının ən kütləvi yayılan formasıdır. Laçının ərazisində həm mehrablı, həm də merabsız sövmələrə rast gəlmək olar. Bu abidələrə Sadınlar və Mirik dərələrindəki sövmələri, Quşçu kəndindəki "Dəmirovlu pir" adlanan sövməni misal göstərmək olar. Sövmələrin divarları, bir qayda olaraq, zərif naxışlara malik olan nişan daşları ilə bəzədilir [1].

Alban memarlığının ən mürəkkəb tikililəri isə heç şübhəsiz ki, bazillikalar və monastırlar hesab oluna bilər. Bir çox tədqiqatçılar hesab edirlər ki, Cənubi Qafqazda bu üslub yalnız albanlara məxsus olub. Çünki alban dövrü memarlıq abidələrinin divarlarının üzərindəki elementlər yalnız həmin dövrün abidələrinin özünəməxsus xüsusiyyətləri kimi qiymətləndirilir. Monastır tipli abidələrin siyahısına isə yuxarıda haqqında məlumat verilən Laçın rayonunun Kosalar kəndində yerləşən "Ağoğlan qəsri"ni aid etmək olar.

Lakin çox təssüflə qeyd olunmalıdır ki, uzun illər ərzində işğal altında qaldığı üçün Laçın rayonunun ərazisindəki alban dövrünə aid abidələrin əksəriyyətinin üzərindəki elementlər, ornamentlər və bu kimi digər yazı nümunələri bu bölgədə yaşayan erməni vandalları tərəfindən dəyişdirilmişdir. Bu isə, öz növbəsində, kütləvi şəkildə alban dövrünə aid olan tarixi abidələrin ilkin formasının itməsinə və həmin mədəniyyətinin tədricən məhv edilməsinə səbəb olmuşdur.

Ermənilər Laçın rayonunda alban dövrünə aid memarlıq abidələrinin üzərindəki müxtəlif növ bəzəklərin, eləcə də süjetlərin ornamental quruluşlarında məzmun və forma dəyişiklikləri edir və həmin abidələri bütün dünyaya erməni mədəniyyətinin memarlıq nümunələri kimi göstərirlər. Onlar bu yolla nəinki Laçın rayonunda, eyni zamanda, bütün Qafqaz bölgəsində, xüsusilə də vaxtilə işğal etdikləri Azərbaycan ərazilərindəki qədim alban memarlığının nümunələrini ermənileşdirməyə çalışaraq, dünyanın mədəniyyət tarixinə böyük ziyan vururlar.

Azərbaycan müxtəlif bölgələrində, o cümlədən, Laçın rayonundakı alban dövrü memarlıq abidələrinin divar rəsmlərində və süjet xarakterli oymalarda türk dilli xalqlara məxsus elementlərdən daha çox istifadə edilməsi bir daha onu göstərir ki, o dövrdə yerli xalq lar içərisində türkdilli tayfalar üstünlük təşkil ediblər. Qafqazda köklü tarixləri olmayan ermənilər isə süni şəkildə burada öz tarixlərinin izlərini yaratmağa və dünyanı aldatmağa çalışırlar. Onlar alban abidələrini məqsədli şəkildə mənimsəmək, alban memarlığının milli mənsubiyyətini dəyişmək yolunu tutub və bunun üçün yorulmadan "mübarizə" aparırlar. Ən çox mənimsənilməyə və dəyişikliyə məruz qalan abidələr isə bazilika, sövmə və kilsə tikilileridir. Ermənilər bu tipli abidələr üzərindəki xristian dininin rəmzlərini və müxtəlif simvolları, eləcə də daş və divar rəsmi nümunələrini əsas götürərək, onları qriqoryan dininə məxsus elementlər kimi təqdim edirlər. Bu da, öz növbəsində, tarixin saxtalaşdırılmasına gətirib çıxarır.

Azərbaycanın xristianlıq dövrünə aid olan terixi-memarlıq abidələrinin ermənilər tərəfindən mənimsənilməsi faktlarını gürcü tarixçisi A.Çavçavadze "Ermənilər və qan ağlayan daşlar" əsərində dol-

ğun şəkildə əks etdirmişdir. O yazır: "... Ermənilər aborigen albanlarını süni şəkildə qriqoryanlaşdıraraq, vaxtilə sığındıqları Azərbaycan torpaqlarını "Hay ölkəsi" adlandırırlar. Lakin tədqiqatçılar bir daha göstərir ki, hətta xristianlıq dövrü abidələri belə erməni dininə (qriqoryanlıq), və erməni mədəniyyətinə, mənşəyinə qətiyyən uyğun deyil. Belə ki, Azərbaycan ərazilərindəki alban-xristian abidələrinin tarixi-arxeoloji və memarlıq baxımından tədqiqi xristianlığın bir çox xüsusiyyətlərini aydınlaşdırmağa kömək edir".

Ədəbiyyat

1. Məmmədov N. Güllələnən abidələr: Laçın. "Cəmiyyət və din" qəzeti. Bakı, 07 saylı, 18-24 iyun 2009-cu il tarixli nömrəsi.
2. Məmmədov N. İşğal altındakı tarixi-dini abidələrimiz, Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 96 səh.
3. Laçın Həqiqətləri:-2012. Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2012, 184 s.
4. https://azvision.az/news/239575/-lacinin-28-illik-esaretden-qurtulan-abideleri--fotolar--.html https://azvision.az/news/239575/-lacinin-28-illik-esaretden-qurtulan-abideleri--fotolar--.html

BÖLMƏ 3/SECTION 3
SOSİAL VƏ XİDMƏT SAHƏLƏRİNİN İDARƏ EDİLMƏSİ. TURİZM SƏNAYESİNİN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ/ MANAGEMENT OF SOCIAL AND SERVICE AREAS. CURRENT SITUATION AND DEVELOPMENT PERSPECTIVES OF THE TOURISM INDUSTRY

Hafiz HÜSEYNOV
Azərbaycan Turizm və Menecment Universiteti
f.ü.f.d., dos.
h.huseynov@atmu.edu.az

İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI DÖVRÜNDƏ GƏNCLƏRİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASI

ФОРМИРОВАНИЕ МИРОВОЗЗРЕНИЯ МОЛОДЕЖИ В ЭПОХУ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ

FORMATION OF YOUTH WORLD VIEW IN THE AGE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES

Xülasə: Məqalədə IKT dövründə gənclərin dünyagörüşünün formalaşmasına təsir edən amillər təhlil olunub. Bildirilir ki, İKT dövründə gənclərin daxili potensialını düzgün qiymətləndirmək, onları doğru yola istiqamətləndirmək, yanlış həyat tərzindən və fikirlərdən uzaqlaşdırmaq lazımdır. Bunun üçün ailədə, məktəbdə və kollektivlərdə əsasında milli-mənəvi dəyərlərə üstünlük verilən tərbiyə, təbliğat və maarifləndirmə aparılmalıdır. Düzgün təbliğat və maarifləndirmə gənclərin şüuruna təsir edir və dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.
Açar sözlər: Dövlət, cəmiyyət, dünyagörüş, siyasət, informasiya, gənclər

Abstract: In the article, the factors affecting the formation of the mindset of young people in the era of ICT are analyzed. It is stated that in the era of ICT, it is necessary to correctly calculate the inner potential of young people, to direct them to the path, and to distance them from wrong lifestyles and ideas. For this, education, promotion and education should be carried out in the family, school and collectives, giving preference to national and moral values. Proper promotion and education influence the minds of young people and play an important role in shaping their mindset.
Keywords: Government, society, mindset, policy, information, the young

Абстракт: В статье анализируются факторы, влияющие на формирование мировоззрения молодежи в эпоху ИКТ. Утверждается, что в эпоху ИКТ необходимо правильно рассчитывать внутренний потенциал молодежи, направлять ее на путь, дистанцировать от неправильного образа жизни и представлений. Для этого воспитание, продвижение и воспитание должны осуществляться в семье, школе и коллективах, отдавая предпочтение национальным и нравственным ценностям. Надлежащее продвижение по службе и образование влияют на умы молодых людей и играют важную роль в формировании их мировоззрения.
Ключевые слова: государство, общество, менталитет, политика, информация, молодежь

XXI əsrin əvvəllərindən informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin və iqtisadiyyatın inkişafına təsir göstərən əsas amillərdən biridir. Onun əhatə dairəsinə dövlət orqanları, sosial-iqtisadi, elm və təhsil, mədəniyyət sahələri aiddir, bütövlükdə, informasiya texnologiyaları insanların həyat tərzinə çevrilib. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr İKT-nin yaratdığı üstünlüklərdən yüksək səviyyədə faydalanır, iqtisadi sahədə böyük uğurlara imza atırlar.

İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinin dərəcəsi ölkənin elmi, iqtisadi potensialının, dövlət idarəçiliyinin səviyyəsinin göstəricilərindəndir. Dünya bazarında elektron biznesin rolunun artdığı müşahidə olunur və indi ölkələrin iqtisadi rəqabəti aparmaq qabiliyyəti onların İKT-dən effektiv istifadəsindən asılıdır. Son illərdə bu sahənin inkişaf etdirilməsi üçün Azərbaycanda addımlar atılmış, İKT istiqaməti dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Ölkə Prezidentinin təşəbbüsü nəticəsində İKT sahəsində səmərəli addımlar atılıb.

İKT-nin, o cümlədən, internet iqtisadiyyatının inkişaf etdirilməsi bütün dünyada olduğu kimi, Azərbaycanda da ənənəvi iqtisadi sahələrin inkişafında mühüm rol oynadığı şübhəsizdir. Belə ki, internet iqtisadiyyatı yeni istifadə və iştirak mühitlərinin yaranmasına, məhsuldarlığın artırılmasına, rəqiblər üzərində strateji üstünlüyün əldə olunmasına, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsinə, informasiya resurslarından optimal istifadəyə və bütövlükdə, cəmiyyətin rifahının yaxşılaşdırılmasına şərait yaradır. Bütün bu məqsədlərə çatmaq və nəzərdə tutulan işləri sistemli şəkildə həyata keçirmək üçün "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" hazırlanıb.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz edib. Ölkəmizdə də müasir informasiya-kommunikasiya infrastrukturunun yaradılması, rabitə xidmətinin səviyyəsinin yüksəldilməsi prioritet məsələdir. Rabitə və informasiya texnologiyalarının inkişafına mühüm əhəmiyyət verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları sahəsində məqsədyönlü tədbirlər görülür. Son illər həyata keçirilən dövlət proqramları və zəruri islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası təmin edilmiş, elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb.

2013-cü il Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilib, elə həmin il fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki orbitə çıxarılıb.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrildiyini inkar etmək olmaz. Onun əhatə dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, sosial-iqtisadi sahələri, elm və təhsili, mədəniyyəti, bütövlükdə, insanların həyat tərzini əhatə edib. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya-kommunikasiya texnologiyalarının yaratdığı üstünlüklərdən lazımi səviyyədə faydalanır, iqtisadi sahədə böyük uğurlara imza atırlar. İnformasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur.

Ancaq İKT-nin inkişafı həm də bir sıra məsələlərə yanaşmada ehtiyatlı olmamızı, onun insan faktoru ilə sintezindən doğan nəticələr barədə ətraflı düşünməmizi, yeri gəldikdə qabaqlayıcı tədbirlər görməyimizi şərtləndirir.

Müasir İKT bir tərəfdən fərdi etik, digər tərəfdən, onların tətbiqi bacarıqlarının səviyyəsinə görə yüksək tələblər qoyur: "Bir qayda olaraq, bir şəxs bu xüsusiyyətlərin yalnız birinə malikdir, amma böyüməkdə olan nəslin dəyərlərinin formalaşmasına təsir göstərmək üçün hər ikisini mükəmməl icra etməyi bacarmaq lazımdır. Valideynlər, müəllimlər gənc nəslə nisbətən tez-tez İKT-yə üz tutmurlar və çeşidli həyat məsələlərini həll etmək üçün həmişə ondan rahat istifadə edə bilmirlər. XXI əsrdə yeni-yeni İKT-lərin meydana gəlməsi ilə əlaqədar olaraq, bilik ötürülməsi istiqamətində dəyişiklik yaranıb. Artıq biliklər yaşlı nəsildən gənclərə deyil, əksinə ötürülür. Müasir dünyanın yüksək sürətli dəyişmə şəraitində virtual aləm kimi həyat sahələrində öyrətmə rolunu yerinə yetirə bilməyən yaşlı adamların nüfuzunun azalması müşahidə olunur. Artıq virtual aləm evdə olan dünya görmüş babadan min qat artıq informasiya verə bilir.

Eyni zamanda, müasir İKT-nin istifadəsində yüksək səviyyəli bacarıqlara malik olan bir qrup mütəxəssis var. Onlardan bəzilərində qabarıq deviant, assosial meyllər (trollar, heyterlər) açıq əks olunur və məhz onlar yeni nəslin dəyərlərinin formalaşmasına təsir edə biləcəklər. Bu amillərin təsiri fərdin mənəvi-etik səviyyəsinin və psixoloji mədəniyyətinin azalmasına gətirib çıxarır".

Tədqiqatçılar hesab edir ki, müasir insanın inkişafı üçün göstərilən şərtlər rəqəmsal təcrübəni yaratmağın zəruriliyini şərtləndirir: "Təcrübə həm də İKT-dən istifadə etmək üçün bilik, bacarığından əlavə, onun virtual aləmdə əməl və hərəkətləri üçün doğru istifadə, məsuliyyət motivasiyasını nəzərdə tutur. Yəni rəqəmsal vətəndaş yetişdirmək məsələsi meydana çıxır. Yaşlılar rəqəmsal "immiqrantlar" olduğu halda, internet dövründə doğulan nəsil rəqəmsal "aborigenlər"dir. Rəqəmsal vətəndaşlıq müasir rəqəmsal dünyada formalaşma mərhələsində olan ümumi qəbul edilmiş qaydalar və davranış normaları ilə internet mühitində qarşılıqlı təsirlərin tənzimlənməsini nəzərdə tutur. Təsəvvür edin ki, yüksək texnologiyaya malik bir ölkəyə düşmüsünüz, lakin insanlar arasında münasibətləri tənzimləyən dəqiq qaydalar və normalar yoxdur. Heç bir hüquq-mühafizə orqanı yoxdur, bu, tamamilə özünü təşkil edən bir yerdir. Bu ölkə internet sahəsidir. Onun inkişaf perspektivi gələcək nəsillər üçün qaydaların müəyyən edilməsi, təhlükəsizliyin yaranmasıdır. Bunun üçün İKT-nin tətbiqi prosesində ortaya çıxan imkanlar və risqlərin öyrənilməsi, araşdırılması tələb olunur. İnternet texnologiyalarının düzgün tətbiqi nümunəsi inkişaf məzmununun yaradılması, konstruktiv internet-kommunikasiya bacarıqları və kiber aqressiya təzahürləri ilə işləməyə diqqət etməyi tələb edir [7].

İnternet ünsiyyətinin xüsusiyyətlərini bilmək və internet məkanında effektiv və münaqişəsiz ünsiyyət üçün real məkanda ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi və sınaqdan keçirilməsi, empa-tiyanın inkişafı, onun ifadəsinin müəllifə təsirinin proqnozlaşdırılması qabiliyyəti lazımdır. Real və internet mühitində fəaliyyətlərini, onların məsuliyyətini başa düşmək qabiliyyəti üçün refleksin inkişaf etdirilməsi vacibdir. Qeyd etmək lazımdır ki, virtual birliklərdə söylənilənlərin həmsöhbətə emosional təsirinin daha az olmaq ehtimalı var, çünki verbal və paraverbal məlumatların qəbulu və ötürülməsi kanallarına mimika, jestlər, intonasiya və s. daxil deyil. Bu səbəblərdən müəllifdə həmsöhbətin niyyəti haqqında öz təsəvvürü yaranır ki, bu da neqativ emosional təsir vəziyyətinə düşür. Məsələn, hansısa bir ifadəni işlədərkən biz verbal ünsiyyət zamanı mimika və jestlə bunu ironik və məcazi mənada işlətdiyimizi ifadə edə bilirik, internet məkanında bu alətlər işləmədiyindən, hətta adi bir söz qarşı tərəfdə qıcıq yarada bilər".

Bütün bu araşdırmadan sonra bu qənaətə gəlirik ki, İKT-nin inkişafı bizə nə qədər müsbət dividendlər vəd edirsə, bir o qədər də onun doğura biləcəyi mənfi fəsadlardan mühafizə olunmağımızı zəruri edir.

Gənclərin daha yaxşı, stabil inkişaf edən cəmiyyətdə və rahat yaşaması üçün dünya ölkələrində zəruri tədbirlərin həyata keçirilməsi dövlətçilik siyasətinin əsasında dayanır. Çünki gənclər daim yenilik tərəfdarı olmaqla, müasirliyə, yeni yaşam tərzinə tez reaksiya verir, eyni hadisə və prosesə fərqli münasibət bildirirlər. Respublikamızın gənclərinin də özünəməxsus keyfiyyət, maraq və dünyagörüşləri vardır.

Ümummilli lider Heydər Əliyev öz siyasətində daima gənclərə qayğı göstərmiş, onların bir fərd kimi yetişməsinə xüsusi önəm vermişdir. Ulu öndər respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində böyük işlər görmüşdür. Hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasəti ilə bağlı bir cox fərman və sərəncamlar imzalayan ulu öndər gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm vermişdir [6].

Gənclər daha çox özünə inamlı olmalı, özünə güvənməli, öz bacarıq və keyfiyyətlərini, daxili potensialını göstərməlidirlər. Azərbaycan alimi Səlahəddin Xəlilovun fikrincə: "Gənclərin mənəvi tərbiyəsini didaktikanın, pedaqogikanın öhdəsinə buraxmaq böyük sadəlövhlükdür. Əgər insanlar dünyanın ahəngini duya bilməsə, təbii gözəllik qarşısında heyrətlənməsə, öz daxili mənəvi güc qaynağını kəşf etməsə, öz mənəviyyatını dünya ilə təmasda özünüdərk və refleksiya yolu ilə daim təkmilləşdirməsə, kənarda ülvi olan, gözəl olan nə varsa hamısının, əslində, öz daxilində olanların tə-

zahürü, ikinci həyatı olduğunu dərk etməsə, yəni özünə genetik imkan şəklində təbiətən xas olan potensial mənəvi kamilliyi, müqəddəslik duyğusunu aktivləşdirməsə, canlandırmasa, özünün həyat tərzinə, fəaliyyət prinsiplərinə çevirməsə – təkcə kənar bilikləri öyrənməklə kifayətlənsə – insan bəlkə bilikli ola bilər, lakin kamil olmaz, alim ola bilər, lakin insan olmaz" [1,s.361].

Müasir dövrdə gənclər öz həyat seçimini və yaşayış tərzini postsovet dövrünün iqtisadi və sosial islahatlarının nəticələrinin sabitləşməsi şəraitində edirlər. Lakin sosial-mənəvi idealların, millimənəvi dəyərlərin kəskin şəkildə aşınması və yeniləşən cəmiyyətin dəyər oriyentasiyalarının transformasiyası hələ də sabit inkişafa cavab vermir. Bəzən gənclərdəki düzgün olmayan dünyagörüşü onları başqa səmtə yönəldir, onlar zərərli vərdişlərə qurşanır, narkomaniya tələsinə düşür, sərxoşluğa aludə olur, cinayətkar aləmlə əlbir olurlar. Bunun qarşısının alınmasının əsas yolu müntəzəm olaraq gənclər arasında təbliğat, maarifləndirmə işinin aparılmasıdır. Ulu öndər Heydər Əliyev nitqlərinin birində bu barədə demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaqdır". Ümumiyyətlə, gəncləri milli ruhda tərbiyə edərkən onların dünyagörüşü, milli çalarlar, milli mentalitet, mənəvi dəyərlər,elə-obaya, torpağa bağlılıq nəzərə alınmalıdır. Hazırda geniş yayılmış və milyonların istifadəsində olan internet, sosial şəbəkələr gənclərin şüuruna, psixikasına, oriyentasiyasına, dünyagörüşünə, siyasi və dini əqidəsinə, davranışına, mövcud qaydalara əməl etməsinə böyük təsir göstərir. Doğrudur, yeniliklərdən qaçmaq olmaz və cəmiyyəti geri çəkən, inkişafdan saxlayan bəzi vərdiş, qaydaları, stereotipləri tarixin arxivinə vermək lazımdır [3,s. 79]. Bununla belə, cəmiyyətin, xalqın qəbul etdiyi dəyərlərə uyğun gələn, cəmiyyətin tərəqqisinə səbəb olan yeni fikirləri də qəbul etmək lazımdır.

İstər ölkəmizdə, istərsə də bütün dünyada baş verən sürətli dəyişikliklər, mütləq şəkildə cəmiyyətin yeni konsolidasiya formalarının axtarışını, ölkənin və dünyanın strateji inkişaf istiqamətləri üzrə kompromis əldə olunmasına elmi əsaslandırmanı tələb edir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün əsas prinsiplərin işlənib hazırlanması günün zərurətindən irəli gəlir.

Sosial-iqtisadi problemlərin həlli yollarını tapmaqla yanaşı, cəmiyyətin inkişafı üçün yeni bir yol müəyyən etmək zərurəti yaranıbdır. Belə ki, formalaşmış dünyagörüşü oriyentasiyası sosial gərginliyin sürətlə azaldılmasına və sosial şəbəkələrin zəifləməsinə kömək etmir. Mövcud vəziyyət müasir gəncliyin psixoloji xüsusiyyətləri ilə daha da mürəkkəbləşir: maksimalizm, ümumiləşdirmə meyli, hakimiyyətə və ənənələrə etinasızlıq, hakimiyyət strukturlarına etimadsızlıq, bu, müəyyən dərəcədə asosial ədalət və siyasi problemlərlə ifadə olunur. Ətrafı və öz daxili dünyasını kökündən dəyişmək istəyi gənclərin üzərinə düşən artan məsuliyyət və eyni zamanda yaşlı nəsil tərəfindən qoyulan dəyərlərdən imtina ilə bağlanır. Sadalananlar onların dünyagörüşünün formalaşmasına təsir göstərir ki, bu zaman reallıq nəzərə alınmalıdır. Belə ki, dünyagörüşü dünyanın reallıqla nəzəri və praktiki əlaqəsinin vəhdətində mənəvi və praktik mənimsənilməsidir.

Gənclər arasındakı ziddiyyətlərə dair fərqli, bəzən diametrik şəkildə əks mövqelərin çoxluğu dövlətin inkişafı üçün layiqli perspektivlər haqqında vahid bir baxışın formalaşmasına kömək etmir və gəncləri "indiki dövrdə" yaşamağa məcbur edir. Gənclər sürətlə dəyişən sosial-tarixi şəraitdə sağ qalmağa, yeni şəraitə uyğunlaşmağa kömək edəcək dəyərləri müstəqil şəkildə inkişaf etdirməyə və öz sosial təcrübəsində sınaqdan keçirməyə məcburdurlar. Fərdilik, kollektivçilik, millilik kimi meyarlar hazırda daha da aktuallaşır, lakin eyni zamanda bu dəyərlərlə ictimai maraqların tanınması, dostluq, sevgi, zəhmət, ədalət arasında tarazlıq tapmaq lazım gəlir.

Ulu öndər gənclərdəki vətənpərvərlik hissinin yüksək olmasını istəyirdi. O deyirdi: "Vətənpərvərlik böyük məfhumdur. Bu sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik! Vətənpərvər gənclər yetişdirilməsi təkcə təhsil müəssisələrinin işi ilə bitmir. İlkin olaraq, ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etditilir, bütün cəmiyyətin, onun hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşir" [5].

Gənclərin dəyər oriyentasiyalarının formalaşmasının öyrənilməsi hazırda vacibdir, çünki ölkə mövcud dünyagörüşü böhranından ("olmaz" qadağası) çıxmağa çalışır. Belə ki, cəmiyyətin gələcək rifahı müasir gənclik probleminin həllindən çox asılıdır. Doğrudur, gənclər çox çalışır, öz fəaliyyət dairəsini genişləndirir, yeniliklərlə maraqlanır, öyrənir. Bütün bunların kökündə isə bəşəri dəyərlərə hörmətlə milli dəyərlərin qorunub-saxlanması durur.

Dövrümüzün qlobal problemləri, sürətlə dəyişən dünya, mədəniyyətlərin inteqrasiyası və qarşıdurması, zəngin və kasıb ölkələr məsələsi və dövlətlər daxilində vətəndaşların təbəqələşməsi və qarşıdurması - müasir dünya birliyini müşayiət edən problemlər yenidən təşkilatlanma ilə bağlı suallar yaradır. Bütün insan həyatına, insan, təbiət və cəmiyyət arasındakı qarşılıqlı əlaqələrə, əsas mövqelərə yenidən baxılmasını diktə edir. Ona görə də insanın təbiətə münasibətini dəyişmək lazımdır ki, bu, ilk növbədə, gənclərin dünyagörüşünün dəyişməsi ilə mümkündür.

Gələcəyinə ümid etdiyimiz gənclər gələcəkdə problemləri həll etməyə hazır olmalı, insan, təbiət və cəmiyyət arasında idarəetmə və qarşılıqlı əlaqə prinsiplərinə yiyələnməli, həyatın qorunması naminə yeni yaranan suallara adekvat cavablar tapmalı və yer üzündə bəşəriyyətin davamlı inkişafı üçün zəruri təkliflərlə çıxış etməlidirlər. Tarixi təcrübə göstərir ki, gəncliyin rolu, bir qayda olaraq, sosial dəyişikliklər dövründə daha da artır.

Dövlət sosial institutlar vasitəsilə müasir gəncin dünyagörüşünün formalaşmasına təsir göstərə, indiki gəncliyin dünyagörüşünü araşdıraraq onlarda gələcəkdə ona faydalı olacaq keyfiyyətləri tərbiyə edib inkişaf etdirə bilər. Bunlar gənclərin dünyagörüşünün formalaşmasının baş verdiyi ideologiya, təhsil və ictimai-tarixi şəraitlə bağlı məsələlərdir.

Müasir dünyanın rasional transformasiyasında gənc nəslin mühüm rolu, ideoloji və siyasi vasitələrin böyük gücü ictimai şüurun formalaşması və aktual dünyagörüşü problemlərinin ciddiliyi əsas məsələlərdən hesab olunur. Gənclərin mənəvi inkişaf səviyyəsi onun cəmiyyətin inkişafına, deməli, insanın və təbiətin birgə təkamülü nəzərə alınmaqla dünyagörüşündə yeni sərhədlərə çıxmasına səmərəli təsirinin mümkünlüyünü müəyyən edir. İctimai şüurda, ideoloji sferada, təhsil sferasında baş verən prosesləri dərk etmək və bu əsasda dünyagörüşünün formalaşmasına yanaşmaları əsaslandırmaq, dünya inkişafı tendensiyalarını proqnozlaşdırmaqda gənclərin potensialından istifadə etməyin əhəmiyyəti böyükdür.

Gənclərin sosial praktikada fəal iştirak etmək qabiliyyəti və hazırlığı məsələsi həm Azərbaycan, həm də dünya cəmiyyətinin müasir inkişaf mərhələsində əsas məsələlərdən biridir. İdeoloji oriyentasiya seçimində ideologiya və fərdi azadlıq sahəsində dövlət və vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqə baxımından gənclərin dünyagörüşünün formalaşması üçün lazımi işlər görülməli, Azərbaycanda və dünyada transformasiya prosesləri dövründə gənclərin dünyagörüşü istəklərinin tam həyata keçirilməsi üçün ideologiya və təhsil sahəsində dövlət siyasətinin optimallaşdırılması üçün tövsiyələr irəli sürülməlidir.

Nəzərə almaq lazımdır ki, müasir şəraitdə həyatı formalaşdıran müstəqil qüvvəyə çevrilən ictimai şüurun rolu getdikcə artır. Bunu nəzərə alaraq tədqiqatçılar bu fikrə gəlirlər ki, cəmiyyətin fəaliyyət göstərməsi və inkişafı artıq obyektiv texnoloji, texniki-iqtisadi, sosial-iqtisadi proseslərlə birmənalı olaraq müəyyən edilmir; ən azı bərabər təyinedici qüvvə insan şüurunda, insan psixikasında baş verən proseslərdir.

Gənclərin əsas ehtiyaclarını birləşdirən dəyərlər: iş, ailə və təhsil dövlət gənclər siyasətində xüsusilə nəzərə alınmalıdır və yeri gəldikcə yenilənməlidir. Əmək və bilik dünyagörüşünün müvafiq olaraq iradi, dəyər və idrak komponentlərinin mahiyyətini əks etdirən vahid dünyagörüşünün formalaşmasında zəruri amillərdir.

Azərbaycan Respublikası Prezidentinin "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında 2015-ci il 26 yanvar tarixli 998 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nda isə gəncliyin inkişafı dövlətin sosial siyasətinin vacib tərkib hissələrindən biri olması, gənclər siyasəti gənclərin dinamik inkişafı üçün həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər kompleklərinin artması, dün-

yada baş verən qlobal dəyişikliklər və çağırışlar, həmçinin ölkənin yeni inkişaf imkanları Azərbaycanda gənclər siyasətinin yeni strategiyasının hazırlanmasını və qəbulunu qeyd edilən zaman dövründə həyata keçirilməsi nəzərdə tutulur. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi və dəyərləndirilməsi, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri edir. Dövlət Proqramının əsas məqsədi isə respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsini təmin etməkdir. Bir sözlə, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətində gənclik mövzusunun aktuallığı bir daha aydın təsbit olunur [4].

Gənclərin dünyagörüşünün formalaşma xüsusiyyətlərini aşkar etmək üçün gənclərin fəaliyyət göstərdiyi ictimai-tarixi şərait və bu halların gənclərin dünyagörüşünün formalaşmasında rolu, gənclərin diferensiasiyasının xüsusiyyətləri, dəyər dinamikası və siyasi fəallıq, gənclərin cəmiyyətin sosial və siyasi strukturlarına münasibəti kimi məsələləri nəzərə almaq lazımdır. Müasir dövrün spesifikliyi gənclərin dünyagörüşünün formalaşmasının Azərbaycan cəmiyyətində mənəvi dəyərlərdəki transformasiya şəraitində baş verməsi ilə əlaqədardır.

Milli-mənəvi dəyərlərin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması üçün mədəni abidələrin, ailənin, bədii ədəbiyyatın, milli fəlsəfi fikrin rolu böyükdür. Lakin milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Və bu zaman milli ruh həyat tərzinə çevrilir. Dövlətçilik ideologiyası da, milli ideologiya da eyni bir təməl üzərində – milli fəlsəfi fikir zəminində formalaşır[2, s. 56].

İnformasiya kommunikasiyaları texnologiyaları dövründə gənclərin potensialının doğru qiymətləndirilməsi, onların dünyagörüşünün düzgün formalaşması, həqiqətin əldə olunması yollarında əsl meyarlardan istifadə etməsi, öz həyat tərzini müəyyən edərkən bəşəri dəyərlərə hörmət etməklə milli-mənəvi dəyərlərə söykənməsi üçün zəruri tədbirlər həyata keçirilməli, tərbiyə və maarifləndirmə işi genişləndirilməlidir.

Bütün bu araşdırmadan sonra bu qənaətə gəlirik ki, İKT-nin inkişafı gənclərə nə qədər müsbət dividendlər vəd edirsə, bir o qədər də onun doğura biləcəyi mənfi fəsadlardan mühafizə olunmaqlarını zəruri edir.

Ədəbiyyat

1. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı, Azərbaycan Universiteti, 2007
2. Əhmədov A. Keçid dövründə milli-mənəvi dəyərlərin transformasiyası. Naxçıvan, 2015
3. Şabanov Z. Milli-mənəvi dəyərlərin formalaşması kompleks proses kimi/ Etika. estetika, aksiologiya:epistemoloji problemlər. Kollektiv monoqrafiya. Bakı, AFPoliqrAF, 2020, s.109
4. Hüseynova L. Gənclər siyasəti dövlətin əsas istiqamətlərindəndir. **“**Azərbaycan Ordusu” qəzeti, 27 yanvar 2018
5. www. president az
6. https://modern.az/news/10912/gencler-bizim-sabahimizdir/22.03.23
7. https://www.baki-xeber.com/sosial/92663.html

Vilayət İSMAYILOV
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
İqtisad üzrə elmlər doktoru, professor
ismaylov1953@mail.ru

Teymur KƏRİMOV
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,magistrant
teymur-kerimov@internet.ru

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZM RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

DIRECTIONS FOR IMPROVING THE RATIONAL USE OF TOURIST RESOURCES IN THE TERRITORIES LIBERATED FROM OCCUPATION

НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ РАЦИОНАЛЬНОГО ИСПОЛЬЗОВАНИЯ ТУРИСТСКИХ РЕСУРСОВ НА ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИЯХ

2. Source: *[Law of the Republic of Azerbaijan on the development of micro, small and medium enterprises]*


In promoting entrepreneurship in economic regions, the capital framework of tourism entrepreneurship and the criteria of this framework play an important role. Entrepreneurs' human, social, and psychological capital have a direct impact on the performance of their company. The success of tourism entrepreneurship is dependent on the capitals of livelihood. The capital framework provides an appropriate analytical method for investigating the influencing elements of tourism entrepreneurship in destinations. This paradigm studies economic and communal development efforts from a systems perspective by recognizing assets and capital interactions.

Additionally, many extant studies revealed that psychological capital greatly impacts entrepreneurship [5]. Using the capital framework, this study will investigate the influencing processes of human, natural, physical, financial, social, political, and psychological capitals on tourism business. Human capital refers to the number and quality of a new venture's labor force, as well as the entrepreneur's knowledge, skills, and competencies [2]. Human capital influences an entrepreneur's ability to recognize and evaluate opportunities [4]. Entrepreneurial skills can also be considered knowledge capital. The capability of an entrepreneur, as a knowledge capital, assists such an entrepreneur in dealing with the complexities and ambiguities of business decisions.

Natural capital refers to the natural and ecological factors that influence entrepreneurship, such as farming resources, land quality, housing sites, and transit accessibility. Social capital is a real or potential resource that consists of a network of long-term relationships. A strong social network can help to foster an entrepreneurial climate, facilitate market research, and uncover new partners. The efficient sharing of knowledge and information within a social capital network is critical to rural tourism business.

Political capital refers to access to power as well as the extent to which existing policies encourage entrepreneurship. An entrepreneur's psychological capital encompasses his or her proclivity for risk-taking, confidence, and life satisfaction. Entrepreneurship is the process through which people seek possibilities; it is accompanied by success or failure. Entrepreneurs' psychological resilience to entrepreneurial pressure can be improved by confidence. Taking into account the capital framework, tourism entrepreneurship should be encouraged in economic regions and confidence should be created in entrepreneurs to start their own business.

Figure 3. *Capital framework of tourism entrepreneurship in regional districts*



3. Source: *[Tourism entrepreneurship in rural destinations: measuring the effects of capital configurations using the fsQCA approach]*

Using the experience of foreign countries in the development of tourism entrepreneurship

It is very necessary to use the experience of foreign countries in the promotion of tourism entrepreneurship in the Republic of Azerbaijan. First of all, it is appropriate to consider the support model for small and medium-sized businesses in Germany. Germany's small and medium-sized enterprises (SMEs), often known as the "Mittelstand," are the country's most powerful generator of innovation and technology, and are well-known worldwide.

The German economy is dominated by small and medium-sized businesses. Over 99% of all companies in Germany are SMEs, and 82% of trainees work in SMEs, which provide roughly 60% of all jobs and generate more than half of German value added. However, SMEs in Germany vary greatly: they include many small businesses, startups, handicraft operations, and small independent contractors, as well as many small, medium-sized, and larger businesses that are internationally successful. Small and medium-sized enterprises (SMEs) are also the backbone of the tourism business.

To keep German SMEs vital, strong, and innovative in the face of multiple challenges in the age of globalization, digitalization, and demographic change, the Federal Ministry for Economic Affairs and Energy – the ministry in charge of SMEs – published the second edition of its "Future of the German Mittelstand" Action Programme in May 2016, which includes core measures and initiatives for this group of companies. These activities are aimed at the tourism business as well. The following objectives are pursued by the action program's ten areas of focus [10]:

- promote the spirit of entrepreneurship;
- strengthen start-up financing;
- address the skills shortage;
- push for better regulation and reduced red tape;
- use and shape digitization; strengthen innovative capacities;
- support SMEs as they globalize;
- actively shape European SME policy;
- strengthen SMEs in structurally weak regions;
- support the development of new business fields resulting from the energy transition.

One focus is on measures to encourage SMEs' productive investment activity in the tourist sector, allowing them to participate in market growth and innovation processes. Investments in accessibility, for

example, are eligible for funding. Germany also allocates amounts for start-up grant projects. The award is divided into two phases. For the first six months, you are entitled to your previous unemployment benefit plus 300 euros per month. Following then, you may be granted an additional 300 euros per month for a maximum of nine months, providing your business has begun full-time operations.

In Japan, the subcontracting method creates conditions for the development of small and medium-sized enterprises. It is difficult for SMEs with limited human and financial resources to acquire technology, develop markets, and secure financing. Due to the constraints of SMEs, assistance from and collaboration with major firms is required. Subcontracting and other collaborative supply agreements, in general, would help SMEs minimize the duration for capacity building and continuing learning required to produce the requisite product quality and design, delivery timeliness, as well as their continued innovation and distinctiveness.

Conclusion

To sum up, the article described how tourism entrepreneurship should be promoted and gave ideas about the development of SMEs in economic regions. Apart from that, the methods used in Germany and Japan to promote and develop SMEs' framework will play a major role in advancing knowledge levels of entrepreneurs and giving advice to them in order to make entrepreneurship sustainable in regional economic districts. In addition, it will be very appropriate to register residents of villages and districts who want to engage in tourism in rural and regional areas, but whose houses are not in good condition, and to allocate special discount packages for them. As a result of methods implemented by foreign countries, recommendations for Azerbaijan are the following:

- creation of digital platforms for promotion of tourism entrepreneurship in district and rural areas;
- review and analysis of the tourism potential of the areas;
- informing people who are not aware of the possibilities and provide special information booklets for them;
- ensuring that large enterprises work with small enterprises on a joint project basis;
- allowing entrepreneurs who own potential share lands to operate without a unified state registration for a period of time in order to be able to realize tourism business opportunities on their land;
- solving problems of rural areas such as electricity, gas and living standards.

References

1. Booth, P., Chaperon, S.A., Kennell, J.S. and Morrison, A.M. (2020), "Entrepreneurship in island contexts: a systematic review of the tourism and hospitality literature", International Journal of Hospitality Management, Vol. 85, p. 102438
2. Emery, M. and Flora, C. (2006), "Spiraling-up: mapping community transformation with community capitals framework", Community Development, Vol. 37 No. 1, pp. 19-35
3. Fu, H., Okumus, F., Wu, K. and Koseoglu, M.A. (2019), "The entrepreneurship research in hospitality and tourism", International Journal of Hospitality Management, Vol. 78, pp. 1-12
4. Kallmuenzer, A., Kraus, S., Peters, M., Steiner, J. and Cheng, C. (2019), "Entrepreneurship in tourism firms: a mixed-methods analysis of performance driver configurations", Tourism Management, Vol. 74, pp. 319-330
5. Mahfud, T., Triyono, M.B., Sudira, P. and Mulyani, Y. (2020), "The influence of social capital and entrepreneurial attitude orientation on entrepreneurial intentions: the mediating role of psychological capital", European Research on Management and Business Economics, Vol. 26 No. 1, pp. 33-39
6. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, 2023 https://smb.gov.az/az/all-news/kend-qonaq-evleri-olke-turizminin-inkisafinda-yeni-sehife
7. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı, 2021 https://e-qanun.az/framework/47788

8. Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında Azərbaycan Respublikasının qanunu, 2021 https://e-qanun.az/framework/53308
9. Azerbaijan Tourism Strategy 2023-2026, 2023 https://www.tourismboard.az/strategy
10. Germany's Federal Government Report on Tourism Policy, 2017 https://www.bmwk.de/Redaktion/EN/Publikationen/federal-government-report-on-tourism-policy.-pdf?__blob=publicationFile&v=1

Tərlan NÖVRƏSLİ
Azərbaycan Turizm və Menecment Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
tarlan.novrasli@atmu.edu.az

Vəfa CAVADOVA
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
vafajavadova2001666@gmail.com

REKREASİYA ƏRAZİLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ TURANİMASİYA FƏALİYYƏTİNİN ZƏRURİLİYİ

THE NECESSITY OF TOURANIMATION ACTIVITIES IN THE EVALUATION OF RECREATION AREAS

НЕОБХОДИМОСТЬ ТУРАНИМАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ ПРИ ОЦЕНКЕ ЗОНЫ ОТДЫХА

Xülasə: Rekreasiya-turizm potensialı antropogen, tükənməyən təbii, sosial-iqtisadi resurslara istinad edir. Turizm resursları – iqlim, təbii, dini, tarixi-arxitektur, sosial-mədəni, mənəvi-irsi özündə birləşdirir. Turizm ehtiyatları istirahət idman, sağlamlıq-müalicə, dərketmə məqsədli istifadə edilir. Turizm ehtiyatı dedikdə biz etnoqrafik, milli, irsi, təbii, iqtisadi, tarixi, mədəni amilləri nəzərdə tuturuq. Turizm ehtiyatları dedikdə, qoruqlar, milli parklar, tarixi və təbiət abidələri, landşaft ekzotikliyi, iqlim komfortluluğu da nəzərdə tutulur. Turizm ehtiyatlarının bölgüsündə təbii və antropogen resurslarla yanaşı sosial-iqtisadi amillər də əsas götürülür hansı ki bu onun ərazi təşkili üçün vacibdir. Bu cəhətdən turizm ehtiyatlarının kompanentlərinə ərazinin mənimsənilmə xüsusiyyəti, infrastruktur səviyyəsi, bölgələr üzrə paylanması təyin olunmaqla daxil edilir.

Açar sözlər: turizm, turanimasiya, inkişaf dinamikası, qiymətləndirmə, rekreasiya

Abstract: Recreation-tourism potential refers to anthropogenic, inexhaustible natural, socio-economic resources. It combines tourism resources – climate, natural, religious, historical-architectural, social-cultural, spiritual-heritage. Tourism resources are used for recreation, sports, health-treatment, and understanding. When we say tourism resources, we mean ethnographic, national, heritage, natural, economic, historical, cultural factors. Tourism resources include nature reserves, national parks, historical and natural monuments, landscape exoticism, climate comfort. Apart from natural and anthropogenic resources, socio-economic factors are taken into account in the distribution of tourism resources, which are important for its territorial organization. In this regard, the components of tourism resources are included by determining the property of the area, the level of infrastructure, and the distribution by regions.

Keywords: tourism, tourist animation, development dynamics, assessment, recreation

Абстракт: Рекреационно-туристический потенциал относится к антропогенным, неисчерпаемым природным, социально-экономическим ресурсам. Он объединяет ресурсы туризма – климатические, при-

родные, религиозные, историко-архитектурные, социокультурные, духовно-наследственные. Ресурсы туризма используются для отдыха, спорта, лечения и понимания. Когда мы говорим о ресурсах туризма, мы имеем в виду этнографические, национальные, культурно-исторические, природные, экономические, исторические, культурные факторы. Ресурсы туризма включают заповедники, национальные парки, памятники истории и природы, ландшафтную экзотику, комфортность климата. Помимо природных и антропогенных ресурсов, при размещении ресурсов туризма учитываются социально-экономические факторы, важные для его территориальной организации. В связи с этим компоненты туристских ресурсов включаются путем определения свойства местности, уровня инфраструктуры, распределения по регионам.

Ключевые слова: туризм, туристская анимация, динамика развития, оценка, рекреация

Rekreasiya ərazilərinin qiymətləndirilməsində turanimasiya fəaliyyətinin zəruriliyi

Animasiya turizm sənayesi üçün çox böyük bir əhəmiyyət kəsb edir. Animasiya, əsasən müasir turizm xidmətlərinin əyləncə, istirahət və rekreasiya üçün turistlərə təklif olunan asudə vaxtın səmərəli keçirilməsinə dair proqramların mühum bir hissəsinə çevrilmişdir. Animasiya proqramlarının turanimasiya funksiyalarına uyğun olması turizm xidmətləri bazarında tələbatı artırır. Hal-hazırda turizm xidmətləri bazarında sərt rəqabət şəraiti vardır. Ona görə də bütün növ turizm xidmətlərinə turanimasiya fəaliyyəti mütləq şəkildə tətbiq edilməlidir. Rekreasiya ərazilərinin qiymətləndirilməsində də turanimasiya fəaliyyəti zəruridir. [3, s. 2]

Turizmin ekoloji əhəmiyyəti onun ekoloji şəraitə ikitərəfli təsirini başa düşmək olar. Turizm ətraf mühitə ziyan vuraraq təbii mühiti dəyişdirir.[6, s.26] Həmin infrastuktur şəbəkəsi turizm-rekreasiya təsərrüfatının yaradılması üçün mühumdür.. Rekreasiya ehtiyatları dörd qrupa bölünür.Ölkəmiz zəngin flora və faunası ilə böyük ekoturizm potensialına malikdir.11 iqlim tipindən 9-unun müşahidə olunduğu Azərbaycan ərazisi 4100-dən çox müxtəlif bitki növünün vətənidir. Azərbaycan ərazisinin 10 faizi əsasən vələs fıstıq palıd, ağcaqayın və göyrüş ağaclarından ibarət dağ meşələri ilə örtülüdür. Bu resurslardan istifadə edərək açıq təbiətə turist gəzintiləri və ekskursiyalar təşkil oluna bilər.[1, s.15]. Rekreasiya ehtiyyatları 4 qrupa bölünür: Birinci yerə müalicə əhəmiyyətli mineral sular aiddir. Balneologiya müalicəvi mineral suları, onların tərkibini mənşəyini, fiziki-kimyəvi xassələrini, kIurortlarda və kurortdankənar şəraitdə onların tətbiqinə dair göstərişləri öyrənib hazırlayan kurortologiya bölməsidir. İkinci yerə rekreasiya-sağlamlıq sahələri daxil edilir. Üçüncü yerə rekreasiya-idman mərkəzləri, dördüncü yerə isə rekreasiya-tanışlıq obyektlərini daxildir. Rekreasiya ehtiyatları özü iki qrupa bölünür:

1. Təbii rekreasiya-turizm ehtiyatları turizm müalicə və istirahət üçün istifadə edilir. Onlara mineral suların mənbələri dənizlər,çaylar və göllərin sahilboyu əraziləri, meşə massivləri aiddir.
2. Mədəni-tarixi obyektlərə arxeoloji arxitektura tarixi, şəhərsalma, incəsənət abidələri aiddir.

Turizm ehtiyatlarının ərazi amilləri əsas olduğuna görə turist cılb olunma imkanı mövcud resurs potensialı və bölgələr üzrə yayılmasının da öyrənilməsi əhəmiyyətlidir. Turizm ehtiyatlarının istismar müddəti aşağıdakı səbəblərdən asılıdır:

1. Rekreasiya turizm ehtiyatlarının turistlərin cəlb olunma imkanlarından və onun qiymətləndirilməsindən
2. Turizm ehtiyatlarının ərazi üzrə yayılma səviyyəsindən və toxunulmazlığı
3. Turizm ehtiyyatlarının müəyyən ərazi üzrə miqdarından və yığcam yerləşməsindən

Mütəxəssislər turizm ehtiyyatlarının qiymətləndirilməsində əsas üstünlüyü investisiyaların cəlb olunmasına, onun imkanlarına və müddətinə əsasən qısamüddətli olduğuna görə, mövcud ehtiyyatların iqtisadi qiymətləndirilməsi onun maliyyə dəyəri ilə müəyyən olunur. Qiymətləndirmə kriteriyaları turizm ehtiyatlarının rayonlaşdırılmasında 3 qrupa bölünür.

- Turizm fəaliyyətində istifadə olunan antropogen və təbii komplekslərin qiymətləndirilməsi. Bura turizm fəaliyyətində istifadə edilən antropogen və təbii komponentlərin bal qiymətləndirilməsi aiddir;
- Turizm obyektlərinin tikilməsi üçün ərazidən istifadə olunmanın xarakterinə görə iqtisadi qiymətləndirmə;
- Təbii və antropogen ehtiyatlardan birlikdə istifadə olunmasına görə qiymətləndirmənin aparılması.

Qiymətləndirmənin bal kriteriyaları aşağıdakı kimi qruplaşdırılır:

Yüksək əlverişli rekreasiya turizm rayonu – təbiət abidələri əlverişli nəqliyyat qovşağı dənizsahili mövqe, dağlıq və dağətəyi ərazilə, zəngin meşə sahəsi təminatı və sosial xidmət sahələrinin olması. Burada təbii iqtisadi göstəricilər komfort səviyyəsində olur. Dənizsahili bölgə meşə ilə sərhəddə olur.Yaşıllıq əraziləri ümümi rekreasiya ərazisinin 60%-dən çoxs hissəsini təşkil edir. Zəngin təbiəti və iqlimi ilə seçilir. Nəqliyyat qovşağı, coğrafi mövqeyi əlverişli olmaqla yanaşı turizm mərkəzləri magistral xətlərdən 20-25 km aralıda yerləşir. Xidmət infrastrukturu turizmin istifadəsi üçün əlverişlidir. Əlverişli rekreasiya rayonları-əsasən əlverişli coğrafi mövqeyə malik dənizsahili mövqeyə, meşəlik ərazilərinə, antropogen və təbiət abidələrinə, əlverişli nəqliyyat mövqeyinə malik olur. Turizm sənayesinin inkişafı üçün əlverişli sayılır. Sosial xidmət sahələrinin təşkili yeni yaradılır. Komfort hədlərin təkrar olunması 60%-dən azdır. Meşəlik faizi az olsa da mənmsənilməsi mühəndis texniki baxımdan çətindir. Orta əlverişli rekreasiya turizm rayonları-burada təbii iqtisadi amillərlə birlikdə nəzərə alınmaqla qruplaşdırılır. Təbii amillərdə ekzotik təbiət üstünlük təşkil edir. İqtisadi amillərdən nəqliyyat təminatına əsas yer verilir. Nisbətən əlverişli rekreasiya turizm rayonları-bir və ya bir neçə təbii antropogen amillər üzə qruplaşdırılır. İqtisadi mənimsənilmə səviyyəsi nisbətən aşağıdı. Nəqliyyat imkanları məhdud antropogen ehtiyatların yayılması yerli əhəmiyyət kəsb edir. Əlavə iqtisadi tədbirlər görməklə gələcəkdə istifadə edilə bilər.

Əlverişsiz istifadə olununmayan və ya zəif istifadə olunmuş rekreasiya rayonları-burada təbii və antropogen turizm ehtiyatları azdır və mənimsənilmə səviyyəsi isə aşağıdır. İqtisadi resursları çatışmır, əlavə tədbirlər görmək şərtilə perspektivli ərazi kimi qeyd oluna bilər. Turistlərin asudə vaxtlarının ən yüksək şəkildə qiymətləndirmələri, turməhsulun, turmalın keyfiyyətinin yüksəldilməsi və fərqliliyini artırmaq, yenilikçi istehsala imkan vermək animasiya xidmətlərinin əsas vəzifələridir. Animasiya xidmətlərinin vəzifələri turizm malının cazibədarlığını və faydalılığını artırmaq artırmaq və turisti can sıxıntısından qurtarmaqdır. Nəticələr göstərir ki, inkişaf etməkdə olan ölkə səlahiyyətliləri turistlərin özlərini təhlükəsiz hiss etmələrini təmin etmək və daha çox turist cəlb etmək üçün təhlükəsizlik tədbirlərini artırmalıdır.[7]

Turizm məhsulu – turistlərin yerləşdiriliməsi,ekskursiya, bələdçi xidmətləri, daşınması, yeməyi üzrə xidmətlər kompleksi, və səfərin məqsədlərindən asılı olaraq göstərilən digər xidmətlər bir sözlə turistlərə göstərilən xidmətlər toplusudur.[2, s.9]

Turanimasiya – "Turizm" sözü latınca dönmə hərəkətini bildirir.[4,s.24] Turizm müəsissələrində (hotel turkompleks və s.) turistlərin yerləşdiyi yerlərdə(teatr, park və s.) və ya nəqliyyat vasitələrində (kruiz gəmisində, avtobusda, qatarda, təyyarədə) müxtəlif tədbirlər təşkil etməklə turistlərin iştiraka cəlb olunması vasitəsilə canlandırılması və turmalın faydalılığını artırmaq üçün hazırlanmış əyləncə proqramlarında həyata keçirilən turizm fəaliyyətidi. Animasiya fəaliyyətinə daxildir: planlaşdırmaq və proqram hazırlamaq, təşkil etmək heyət, texnika və məkan, dirijorluq fəaliyyətlərin seçilməsi və əlaqələndirilməsi animatorlar, ünsiyyət və nəticədə prosesin qiymətləndirilməsi. [8]

Fayda (Utility) – Qazanc, gəlir, səmərə malların insan ehtiyaclarını ödəmə xüsusiyyətləridir. Hər hansısa bir malın faydası olması üçün o, ehtiyacın ödənilməsində iştirak etməsi, ona ehtiyacın olması və ya ondan istifadə edərkən ehtiyacının ödənilməsi. Fayda yalnızca zövq anlamında düşünülməlidir, geniş mənada və ya əxlaqi düşüncə mənasında qiymətləndirilməməlidir. Faydanın ölçülməməsi haqqında 2 əsas fikir vardır. Bunlardan birincisi faydanın ölçülə biləcəyinə dair "Kardinal fayda nəzəriyyəsi", digəri isə faydanın ölçülə bilinməyəcəyinə, yalnız müqayisə edilə biləcəyinə dair olan "Ordinal fayda nəzəriyyəsi"-dir.

Kardinal fayda nəzəriyyəsi – Bu nnəzəriyyəni qəbul edən iqtisadçılara görə fayda vahid olaraq hesab edilən qəbul edilir. Yəni hər hansısa bir xidmət və ya malın təmin etdiyi fayda ölçülür. Bu fayda vahidinə "Util" və ya "Utilon" deyilir.


Ordinal fayda nəzəriyyəsi – Bu nəzəriyyə faydanın ölçülə bilməyəcəyi prinsipinə əsaslanır. Buna görə fayda yalnız müqayisə edilə bilər.

Toplam fayda (Total Utility) – Müəyyən bir zaman hissəsində şəxsin digər mal və xidmətlərə olan istehlakı sabit ikən(ceteris paribus) bir malın müxtəlif məbləğlərini istehlak etməsi nəticəsində nail olduğu qane səviyyəsidir. Toplam fayda funksiyası TU=f(Q)(şəkil -2a)

Marjinal – latın mənşəli söz olub həddi deməkdir. Marjinalizm iqtisadi prosses və hadisələrin təhlilində son kəmiyyətə üstünlük verir:faydalılıq həddi, gəlirlilik həddi, məsrəf həddi, məhsuldarlıq həddi. Marjinal fayda (marginal utility) – istehlak edilən hər vahid malın özündən əvvəlki toplam faydaya gətirdiyi faydadır. Marjinal fayda funksiyası MU=TU\Q(şəkil-2b) İstehlak olunan hər vahid malın müəyyən bir vaxt sonra azalması isə marjinal faydanın azalması qanunudur.


Ceteris paribus – latınca digər bütün şərtlər sabitkən anlamına gələn bu söz birləşməsi, bütün elmlərdə təhlil zamanı istifadə olunur.

Doyum nöqtəsi – ehtiyacları ödəyən hər bir məhsul miqdarı müəyyən fayda verir, bu faydanın sıfıra bərabərləşdiyi ana deyilir. [5, s.117]




***Şəkil 1**.Turanimasiya malları ilə digər malların təmin etdiyi marjinal faydaların müqayisəli təhlili.*
***Mənbə:**Növrəsli T.N. Unanimasiya. Dərslik. Bakı: "Zərdabi LTD" MMC Nəşriyyat poliqrafiya müəssisəsi, 2018, 168 səh.(səh.120)*

A) Toplam fayda qrafiki



B) Marjinal fayda qrafiki



Şəkil 2.*Toplam və marjinal fayda qrafiki*

Mənbə: *Növrəsli T.N. Unanimasiya. Dərslik. Bakı: "Zərdabi LTD" MMC Nəşriyyat poliqrafiya müəssisəsi, 2018, 168 səh.(səh119)*

Nəticə

Nəticədə, animasiya xidmətləri innovativ istehsala imkan verir və turistlərin asudə vaxtlarını səmərəli şəkildə dəyərləndirilmələrinə şərait yaratdığına görə turizm məhsulunun növ və çeşidini artırır.Turizm sənayesində marjinal fayda təhlili ilə animasiya fəaliyyətini tədqiq etməklə bu sektorun inkişafı nəticəsində, turistlərə yeni xidmətlər təklid edilməklə müəssisəyə əlavə gəlir gətirəcəyi labüddür. Bununla da rəqabət üstünlüyü əldə edərək animasiya fəaliyyətindən istifadə edən müəssisələr ölkə və öz imicini yüksəldərək turizm gəlirlərini artırma mühiti formalaşdırır.

Marjinal faydanın mənfi dəyərə düşməməsi üçün turanimasiya malının ,əsasən, asan əldə edilə bilmə, faydalılıq, cazibədarlıq, canlandırma, müxtəliflik xüsusiyyətlərinə malik olması lazımdır. Turmala faydalılıq və cazibədarlıq xassələrinin qazandırılmasında animasiya xidmətlərinin rolu mühimdir. Yəni turanimasiya vasitəsilə standart bir turmalı canlandırsaq, istehlak edilən hər vahid malın marjinal faydası mənfi dəyərə düşməməkdədir. Digər turmalın təmin etdiyi marjinal fayda isə istifadə edilən malın miqdarı artdıqca getdikcə azalmaqdadır. Məsələn, günəşdən hər gün istifadə edən insan gün keçdikcə marjinal faydası da azalmaqdadır. Marjinal faydanın mənfi dəyərə düşməməsi üçün turmalın faydalılıq əlçatanlıq xüsusiyyətlərinə malik olması lazımdır. Turmalın bu xüsusiyyətlərə malik olması üçün animasiya xidmətlərinin rolu əvəzedilməzdir. Turizm sənayesində toplam və marjinal fayda təhlili ilə animasiya xidmətlərini istifadə etməklə zəruriliyini sübut etmiş olduq. Nəticədə, animasiya fəaliyyətinin təşkil olunması turizm müəssisələrində heç bir mənfi təsirinin olmadığı açıq şəkildə görülməkdədir. Turizm müəssisələrində animasiya xidmətləri vasitəsilə olan canlanma turistləri emosional və zehni sakitləşdirir, gün ərzindəki mənfi enerjinin verdiyi gərginliyi aradan qaldırır, əyləncə zamanı turistlərdə həyat eşqi güclənir, uğur qazanma, yaradıcıllıq, kreativlik xüsusiyyətləri artırmaq, turistlərə bilavasitə və ya dolayı animasiya canlanlandırmaları çoxdur.

Təkliflər

Ölkəmizdə animasiya xidmətlərindən turizm müəssisələrində mütəmmadi olaraq doğru istifadə olunarsa animasiya fəaliyyətinin təşkil etdiyi müsbət təsirlərdən misal göstərə bilərik:

1. Təzə iş yerlərinin açılmasına səbəb olur.
2. Animasiya fəaliyyəti turmala faydalılıq və cazibə gətirərək canlanır.
3. Ölkə imici ilə yanaşı müəssisə imici də formalaşır.

4. Turizm müəssisələrində animasiya əlavə xidmət olaraq təqdim olunur və müəssisənin daha hərəkətli olmasına şərait yaradır.
5. Müəssisə üçün animasiya fəaliyyəti marketinq vasitəsi kimi istifadə edilir.
6. Məhsul çeşidliliyi ilə rəqabətə dayanıqlılığını yüksəldərək turizm tələbinin artmasına da müsbət təsir göstərir.

Ədəbiyyat

1. Azərbaycanda ixtisaslaşdırılmış turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi.
2. B.Ə.Bilalov.Turizm fəaliyyətinin tənzimlənilməsi.Dərslik.Bakı-2006 280 səh.
3. Növrəsli T.N. Turizm biznesində animasiya xidmətlərinin zəruriliyi. Turizm və qonaqpərvərlik tədqiqatları beynəlxalq jurnal. İl 5, Say 1, Bakı, 2017, səh.98-108
4. Növrəsli T.N. Turanimator. Təlim materialları. Bakı-2018, 288 səh.
5. Növrəsli T.N. Unanimasiya. Dərslik. Bakı: "Zərdabi LTD" MMC Nəşriyyat poliqrafiya müəssisəsi, 2018, 168 səh.
6. Turizmin Əsasları. Dərs vəsaiti/müəllif kollektivi. 6.5-ci bölüm «Əyləncə sənayesinin və animasiyanın təşkili». Bakı: "QHT Nəşriyyatı", 2015, 496 səh.
7. https://dergipark.org.tr/tr/pub/makuiibf/issue/41626/442966
8. https://www.sharmountain.com/images/dokumenti/training-for-tour-guides

Hacı QASIMLI
Bakı Dövlət Universiteti
doktorant
Haci_qasimli@list.ru

TURİZM SAHƏSİ ÜZRƏ SƏNƏD-İNFORMASİYA RESURSLARININ TİPOLOGİYASI

TYPOLOGY OF DOCUMENT-INFORMATION RESOURCES IN THE FIELD OF TOURISM

ТИПОЛОГИЯ ДОКУМЕНТАЛЬНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В СФЕРЕ ТУРИЗМА

Xülasə: Məqalədə turizm üzrə sənəd axınının tiplərə bölünməsində bir sıra əlamətlərin (məzmun, məqsəd təyinatı, oxucu təyinatı, sənədin formaları və ya növləri və s.) məzmununa uyğun olaraq həyata keçirilməsinin vacibliyindən bəhs olunur. Eyni zamanda qeyd olunur ki, məqsəd təyinatında turizm üzrə sənəd axının təbəqələşməsinə xüsusi diqqət verilməlidir. Bu zaman iki prosesi nəzərdə tutmaq lazımdır: 1) sənədlərin istehsal prosesi; 2) sənədlərin istifadə olunması prosesi. Məqalədə sənəd axınının ayrılmasında turizm sahəsinə dair biblioqrafiyanın formalaşmasında başlanğıc sayılan əsas kateqoriyalardan biri olan turizm fəaliyyətin tətbiq edilməsidir.

Açar sözlər: Turizm, sənəd-informasiya resursları, tipologiya, nəşr, məqsəd təyinatı, sənəd, biblioqrafiya, elmi ədəbiyyat, soraq-məlumat ədəbiyyatı, elmi-kütləvi ədəbiyyat, tədris ədəbiyyatı, seriyalı nəşrlər.

Abstract: The article talks about the importance of implementing a number of characteristics (content, purpose, readership, forms or types of documents, etc.) in dividing the flow of tourism documents into types. At the same time, it is noted that special attention should be paid to the stratification of the document flow on tourism in goal setting. At this time, it is necessary to consider two processes: 1) document production process; 2) the process of using documents. In the article, the application of tourism activity, which is one of the main categories considered as the starting point in the formation of the bibliography on the field of tourism, in the separation of document flow.

Keywords: Tourism, document-information resources, typology, publication, goal setting, document, bibliography, scientific literature, inquiry-information literature, scientific-mass literature, educational literature, serial publications.

Абстракт: В статье говорится о важности реализации ряда характеристик (содержание, цель, читательская аудитория, формы или виды документов и др.) при разделении потока туристских документов на виды. При этом отмечается, что при постановке целей особое внимание следует уделить стратификации документооборота по туризму. В настоящее время необходимо рассмотреть два процесса: 1) процесс изготовления документа; 2) процесс использования документов. В статье рассматривается применение туристической деятельности, которая является одной из основных категорий, рассматриваемых в качестве отправной точки при формировании библиографии в сфере туризма, при разделении документооборота.

Ключевые слова: Туризм, документально-информационные ресурсы, типология, публикации, целеполагание, документ, библиография, научная литература, справочно-информационная литература, научно-массовая литература, учебная литература, серийные издания.

Giriş

Turizm sahəsinə dair sənəd anlayışı fundamental xarakter daşıyır. Bu anlayış real mövcud olan predmetlərin əlamətlərini ifadə edir. Onlar təcrübi fəaliyyətin əsas obyektləri olub, turizm sahəsinə dair sənəd informasiyalarının hazırlanması, toplanması, analitik-sintetik emalı, axtarışı, yayılması və istifadəsi proseslərinin həyata keçirilməsinə xidmət edir. "Sənəd" anlayışı ictimai fəaliyyətin bütün sahələrində geniş istifadə olunur. Demək olar ki, sənədlə bağlı olan hər bir bilik sahəsində "sənəd" anlayışının bir və ya bir neçə məna versiyası vardır. Bu da həmin sahənin sənədin müəyyən statusuna üstünlük verməsilə bağlıdır. Məsələn, sənəd anlayışı informatikada, kitabxanaşünaslıqda, biblioqrafiyaşünaslıqda, muzeyşünaslıqda, arxivşünaslıqda, kitabşünaslıqda, turizm fəaliyyət sahələrində həmçinin bu sahələrin təcrübi fəaliyyət sferalarında (məsələn, kitabxana işi, muzey işi, turizm müəssisələri, turizm informasiya mərkəzləri və s.) müxtəlif cəhətlərdən başa düşülür. Buradan da "sənəd" anlayışının çoxmənalı (polisemik) olması və buna görə də sənəd-kommunikasiya sferasında çalışan mütəxəssislərin ünsiyyətində və fikir mübadiləsində çətinlik yaratması real faktdır. "Sənəd" anlayışının ümumi mənasının təyini sosial informatikanın nəzəri problemlərindən biri kimi hələlik həll edilməmiş qalır.

Turizm üzrə sənəd-informasiya resurslarının öyrənilməsində əsas məsələlərindən biri – turizm sahəsi üzrə üzrə təbəqələşmə problemidir. Bu problemi biblioqrafik informasiya mənbələrinin, başqa sözlə desək sənədlərin seçilməsinin ən əsas proseslərindən birinə tətbiq etməklə nəzərdən keçirilməliyik.

Turizm üzrə sənəd axının ayrılması bir sıra əlamətlərin (məzmun, məqsəd təyinatı, oxucu təyinatı, sənədin formaları və ya növləri və s.) məzmununa uyğun olaraq həyata keçirilməlidir. Məqsəd təyinatında turizm üzrə sənəd axının təbəqələşməsinə xüsusi diqqət verilməlidir. Bu zaman iki prosesi nəzərdə tutmaq lazımdır: 1) sənədlərin istehsal prosesi; 2) sənədlərin istifadə olunması prosesi.

Sənəd axının ayrılmasında turizm sahəsi üzrə biblioqrafiyanın formalaşmasında başlanğıc sayılan əsas kateqoriyalardan biri olan turizm fəaliyyətinin tətbiq edilməsidir.

Turizm üzrə sənəd axının formal xüsusi aspektdə ayrılması kitab axını, kiçik məqalələr, paraqraflar üzrə düzəlmiş maddələr, nəşr olunmuş və nəşr olunmayan sənədlər kimi əsas istiqamətdə həyata keçirilir. Qeyd edək ki, hazırda ölkəmizdə turizm sahəsinə dair ədəbiyyat nəşr edən çoxlu sayda (dövlət və ya özəl) idarələr və nəşriyyatlar fəaliyyət göstərir.

Yuxarıda qeyd etdiyimiz kimi, turizm üzrə sənəd axını formal görünən aspektdə ayırmaq olar: kitab axını, məqalə axını, nəşr olunmamış və nəşr olunmayan sənədlər. Bu zaman nəzərə almaq lazımdır ki, turizm üzrə sənəd axının ayrılmasının bütün əlamətləri vəhdət təşkil edir və qarşılıqlı əlaqədədirlər. Hər bir sənədin müəyyən məzmunu, məqsədli təyinatı, oxucu təyinatı var, müəyyən tipli ədəbiyyata və nəşr növünə aiddir. Buna görə də təyin edilən aspektdə sənəd axının ayrılması zamanı materialın təkrarlanmasından qaçmaqdan ötrü öyrənmək üçün onun adekvat, başqa sözlə desək tam uyğun hissəsi təklif edilir. Məsələn, kitab axınının onun məqsəd təyinatına görə ayrılması üçün turizmə dair ədəbiyyat tipinin ümumi xarakteristikası təklif edilir.

Turizm sahəsində bu əsas qrupları ayırmaq olar: 1) sənəd informasiya istehlakçıları; 2) biblioqrafik informasiya istehlakçıları; 3) faktoqrafik informasiya istehlakçıları [1]. Bunların ayrılmasında əsas meyar – informasiyanın adekvat, başqa sözlə desək uyğun növləri: sənəd, biblioqrafik, faktoqrafik informasiya istehlakçıları. Hər bir informasiya tələbatı növləri içərisində peşəkar və qeyri-peşəkar informasiya istehlakçısı ayırmaq olar. Turizm sahəsində informasiya tələbatının ayrılması probleminin araşdırılması biblioqrafik təminat metodikası və biblioqrafik xidmət üçün ən mühüm amil sayılır. Turizm sahəsində biblioqrafik tələbatların formalaşmasına diqqət yetirmək xüsusi əhəmiyyət kəsb edir [2].

Əsas hissə. Turizm üzrə sənəd-informasiya resurslarının tipləri içərisində birinci yeri elmi ədəbiyyat tutur. **Elmi ədəbiyyat -** Elmi-tədqiqat ədəbiyyatının əsas janrları monoqrafiyalar, ümumiləşdirici əsərlər, məqalə topluları, turizm sahəsi üzrə tədqiqat aparan görkəmli alimlərin seçilmiş əsərləridir. Turizm sahəsində elmi tədqiqatların tematikası müasir mərhələdə ictimai və humanitar elmlərin qarşısında duran vəzifələrlə şərtləndirilir və o çox müxtəlifdir. Hazırki vaxtadək turizmin tarixi, turizm və marketinq, turizm menecmenti, turizm sahəsində qiymətqoyma siyasəti, yerli turizm, beynəlxalq turizm və s. kimi aktual məsələlərə dair monoqrafiyalar və ümumiləşdirici əsərlər nəşr olunmuşdur.

Turizmə dair elmi-kütləvi ədəbiyyat. Turizmə dair nəşrlərin tematikası müxtəlifdir: müasir turizmın mahiyyəti və onun mənbələri, turizm iqtisadiyyatla sıx bağlı olduğu üçün həmçinin qeyd edə bilərik: müasir bazarın strukturu, bazar şəraitində maliyyə-pul sisteminin hərəkəti və tənzimlənməsi, iqtisadi qanunların təsir xüsusiyyətləri, maddi nemətlərin yaradılma prinsipləri, cəmiyyətdə əməyin, əmək, əmək vasitələrinin rolu, mülkiyyətin müxtəlif formaları şəraitində iqtisadi maraqların xüsusiyyətləri, ictimai münasibətlərin yenidən qurulmasında insanın rolu, iqtisadi kateqoriyalar və s.-in mahiyyətinin aydınlaşdırılması.

Turizmə dair tədris ədəbiyyatı. Dərsliklər və dərs vəsaitlərinin nəşri xüsusi əhəmiyyətə malikdir. Ölkəmizdə bu cür ədəbiyyat dövlət və özəl nəşriyyatlar tərəfindən işıq üzü görür. Turizm sahəsinə dair tədris ədəbiyyatını janrlara görə dərsliklərə, dərs vəsaitlərinə, mühazirələrə ayırmaq olar [4]. Tədris ədəbiyyatının müxtəlif janrları yeni şəraitdə bazar Turizmi, əmək hüququ, əhalinin məşğulluğunun hüquqi təmin edilməsi, kommersiya və başqa müəssisələrin fəaliyyətinin hüquqi aspektləri, təsərrüfat, müqavilə, ticarət, sığorta hüquqları, xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsi, beynəlxalq bank hesabatları, mühasibat uçotu və s. əsasında nəşr olunur.

Siyasi iqtisad üzrə (İqtisadi nəzəriyyə), xüsusi və sahəvi iqtisadi fənlər üzrə tədris ədəbiyyatı nəşr olunur. Bu ədəbiyyatların əksəriyyəti Azərbaycan dilində, müəyyən hissəsi rus, çox az bir qismi, ingilis, alman dillərindədir. Tərcümə ədəbiyyatı içərisində biznesmenlər, bankirlər, xarici partnyorlarla işləyənlər üçün sənədlərdən, (bank korrespondensiyaları (yazışmaları), iş məktubları, telekslər, kontraktlar, maliyyə sənədləri və s.) baş çıxarmağa kömək edir.

Soraq ədəbiyyatı. Turizmə dair soraq ədəbiyyatını iki qrupa bölmək olar:

1) iqtisadi sferada istehsal olunan ədəbiyyat;

2) təsərrüfat təcrübəsi sferasında istehsal olunan ədəbiyyat.

Soraq ədəbiyyatının differensiasiyasının əsas meyarı məqsəd təyinatıdır. O oxucu təyinatlı da ola bilər. Soraq ədəbiyyatının əsas janrları ensiklopediyalar, lüğətlər, soraq kitabçaları, iqtisadi hadisələr və faktlar xronikası, biznes-kartlar və s.-dən ibarətdir.

Statistik nəşrlər. Müasir şəraitdə statistikanın rolu daim artmaqdadır. Statistika elə bir informasiya verir ki, indiki vaxtda alim, siyasətçi, diplomat və b. onsuz keçinə bilməz.

Quruluşca statistika bir sıra sahələrdən ibarətdir. Bunlar onun tarixi inkişaf prosesində ayrılmışlar. Bu, hər şeydən əvvəl statistikanın ümumi nəzəriyyəsidir. O ictimai hadisələrin statistik tədqiqinin ümumi prinsipləri və qaydalarını şərh edir, statistikanın daha "ümumi" göstəriciləri haqqında anlayış verir. Ən mühüm ümumiləşdirici elmlər iqtisadi-ictimai statistikadır. İqtisadi statistika iqtisadi göstəricilərin şərhi, ictimai statistikanın vəzifələrinə isə ictimai həyatın müxtəlif sahələrinə dair göstəricilərin işlənib hazırlanmasıdır. Səviyyədə iqtisadi və ictimai statistikanın bir sıra sahələrini (sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə, tikinti, maliyyə, əmək statistikası, mədəniyyət, elm, təhsil, səhiyyə, hüquq, və s.) ayırmaq olar. Sahə statistuk elmlərin vəzifələri adekvat sahələrin sta-

tistik göstəricilərinin işlənib hazırlanmasından ibarətdir. Statistika bilik və praktiki fəaliyyətin müxtəlif bilik sahələrinə də sirayət edir. Bu statistikaya dair sənəd axınının xüsusiyyətlərinə ciddi təsir göstərir və onun informasiya təminatının spesifikasını yaradır.

Statistika məlumatlarının iki əsas qrupunu fərqləndirmək olar [5]:

1) İctimai institutların, müəssisələrin, idarələrin vəzifələrini reallaşdırmaq məqsədilə dövlət ehtiyatları üçün toplanan məlumatlar aiddir.

2) Müxtəlif yarışmalar, cari statistika məlumatları aid edilir. Statistik materiallarının toplanması və işlənməsi statistika elminin qaydalarına uyğun olaraq adekvat aspektdə həyata keçirilir. Statistika materialları, cədvəlləri, məcmuələri statistik materiallara aiddir; bunlar Turizmi öyrənmək üçün ən mühüm mənbələrdir və bu sahədə elmi-tədqiqat və praktiki fəaliyyət üçün əhəmiyyət kəsb edir. Statistik materiallar əsasında Turizmə dair çoxlu soraq ədəbiyyatı işlənib hazırlanır. Statistik materialların nəşrinin əsas növü statistika məcmuələridir (toplularıdır).

Statistik nəşrlər iqtisadi ədəbiyyatın ən spesifik tiplərindən sayılır. Bu Turizmə dair sənəd axınında mühüm və müstəqil istiqamətdir. Statistikanın bütün inkişaf mərhələlərində statistik nəşrlərə çox böyük diqqət verilir.

Statistik nəşrlərin materialları iqtisadi təcrübədə, xüsusilə xalq təsərrüfatının idarə edilməsində hərtərəfli tətbiq edilir. Ölkəmizdə iqtisadi rəqəmlərə ümumxalq marağı fasiləsiz olaraq artır.

Ölkəmizdə çoxlu miqdarda statistik nəşrlər çap olunur. Bu işlər dövlət statistika orqanlarının, müəssisə statistik orqanlarının statistik nəşrləri, müxtəlif elmi proqramların və seçmə tədqiqatların əsasında alınmış statistik nəşrlər – monoqrafiyalardır.

Statistik nəşrləri əlamətlərinə görə: məzmununa, nəşr formasına və dövriliyinə görə, ərazi üzrə yerləşməsi və mənsubiyyətinə görə fərqləndirmək olar. Bunları əsasən qeyd olunan aspektlərdə şərh etmək mümkündür [5]:

1) tarixin yekunu kimi;
2) müasir təcrübənin nailiyyəti kimi;
3) gələcəyə xidmət kimi.

Ölkə statistikasının tarixinə geniş problemlər mövcuddur. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) statistikanın təşkili tarixinin və metodologiyasının tədqiqi;
2) statistika elmi və təcrübəsinin inkişaf tarixi;
3) statistika tarixi;
4) statistika ədəbiyyatının inkişaf tarixi.

Statistikaya dair sənədlərin bu növləri vardır:

1) dövlət statistikasına dair qanunvericilik aktları;
2) statistikanın müşavirə, konfrans və qurultaylarının sənədləri;
3) statistika işlərinin planları;
4) yarışmalar eynivaxtlı və seçkili tədqiqatların keçirilməsi üçün statistik hesablamalar və sənəd formaları.

Statistik nəşrləri aşağıdakı əsas istiqamətlərə ayırmaq olar:

1) ümumi xarakterli statistik nəşrlər (bütövlükdə xalq təsərrüfatının inkişafına dair məlumatlar olan nəşrlər);
2) sahəvi və tematik statistik nəşrlər;
3) Azərbaycan dövlət orqanlarının, vilayət, ölkə və şəhərlərinin statistik nəşrləri;
4) dövri statistik nəşrlər.

Seriyalı nəşrlər. Dünya ölkələrində nəşriyyatların formalaşması və inkişafı ilə bərabər kitabların seriyalarla buraxılması, onların formalaşması və inkişafı da həyata keşirilmişdir. Kitabın seriyalarla buraxılmasına nəşriyyatlar həmişə diqqət və qayğı ilə yanaşmışlar. Çünki kitabın seriyalarla buraxılması bir neçə cəhətdən əhəmiyyətlidir. Hər eydən əvvəl kitabın seriyalarla buraxılması kitab

nəşri mədəniyyətinin göstəricilərindən biridir. İstənilən ölkədə müxtəlif elm və bilik sahələrinə dair müxtəlif oxucu qruplarını nəzərdə tutan və çap edilən kitab seriyaları, onların inkişafı həmin ölkədə, həmin xalqda kitab nəşri mədəniyyətinin inkişaf səviyyəsini göstərən amillərdən biridir. Çünki kitabların seriyalarla buraxılışı kitab tərtibatının gözəlləşməsinə, yaxşılaşmasına və oxucular tərəfindən rəğbətlə qarşılaşmasına və nəhayət kitabın beynəlxalq nüfuzunun artmasına əsas olan amillərdən biridir. Digər tərəfdən kitabların seriyalarla buraxılışları kitabın müəyyən oxucu qrupları üçün çap edildiyini göstərir və kitabın geniş yayılmasına, təbliğinə əsas olur .

Kitabın seriyalarla buraxılışlarının həm də, ayrı-ayrı elm sahələri üzrə aktual mövzulara dair materialların öyrənilməsinə və yayılmasına imkan verir. Nəticədə müəyyən oxucu qrupunu nəzərdə tutan kitabların bədii tərtibatı eyniləşir, yəni hər hansı bir seriyada yüzlərlə eyni formatda, eyni bədii tərtibatda kitablar meydana gəlir və yayılır. Buna görə də nəşriyyatlar, o cümlədən Azərbaycan nəşriyyatları, yarandıqları fəaliyyət göstərdikləri ilk dövrlərdən kitabların seriyalarla buraxılmasına xüsusi diqqət yetirmişlər. Bu baxımdan da Turizmın aktual məsələlərinə dair kitabların seriyalarla buraxılması olduqca əhəmiyyətlidir.

Seriyalarda görkəmli xarici müəlliflərin daha məşhur praktiki, nəzəri, tədris və kütləvi əsərləri nəşr olunması informasiyanın öz oxucusuna çatması üçün məqsədyönlü həyata keçirilən nəşr mədəniyyətidir. Lakin nədənsə Turizmə dair əsərlərin seriyalarla nəşr edilməsinə ölkə nəşriyyatları tərəfindən önəm verilmir [3].

Turizm sahəsi üzrə informasiya tələbatının ödənilməsində əsas meyar bu sahə üzrə sənəd axının öyrənilməsidir. Turizm sahəsi üzrə sənəd axını oxucuların sorğuları üzrə informasiya axtarışını təmin edən mütəxəssislərin, bələdçilərin, biblioqrafın, informasiya tələbatçılarının və kitabxanaçıların peşə fəaliyyətinin obyektidir. Axın həcmcə qeyri-məhdud, məkan baxımından çox geniş yayılmış və bəşəriyyətin tarix boyu yaratdığı sərvətləri əhatə edir. Axın alim və mütəxəssislər, yaradıcı insanlar, müxtəlif səviyyəli təşkilatlar, nəşriyyatlar və yayım müəssisələri tərəfindən zənginləşdirilir və əhalinin müxtəlif qrupları tərəfindən istifadə olunur. Turizm sahəsi üzrə sənəd axını-daim inkişaf edən, yeniləşən, məzmun etibarilə bir-biri ilə əlaqədar olan sənədlərdir və bizi əhatə edən xarici aləm haqqında biliyin mühafizəsi, toplanması və ötürülməsinin ən yaxşı vasitəsidir. Turizm sahəsi üzrə sənəd axını informasiya cəmiyyətinin əsas elementi hesab edilir. Peşəkar məsələlərin effektiv həlli üçün mütəxəssis sənəd axınının inkişaf qanunauyğunluqlarını və strukturunu bilməlidir. O, sənəd axınında dinamik prosesləri xarakterizə edən göstəricilərin müqayisəsi və hesablanmasına dair yenilikləri bilməlidir. Sənəd axınının tətbiqi tədqiqatlarının nəticələri iki əsas istiqamətdə istifadə oluna bilər:

Nəticə. Apardığımız araşdırmalar nəticəsində gəldiyimiz qənaətlərdən biri də budur ki, ölkəmizdə turizm sahəsinə dair müdafiə olunmuş dissertasiyalar barədə biblioqrafik göstərici tərtib etmək (mövzular və dövrlər üzrə) və bu tərtib olunmuş elmi-köməkçi vasitə ilə istənilən informasiyanı əldə etmək əlverişli olar. Bunun üçün dövlət və özəl nəşriyyatlar, həmçinin kitabxanalar müəyyən tədbirlər həyata keçirməlidir.

Tədqiqatlar nəticəsində məlum olur ki, ökəmizdə turizmə dair müxtəlif istiqamətli informasiya əldə etmək üçün kitablar, dövri mətbuat orqanlarında dərc edilmiş məqalələr, elektron və izo nəşrlərə müraciət etmək mümkündür. Bu nəşrlər içərisində təbii olaraq, kitablar birinci yerdə dayanır. Nəticə olaraq qeyd etmək olar ki, sovetlər dönəmindən fərqli olaraq müstəqillik illərində turizmə dair kitablar ad və tiraj etibarı ilə daha çox nəşr edilir. Müəyyən çatışmazlıqlar var ki, bunun üçün həlli yolları araşdırılmalı, yeni mexanizmlər tətbiq edilməlidir. Bunları belə qeyd etmək olar:

- Turizmə dair nəşrlərin çapını həyata keçirən isxtisaslaşmış nəşriyyatların yaradılması;
- Nəşriyyatların tərkibində turizmə dair nəşrləri çapa hazırlayan şöbənin yaradılması;
- Sahə üzrə ixtisas redaktorlarının hazırlanması;
- Turizmə dair dissertasiyaların, avtoreferatların ayrıca biblioqrafik göstəricisinin nəşr edilməsi;
- Müəyyən mövzular üzrə elektron nəşrləri özündə əhatə edən ayrıca saytların yaradılması;
- Turizmə dair nəşrlərin tipoloji bölgüyə uyğun qruplaşdırılaraq ayrıca göstəriciyə daxil edilməsi və s.

Ədəbiyyat

1. Abdullayeva, A. "Azərbaycanda turizm və onun təbliğində kitabxanaların rolu." Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası,-2011.-101 s.
2. Əliyev, Z.H. Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir // – Bakı: Kitabxanaşünaslıq və biblioqrafiya, –2004. №1, – s. 82-92.
3. İsmiyev, A. Turizm sektoru davamlı inkişaf yolunda. / A.İsmiyev // Mədəniyyət - 2011 .-26 yanvar .- S. 12.
4. Soltanova, H. "Azərbaycan respublikasında turizm və onun inkişafı", Bakı: AZTU nəşriyyatı,-2015.-475 s.

Rus dilində

5. Долинская, Л.М. Информационное обеспечение туризма // "Законы России: опыт, анализ, практика", N 4, апрель 2010 г. – 17 с.

Ühəyna VALEHZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti
müəllim
uheyna.valehzada@atmu.edu.az

Səbinə CUMAZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti
müəllim
sabina.cumazada@atmu.edu.az

YENİ İNFORMASİYA TEXNOLOGİYALARININ VƏ İNNOVASİYALARIN TURİZM İŞİNİN TƏŞKİLİNDƏ ROLU

РОЛЬ НОВЫХ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ И ИННОВАЦИЙ В ОРГАНИЗАЦИИ ТУРИСТИЧЕСКОГО БИЗНЕСА

THE ROLE OF NEW INFORMATION TECNOLOGIES AND INNOVATIONS IN THE ORGANIZATION OF TOURISM BUSINESS

Xülasə: Rəqabət istehsalçı ilə istehlakçı arasında keçən nəticə olaraq mal və xidmət qiymət və miqdarına təsir edən hadisədir. İqtisadi rəqabət ticarət artırmaga səbəb olur. Xarici ticarətin yaxşılaşdırılması, sektorların inkişafı, istehsal texnologiyalarının yenilənməsi rəqabətlə bağlıdır. Dünyada rəqabət gücü yüksək olan ölkələr ən demokratik ölkələr sayılmaqdadır. Sektorun rəqabət gücünü artırmaq üçün enerji, nəqliyyat telekomunikasiya ile bağlı infrastruktur inkişafı, işçi qüvvəsinin təhsili və keyfiyyətini artırma, kiçik və orta müəssisələrin inkişafı, makro iqtisadi mühitin daha yaxşılaşdırılması, dövlətin rolunun zəiflədilməsi, beynəlxalq sərbəst ticarətə daxil olma, müəssisələrin idarə edilməsinin yaxşılaşdırılması ilə yanaşı ən son texnologiyalardan istifadə də mühüm əhəmiyyət kəsb edir. Məqalədə ölkə iqtisadiyyatının inkişafında önəmli rol oynayan turizm sənayəsində informasiya texnologiyalarının və innovasiyaların tətbiqi və onun sözügedən sektora təsiri araşdırılmışdır.

Açar sözlər: turizm, informasiya texnologiyaları, innovasiyalar, inkişaf, sosial media

Абстракт: Конкуренция – это событие, влияющее на цену и количество товаров и услуг в результате перехода между производителями и потребителями. Экономическая конкуренция ведет к увеличению торговли. Улучшение внешней торговли, развитие отраслей, обновление технологий производства связаны с конкуренцией. Страны с высокой конкурентоспособностью в мире считаются самыми демократичными странами. В целях повышения конкурентоспособности сектора, развития инфраструктуры, связанной с энергетикой, транспортом и телекоммуникациями, повышения уровня образования и качества рабочей силы, развития малых и средних предприятий, дальнейшего улучшения макроэкономичес-

кой среды, ослабления роли государство, вступая в международную свободную торговлю, совершенствуя управление предприятиями, а также максимально используя новейшие технологии. В статье рассматривается применение информационных технологий и инноваций в туристической отрасли, играющей важную роль в развитии экономики страны, и ее влияние на указанный сектор.

Ключевые слова: туризм, информационные технологии, инновации, развитие, социальные медиа

Abstract: Competition is an event that affects the price and quantity of goods and services as a result of the transition between producers and consumers. Economic competition leads to increased trade. The improvement of foreign trade, the development of industries, the renewal of production technologies are associated with competition. Countries with high competitiveness in the world are considered the most democratic countries In order to improve the competitiveness of the sector, develop the infrastructure related to energy, transport and telecommunications, improve the level of education and the quality of the workforce, develop small and medium-sized enterprises, further improve the macroeconomic environment, weaken the role of the state, entering into international free trade, improving enterprise management, and making the most of the latest technology. In order to improve the competitiveness of the sector, develop the infrastructure related to energy, transport and telecommunications, improve the level of education and the quality of the workforce, develop small and medium-sized enterprises, further improve the macroeconomic environment, weaken the role of the state, entering into international free trade, improving enterprise management, and making the most of the latest technology. The article discusses the use of information technology and innovation in the tourism industry, which plays an important role in the development of the country's economy, and its impact on this sector.

Key words: tourism, information technologies, innovations, development, social media

Giriş

Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyevanın Qarabağa çoxsaylı səfərləri ilə yanaşı qələbədən sonra çəkilmiş Zəfər yolu ilə Azərbaycanın Mədəniyyət paytaxtına müxtəlif beynəlxalq təşkilatların, Azərbaycanda akreditə olunmuş səfirliklərin nümayəndələri, jurnalistlər, vətəndaş cəmiyyəti, diasporanın nümayəndələri və digər şəxslərin səfərləri təşkil olunub. Bu hadisələr 30 illik işğaldan azad edilmiş Qarabağ regionunun bərpasına beynəlxalq investisiyanın cəlb edilməsinə, Azərbaycan həqiqətlərini dünyaya çatdırılmasında, Qafqaz regionunda söz sahibi olan Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasına səbəb olacaq amillərdi. [5, s 83]

44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın rəşadətli ordusu keçilməz yollardan keçmiş, Ohanyan səddini yarmış, sıldırımlı qayalara dırmanmış və öz tarixi torpaqlarına sahib olmuşdur. Azərbaycan ordusunun Şuşaya çatdığı tarixi yol bütün dünyaya səs salmışdır. Bu yol qələbənin rəmzinə və carçısına çevrilmişdir. Zəfər yolunun tikintisinin qısa bir zamanda inşa edilməsi qalib bir xalqın qələbəsinin rəmzidir. Qısa zamanda yüksək texnologiya ilə inşa edilən "Zəfər yolu" ilin bütün fəsillərində, çətin relyef şəraitində, keçilməz dağ yollarının yarılması ilə inşa edilmişdir. 101.5 kilometr məsafədə uzanan yol öz başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistralından götürərək Azərbaycanın Mədəniyyət paytaxtı Şuşa şəhərinə qədər uzanır. 101 kilometrdə yol Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonun ərazisindən keçir və Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Daim xalqının rahatlığını və təhlükəsizliyini düşünən Azərbaycan dövlətinin bu layihəni həyata keçirməsində başlıca məqsədi öz doğma vətənlərinə qayıdan insanların rahatlığının təmin olunması və xalq üçün səviyyəli həyat və yaşayış standartlarının yaradılmasıdır [1, s.59].

Füzuli-Şuşa avtomobil yolu 4 və 6 hərəkət zolaqlı olmaqla iri yaşayış məntəqələrindən, həmçinin Topxana meşəsindən yan keçərək inşa edilmişdir. 101 kilometrlik yolun ilk 48 kilometri 6 hərəkət zolaqlı, 48-84.6 kilometri isə 4 hərəkət zolağından ibarətdir. Yol yatağının eni uyğun olaraq 29.5 və 21.5 metr təşkil edir. Yol boyu inşa edilən tunellərin ümumi uzunluğu 3 kilometr təşkil edir. Füzuli-Şuşa yolunun layihəsinə Mədəniyyət paytaxtının məşhur İsa bulağınadək əlavə 2 kilometrlik ikinci texniki dərəcəli yolun inşası nəzərdə tutulmuşdur. 2 hərəkət zolaqlı olacaq İsa bulağına gedən yol öz başlanğıcını Füzuli-Şuşa magistralının 82-ci kilometrliyindən götürəcəkdir [2, s.77].

İşğaldan azad edilmiş Qarabağ regionunun bərpasının mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsinə ilk vaxtlardan xüsusi diqqət və qayğı göstərilməkdədir. 44 günlük müharibədən 2020-ci ilin noyabr ayında yaradılan "Əlaqələndirmə qərargahı" və onun nəzdindəki "İdarələrarası Mərkəzin İşçi Qruplarından" biri məhz enerji təminatı üzrə məsələlərlə məşğul olurlar. 2022-ci ilin sonuna qədər regionun bütün əraziləri enerji ilə təmin olunmalıdır. Şuşa, Kəlbəcər, Füzuli və Cəbrayılda uyğun olaraq 110/35/10 kV-luq 5 yarımstansiya artıq istismara verilmişdir. Bu yarımstansiyaların ölkənin ümumi enerji sisteminə qoşulması üçün elektrik verilişi xətləri çəkilib. Şuşa şəhərində paylayıcı şəbəkənin qurulması məqsədi ilə 35/10 kV-luq 4MVA gücündə "Daşaltı" yarımstansiyası tikilmiş və istismara verilmişdir. Hazırda Şuşa şəhərində 6 ədəd 35/0.4 kV-luq yarımstansiyanın tikintisi davam etdirilir. [7]

Qarabağ və Şərqi Zəngəzurun "Yaşıl Enerji Zonası" elan edilməsi qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun strateji yanaşmanın məhsuludur. Bu məqsədlə Yaponiyanın TEPSCO şirkəti cəlb edilməklə "Yaşıl Enerji Zonası"nın yaradılması üzrə müfəssəl Konsepsiya hazırlanıb. Baş plan tərtib olunur. Azərbaycanın qərbi sayılan bu bölgədə hidro, günəş, külək, biokütlə, geotermal və digər bərpa olunan enerji potensialının öyrənilməsi, mövcud olan təbii potensialdan

istifadə etməklə külək və günəş stansiyalarının, su anbarlarında, çayların üzərində su elektrik stansiyalarının tikilməsi istiqamətində davamlı araşdırmalar aparılır. Qarabağ və Şərqi Zəngəzur bölgəsi 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ilkin təhlillərə əsasən Şuşada günlük 412 m^3 termal su ehtiyyatlarının mövcudluğu ehtimal olunur.


2021-ci ilin avqustun 29-da Şuşa şəhərində "Qarabağ" hoteli açılmışdır. Hotel 1980-ci ildə inşa edilmişdir, lakin 1992-ci ilin mayında mənfur düşmənlərimizin Şuşanı işğal etməsi nəticəsində hotel dağıdılmış və öz fəaliyyətini dayandırmışdır. 2021-ci ildə cənab Ali Baş Komandan İlham Əliyevin müvafiq tapşırığı ilə otel yenidən bərpa olunmuşdur. Müasir səviyyəyə çatdırılan hoteldə Şuşaya səfər edən turistlərin istirahət etməsi planlaşdırılmışdır. Hoteldə müxtəlif kateqoriyalı otaqlar, restoran, bar, işgüzar görüşlərin və tədbirlərin keçirilməsi üçün konfrans zalı yaradılmışdır.

Qarabağ regionunda dövlət dəstəyinin bariz nümunələrindən biri də "Şuşa" hotel və konfrans mərkəzidir. Tikintisinə 2022-ci ilin əvvəlində başlanılmış hotelin ümumi ərazisi 3 hektar təşkil edir. Bu mərkəz ümumilikdə 154 otaq, həmçinin 400 nəfərlik konfrans zalı, görüş otaqları, restoranlar, mağazalar yerləşəcək. Şuşa hotelinin fasadının üzlənməsi prosesində Şuşa daşından istofadə ediləcəkdir ki, bu da şəhərin tarixi görünüşünü qorumaq məqsədi daşıyır. Hotel şəhərin qədimliyini qorumaq məqsədi ilə tarixən Şuşada mövcud olan karvansaraylar konsepti əsas götürülərək müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib. [3, s. 24]

30 ilə yaxın bir vaxtda Qarabağda yeraltı və yerüstü sərvətlərimizi məhv edən mənfur düşmənlərimiz, həmçinin Qarabağın biosferinə də milyonlarla ziyan vurmuş, biosferi məhv etmişdir. Həmçinin floraya dəyən ziyanın aradan qaldırılması məqsədi ilə Qarabağda kütləvi ağacəkmə aksiyaları keçirilmişdir. Qələbədən keçən bir il müddətindən sonra 44 günlük vətən müharibəsinin şərəfinə Qarabağda 44000 ağac əkildi. Xüsusilə də, prezident və vitse-prezident Şuşada-Cıdır düzündə ağacəkmə prosesində iştirak etdilər.

Bir bölgənin turizm ərazisini ifadə edən turistik bölgə əyrisi ilə, Şuşaya uyğun daxili və xarici turizm tələbini ifadə edən turistik tələb əyrisini iki müstəqil amil olaraq bir qrafikdə göstərdikdə, tarazlıq qiyməti və miqdarına çatmaq mümkündür. [Qrafik 1]

Qrafik 1: Turizm sektorunda qısa müddətdə statistik müvazinat




Şaquli oxda turistik mal və xidmət qiymətlərini, üfiqi oxda isə turistik mal və xidmət miqdarı ilə daxili və xarici turizm tələbini kəmiyyət olaraq ələ aldıqda mövcud turistik təchizat və tələbi ifadə edən qiymət və miqdar əyrilərinin kəsişdiyi E nöqtəsində sektorun müvazinətə gəldiyini görmək mümkündür. Q müvazinət qiymətinin altında Q_1 kimi qiymətdə tələb artıqlığı olmasına rəğmən təchizatın elastik olmayan özəlliyinə görə bu tələb artığına qısa vaxtda cavab verilə bilmir. Q_2 qiymətində isə bir təchizatın artığından söhbət gedir. Bunun nəticəsi olaraq , Q müvazinət qiyməti xaricindəki qiymətlər sektor balansını pozur. Təchizatın artıqlığından danışdıqda turistik mal və xidmətləri təchiz edənlərin daha aşağı


qiymətlərə razı olmaqları, müvazinət qiymətinə təkrar qayıdılmasını şərtləndirəcəkdir. Buna görə də bazar qiyməti bəlli bir səviyyənin ətrafında dönəcək və statistik olaraq bazar qiymətinin normal trendi, müvazinət qiymətini təxmini olaraq verəcək və qiymətin sadəcə təchizat və tələb münasibətləri sonunda ortaya çıxdığı görünəcəkdir. Ortaya çıxan müvazinətin qərarlı olub-olmadığı önəmlidir. Tarazlığa təsir edən dəyişikliklər təkrar tarazlıq qiymətinə doğru meyllənirsə, başqa cür desək, qərarlılıq şərtləri təmin olunursa, qərarlı tarazlıqdan danışıla bilər. [4, s. 128]

Turizmin mövsümilik xarakterindən qaynaqlanan turizm tələbindəki dəyişmələr təchizatın elastik olmayan özəlliyinə görə tarazlıq nöqtəsini dəyişkən tərəflərə çəkir. Şuşada turistik stansiya səviyyəsində bəlli aylarda turizm tələbinin artması (TT_1) bu artışlar qarşısında qısa dönəmdə turizm təchizatını artırmaq mümkün olmadığından qiymətlərin yüksəlməsinə səbəb olacaq və qiymətlər Q_1-ə yüksələcəkdir. (Qrafik 2). Turistik axımların zaman və məkan içindəki qüvvətli konsantrasiyası, mövsümilik özəlliyə sahib turistik stansiyalarda turizmin qısa zamanlı qismən infilyasya təzyiqlərinə yol açmasına səbəb olur. Turizm mövsümi xaricində isə turizm tələbindəki azalma (TT_1) turistik təchizat artığına səbəb olacağından turistik müəssisələrin sezon xaricində qiymət uyğulamalarına və hətta bir qisminin fəaliyyətlərini müvəqqəti dayandırmağa səbəb olur. Turistik mal və xidmət təchizatında (MX_1) sezon xaricində meydana gələn azalma yeni tarazlıq nöqtəsini TN-nə qiymətləri də Q_1-ə çəkəcəkdir. (Qrafik 3)

Qrafik 2: Turizm mövsümündə müqayisəli statistik müvazinat




Qrafik 3: Turizm mövsümü xaricində müqayisəli statistik müvazinat



Daimi turizmdə isə, turistik tələbatın artması qarşısında turizm təchizatını bir miqtar artırmaq mümkündür. [Qrafik 4]

Turistik tələb əyrisi bütünlüklə sağa əyildiyində (TT_1) bir tələb artışını ifadə etdiyindən daimi turizmdə əgər turistik mal və xidmət təchizatında da bir artım yaratmışdırsa, yeni tarazlıq nöqtəsi turistik təchizat əyrisi ilə turistik tələb əyrisinin (TT_1) kəsiştiyi TN_1 nöqtəsində ortaya çıxacaqdır. Artan turizm tələbi qarşısında turizm təchizatını eyni dərəcədə artırmaq mümkün olmadığından tarazlıq qiyməti Q_1-ə tarazlıq miqdarı da M_1-ə yüksələcəkdir. Buna görə də turizm sektorunda uzun vaxtda qiymətlərdə bir yüksəlmə əyrisini görmək mümkündür.

Qrafik 4: Turizm sektorunda daimi statistik müvazinat



Sektor balansının tənzimlənməsində digər bir önəmli məqam qiymət dəyişmələri qarşısında miqdarlarınmı yoxsa miqdarlar dəyişdikcə qiymətlərinmi tənzimləndiyi problemidir. Marshalın analizində qiymət dəyişmələri qarşısında miqdarların tənzimləndiyi Walrasın analizində isə miqdarlar dəyişdikcə qiymətlərin tənzimləndiyini vurğulayırdı. Bu araşdırmaların mübahisəsinə girilməsə də, hər iki araşdırma arasındakı fərqin bir çox vəziyyətdə nəticəyə təsir etmədiyi də məlumdur. [6, s. 202]

Dövlətin turizm sənayesində əsas nəzər yetirdiyi ən vacib xüsusiyyət mövsümilikdür. Qarabağ turizmini daim diqqətdə saxlamağın yollarından biri burada mövsümilik tələb və təklifi araşdırmaq və turizmin inkişafını sürətləndirməkdir. Təhlildən alınan nəticəyə, əsasən, Qarabağ regionunda turizmin mövsümilük problemi özünü göstərir. Qarabağda təbii və antropogen turizm ehtiyatlarının fasiləsiz istifadə edilməsi üçün turizmdən gələn gəlirlərin və turist axınının artırılmasının təşkil edilməsi lazımdır. Turizmdən gələn gəlirlərin yüksək olması məqsədi ilə dövlət Qarabağ iqtisadi rayonunda mövsümiliyi uzatmaq üçün turizm sənayesinə dair tədbirlər planı tərtib etməli, təklifləri dəyərləndirməli, güzəştli tur paketlər təklif etməlidir. Prezident İlham Əliyevin imzaladığı müvafiq fərman və sərəncamlara görə bütün Qarabağda infrastrukturun bərpası və yenidən qurulması işlərinə başlanılmışdır. Həmçinin bu regiona yeni yolların çəkilməsi, Qarabağın bir neçə rayonlarında "Ağıllı kənd", "Ağıllı şəhər" layihələrinin həyata keçirilməsi bu regionda turizmin mövsümiliyini aradan qaldıraraq ilboyu davam edən turizm fəaliyyətinə səbəb olacaqdır.

Ədəbiyyat

1. Xəlilov İ. B. Şuşa rayonunun sosial-iqtisadi inkişafının və ekoloji vəziyyətinin tənzimlənməsi istiqamətləri//- Bakı: "Şuşanın sosial-iqtisadi dirçəldilməsi-Azərbaycanın tərəqqisinin yeni zirvəsidir" UNEC Tədqiqatlar Mərkəzinin İşinin Əlaqələndirilməsi və Təşkili şöbəsi UNEC Qarabağ iqtisadi Araşdırmalar Mərkəzi,-2022- 88-89 s.
2. Musayev A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin perspektivli investisiya imkanları//- Bakı:Elm və İnnovativ Texnologiyalar,- 2022. №20,- s.58-77
3. Hacıyev, F. Ş. İşğaldan azad olunmuş ərazilərə investisiya qoyuluşlarının təhlili və qiymətləndirilməsi//-Bakı: UNECEKSPERT Qarabağ Azərbaycandır!,-2021.-s. 24
4. Növrəsli, T.N. Unanimasiya. Dərslik/ T. N. Növrəsli.- Bakı: "Zərdabi LTD" MMC-, 2018.- 168 s.

5. Zülfüqarlı, M. P. Şuşa: Müxtəsər tarix (1752-2022)/ M. P. Zülfüqarlı.- Bakı: CBS Polyografic production, -2022.- 104 s.
6. Olalı, H. Turizm ekonomisi/ H. Olalı, A. Timur; İzmir: Ofset Matbaacılık 1988.- 356 s.
7. İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib. https://president.az/az/articles/view/55623

Fazil SEYİDLİ
Gəncə Dövlət Universiteti
magistrant
f.seyidli@atmu.edu.az

TƏDRİS PROSESİNDƏ MÜASİR ELEKTRON TƏHSİL TEXNOLOGİYALARINDAN İSTİFADƏ

USE OF MODERN ELECTRONİC EDUCATİONAL TECHNOLOGİES İN THE TEACHİNG PROCESS

ИСПОЛЬЗОВАНИЕ СОВРЕМЕННЫХ ЭЛЕКТРОННЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ В УЧЕБНОМ ПРОЦЕССЕ

Xülasə: Təhsildə müasir elektron təhsil texnologiyalarından istifadə tələbələrin öyrənmə tərzində inqilab etdi və təlim prosesini daha təsirli və səmərəli vəziyyətə gətirib çıxardı. İnteraktiv lövhələr, elektron kitablar və təhsil proqramları kimi müasir elektron təhsil texnologiyalarının mövcudluğu müəllimləri tədris prosesini təkmilləşdirmək üçün istifadə edə biləcəkləri alətlərlə təmin etmişdir. Bu məqalədə tədris prosesində müasir elektron təhsil texnologiyaları, təhsildə texnologiyadan istifadənin üstünlükləri və auditoriyada texnologiyadan istifadə zamanı müəllimlərin qarşılaşdıqları problemlər araşdırılır.
Açar sözlər: tələbə, təhsil, tədris, texnologiya, elektron təhsil texnologiyası

Abstract: Usage of modern electronic education technologies in education made revelution in the students' learning style and lead to more effective and efficient training process. Existence of modern electronic education technologies such as interactive boards, electronic books and education apps provides teachers with tools that can be used for improving education process. In this article, modern education technologies, advantages of using technologies in education and problems that teachers are experiencing during usage of technology in the class analyzed.
Keywords: student, education, teaching, technology, e-learning technology

Абстракт: Использование современных технологий электронного обучения в образовании произвело революцию в способах обучения студентов и сделало процесс обучения более эффективным и действенным. Наличие современных технологий электронного обучения, таких как интерактивные доски, электронные книги и образовательное программное обеспечение, предоставило учителям инструменты, которые они могут использовать для улучшения учебного процесса. В данной статье рассматриваются используемые в учебном процессе современные технологии электронного обучения, преимущества их использования в образовании, а также проблемы, с которыми сталкиваются учителя при использовании данных технологий на уроках.
Ключевые слова: студент, образование, обучение, технология, технология электронного обучения

Müasir dövrdə biz əvvəlki sənaye inqilabı kimi həyatı dəyişən informasiya inqilabına keçirik. Buna görə də tələbələr təhsil müəssisələrində və həyatda tələb olunan mühüm texnologiya bacarıqlarını əldə etməklə yanaşı, akademik olaraq da bilik və bacarıqlarını daha yüksək səviyyəyə çatdırmalı-

dırlar. Bununla belə, müasir elektron təhsil texnologiyası ilə əlaqəli olaraq sübut edilmiş ümumi öyrənmə nəzəriyyələrindən istifadə etməklə, bu yeni öyrənmə tələblərinin çoxuna cavab vermək olar.

Texnologiya tədrisin metodlarını dəyişdirir və tələbələrin necə, nə vaxt və harada öyrənməsindən asılı olmayaraq təhsilin hər mərhələsində müasir elektron təhsil texnologiyası vasitəsi ilə tələbələr fərqli öyrənmə üsullarına yiyələnir, ənənəvi təhsili rəqəmsal təhsilə uyğunlaşdırmaqla öz bilik və bacarıqlarının səviyyəsini daha sürətlə yüksəltməsinə səbəb olur. Bu isə onlara əlavə motivasiya və güc verir. Texnologiya vasitəsi ilə auditoriyadan kənarda resurslara çıxış sayəsində tələbələr problemləri həll edən, tənqidi düşünən, əməkdaşlıq edən və yaradıcı olmaq biliyinə yiyələnir. Texnologiyanın auditoriya otaqlarına uğurla inteqrasiya olunduğu yerlərdə tələbələrdə öyrənməyə həvəs daha qabarıq şəkildə üzə çıxır.[7]

Müəllimlər həmişə öyrənməni tələbələr üçün fərdiləşdirməyə çalışırlar. Texnologiya onlara real vaxtda tələbə datasına, əlavə məlumatlara, tətbiqlərə və s. çıxış əldə etməklə yeni səviyyələrə çatmağa kömək edir. Müasir elektron təhsil texnologiyaları müəllimlərə qarışıq öyrənmə mühitləri yaratmaqla summativ qiymətləndirmələr üçün rəqəmsal alətlərdən istifadə etməyə köməklik göstərir, öyrənmə və tədris üçün yeni modelləri auditoriyalara gətirir.

Müasir elektron təhsil texnologiyalarının müvafiq öyrənmə təcrübələri yaradıcılığa ilham verə bilir, tələbələrə biliklərin öyrənilməsinə məna tətbiq etməyə kömək edər və onları gələcək karyeralarında uğur qazanmalarına şərait yaradar. Müasir elektron təhsil texnologiyalarında kodlaşdırmalar, proqramlaşdırmalar, fiziki hesablamalar və digər hesablama metodları ümumi tələblərə çevrilmişdir. Tələbələr, bu bacarıqları əldə etməklə 21-ci əsr üçün qarşılaşdıqları məsələləri fərqli metodlarla həll edə və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirə bilərlər. [5, S. 87-95.]

Bəzi təhsil müəssisələri köhnə sistemləri müasir sistemlərə dəyişməklə əldə edəcəkləri yeni vizyonlara nail olmağa kömək edəcək cihazlar və texnologiya modellərini seçməkdə çətinlik çəkirlər. Maraqlı tərəflər müvafiq auditoriya səviyyəsində kurrikuluumu, məzmun ehtiyaclarını və texnologiyaların auditoriya daxilində və xaricində necə istifadə olunacağını nəzərə almalıdırlar. Bu, asan məsələ deyil, lakin uyğun rəqəmsal kurikulum və məzmun, qiymətləndirmə tələbləri, idarəolunma variantları, təhlükəsizlik xüsusiyyətləri, texnologiyanın funksionallığı və ümumi sahiblik dəyəri kimi mülahizələr düzgün cihazı seçmək üçün əsasdır. Təhlükəsiz və möhkəm İT infrastrukturu öyrənmə təcrübəsinin əsasını təşkil edir və rəqəmsal məzmunu dəstəkləməklə yanaşı, tələbələrin ümumi məlumatlarını qoruyur. [3, S. 60-67]

Müasir tipli auditoriyalara və təhlükəsiz, güclü İT texnologiyalara fokuslanan ali məktəb infrastrukturu hər bir müəllim və tələbənin elmi təcrübəsinin artırılmasına öz töhvəsini verir. Bütün bunlar tələbələrin uğuruna transformativ və davamlı təsir göstərir.

Müasir elektron təhsil texnologiyalarının tədris prosesindəki üstünlükləri:

Fərdiləşdirilmiş təlim: Fərdiləşdirilmiş təlim, təhsili hər bir tələbənin fərdi ehtiyaclarına, güclü tərəflərinə və üstünlüklərinə uyğunlaşdıran tədris yanaşmasıdır. Son illərdə müasir elektron təhsil texnologiyaları fərdiləşdirilmiş təlim üçün bir çox yeni imkanlar təqdim etmişdir. Müasir elektron təhsil texnologiyalarının fərdiləşdirilmiş öyrənməni dəstəkləməsinin bir yolu adaptiv təlim sistemlərinin istifadəsidir. Bu sistemlər tələbənin güclü və zəif tərəflərini müəyyən etmək üçün alqoritmlərdən istifadə edir və buna uyğun olaraq tədrisin məzmununu və sürətini tənzimləyir. Məsələn, əgər tələbə müəyyən bir konsepsiya ilə mübarizə aparırsa, adaptiv təlim sistemi tələbənin materialı mənimsəməsinə kömək etmək üçün əlavə təcrübə məşqləri və ya izahatlar təqdim edə bilər. Müasir elektron təhsil texnologiyalarının fərdiləşdirilmiş öyrənməni dəstəkləməsinin başqa bir yolu öyrənmə analitikasından istifadə etməkdir. Öyrənmə analitikası tələbələrin necə inkişaf etdiyini daha yaxşı başa düşmək və əlavə dəstəyə ehtiyacı ola biləcək sahələri müəyyən etmək üçün tələbə öyrənmə davranışları və nəticələri haqqında məlumatların toplanması və təhlil edilməsini əhatə edir. Bu məlumat daha sonra təlimatı fərdiləşdirmək və tələbələrin uğur qazanmasına kömək etmək üçün məqsədyönlü müdaxilələr etmək üçün istifadə edilə bilər.

Müasir elektron təhsil texnologiyaları həm də tələbələrə öz sürəti ilə və özünəməxsus şəkildə öyrənmə imkanları yaradır. Məsələn, onlayn kurslar və video dərslər tələbələrə materialı tam başa düşənə qədər lazım olan qədər dəfələrlə nəzərdən keçirməyə imkan verir. İnteraktiv simulyasiyalar və oyunlar tələbələrin motivasiyalı və məşğul olmasına kömək edə biləcək cəlbedici öyrənmə təcrübələri təqdim edir.

Ümumiyyətlə, müasir elektron təhsil texnologiyaları fərdiləşdirilmiş öyrənmə üçün bir çox imkanlar təklif edir. Təlimatları hər bir tələbənin unikal ehtiyaclarına və üstünlüklərinə uyğunlaşdırmaqla, bu texnologiyalar tələbələrin iştirakını, motivasiyasını və nəaliyyətlərini yaxşılaşdırmağa kömək edə bilər. Müasir elektron təhsil texnologiyaları müəllimlərə tədris metodlarını fərdi tələbələrin ehtiyaclarına uyğunlaşdırmağa imkan verir. Təlimdə idarəetmə sistemlərinin köməyi ilə müəllimlər hər bir tələbənin irəliləyişini izləyə və onlara fərdiləşdirilmiş təlim təcrübələri təqdim edə bilər. [4, S. 133-142]

Təkmilləşdirilmiş əməkdaşlıq: Təkmilləşdirilmiş əməkdaşlıq müvəffəqiyyətli öyrənmənin vacib komponentidir və elektron təhsil texnologiyaları əməkdaşlığı bir neçə yolla təkmilləşdirməyə kömək edə bilər. Elektron təhsil texnologiyalarında əməkdaşlığı yaxşılaşdırmaq üçün bəzi təkliflər bunlardır: qrup layihələri, müzakirə lövhələri, oyunlaşdırma, həmyaşıdların rəyi, layihə əsaslı öyrənmə və virtual auditoriyalar.

Qrup layihələri: Elektron təhsil texnologiyaları tələbələr arasında əməkdaşlığı təşviq edən qrup layihələrini asanlaşdırmaq üçün istifadə edilə bilər. Məsələn, Google Sənədlər, Microsoft Komandaları və ya Zoom kimi onlayn platformalar tələbələrə paylaşılan sənəd və ya təqdimat üzərində birgə işləməyə imkan verə bilər.

Müzakirə lövhələri: Müzakirə lövhələri və ya forumlar tələbələri kurs materialları, tapşırıqlar və ya layihələrlə bağlı fikirlərini və perspektivlərini bölüşməyə təşviq etmək üçün istifadə edilə bilər. Bu platformalar əməkdaşlığı asanlaşdıra və tələbələrin bir-birindən öyrənməsinə şərait yarada bilər.

Oyunlaşdırma: Öyrənməni oyuna çevirərək əməkdaşlığı təşviq etmək üçün istifadə edilə bilər. Tələbələri cəlb etmək və onları öyrənməyə həvəsləndirmək üçün adətən xallar, nişanlar və liderlərin lövhələri kimi oyuna bənzər elementlərdən istifadə edilir. Məsələn, viktorina kimi oyunlardan istifadə edərək tələbələr bir-biri ilə rəqabət apara və suallara cavab vermək üçün əməkdaşlıq edə bilərlər.

Həmyaşıdların rəyi: Həmyaşıdların rəyi əməkdaşlığı təşviq etmək və öyrənməni təkmilləşdirmək üçün əla yoldur. Bir-birinin işini nəzərdən keçirməklə tələbələr bir-birindən öyrənə, rəy bildirə və öz işlərini təkmilləşdirə bilərlər.

Layihə əsaslı öyrənmə: Layihə əsaslı öyrənmə tələbələrə öyrəndiklərini auditoriyada tətbiq etmələrini tələb edən real layihələr üzərində birgə işləməklə əməkdaşlıq etməyə kömək edə bilər. Bu yanaşma komanda işi bacarıqlarının formalaşdırılması üçün xüsusilə təsirli ola bilər.

Virtual auditoriyalar: Virtual auditoriyalar ənənəvi auditoriya mühitini simulyasiya etmək üçün istifadə oluna bilər ki, bu da tələbələrə real vaxt rejimində əməkdaşlıq etməyə imkan verir. Zoom, Microsoft Teams və ya Blackboard Collaborate kimi onlayn platformalar canlı müzakirələri, qrup işini və digər birgə fəaliyyətləri asanlaşdırmaq üçün istifadə edilə bilər.

Ümumiyyətlə, elektron təhsil texnologiyaları tələbələr arasında əməkdaşlığı yaxşılaşdırmaq üçün bir sıra imkanlar təqdim edir. Bu vasitələrdən istifadə etməklə, müəllimlər tələbələrlə birlikdə işləməyə və bir-birindən öyrənməyə təşviq edən daha cəlbedici və interaktiv öyrənmə təcrübələri yarada bilər.

Elektron təhsil texnologiyaları tələbələrin həmyaşıdları və müəllimləri ilə əməkdaşlığı asanlaşdırıb. Onlayn müzakirə forumları, sosial media platformaları və digər əməkdaşlıq vasitələrinin köməyi ilə tələbələr bir-biri ilə və müəllimləri ilə ünsiyyət qura, fikirlərini bölüşə və qrup layihələri üzərində daha səmərəli işləyə bilərlər.

İnteraktiv təlim: İnteraktiv öyrənmə adətən müxtəlif rəqəmsal alətlər və texnologiyalar vasitəsilə tələbənin fəal iştirakını əhatə edən təhsilə yanaşm üsullarından biridir. O cümlədən elektron təhsil texnologiyalarında interaktiv təlim müxtəlif formalarda ola bilər. [2, S. 155-156]

Birgə öyrənmə: Qrup müzakirələri və layihələri asanlaşdırmaq üçün onlayn platformalardan istifadə, öyrənənlərə problemləri həll etmək və fikirləri bölüşmək üçün birlikdə işləməyə imkan verir.

Adaptiv öyrənmə: Hər bir fərdi tələbə üçün öyrənmə təcrübəsini fərdiləşdirmək üçün məlumat və alqoritmlərdən istifadə, onlara güclü, zəif və maraqlarına uyğunlaşdırılmış məzmun və fəaliyyətlər təqdim etməklə həyata keçirmək olar.

Əlçatan öyrənmə: Elektron təhsil texnologiyaları ənənəvi auditoriyalara çıxışı olmayan tələbələr üçün təhsili daha əlçatan edib. Onlayn kurslar və virtual auditoriyaların köməyi ilə tələbələr dünyanın istənilən yerində və istənilən vaxtda öyrənə bilərlər.

Bütövlükdə elektron təhsil texnologiyalarında interaktiv təlim, tələbələrə müxtəlif kontekstlərdə məzmunla fəal şəkildə məşğul olmaq və təcrübə bacarıqlarına imkan verməklə öyrənməni daha cəlbedici, fərdiləşdirilmiş və effektiv etmək potensialına malikdir.

İnteraktiv lövhələr: İnteraktiv lövhələr - təqdimatlar, videolar və interaktiv məşqlər kimi rəqəmsal məzmunu göstərən böyük sensor ekranlardır. Müəllimlər auditoriya mühazirələrini təkmilləşdirmək və tələbələri təlim prosesinə cəlb etmək üçün interaktiv lövhələrdən istifadə edə bilərlər.

Təhsil proqramı: Təhsil proqramına tələbələrin öyrənməsini dəstəkləmək üçün xüsusi olaraq hazırlanmış tətbiqlər və proqramlar daxildir. Təhsil proqramlarına misal olaraq dil öyrənmə proqramları, riyaziyyat proqramları və interaktiv elm simulyasiyaları daxildir.

Elektron kitablar: Elektron kitablar ənənəvi dərsliklərin elektron versiyalarıdır və onlara videolar, animasiyalar və interaktivlər kimi multimedia məzmunu daxil ola bilər. [1, S. 36-38]

İnteraktiv lövhələr, təhsil proqramları və elektron kitablar kimi elektron təhsil texnologiyaları təlim prosesini daha cəlbedici və interaktiv etmişdir. Multimedia məzmununun, simulyasiyaların və interaktiv məşqlərin köməyi ilə tələbələr yeni anlayışları daha effektiv öyrənə və məlumatları daha uzun müddət saxlaya bilərlər. [2, S. 155-156]

Tədris prosesində müasir elektron təhsil texnologiyalarından istifadənin çətinlikləri:

Texniki çətinliklər: Müasir elektron təhsil texnologiyalarının istifadəsi müəyyən səviyyəli texniki təcrübə tələb edir və müəllimlər cihazların və proqram təminatının qurulmasında və nasazlıqların aradan qaldırılmasında çətinliklərlə üzləşə bilərlər.

Rəqəmsal uçurum: Bütün tələbələrin texnologiyaya bərabər çıxışının olmamasını əsas gətirsək təhsildə bərabərsizliklər yarada bilər. İmkansız təbəqədən olan tələbələrin internetə və ya elektron cihazlara çıxışı olmaya bilər ki, bu da onların öyrənmə təcrübəsinə mane ola bilər.

Diqqəti yayındıran amillər: Elektron cihazlar tələbələrin diqqətini yayındıra bilər bunun qarşısının alınması məqsədilə müəllimlər tələbələrin cihazlardan yalnız təhsil məqsədləri üçün istifadə etmələrini təmin etməlidirlər. Üstəlik, elektron cihazların daimi istifadəsi gözlərin yorulmasına və digər sağlamlıq problemlərinə səbəb ola bilər.

Xərc: Müasir elektron təhsil texnologiyalarının dəyəri ali məktəblər və təhsil işçiləri üçün, xüsusən də aztəminatlı icmalarda əhəmiyyətli problem ola bilər. Elektron cihazların və proqram təminatının alınması və saxlanması xərcləri bu texnologiyaların auditoriyada istifadəsinə maneə ola bilər.

Tədris prosesində müasir elektron təhsil texnologiyalarından istifadə üçün ən yaxşı təcrübələri aşağıdakı kimi göstərmək olar:

Peşəkar inkişaf: Müasir elektron təhsil texnologiyalarından dərsdə səmərəli istifadə etmək üçün müəllimlər adekvat təlim və peşəkar inkişaf almalıdırlar.

Kurrikuluma inteqrasiya: Elektron təhsil texnologiyaları kurrikuluma elə inteqrasiya edilməlidir ki, təlim məqsədlərini dəstəkləsin və tədris prosesini təkmilləşdirsin.

Qiymətləndirmə: Tələbələrin öyrənməsinin qiymətləndirilməsi və müəllimlərin istifadə etdikləri tədris metodlarının effektivliyi ilə bağlı hər iki tərəfin rəy bildirməsi üçün elektron təhsil texnologiyalarından istifadə edilməsi məqsədəuyğundur.

Əlçatanlıq: Elektron təhsil texnologiyaları sosial-iqtisadi mənşəyindən asılı olmayaraq bütün tələbələr üçün əlçatan olmalıdır. Ali məktəblər və təhsil işçiləri rəqəmsal uçurumu aradan qaldırmaq və texnologiyaya bərabər çıxışı təmin etmək üçün çalışmalıdırlar.

Bu gün Azərbaycanın İKT sahəsindəki fəaliyyəti məhz ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi strateji xətt üzrə uğurla davam etdirilir. 2003-cü il fevral ayının 17-də ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" ölkəmizdə bu sahənin sürətli inkişafına güclü təkan verdi. Cənubi Qafqazda ilk dəfə olaraq qəbul edilmiş bu qlobal strategiya Azərbaycanın İKT sahəsinə xüsusi diqqətini cəmiyyətimizə və bütün dünyaya bəyan etdi. Bütün bunların məntiqi nəticəsidir ki, regionun ən dinamik inkişaf edən ölkəsi kimi Azərbaycan bu gün informasiya-kommunikasiya texnologiyaları sahəsinin genişləndirilməsi üçün böyük imkanlara malikdir.[6]

XXI əsr informasiya cəmiyyətinin yaradılması, zəngin təbii sərvətlərin insan kapitalına çevrilməsi və yüksək intellektual səviyyənin formalaşması baxımından keyfiyyətcə yeni eranın başlanğıcı sayılır. Qloballaşan, daim irəliyə – yeniliyə doğru can atan dünyamızı bu gün ən müasir informasiya və kommunikasiya texnologiyaları – internet, yüksək texnologiyalar və qlobal rabitə imkanları olmadan təsəvvür belə etmək mümkün deyil. Yeni minillikdə bəşər sivilizasiyasını düşündürən ən aktual və təxirəsalınmaz məsələ – telekommunikasiya və informasiya texnologiyaları sahəsində "inqilabi" dəyişikliklər yolu ilə əlçatmaz zirvələri fəth etmək, dövlətlər və xalqlararası zaman və məkan fərqlərini aradan qaldırmaqdır. [6]

Nəticə: Yekun olaraq qeyd edə bilərəm ki, tədris prosesində müasir elektron təhsil texnologiyalarından istifadə edərək öyrənmə səviyyəsinin artırılması, fərdiləşdirilməsi, təlimin interaktivliyi kimi bir çox üstünlükləri var. Bununla belə, potensial çatışmazlıqlar, o cümlədən bəzi tələbələrin özünü idarə etmə çətinliyinin olması və texnologiyaya həddən artıq etibar etmə riski də var.

Bu texnologiyalardan səmərəli istifadə olunmasını təmin etmək üçün onların üstünlüklərini və mənfi cəhətlərini diqqətlə nəzərdən keçirərək ənənəvi tədris metodlarına inteqrasiya etmək lazımdır. Bütün bunları nəzərə alaraq, bizim təhsilin keyfiyyətinin yüksəldilməsi üçün bu texnologiyaların potensialından istifadə etməyi məqsədə uyğun hesab edirəm.

Ədəbiyyat

1. Challenges and solutions when using technologies in the auditory - Amy M. Johnson, Matthew E. Jacovina, Devin G. Russell, and Christian M. Soto Arizona State University. Issue. 2. P. 36-38.
2. Individualized Learning with Technology-Meeting the Needs of High School Students, 2nd Edition - CHRISTINE BERNAT. P.155-156.
3. Panina E.A. Actual issues of digitalization of education in modern conditions // Bulletin of Maykop State Technological University. 2020. Issue. 3. P. 60-67.
4. Tkhakushinov A.K., Bibalova S.A., Siyukhova A.M. Interactive technologies as a means of improving the efficiency of the learning process // Bulletin of Maykop State Technological University. 2019. Issue. 4 (43). P. 133-142.
5. Vaganova O.I. Formation of competence in the possession of modern educational technologies at a university // Amazonia Investiga. 2019. Vol. 8. P. 87-95.
6. www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/78153.htm, Heydər Əliyev-in İKT siyasəti
7. www.intel.com/content/www/us/en/education/technology-in-education-for-learning-and-teaching.html

Şahnaz BAXIŞOVA
Azərbaycan Turizm və Menecment Universiteti
dissertant
s.baxisova@atmu.edu.az
orcid.org/0000-0002-1993-435

AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAF MEYLLƏRİNİN QIYMƏTLƏNDİRİLMƏSİ

ASSESSMENT OF TOURISM DEVELOPMENT TRENDS IN THE REPUBLIC OF AZERBAIJAN

ОЦЕНКА ТЕНДЕНЦИЙ РАЗВИТИЯ ТУРИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Xülasə: Məqalədə Ümumdünya Turizm Təşkilatının statistik məlumatına əsasən, tirizmin dünya iqtisadiyyatında, turizmlə əlaqəli sahəlrin inkişafında rolu təsdiq edilmiş, Azərbaycan Respublikası Dövlət Statistik Komitəsinin statistik məlumatlarına uyğun olaraq turizm sektorunun inkişaf meyilləri təhlil edilərək qiymətləndirilmişdir. Burada, Azərbaycan Respublikası üzrə turizm üçün xarakterik olan sahələrdə yaradılmış əlavə dəyər 2030-cu ilədək proqnozlaşdırılmışdır. Müəyyən edilmişdir ki, işgaldan azad olunmuş ərazilərin bərpası turizm sektorunun inkişafını surətləndirərək, regionun investisiya cəlbediciliyini artırılmaqla ölkə iqtisadiyyatına böyük töhvə olacaqdır.

Açar sözlər: turizm, əlavə dəyər, mənfəət, rentabellik, gəlir, proqnoz, qloballaşma, investisiya

Абстракт: В статье по статистике Всемирной Туристской Организации подтверждена роль туризма в мировой экономике и развитии смежных с туризмом направлений, а также проанализированы и оценены тенденции развития туристической отрасли по статистике Государственный Статистический Комитет Азербайджанской Республики. Здесь прогнозируется добавленная стоимость, созданная в областях, типичных для туризма в Азербайджанской Республике, до 2030 года. В исследовательской работе определено, что восстановление территорий, освобожденных от оккупации, станет большим вкладом в экономику страны за счет ускорения развития туристической сферы и повышения инвестиционной привлекательности региона.

Ключевые слова: туризм, добавленная стоимость, прибыль, рентабельность, доход, прогноз, глобализация, инвестиции

Abstract: The article on the statistics of the World Tourism Organization confirms the role of tourism in the world economy and the development of tourism-related areas, as well as analyzes and evaluates the trends in the development of the tourism industry according to the statistics of the State Statistical Committee of the Republic of Azerbaijan. Here, the value added created in areas typical of tourism in the Republic of Azerbaijan is projected until 2030. The research work determined that the restoration of territories liberated from occupation will be a great contribution to the country's economy by accelerating the development of the tourism sector and increasing the investment attractiveness of the region.

Keywords: tourism, added value, profit, profitability, income, forecast, globalization, investment


Giriş

Müasir dünyada iqtisadiyyatın bütün sahələrində gedən qloballaşma prossesinin surətlə inkişaf edərək bütün əlaqəli infrastrukturun inkişafına birbaşa və dolayı yola təsir göstərən turizm sektorunun inkişaf meyilləri sosial-iqtisadi hadisə kimi mühüm əhəmiyyət kəsb edir. Müasir turizm sosial-iqtisadi inkişafının əsas katalizatoru kimi çıxış edərək, nəqliyyat, rabitə, tikinti, kənd təsərrüfatı, sosial və xidmət

sahələrinin yüksək inkişaf səviyyəsinə əsaslanır ki, bu da son nəticədə onu iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirir. Turizm əsasən bir çox ölkələrin valyuta gəlirləri və beynəlxalq əlaqələrin genişləndirilməsi mənbəyi olmaqla mühüm əhəmiyyət kəsb edir [4,5]. Ümumdünya Turizm Təşkilatının (ÜTT) statistik məlumatına əsasən, turizm dünya iqtisadiyyatının ən gəlirli və dinamik inkişaf edən sahələrindən biri kimi gəlirlilik səviyyəsinə görə, dünyada neftdən sonra ikinci yerdədir. İnvestisiya cəlbedilciliyinə görə də digər sahələrlə müqayisədə turizm sektoru daha yüksək, 75% paya sahibdir [8]. Dünya üzrə ÜDM-in 6%-ni təşkil edən turizm sahəsi bu sektorla əlaqəlisahələrin inkişafınatkan verərək dünya ölkələri üzrə vergi gəlirlərinin 5%-ni təşkil edir [8, 9]. Öz inkişaf səviyyəsi ilə əhalinin məşğulluğunun təmin olunmasında və ÜDM-in formalaşmasında mühüm rol oynayan turizm sənayesi bir çox ölkələrdə dövlət dəstəyi ilə daha dinamik şəkildə inkişaf edir [1]. COVİD-10 pandemiyasınadək dünya üzrə bütün iş yerlərinin 2019-cu ildə 10,6%-ni təşkil edən turizm sektorunda, 2020-ci ildə koronavirus pandemiyası ilə əlaqədar olaraq 62 milyon iş yeri ixtisar edilmişdir ki, bu da ümumi iş yerlərinin 18,5 % azalması deməkdir. Dünya üzrə qlobal ÜDM-də turizmin payı 2020-ciildə 2019-cu illə müqayisədə 4,5 trilyon dollar azalaraq 5,3 %-ə düşmüşdür [8, 9]. 2021-ci ildə isə turizmin ÜDM-də payı 6,1% olmuşdur. Turizm sektorunda dünya üzrə ölkə daxilində səyahət xərcləri 2020-ci ildə 45%, xarici səfərlərə çəkilən xərclər isə 70% azalma ilə müşahidə edilmişdir [8].


1.1 Azərbaycan Respublikasında turizmin inkişaf meyillərinin qiymətləndirilməsi

İqtisadiyyatın digər sahələrinin inkişafında mühüm əhəmiyyət kəsb edən turizm sektoru qloballaşna dünya təsərrüfatında dünyanın bir çox ölkələrində iqtisadi inkişafın sabitliyini təmin olunması və dünya bazarında baş verəən dalğalanma prosseslərindən asılılığı azaltmaq məqsədi ilə iqtisadiyyatın şaxələndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir [7-8]. Iqtisadiyyatın kifayət qədər şaxələndirilməməsi uzunmüddətli iqtisadi geriliyiə səbəb ola bildiyindən, dövlət siyasəti bilavasitə iqtisadiyyatın diversifikasiyasının optimal həddinin müəyyən edilməsinə yönəldilir [2, 3, 6]. Turizm sektorunun, xüsusən də beynəlxalq turizm sahəsinin inkişafına çəkilən xərclər və investisiyaların geri qaytarılma müddətinin digər sahələrlə müqayisədə daha perspektivli hesab edildiyindən, iqtisadiyyatın davamlı inkişafında beynəlxalq turizm mühümin rolu artmaqdadır [1, 3]. Aşağıdakı qrafikdə dünyanın bəzi ölkələri üzrə COVİD-19 pandemiyasınadək olan dövr üzrə 2019-cu ildə turizm sektoru üzrə əldə olunan gəlirin dinamikası göstərilmişdir [7].



Qrafik.1.1 Dünyanın bəzi ölkələrinin turizm sektoru üzrə gəlirləri milyon ABŞ doları ilə
Mənbə. (7) məlumatlarına əsasən tərtib edilmişdir.


Qrafikdən göründüyü kimi 2019-ci ildə ABŞ-da turizm gəlirləri 210707 milyon dollar olmaqla digər ölkələrlə müqayisdə daha yüksək olmuşdur. Turizm gəlirləri Azərbaycan Respublikasında Rusiya ilə müqayisədə 66,3% aşağı olsa da, digər region ölkələrlə o cümlədən, Gürcüstanla müqayisədə 9,5%, Qazaxıstanla müqayisədə 1,7 dəfə, Ukrayna ilə müqayisədə 2,4 dəfə, Ermənistanla ilə müqayisədə isə 2,7 dəfə yüksək olmaqla 3012 milyon ABŞ doları məbləğində ollmuşdur. Turizm gəlirləri turist axınları ilə sıx əlaqədardır. Aşağıdakı qrafikdə Azərbaycan Respublikası üzrə 2010-2021-ci illərdə turaoperatorlar tərəfindən qəbul edilmiş və göndərilmiş turistlərin sayı göstərilmişdir [7].



Qrafik 1.2. Azərbaycan Respublikasında 2010-2021-ci illər üzrə qəbul edilmiş və göndərilmiş turistlərin sayı

Mənbə. (7) məlumatlarına əsasən tərtib edilmişdir.

Göründüyü kimi Azərbaycan Respublikası üzrə 2010-2021-ci illərdə turaoperatorlar tərəfindən qəbul edilmiş və göndərilmiş turistlərin sayı 2010-2013-cü ildə artan dinamika ilə inkişaf edərək 2013-cü ildə 104764 nəfər olsa da, 2014-2016-cı illər üzrə azalaraq 2016-cı ildə 63543 nəfər olmuşdur. 2016-2019-cu illər üzrə isə bu azalma artımla əvəz edilmişdir. COVİD-19 pandemiyasının təsiri ilə əlaqədar olaraq 2020-ci ildə Azərbaycana qəbul edilmiş və göndərilmiş turistlərin sayı əvvəlki illə müqayisədə 92% azalaraq 8205 nəfər olmuşdur. 2021-ci ildə isə bu göstərici 2 dəfəartmışdır. Ölkəyə qəbul edilmiş və göndərilmiş turistlərin sayının dəyişmə tendensiyası, turaoperatorlar fəaliyyətinə də təsir etmişdir. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar [7].




Qrafik 1.3. 2010-2021-ci illər üzrə Azərbaycan Respublikası üzrə turagent və turoperatorların əldə etdiyi gəlir, mənfəət, iş və xidmətlərinin rentabellik səviyyəsi

Mənbə. (7) məlumatlarına əsasən tərtib edilmişdir

Qrafikdən göründüyü kimi turagent və turoperatorların əldə etdiyi gəlir 2010-2019-cu illər üzrə artan dinamika ilə inkişaf edərək 2019-cu ildə 63363,8 min manat olsa da, COVİD-19 pandemiyasının təsiri ilə 2020-ci ildə 74,5% azalaraq 16147,3 min manat olmuşdur. Bu azlma turagent və turoperatorların həmin dövrdə xərclrin gəlirlə müqayisədə artması hesabına maliyyə fəaliyyətinin 2020-ci ildə 5752,4 min manat məbləğində ziyanla nəticələnməsinə səbəb olmuşdur. 2010-2019-cu ildə turagent və turoperatorların iş və xidmətlərinin rentabellik səviyyəsi 7-26% arasında dəyişmişdir. 2020-ci ildə pandemiyanın təsirləri ilə əlaqədar olaraq idarəetməsistemi üzrə xərclərin optimallaşdırılmaması hesabına ziyan əldə edilsə də, sonrakı ildə rentabellik səviyyəsi 15%-ə yüksəlmişdir.

Qeyd etmək lazımdır ki, turizm sektorunun inkişafı turagent və turoperatorların əldə etdiyi gəlirləri artıraraq üzrə üzrə əlavə dəyərin yaranması hesabına iqtisadi artımı şərtləndirir. Bu baxımdan turizm üçün xarakterik sahələrə yönəldilən investisiyaların cəlediçiliyi mühüm əhəmiyyət kəsb edir. Turizm üçün xarakterik sahələrə yönəldilən investisiyaların artması bu sahədə məşğulluq səviyyəsini yüksəldərək əlavə dəyərin yaranmasını şərtləndirir. Aşağıdakı qrafikdə Azərbaycan Respublikası


üzrə turizm üçün xarakterik olan sahələrə yönəldilmiş investisiyalar və bu sahədə şalışan işçilərin sayı göstərilmişdir [7].



Qrafik 1.4. 2009-2021-ci illər üzrə Azərbaycan Respublikası üzrə turizm üçün xarakterik olan sahələrə yönəldilmiş investisiyalar və bu sahədə şalışan işçilərin sayı

Mənbə. (7) məlumatlarına əsasən tərtib edilmişdir

Qrafikdə göründüyü kimi 2009-2014-cü illər üzrə Azərbaycan Respublikası üzrə turizm üçün xarakterik olan sahələrdə yaradılmış investisiyalar artan dinamika ilə inkişaf edərək 2014-cü ildə 2204 milyon manat olmuşdur. Sonrakı illərdə isə azalaraq 2019-cu ildə 79,3 milyon manat olmuşdur. 2021-ci ilüzrə isə əvvəlki illə müqayisədə 3,1 dəfə artaraq 242,4 milyon manat təşkil etmişdir. İnvestisiyaların artması turizm üçün xarakterik olan sahələrdə şalı.an işçilərin sayının da 2009-2019-cu illər üzrə artararq 2019-cu ildə 58972 nəfər olması ilə nəticələnmişdir. COVİD-19 pandemiyası ilə əlaqədar olaraq bu sektorda şalışan işçilərin sayı əvvəlki illə müqayisədə 16,9% və yaxud 9953 nəfər azalsa da, 2021-ci ildə 4698 nəfər artaraq 53717 nəfər olmuşdur. Tədqiqatlar göstərir ki, turizm üçün xarakterik olan sahələrdə yaradılmış əlavə dəyərin 1 % artması ölkə üzrə ÜDM-in 0,127% artması ilə nəticələnir. Aşağıdakı qrafikdə turizm üçün xarakterik olan sahələrdə yaradılmış əlavə dəyərin 2030-cu ilədək proqnozu verilmişdir [6].



Qrafik 1.4. Azərbaycan Respublikası üzrə turizm üçün xarakterik olan sahələrdə yaradılmış əlavə dəyərin 2030-cu ilədək proqnozu

Mənbə. (6) məlumatlarına əsasən MS Excell proqramında müəllif tərfindən tərtib edilmişdir

Qrafikdən göründüyü kimi Azərbaycan Respublikası üzrə turizm üçün xarakterik olan sahələrdə yaradılmış əlavə dəyər zaman amilindən korrelyasiya asılılığı orta səviyyədədir ($R^2 = 0,549$) və proqnozlaşdırmaya əsasən 2030-cu ilədək bu sahə üzrə yaradılan əlavə dəyər artaraq 2030-cu ildə 4385 miyon manat olacağı gözlənilir.

Nəticə

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, əlverişli coğrafi mövqeyi və zəngin təbii şəraiti ilə seçilən Azərbaycan Respublikasında turizmin inkişafı üşün münbit şərait vardır. İşğaldan azad olunmuş ərazilərin yenidən bərpası isə həmin ərazilərdə turizmin inkişafına geniş şərait yaradacqdır. Bu sektorun inkişaf meyilləri ölkə iqtisadiyyatının digər əsas sahələrinin, o cümlədən nəqliyyat, rabitə, tikinti, kənd təsərrüfatının inkişafına müsbət təsir edərək, respublikamızın valyuta gəlirlərinin artmasına və beynəlxalq əlaqələrin genişləndirilməsi mənbəyinə çevriləcəkdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki. Azərbaycanda turizmin inkişafı turizm üçün xarakterik olan sahələrdə yaradılmış əlavə dəyərin 2030-cu ilədək artan dinamika ilə inkişafına şərait yaradacaqdır. Bu baxımdan respublikamızın bütün regionlarında turizm sektoruna o cümlədən işgaldan azad olunmuş ərazilərdə turizmin inkişafına yönəldilən investisiyaların məbləğinin artırılması mühüm əhəmiyyət kəsb edərək ölkə iqtisadiyyatına böyük töhvə olacaqdır.

Ədəbiyyat

1. Sultanov R. P. Azərbaycanda turizmin inkişafının dövlət tənzimlənməsi. Müasir dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda respublika konfransının materialları // Azərbaycan Turizm və Menecment Universiteti, Bakı - 2016, səh.84-85.
2. Sultanov R.P. Qarabağ regionunda mədəni turizm destinasiyasının perspektiv inkişafı. IV İnternational Tourism and Cultural Heritage Congress, 17-20 noyabr 2022, Türkiyə, Bodrum-Muğla, s. 124-136
3. Лузгина Ю.В. Диверсификация экономики как составляющая инновационной политики // Вестн. СамГУ. 2015. № 5 (127). URL:https://cyberleninka.ru/article/n/diversifikatsiya-ekonomiki-kak-sostavlyayuschaya-innovatsionnoypolitiki.
4. Пенкина Н.В. Устойчивое развитие туризма в регионе: подходы к анализу проблемы // Дискуссия. 2017. № 10 (84). С. 23-27.
5. Пирогова О.В., Пирогова А.Ю. Роль устойчивого туризма в мире // Международный журнал прикладных и фундаментальных исследований. 2017. № 7-2. С. 305-309.
6. Yadigarov T.A. Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və Eviews proqram paketlərində həlli: nəzəriyyə və praktika. Bakı-2020. 352 səh.
7. WWW.azstat.org.
8. https://www.statista.com/statistics/1099933/travel-and-tourism-share-of-gdp/
9. https://www.worldbank.org/

Tural RZAYEV
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
magistrant
Tural.rzayev2021.1@sport.edu.az

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİN FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNDƏ 12-13 YAŞLI ŞAGİRDLƏRİNİN FİZİKİ İNKİŞAF DİNAMİKASININ GÖSTƏRİCİLƏRİ

ПОКАЗАТЕЛИ ДИНАМИКИ ФИЗИЧЕСКОГО РАЗВИТИЯ СТУДЕНТОВ 12-13 ЛЕТ НА УРОКАХ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

INDICATORS OF DYNAMICS OF PHYSICAL DEVELOPMENT OF STUDENTS AGED 12-13 IN PHYSICAL EDUCATION LESSONS OF COMPREHENSIVE SCHOOLS

Xülasə: Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra təhsil sahəsində ən əlamətdar hadisə ardıcıl və məqsədyönlü islahatların başlanması olmuşdur. Fiziki cəhətdən sağlam uşaqların fiziki tərbiyəsi müəllimin əsas məqsədidir və bunun üçün o, bütün mümkün tərbiyə vasitələrindən və metodlarından istifadə etməlidir.Fiziki tərbiyə müəlliminin işinin nəticəsi, fənni tədris etdiyi sinifdə şagirdlərin sağlamlığı və fiziki hazırlığıdır.Fiziki tərbiyə dərslərinin tədrisinin ən mühüm amili şagirdlərin fiziki, funksional hazırlığının diaqnostikasıdır.
Açar sözlər: Fiziki inkişaf, funksional diaqnostika, kurikulum, inkişaf dinamikası

Abstract: after the restoration of state independence in Azerbaijan, the most significant event in the field of education was the beginning of successive and purposeful reforms. Physical education of physically healthy children is the main goal of the teacher, and for this he must use all possible means and methods of education.

The result of the physical culture teacher's work is the health and physical fitness of the students of the class in which he teaches the subject.

The most important factor in conducting physical education classes is the diagnosis of physical and functional readiness of students.
Keywords: Physical development, functional diagnosis, curriculum, development dynamics

Абстракт: после восстановления государственной независимости в Азербайджане самым значительным событием в сфере образования стало начало последовательных и целенаправленных реформ. Физическое воспитание физически здоровых детей является главной целью педагога, и для этого он должен использовать все возможные средства и методы воспитания.

Результатом работы учителя физической культуры является здоровье и физическая подготовленность учащихся класса, в котором он преподает предмет.

Важнейшим фактором проведения занятий по физической культуре является диагностика физической и функциональной подготовленности учащихся.
Ключевые слова: Физическое развитие, функциональная диагностика, учебная программа, динамика развития

Giriş

İnsanın fiziki inkişafı doktrinasının baniləri V.V. Bunak və P.N. Başkirov fiziki inkişafı orqanizmin morfoloji və funksional xassələrinin kompleksi kimi şərh edir ki, bu da son nəticədə onun fiziki qüvvəsinin ehtiyatını müəyyən edir. Fiziki inkişaf uşaqların və yeniyetmələrin fiziki sağlamlığının vacib komponentidir. Uşaqların və yeniyetmələrin fiziki inkişafı altında, həssas olan müəyyən

bir xronoloji yaş üçün bu əlamətlərin orta ifadə səviyyəsinə nisbətən bir şəxsdə ontogenez prosesində əldə edilən morfoloji və funksional xüsusiyyətlər kompleksinin inkişaf dərəcəsi. daxili və ətraf mühit şəraitində hər hansı bir dəyişiklik xatırlanır [4].

Tədqiqatın məqsədi. Ümumi təhsil məktəblərində təlim prosesində 12-13 yaşlı şagirdlərin fiziki inkişaf dinamikasının öyrənilməsi.

Tədqiqat metodları. Ədəbiyyat mənbələrinin təhlili. Riyazi statistika.

Əsas tədqiqat metodu təbii pedaqoji eksperiment [1] idi, onun zamanı aşağıdakı üsullardan istifadə edilmişdir:

– yeniyetmələrin fiziki inkişaf səviyyəsinin müəyyən edilməsi.

Nəticələrin təhlili. Fiziki inkişaf endogen (yaxud irsi) və ekzogen (və ya ətraf mühit) amillərin təsiri ilə həyat boyu bədən ölçüsünü, fizikasını, nisbətlərini, əzələ gücünü və insan fəaliyyətini dəyişən dinamik bir prosesdir [3, 5]. Bədən ölçüləri, onların nisbətləri bədən quruluşunu müəyyənləşdirir və fiziki inkişafın göstəriciləridir. Fiziki inkişafın keyfiyyətinə hipodinamiya, öyrənmə proseslərinin intensivləşməsi, qida çatışmazlığı təsir göstərir [2].

Fiziki tərbiyə prosesində həll olunan əsas vəzifələrdən biri insanın optimal fiziki inkişafını təmin etməkdir. Fiziki inkişafın vəziyyətini öyrənmək üçün antropometriyanın məşhur üsulları, yəni məktəblilərin boy-çəki göstəricilərinin təyini seçilmişdir.

Bədən uzunluğu tibbi stadiometer (0,5 sm-ə qədər dəqiq) ilə ölçüldü; bədən çəkisi - tibbi tərəzidə (50q dəqiqliklə).

Tədqiqatlarda məhdudiyyətsiz hərəki fəaliyyət şəraitində olan, həmçinin fiziki hazırlığına məruz qalan, əsasən dözümlülüyün inkişafına yönəlmiş məktəblilərdə bədən çəkisi və boy göstəricilərini təyin etdik. Cədvəl 1-də 12-13 yaşlı oğlanlarda həm çəki, həm də bədən boyu göstəriciləri verilmişdir.

Ən aşağı bədən çəkisi göstəricilərini 2022-ci ilin sentyabr ayında qeyri-məhdud hərəki aktivliyə malik 12-13 yaşlı məktəblilər qrupunda tapdıq - 48,2±3,1 kq. Eyni zamanda, 2023-ci ilin may ayına qədər bədən çəkisində 3,3 kq artım baş verdi. Qeyd edək ki, tədris ili ərzində məhdudiyyətsiz hərəki fəalliq göstərən 12-13 yaşlı oğlanların bədən çəkisində ciddi artım müşahidə olunmayıb.

Artan hərəki fəaliyyət şəraitində olan məktəblilərin bədən çəkisi göstəricilərini təhlil edərkən qeyd etmək lazımdır ki, 2023-ci ilin sentyabr ayında onlar 55,5±2,2 kq təşkil etmişdir.
